# İSLAM və QADIN

CANER TASLAMAN
FERYAL TASLAMAN

Tərcümə edən: Cəlal Bəşirov

Analarımız
Ayşen KALKAVANA
Meliha TASLAMANA

# İçindəkilər

ÖN SÖZ........................................................................................6

I. İNSANLIĞIN BAŞLANĞICI VƏ QADIN ........................................................8

1. Kişinin Qabırğa Sümüyündən Yaradılan Qadın ...................................8

2.Quranda insanlığın kökününün izahı: Nəfsi Vahidə...........................12

3.İlk Günahın Səbəbi Qadındırmı? ......................................................16

II. TARİX BOYUNCA QADININ YERİ VƏ QURANLA GƏLƏN HAQLAR ........21

1.İslamdan Əvvəl Qadın..........................................................................22

2. Quran ilə Xitab Edilən Qadın və Ərəbcə Dil Bilgisinin Özəllikləri .....28

3.Qadınların İslam ilə Qazandıqlarına Qısa Bir Baxış ...........................31

4.Hz. Məhəmmədin Vəfatından Sonra Yaşanan Pozulma ...................38

III. UYDURMA HƏDİSLƏRLƏ QADINLARIN ALÇALDIMASI VƏ HAQLARININ MƏHDUDLAŞDIRILMASI........................................................................45

1.Qurana, Ağıla və Fitrətə Zidd Hədislərin Ləğv Edilməsinin Gərəkliliyi ..........................................................................................................46

2- Qadınların Şeytanlaşdırılması .........................................................54

3- Qadınların Evlərə Həbs Edilmələri, Təhsil və İşləmək Haqlarının Əllərindən Alınması.................................................................................55

4- Qadınların Rəhbər Ola bilməməsi ....................................................58

5. Qadınların Səyahət Azadlığı ............................................................61

6. Qadınların Məscidlərdən və Namazlardan Uzaq Tutulmaları..........63

7. Fitnənin Əsas Qaynağının Qadın Olduğu İddiası.............................67

8.Qız Uşaqlarının İdrarı ........................................................................68

9.Qadınların Kişilərin Vücudundakı Çirki Yalaması ..............................69

10.Qadınların Ərlərinə Səcdə Etməsi ................................................ 71

11. Qadınların Uğursuz Olmaları ........................................................ 73

12. Cəhənnəm Əhlinin Çoxunun Qadınlardan Təşkil Olunması və Qadınların Ağlının və Dininin Əksik Yaradılışı ..................................... 75

13. Qadının, Ulağın və Qara İtin Namazı Pozması ............................... 78

IV. QADIN-KİŞİ MÜNASİBƏTLƏRİ VƏ İQTİSADİ HÜQUQLAR .................. 81

1. Kişi İlahiyyatçıların Rolu ........................................................... 82

2. Qadınların Ərlərindən İcazə Almadan Küçəyə Çıxa Bilməməsi .... 86

3. Kişilərin *“Dərəcə”* Sahibi Olması ................................................ 89

4. Kişilərin “Himayəçi” (Qəvvam) Olması ......................................... 91

5. “Qanitat” Allahamı Ərəmi İtaətkar Qadın? .................................. 95

6. Qadınları Döyməkmi Məkanları Ayırmaqmı? ............................... 97

7. Qadına Ərindən Cənnət Vizası ................................................. 104

8. Qadınları Ac Buraxıb Pis Geyindirmək ..................................... 105

9. Bir Kişinin Şahidliyi İki Qadının Şahidliyinəmi Bərabərdir? ........ 107

10. Qadınların Mülk Edinmə Haqqı ............................................. 112

11. Evlilikdə Alınan Mehir ........................................................... 113

12. Qadın və Miras ...................................................................... 115

V. EVLİLİK VƏ CİNSƏLLİK ................................................................ 119

1. Qız Uşaqları ilə Evlilik ................................................................ 119

2. Çox Arvadlılıq ............................................................................ 122

3. Qadınların Evlənmə və Boşanma Haqqı .................................... 130

4. Qadın Sünnəti ........................................................................... 135

5. Qadınlar Heyz Dövrlərində Nəyi Edə Bilməz? ............................ 137

6. Tarlaya İstədiyi Kimi Yaxınlaşmaq ............................................. 141

7. Ərinin Cinsi İstəyinə Cavab Vermə Öhdəliyi .............................142
8. Zina Edənləri Daşlayaraq Öldürmə: Rəcm .................................144
9. Köləlik və Cariyələrlə Cinsi Əlaqə..............................................152
10. Hurilər Cənnətdə Kişilərin Cinsi Partnyorlarıdırmı?...............161
NƏTİCƏ ...............................................................................................168
MƏNBƏ................................................................................................172

*ÖN SÖZ*

Günümüzdə İslam ilə əlaqəli mövzular sadəcə İslam aləmində deyil, bütün dünyada sıx olaraq müzakirə olunmuşdur. Qloballaşma müddətinin yaşandığı çağımızda, dinlərlə əlaqəli isti müzakirələrin mərkəzində olan dinin isə İslam olduğunu rahatlıqla söyləyə bilərik. Bu mübahisələrdə ələlxüsus bəzi mövzular ön plana çıxmaqdadır: İslamın şəxsi azadlığa, elmə və sənətə baxış mövqeyinin nə olduğu bunlar arasındadır. Bu kitabın mövzusu olan "İslam və Qadın" da İslam ilə əlaqəli ən çox müzakirə olunan başlıqlardan biridir. Hətta bəlkə də ən çox müzakirə olunanıdır.

Əlinizdəki çalışmada dünya gündəmi baxımından belə önəmli bir mövzu ələ alınmaqdadır. Bu kitabı yazmaqdakı məqsədimiz İslam dünyasındakı qadının yeri ilə əlaqəli sosyoloji analizlər etmək və ya bir tarix kitabı kimi qadının yerinin tarixi perioddakı dəyişimini təqdim etmək deyil. Kitabdakı diqqət nöqtəmizin İslam dini baxımından qadının yerinin nə olduğunu müəyyən etmək, qadınlarla əlaqəli "İslam" adına edilən izahların hansının doğru, hansının yalnış olduğunu müəyyən etmək, hansının din, hansının ənənə olduğunu açığa çıxarmaq və bunları edərkən də öz müdafiə etdiklərimizin gerçəklərini və yalnışların qaynaqlarını göstərmək olduğunu bildirmək istəyirik.

Bu kitabda cavabını tapa biləcəyiniz bəzi suallar bunlardır: İslam dini baxımından qadınların təhsil almalarında, iş həyatında və ya siyasətdə aktiv vəzifələr öhdələnmələrində bir əngəl varmı? Qadınlar kişilər üçünmü yaradılıblar? Qadınların ərlərinə itaətləri dini bir vəzifədirmi? Quranda ərlərin xanımlarını döyməsindən bəhs edilirmi? İki qadının şahidliyi bir kişinin şahidliyinəmi bərabərdir? Qadının mirasdan payı nədir? Qadınlar istəsələr ərlərindən boşanma haqqı varmı? Çox arvadlılığa dini baxımdan necə baxılmalıdır? Qadınlar haqqında peyğəmbərimizə istinad edilən hədislərdə uydurmalar varmı? Qadın sünnətinin İslam dini ilə bir əlaqəsi varmı? Peyğəmbərimizin yeddi yaşında bir qız uşağı ilə evlənib, doqquz yaşında gərdəyə girdiyi doğrudurmu? İslam

dini ilə qadınların qazandıqları haqlar sonra necə geri alındı?

Əlinizdəki çalışma, uzun illər İslam dininin necə anlaşılması lazım gəldiyi ilə əlaqəli araşdırmalarımızın və təfəkkürlərimizin bir sonucudur. Kitabı yazmağa qərar vermədən qısa müddət öncə adını "İslam və Qadın" qoyduğumuz bir film üzərində çalışmağa başladıq. Bu film üçün Amerikanın Harvard Universitetindən, Türkiyənin ilahiyyat fakültələrinə qədər geniş bir heyət ilə reportajlar etdik. Film ilə əlaqəli çalışmalarımız, akademiklərlə əlaqəmiz və onların yayınlarını oxumağımızda bu mövzudakı məlumatlarımıza ciddi qatqıları oldu. Bunun üstünə topladıqlarımızı sizinlə paylaşacağımız bu kitabı yazmağa qərar verdik. İstinad etdiyimiz hər kəsə təşəkkürümüzü bir borc bilirik. Ayrıca bu kitabı oxuyan siz oxuyucularımıza da təşəkkürlərimizi bildiririk. Bu kitab haqqındakı tövsiyə, tənqid və münasibətlərinizi www.canertaslaman.com internet saytına göndərməyinizi xahiş edirik.

# I. İNSANLIĞIN BAŞLANĞICI VƏ QADIN

Qadının kişidən, kişi üçün yaradıldığı, ən önəmli vəzifəsinin kişini razı salmaq olduğu, Hz. Adəmin Həvva üzündən Cənnətdən qovulduğu kimi iddialar; İslam öncəsi dövrdə həm İsrailiyyatda, həm də Məsihiyyatda (Yəhudi və Xristian ənənəsində) var idi. Bu və bənzəri inanclar nəticəsində qadınlar, adətən, kişilərə görə ikinci sinif insanlar olaraq görülür və kişini yoldan çıxarma potensialı olan varlıqlar olaraq qəbul edilməkdə idi. Quran, hər nə qədər bu cür iddialara yer verməmiş və qadın ilə kişini bərabər tutmuş olsa da, zaman içində bu inancların İslama girməsi əngəllənə bilməmişdir. Bəs, Quranda bu görüşləri dəstəkləyən hər hansı bir hökm olmamasına, hətta bu görüşlərə zidd olan ayələr olmasına rəğmən, müsəlmanların belə inancları qəbul etmələri nə qədər doğrudur?

Qadınlarla əlaqəli mənfi fikir, insanlığın başlanğıcına dayanaraq inşa edilməyə çalışılır. Qadının kişidən, kişi üçün yaradıldığı, ilk günahdan etibarən problemlərin qaynağı olduğu söylənilir və "fitnənin qaynağı" olan bu cinsin kişilər tərəfindən cilovlanması təməl bir zərurət olaraq göstərilir. Qadını məhdudlaşdıran və adətən kişinin köləsi halına gətirən izahların müsəlmanlar tərəfindən qəbul edilməsi, Quranda yer almamasına rəğmən "İslama" daşınmış olan bu görüşlərin önəmli yeri var. Buna görə aşağıdakı bölümdə İsrailiyyat və Məsihiyyat qaynaqlı bu görüşləri ələ alıb, İslamın təməl qaynağı olan Quran aspektindən dəyərləndirəcəyik.

## 1. Kişinin Qabırğa Sümüyündən Yaradılan Qadın

Qadının yaradılış ilə əlaqəli izahlar, qadın haqqındakı mənfi fikirlərin yaranmasında açar rolu oynayır. Mənşə ilə əlaqəli bu

izahlardan hərəkətlə qadının varlıq (ontoloji) olaraq əksik yaradıldığı və kişi cinsinin hökmranlığın altında olması lazım olduğu müdafiə edilmişdir. Bunda Yəhudi və Xristian mədəniyyətində hakim olan, Həvvanın Hz. Adəm üçün Adəmin qabırğa sümüyündən yaradılmış olduğu inancı önəmli yer tutur. Yeni Əhiddən alınan aşağıdakı keçid, bu düşüncəyə nümunədir.

*8- Çünki kişi qadından deyil, qadın kişidən yaradıldı.*

*9-Kişi qadın üçün deyil, qadın kişi üçün yaradıldı*[1]

Çox təəssüf ki, bu yanaşma, İslam düşüncəsinə də təsir etmişdir. Bəs, bu düşüncə İslam inancı baxımından doğrudurmu? Öncəliklə İslam inancı ilə, əgər bizim kimi Quranı qəsd edirsinizsə və Quran xaricindəki "İslam" olaraq təqdim edilən mənbələrdə Qurana zidd bir çox ünsürün mövcud olduğunu və bunların İslam inancından çıxarılması gərəkdiyini düşünürsünüzsə, bu inancların İslam dini mövqeyindən "yalnış" olduğunun rahatlıqla ifadə edilə biləcəyini bildirək.

İlk olaraq "kişidən yaradılma" iddiasını ələ alaq. Quran, bundan sonrakı başlıqda daha detallı şəkildə görəcəyimiz kimi, kişi və qadının eyni özdən (nəfsi vahidə) yaradıldıqlarını söyləyir. Bunun xaricində qadının "kişidən yaradılmış" olduğunu ifadə və ya qəsd edən bircə Quran ayəsi belə mövcud deyildir. Quranda Həvvanın Adəmdən yaradıldığı iddiası olmadığı kimi, hətta "Həvva" adı belə keçmir.

Bu inancın Yəhudi və Xristian qaynaqlarından İslama daşınmasında aşağıdakılara bənzər hədislər və təfsirlər vasitəçi olmuşdur:

*"Qadınlara yaxşı davranın, çünki qadın qabırğa sümüyündən yaradılmışdır. Qabırğa sümüyündən ən əyri qismi üst*

---

*1* [1] *Yeni Əhid,* Korinflilər 11:8-9. Ayrıca bu mövzuda *Köhnə Əhid,* Yaradılış 2: 18-24-ə də istinad edilir

*tərəfidir. Onu düzəltməyə cəhd etsən qırarsan, öz halına buraxsan daima olaraq əyri qalar. O halda qadınlara qarşı yaxşı davranın."*[2]

İbni Abbas belə deyir: *"Allah Həvvanı, Adəmin qabırğa sümüyündən yaratdı."*[3]

İmam Təbəri: *"Yəni bu tək nəfsdən onun yoldaşı olan Həvvanı yaratdı. Şübhəsiz ki, Həvvanı onun qabırğa sümüyündən yaratmışdır."*[4]

*Adəm Cənnətdə yerləşdirildi. Özü ilə təsəlli olacağı bir yoldaşı olmadan tək başına bir müddət dolaşır. Bir ara yuxuya dalıb oyandığı zama, başının üstündə öz cinsindən olan bir canlı görür. "Sən kimsən?" – deyə soruşur və "Bir qadın" cavabını alır. Daha sonra, qadından yaradılış səbəbini soruşur. Qadın "Mənimlə təsəlli tapmağın üçün yaradıldım" – deyir. Bu arada, yanlarına gələn mələklər, qadının kim olduğunu soruşurlar. Hz. Adəm, onun "Həvva" olduğunu və canlı bir şeydən yaradıldığı üçün, qadına bu adı verdiyini söyləyir.*[5]

"Qadının kişinin qabırğa sümüyündən yaradıldığı" inancının Quran qaynaqlı olmadığı, yəhudi və xristian qaynaqlarından hədis kitabları və hədisləri istifadə edən təfsir kitabları vasitəsilə "İslam" inancına girdiyi açıqdır.

Burada "İslam" ifadəsilə, Allahın din olaraq endirdiyi "İslamı" deyil, müsəlmanların vəhy edilən din olduğunu düşünərək mənimsədikləri quruluşu qəsd edirik. Bizə görə bu inanc, "vəhy edilən İslamın" bir parçası olmadığı üçün "mənimsənmiş olan İslamdan" çıxarılaraq, mənimsənən din vəhy edilən dinə görə düzəldilməlidir.

---

2 Buxari, "Ənbiya", 1, "Nikah", 80; Müslim, "Rada'", 59, 60, 65; Tirmizi, "Talaq", 12; İbn Macə, "Təharət", 77; Darimi, "Nikah", 35; Əhməd b. Hənbəl, *Müsnəd,* XV, 321, 494, XVI, 276, 499.

3 Firuzabadi, *Tənvirul-mikbas* min təfsiri İbn Abbas, 485.

4 Təbəri, *Təfsirut-Təbəri,* XVIII, 478.

5 İbn Kəsir, *Müxtəsərü təfsiri İbn Kəsir*, I, 54

İndi də "kişi üçün yaradılma" iddiasını ələ alaq. Quranda qadının kişi üçün yaradıldığını ifadə və ya işarə edən bir tək ayə yoxdur. Bütün insanların, qadın kişi ayrımı olmadan Allahla bağlantılı bir səbəb üçün yaradıldıqları söylənilir.

**Zariyat-56:** ***İnsanları və cinləri sadəcə mənə qulluq (yəabudun) etsinlər deyə yaratdım.***

Ayədə keçən "qulluq" ifadəsi, Allah ilə qul arasındakı əlaqələrin hamısını ifadə edir. Kasıbları doyurmaqdan ədalətli olmağa, oruc tutmaqdan Allahın sənətini təfəkkürə qədər qulun Allah razılığı üçün etdiyi bütün fəaliyyətlər "qulluğun" geniş mənasına daxildir. Ayədə qulluq edəcək olanlar üçün "insanlar" (ins) ifadəsi işlədilmiş və qadın kişi şəklində bir bölgü edilməmişdir. Quranın tamamına baxdığımız zaman "qadının kişi üçün yaradıldığı" iddiasını dəstəkləyəcək bir ifadə olmadığı kimi, bu görüş İslam dini mövqeyindən ən böyük günah qəbul edilən, şirkə götürmə təhlükəsini belə özündə ehtiva edə bilər. Nə qadın kişi üçün, nə də kişi qadın üçün vardır, fəqət hər iki cinsdə Allahın yaratması sayəsində və də sadəcə Allah üçün vardırlar. "Allah üçün var olmanın" yanına "kişi üçün var olmanı" artırmaq, Quranın ortaya qoyduğu zehniyyət mövqeyindən əsla qəbul edilməyən bir yanaşmadır.

Kişi təfsirçilər, Adəm ilə Həvvanın yaradılış hekayəsini israiliyyat qaynaqlarından alaraq öz izahlarına qatmışdırlar. Beləcə İsrailiyyat rəvayətlərinə dayanaraq qadının ikinci sinif olduğu hissini yaratmışdırlar. Qısacası Həvvanın Adəmin qabırğa sümüyündən yaradılmış olduğu görüşü, İslama İsrailiyyat qaynaqlarından alınaraq, daxil edilmiş bir uydurmadır. (Yəhudi və Xristian qaynaqlarındakı – İsrailiyyat və Məsihiyyat olaraq anılan – bir çox görüşün İslama uydurma hədislər vasitəsilə girdiyini qabaqdakı səhifələrdə ələ alacağıq.) Qurana görə nə qadının kişi üçün yaradıldığını, nə də Həvvanın Adəmin qabırğa sümüyündən yaradıldığını müdafiə etmək mümkün deyildir. Əksinə bundan

sonrakı başlıqda görüləcəyi kimi, Allah qadınla kişinin eyni qaynaqdan (nəfsi vahidə) yaradıldıqlarını Quranda açıq şəkildə ifadə edir. Qısacası qadını ikinci sinif olaraq göstərmək üçün dilə gətirilən qadının yaradılışı ilə əlaqəli izahlar, Quranla əsla əsaslandırıla bilməz.

## 2.Quranda insanlığın kökününün izahı: Nəfsi Vahidə

Quranda, qadının kişidən yaradıldığı keçmədiyi halda, kişinin də qadının da "tək nəfsdən" *(nəfsi vahidə)* yaradıldıqları ifadə edilmişdir. Bu başlıq altında "tək nəfsdən" *(nəfsi vahidə)* yaradılışı izah edən ifadələr ilə nə nəzərdə tutulduğunu açıqlamağa çalışacağıq. Əvvəlcə bu ifadənin keçdiyi bir Quran ayəsini ələ alaq:

**Nisa-1:** ***Ey insanlar! Sizi tək nəfsdən (nəfsi vahidə) yaradan, ondan yoldaşını (zevc) yaradan və hər ikisindən çox sayıda kişilər və qadınlar törədib yayan Rəbbinizə qarşı gəlməkdən çəkinin...***

Bu və bənzəri digər ayələrdə keçən "tək nəfsdən" yaradılma ifadələrini, bəzi ilahiyyatçılar Adəmin qabırğa sümüyündən yoldaşının (Həvvanın) yaradılması və sonra da bütün insanların bu cütlükdən yaradılması şəklində açıqlamışdırlar. Fəqət daha əvvəl vurğuladığımız kimi, Quranda Hz. Adəmin qabırğa sümüyündən yoldaşının yaradıldığı şəklində bir ifadə yoxdur. Bu inanc, İsrailiyyatdan İslama keçmişdir. İsrailiyyatın içində isə bir çox uydurma olduğu, müsəlman bir çox ilahiyyatçı tərəfindən sıx şəkildə ifadə edilmişdir; Müsəlmanların yaradılışla əlaqəli inanclarını bu güvənilməz qaynağa dayanaraq əsaslandırmaları doğru olmaz. Bizim də onlarla həmfikir bəzi ilahiyyatçılar isə, "tək nəfsdən" yaradılmaqdan nəzərdə tutulan, kişi ilə qadının eyni

“canlı növü” olaraq yaradılması olduğunu söyləyirlər.[6] Ayədəki “nəfs” kəlməsi ilə “növün” qəsd edildiyi, bu kəlmənin Qurandakı digər yerlərdə ifadəsinin incələndiyi zaman, daha dəqiq ortaya çıxır:

**Rum-21:** ***Onun ayələrindən biri də sizin özlərində rahatlıq tapasınız və aranızda sevgi və rəhmət qoysun deyə nəfslərinizdən yoldaşlar yaratmağıdır. Bunda, yetərinə qədər düşünən bir toplum üçün əlbəttə ayələr vardır.***

**Nəhl-72:** ***Allah sizə, öz nəfslərinizdən yoldaşlar nəsib etdi. Yoldaşlarınızdan da sizin üçün oğullar və nəvələr törətdi. Və sizləri gözəl və təmiz nemətlərlə ruziləndirdi. İndi bunlar, batiləmi inanırlar? Və bunlar, bəli bunlar, Allahın nemətinə nankorluqmu edirlər?***

**Ali-İmran-164:** ***Allah, inananlara lütf edib, onlara, nəfslərindən bir elçi göndərmişdir: Onlara ayələrini oxuyur, onları təmizləyib paklandırır, onlara Kitabı və hikməti öyrədir. Halbuki onlar, bundan öncə açıq bir azğınlığın içində idilər.***

Görüldüyü kimi yuxarıdakı ayələrdə “nəfsinizdən” ifadəsi ilə insanlara öz “növlərindən” yoldaşlar yaradıldığı və yenə insanlara öz “növlərinin” içindən elçilər göndərildiyi vurğulanır. Məsələn: Ali-İmran surəsi 164-cü ayədə insanlara başqa bir varlıq növü olan mələklərdən elçilər göndərilmədiyi ifadə edilir. Heç kimsə bu ayələrdə “nəfsinizdən yoldaşlar” deyiləndə; insanlardan parçalar alınıb bunlardan yoldaşlar törədildiyini və ya “nəfsinizdən elçilər” deyildiyi zaman insanlardan alınan parçalardan peyğəmbərlərin törədildiyini anlamır. Yaradılış üçün işlədilən “tək nəfsdən” ifadələrini də bu ayələrdəki “nəfs” ifadələri kimi “növ” olaraq anladığımız zaman hər şey aydınlaşır.

Adəmin yoldaşının Adəmdən yaradıldığına dəlil göstərilən

---

[6] Erkan Yar, *Ruh-Beden İlişkisi Açısından İnsanın Bütünlüğü Sorunu,* 78-79.

Nisa surəsi 1-ci ayəni incələdiyimizdə; ayədə *"Ey insanlar"* ifadəsi işlədilərək bütün insanlara xitab edildiyini və *"Nəfsi vahidədən sizi yaraddı (halakakum)"* ifadəsilə də bütün insanların yaradıldığı ünsürə diqqət çəkildiyini görməkdəyik. Burada "qadının kişidən yaradılması" deyil, bütün insanlarla əlaqəli bir fikir nəql edilir. Ayrıca, *"nəfsi vahidədən"* əgər bəzilərinin iddia etdiyi kimi Hz. Adəm nəzərdə tutulsaydı, *"nəfsi vahidə"* ifadəsinin başına ərəbcədəki müəyyənlik əlavəsi olan *"əl"* ifadəsinin gəlməyi gözlənilərdi, beləcə *"əl-nəfsi vahidə"* deyilərək, bunun bilinən "Adəm" olduğu vurğulana bilərdi. Fəqət burada belə bir müəyyənlik əlavəsi də yoxdur. Təfsir professoru Mehmet Okuyanın da, dediyi kimi, Nisa surəsində, *"nəfsi vahidə"* ilə Adəm və "yoldaşı" ilə "Həvva" qəsd edilsəydi; "yoldaşını" ifadəsi ərəbcədəki dişi və erkək sözlərinin fərqliliyinə əsasən, ayədə işlədilən *"zevc"* yerinə *"zevceteha"* ilə deyilə bilərdi. Yenə ərəbcədəki dişi və erkək ifadələrinin fərqliliyindən dolayı, Adəmi söyləmək üçün ayədə keçən dişi *"minha"* sözü yerinə kişi *"minhu"* sözü işlədilə bilərdi.[7] Belə olduqda; ayədəki *"ha"* ifadəsinin Adəm yerinə, dişi bir kəlmə olan *"nəfsi vahidə"* kəlməsinə işarə etdiyini söyləmək ərəbcə dil bilgisi qaydaları baxımından doğru olanıdır. Dolayısı ilə yuxarıda verilən bütün dəlillər nəticəsində bu ayədən çıxan məna kişisi ilə, dişisi ilə insanların *"nəfsi vahidə*dən*"* yaradılmış olduğudur; yəni kişidən qadının (Hz. Adəmdən Həvvanın) yaradılmış olduğu deyildir. Bütün bunlar, "tək nəfsdən yaradılma" ifadəsinin keçdiyi yerlərdə, kişidən qadının yaradılmasının deyil, insanların qadın və kişi tək növ olaraq yaradılmalarının ifadə edildiyini göstərir.

Ayrıca, Quranda *"nəfsi vahidə"* ifadəsi beş ayədə keçməsinə rəğmən, bunların heç birində *"nəfsi vahidə*nin*"* Hz. Adəm olduğu bəyan edilməmişdir. Bu hal, tək başına, *"nəfsi vahidə*nin*"* Adəm olmadığını göstərməyə yetməsə də *"nəfsi*

---

[7] Mehmet Okuyan, *Yayımlanmamış Tefsir Notları.*

*vahidə”* ilə Adəmin qəsd edilmədiyini göstərən dəlilləri dəstəkləyir. *“Nəfsi vahidə”* ifadəsini Adəm olaraq anlamağın məqbul olduğu, bu iki ayə oxunduqda, bir başqa yöndən də anlaşılmaqdadır:

**Əraf-189:** ***O, sizi tək nəfsdən (nəfsi vahidə) yaratdı və özü ilə rahatlıq tapması üçün ondan yoldaşını var etdi. Zövcəsini ağuşuna aldıqda, o yüngül bir yüklə yükləndi və daşıdı. Zövcəsi ağırlaşdığı zaman hər ikisi özlərinin Rəbbi olan Allaha: “Əgər bizə saleh bir övlad versən, əlbəttə sənə şükr edənlərdən olarıq” – deyə dua etdilər.***

**190:** ***Fəqət Allah onlara saleh bir uşaq verəndə, Ona şəriklər qoşmağa başladılar. Allah isə onların qoşduqları şəriklərdən ucadır.***

Əgər 189-cu ayədə keçən *“nəfsi vahidə”* ifadəsi Hz. Adəm olaraq anlaşılarsa, o zaman, 190-cu ayədən də Adəm və zövcəsinin, uşaqları olduğunda İslami baxımdan ən böyük günah olan şərik qoşma (şirk) günahını işlədikləri anlaşılır. Amma Bəqərə surəsi 37-ci ayədə “Rəbbi Adəmin tövbəsini qəbul etdi...” deyə keçir və bu tövbədən sonra Adəmin öncəki günahından daha da böyük bir günah işlədiyi söylənir. Bu hal *“nəfsi vahidə”* ifadəsinin niyə Adəm olaraq anlaşılmaması gərəkdiyi xüsusunda əlavə bir dəlildir. *“Nəfsi vahidə”* ifadəsini zorla Adəm olaraq şərh etməyə cəhdin qarşıya çıxardığı problemlərdən biri də bu olmuşdur. *“Nəfsi vahidə”* ifadəsinin adətən insan növünə diqqət çəkdiyi düşünüldüyündə ortada bir problem qalmır; çünki o zaman bu ayədən, insan növünün içindən Allaha şərik qoşanlarla əlaqəli bir örnəyin verildiyi anlaşılır. Ayrıca 189-cu ayədə *“nəfsi vahidə”*dən zövcələrinin yaradılma səbəbi “rahatlıq tapmaq” olaraq nəql edilir; bu hal isə ilk insan(lar)la deyil, bütün insanlarla

əlaqəli bir haldır.[8] Bu da, ifadənin ümumi olaraq insan növü ilə əlaqəli anlaşılması lazım gəldiyini dəstəkləyir.[9]

Qısacası Qurana görə qadın, kişidən yaradılmamışdır və hər iki cins də eyni kökdən yaradılmışdır. Qadının kişidən və kişi üçün yaradıldığını söyləyərək, qadının kişiyə tabe olmağını dini bir ibadət olaraq təqdim edən anlayışın, Quranla açıq şəkildə zidd olduğu anlaşılır.

## 3.İlk Günahın Səbəbi Qadındırmı?

İsrailiyyat və Məsihiyyat qaynaqlı inanca görə, şeytan ilk öncə qadını (Həvva) aldatmış və qadın vasitəsilə də Hz. Adəmi Allahın əmrlərinə qarşı gəlməyə razı salmışdır. Xristian məzhəblərin çoxuna görə insanlığın "ilk günahı" olaraq bilinən və günümüzə qədər yaşamış və bu gün də yaşayan olan bütün insanlara miras qalan bu günah (miras günah) ilə qadınlar, "şeytanın insan soyuna giriş qapısı" olaraq tanıdılmış və yüz illərdir günahın qaynağı olaraq lənətlənmişdirlər.

Xristian ilahiyyatının "ilk günah" təlimi, hər nə qədər Tövratın Yaradılış bölümünə istinad edilsədə də "miras günah" təlimini əsas şəkilləndirən Yeni Əhidin Romalılar bölümü olmuşdur. Bu təlimə görə Hz. Adəmin işlədiyi ilk günah, bütün uşaqlarına keçməkdə və dolayısı ilə hər insan bu günahla doğulmaqdadır. Bu vəziyyətdən də, ancaq Hz. İsanın vasitəsilə qurtulmaq mümkündür. Kilsə təlimində Hz. Adəmin günahı ilə başlayan "eniş" ilə əlaqəli izah, Hz. İsanın çarmıxa çəkilməsinin insanların günahlarına kəfarət olması ilə əlaqəli izahla

[8] Bənzər bir ifadə Rum surəsi 21. ayədə də keçməkdədir.

[9] Daha ətraflı məlumat üçün baxın: Caner Taslaman, *Bir Müslüman Evrimci Olabilir mi?,* 77-102.

birləşdirilir.[10] Bu inanc, Xristian məzhəblərin çoxunun[11] ən təməl imani əqidələrindən birini təşkil edir. Başqa bir yandan, Yəhudi və İslam ilahiyyatçıları, Xristianların çoxunun mənimsədiyi "miras günah" təliminə qarşı çıxmışdırlar. Yəhudilər, həm günahla doğmağı, həm də insanın təbiəti gərəyi pis olduğu inancını rədd edirlər.[12] Çünki Tövratın və Əhdi Ətiqin bəzi keçidləri (bunları Xristianların da müqəddəs kitablarının bir bölümü olaraq qəbul etdikləri xatırlanmalıdır) uşaqların valideynlərinin günahlarını daşımayacaqlarını ifadə edir.[13] Yəhudilik kimi İslam inancında da "miras günah" düşüncəsi qətiliklə rədd edilir.

Qısacası yəhudilər və müsəlmanlar, ilk günahın miras yolu ilə nəql edilməsinə qarşı çıxdıqları üçün, xristian ilahiyyatçılar ilə xüsusi bir fərqə sahibdirlər. Fəqət mövzumuz baxımından əsas önəmli məsələ budur: İlk günah, qadının daima kişinin nəzarəti altında tutulması lazım gəldiyi və potensial bir günahkar olduğu ilə əlaqəli deyim, bu inanca istinad ilə dəstəklənməyə çalışılır. Yəhudilikdə, xristianlıqda olduğu kimi, ilk günahın qadının azdırması ilə gerçəkləşdiyi qəbul edilir. Fəqət, Quran bu hadisəyə eyni şəkildə yanaşmır. Quranda cənnətdən qovulma[14] hadisəsi təsdiq edilməklə bərabər, bunun məsuliyyəti sadəcə qadına deyil, kişiyə və qadına bərabər yüklənməkdədir. Quranda şeytanın, Adəmi və zövcəsini bərabər aldatdığı ifadə edilir.[15]

**Bəqərə-36:** ***Bunun üzərinə şeytan onların ayaqlarını büdrətdi , onları içində olduqları yerdən çıxartdı.***

***Biz də belə buyurduq: "Bir qisminiz bir qisminizə düşmən***

---

10 P. Luigi Ianitto və digərləri, *Hıristiyan İnancı,* 63-64, 104.

11 Ortodoksluq kimi Xristian məzhəbləri də "miras günah" təlimini rədd etmişdirlər.

12 Rabi Benjamin Blech, *Nedenleri ve Niçinleriyle Yahudilik,* 61.

13 *Tövrat,* Yaradılış, 24, 16; Köhnə Əhd, Yezekel, 18, 20.

14 "Cənnətdən qovulmaq"dan qəsdin nə olduğuyla əlaqəli baxın: Caner Taslaman, *Bir Müslüman Evrimci Olabilir mi?,* 98-102.

15 Amina Wadud, *Quran and Woman,* 25, Asma Barlas, *Believing Women in Islam,* 138.

***olaraq aşağıya enin. Bəlli bir müddətə qədər yer üzündə sizin üçün bir gözləmə yeri, bir yararlanma imkanı olacaqdır.”***

**Əraf-20:** ***Deyərkən, şeytan, özlərindən gizlənmiş çirkin yerlərini onlara açmaq üçün ikisinə də vəsvəsə verdi. Dedi: “Rəbbinizin sizi bu ağacdan uzaq tutması, iki mələk olmayasınız yaxud ölümsüzlər arasına qatılmayasınız deyədir.”***

Quran, ilk günahdan bəhs edərkən heç bir zaman sadəcə qadına (Həvva) istinad edərək bu günahı nəql etməz. Əksinə, sadəcə Adəmə istinad edərək (Taha Surəsi 120-121) bu günahın gündəmə gətirildiyi ayələr mövcuddur:

**Taha-120:** ***Sonra şeytan ona belə deyərək vəsvəsə verdi: “Ey Adəm! Sənə sonsuzluq ağacı ilə, köhnəlməz-əbədi mülk və səltənəti göstərimmi?”***

**121:** ***Nəhayət, ikisi də ondan yedilər. Bunun üstünə, çirkin yerləri özlərinə açıldı; üzərlərinə Cənnət yarpaqlarından örtməyə başladılar. Adəm, Rəbbinə üsyan etdi və asi oldu.***

Taha surəsi 120-ci ayədə şeytanın Hz. Adəmə vəsvəsə verdiyi söylənilir və 121-ci ayədə də sadəcə Adəmdən bəhs edilir; zövcəsi anılmır. Əgər sadəcə Adəmin zövcəsi ilə əlaqəli belə bir ifadə olsa idi, müsəlmanlardan bir çox adamın da ilk günahın əsl səbəbkarı qadın olduğu üçün belə bir vurğu edildiyi şəklində şərh edəcəklərini təxmin etmək heç də çətin deyil! Quran mətninin ilk günahın cavabdehliyini sadəcə qadına yükləməyə çalışan anlayışa tamamilə qapalı olduğu görünür. Açığı İslam inancında “miras günah” təlimi olmadığı üçün, ilk günahı hər hansı bir cinsin işləməsilə, o cinsin azdırıcılığı miras olaraq öz cinsinə dövr etdiyini söyləmək də mümkün deyildir. Fəqət görüldüyü kimi, yalnış bir anlayışın hərəkət nöqtəsi daxil Quranda mövcud deyildir.

Müsəlmanların Xristianlığın “miras günah” təlimini rədd etməsinə, Quranda qadının kişi deyil, şeytanın hər iki cinsi də azdırdığı keçməsinə rəğmən, hədis ədəbiyyatına elə bir hədis

girmişdir ki, bu hədis Quranın rədd etdiyi bu təlimi nəql edir. Buxari və Müslimdə də keçən hədis belədir:

*Həvva olmasaydı qadın cinsi, ərinə əbədiyyən xəyanət etməzdi.*[16]

Bu hədis, yuxarıda açıqladığımız iki yalnışı birdən ehtiva edir. Birinci yalnış, ilk günahdan qadının cavabdeh tutulmasıdır; ikinci yalnış isə bir cinsin işlədiyi günahın sonrakı nəsillərə miras qalmağının nəql edildiyidir. Bu iddialar, Quran mətnində yer almır, hətta Quranın ifadələrinə ziddir. Ayrıca, müzakirə mövzusu olan hadisəni "qadının ərinə xəyanəti" olaraq qiymətləndirmək də, ayrı bir xətadır.

Peyğəmbərimizin Qurana zidd bəyanlarının mümkün olmayacağına görə, hədis kitablarında nəql edilən bu söz heç şübhəsiz peyğəmbərimizə böhtandır. İsrailiyyat və Məsihiyyatdakı izahların təsirilə bəzi Müsəlman "alimlər" Quranda yer almayan bu yanaşmanı qəbul etmiş, qadını insanoğlunun Cənnətdən qovulmasına səbəb olmaqla günahlandırmış və "qadın azdırıcılığından" qorunmaq üçün qadınların kişilərin nəzarəti altına girməsini lazımi görmüşdürlər. Başlanğıcdakı bir anlayışın yalnış nəql edilməsi, sadəcə tarixin təhrifi olaraq qalmamış; qadınları kişinin köləsi etməyə çalışan (və bunu tarixin geniş bir dövründə gerçəkləşdirən) zehniyyət, qadının nəzarətini kişiyə verərkən bu təhriflərdən faydalanmışdır.

Qadını ontoloji quruluşu gərəyi azdırıcı və nəzarət edilməsi lazım gələn bir varlıq olaraq təqdim edən bu inancın, Qurana dayanan bir əsası yoxdur. Qurana görə insanlar cinsiyyətlərinə görə deyil, təqvalarına – Allaha olan yaxınlıqlarına – görə dəyər qazanmaqdadırlar. Heç bir qövmə, millətə, irqə, soya və cinsə mənsubiyyətdən dolayı bir üstünlük tanımayan Quran, insanlar arasında ayırd edici özəllik olaraq sadəcə təqvadan bəhs edir.

[16] Buxari, "Ənbiya", 1, 25; Müslim, "Rada'", 62, 63; Əhməd b. Hənbəl, *Müsnəd,* XIII, 402, 504, XIV, 250, 253.

Başqasının günahını yüklənmək (miras alma) və öz etmədiyi hərəkətlər üçün cəza çəkmək, Quranın izah etdiyi İslamla uyğunsuzdur. Hər qul, hesab günündə dünyada etdiyi və ya etmədiyi hərəkətlərin hesabını verəcək və qarşılığını görəcəkdir.

**Fatir-18:** ***Heç bir günahkar, bir başqasının günahını yüklənməz. Yükü ağır gələn, onu daşımağa çağırsa belə, özünkündən heç bir şey yüklənilməz. Qohum olsa belə...***

**Nəcm-38:** ***Gerçək budur ki, heç bir günahkar bir başqa günahkarın yükünü yüklənməz.***

**39:** ***Gerçək budur ki, insan üçün çalışıb didindiyindən başqası yoxdur.***

# II. TARİX BOYUNCA QADININ YERİ VƏ QURANLA GƏLƏN HAQLAR

Tarix boyunca bir çox toplumda qadınların kişilər tərəfindən istismar edildiyini rahatlıqla deyə bilərik. Qadınlar, adətən evlənənə qədər atalarının, evləndikdən sonra yoldaşlarının, yoldaşları özlərindən öncə ölsə də, oğlan uşaqlarının nəzarəti altında yaşamaq məcburiyyətində qalmışdırlar. Bir çox toplumda, qadınların hökm sahələrində aktiv olmalarının qarşısı alnmış; qadınların kişilərlə eyni haqlara sahib olmalarına, sosial həyata aktiv olaraq qatılmalarına, mülkiyyət sahibi olmalarına, təhsil almalarına və idarəçi olmalarına icazə verilməmişdir. İşin doğrusu, qadınlar əleyhinə tarix boyunca görülən ədalətsiz vəziyyət, günümüzdə də tam mənası ilə aradan qaldırılmış deyildir. Dünyanın bir çox yerində qadınlar halı kişilərin kölgəsi altında yaşayır, atalarının və ya yoldaşlarının nəzarətindən çıxmır, inkişaf etmiş olaraq qəbul etdiyimiz bir çox ölkədə belə, sırf cinsiyyətlərindən dolayı kişilərdən daha az maaş almır, iş təhlükəsizliyi kimi haqları kişilərlə müqayisədə çox daha az qarşılanır, ortaya qoyduqları əməyə qarşılıq daha az mülk sahibi olurlar.[17]

Quranın vəhy edilməyə başlandığı dövrdə də tarix boyunca görülən bu bənzərsiz hala şahidlik edilməkdə idi. Quran, olduqca pis vəziyyətdə olan qadınların haqlarında bir çox düzəltmə

---

[17] *An Economy That Works for Woman,* www.oxfam.org, https://d1tn3vj7xz9fdh.cloudfront.net/s3fs-public/file_attachments/bp-aneconomy-that-works-for-women-020317-en-summ.pdf

etmişdir. Quranın yaratdığı fərqin daha yaxşı anlaşılması üçün bu bölümdə ilk olaraq, Quranın vəhyindən öncə qadının durumunu qısaca ələ alıb dəyərləndirəcəyik. Daha sonra, Quranda qadınlara xitab edilməsi və qadınlara gətirilən haqlar mövzularında maraqlanılan bəzi məqamlara aydınlıq gətirəcəyik. Bölümün sonunda isə, peyğəmbərin vəfatından sonra qadınlar əleyhinə irəliləyən müddəti qısaca incələcəyik.

## 1.İslamdan Əvvəl Qadın

Qədim orta şərqdə, qadınların toplumdakı statuslarının kişilərdən çox fərqli olmadığı, ancaq oturaq həyata keçildikdən sonra bu halın dəyişməyə başladığı təxmin edilir. Çünki bu yeni həyat tərzi ilə kənd təsərrüfatı, əkinçilik və digər şəhər dövlətləri ilə savaşlar artıq həyatın təbii parçası halına gəlmişdir. *"Kişilərin üstün vəziyyətə keçməyə başlaması, insanların oturaq düzənə keçməyə başlaması ilə düz mütənasibdir. Bu yeni tərz ilə savaşa bilən, təhlükəsizlik və müdafiəni təmin edən kişi, yavaş-yavaş daha üstün statusa keçməyə başlamışdır."*[18]

Heyvandarlığın və şum ilə əkinçiliyin inkişaf etməsilə qadınların toplayıcı olaraq dəstək olduğu yemək əldə etmə rollarında azalma olmuş,[19] ayrıca savaşların da təsirilə qadınlar ilə müqayisədə daha artıq fiziki gücə sahib olan kişilər toplumda güc qazanmağa başlamışdır. *"Qadınların yemək hazırlamasındakı rollarının azalması, əsgəri çəkişmələr və savaşlar, kişi mərkəzli toplumun yerləşməsini daha da sürətləndirmişdir; çünki savaşlar artıq yaşam formasına çevrilmiş və kişilər döyüşçü rolları ilə ön plana çıxmışdılar."* [20] Kişilərə, qadınları idarə etmə və cəzalandırma haqqının verildiyi ilk nümunələrə, bilinən ilk yazılı

---

[18] Leila Ahmed, *Women and Gender in Islam,* 12.

[19] Fatmagül Berktay, *Tek Tanrılı Dinler Karşısında Kadın,* 44.

[20] Leila Ahmed, *Women and Gender in Islam,* 12.

qanunlar olan Aşşur qanunlarında rastlayırıq. Bu mətndə kişiyə; yoldaşının saçını çəkmək, qulaqlarını kəsmək, dişlərini qızmar kərpiclə qırmaq kimi icazələr verilmişdir. Bu dövrdə qadınların evlərə həbs edilməsi də geniş yayılmış bir tətbiq olaraq qarşımıza çıxır.[21]

Mədəniyyətin beşiyi olaraq görülən Afinada qadınların bütün həyatları toplumdan ayrılmış şəkildə, evlərinin içində atalarının, yoldaşlarının ya da oğlan uşaqlarının nəzarəti altında keçərdi. [22] On iki, on üç yaşına gələn qızların evlənməsi gözlənilərkən, qızların ərlərini seçməsinə icazə verilməzdi. Evlilik, atalarının icazəsi ilə edilərdi və boşanma tək yönlü olaraq kişiyə verilmiş bir haqq idi. Miras, sadəcə oğlan uşağına buraxılır[23] ancaq oğlan olmadığı vəziyyətdə qız övlada qalırdı. Bu halda da malların idarə edilməsi ya kişiyə, ya da qəyyuma aid olurdu.[24] Kişilər və qadınlar ayrı mühitlərdə ayrı həyatlar yaşayar, kişilər ortaq yerlərdə yaşamaq azadlığına sahibkən "möhtərəm" qadınlar evlərində oturar, ev işləri, uşaqlar və günlük işlərlə maraqlanardılar. Evdə ikən də küçədən uzaq otaqlarda yaşayarlar, evlərində belə adətən yaxın qohum kişilər xaric, başqa kişilərlə görüşməzdilər. Qıraqda görülməsi lazım olan işlər daha çox kölələr və xidmətçilər tərəfindən görülərdi. Bir qadının aşağı təbəqədə olduğu, dərisinin yanıqlığından anlaşılırdı; yuxaeı təbəqədəki qadınların dəri rəngi ağ olardı. Bəlli dini günlər və bayramlar üçün qırağa çıxdıqlarında isə, özlərinə daim yoldaşlıq edilərdi və başqa kişilərə görünməzdilər. Başqa tərəfdən kasıb ailələrdəki qadınlar, küçədə və bazarda çalışıb ailəyə dəstək olduqları üçün, zəngin qadınlardan daha asan kənara çıxa bilirdilər. Qadının ən önəmli vəzifəsi uşaq doğmaq idi. Qızlar

---

[21] Asma Barlas, *The Believing Women in Islam,* 170.
[22] Ira M. Lapidus, *A History of Islamic Societies,* 16.
[23] Beyza Bilgin, *İslam'da Kadının Rolü Türkiye'de Kadın,* 16.
[24] Leila Ahmed, *Women and Gender in Islam,* 28-29.

üçün ən uyğun özəlliklər səssizlik və itaətkarlıq idi.[25] Qadınların siyasi haqları da olmazdı, nə qədər soylu olsalar da siyasətə qarışa bilməzdilər.

Hindistan bölgəsində də qadınlar üçün ürək açan bir hal yox idi. Qadınlar nə miras ala bilər, nə də boşana bilərdilər. Qadınların malını evlənmədən öncə ataları, evlənəndə ərləri, dul qalınca isə oğulları idarə edərdi. Yoldaşı ölən qadınların yandırılmağı, minlərlə il davam edən bir tətbiq olaraq bu bölgənin adəti olmuşdu. Yanmaqdan qurtulan dul qadınlar isə toplumda görünə bilməzdi, hətta uşaqlarının toyuna belə gedə bilməzdilər. Çin bölgəsində də, Hindistana bənzər bir hal var idi. Digər bir çox mədəniyyətdə olduğu kimi qadınlar, evlənmədən atalarının, evləndikdən sonra ərlərinin, ərləri vəfat etdikdən sonra oğullarının idarəsi altında yaşamaq məcburiyyətində qalırdılar.

İslamın içinə uydurulan hədislər ilə və ənənənin dinləşdirilməsi sürətilə, qadın əleyhinə bir çox ünsür soxulduğu kimi, heç şübhəsiz yəhudilik və xristianlıqda da bənzəri dönəmlər yaşanmışdır. Bu kitabda, İslam üçün etdiyimiz kimi, yəhudilik və xristianlıqda da nəyin uydurma olduğunu ifadə etməyə çalışmayacağıq; bunu yəhudi və xristian teoloqlarına buraxırıq. Sadəcə qadının əleyhinə olan vəziyyətin bu dinlərin içinə də girdiyi ilə əlaqəli bir neçə örnək verməklə kifaətlənəcəyik. Misal üçün Yəhudilikdə qadının kişiyə görə ontoloji olaraq daha aşağı yaradıldığı, kişini başdan çıxarıb, cənnətdən qovulmasına səbəb olduğu söylənilir, qadın sosial həyatdan uzaqlaşdırılır, kişilərdə olan haqq və azadlıqların önəmli bir qismi qadınlara verilmir, qadın kişilər üçün təhlükə olaraq görülür və qadının bu dünyadakı tapşırığının kişiyə yardım etmək olduğu iddia edilir. Ortodoks yəhudi kişilərin, hər səhər oyandıqları zaman, Allaha onları qadın olaraq yaratmadığı üçün şükr etmələri, qadına verilən dəyəri

---

25 Leila Ahmed, *Women and Gender in Islam*, 28-29.

göstərən, təhrif edilmiş bir tətbiqdir. Yəhudi toplumun çoxluğu üçün önəmli bir qaynaq olan Talmutda, qadınlar əleyhinə izahlara rastlamaq mümkündür. Bəzi hahamlar, qadınların tənbəl, qısqanc, təkəbbürlü, qarınqulu, qeybətcil, caduya və cadugərliyə meylli olaraq yaradılmış olduqlarını iddia edirlər. Yenə dini qaynaq olaraq qəbul edilən və evli olmayan kişi və qadının bir arada olma hədlərini təyin edən Yikud qanunlarına görə, bir kişinin üç yaşından böyük bir qız uşağı ilə və ya bir qadının doqquz yaşından böyük bir oğlan uşağı ilə tək qalmağı qadağandır; bu mövzuda ər-arvad, ana-oğul, ata-qız, baba-qız nəvə, nənə-oğlan nəvə istisnadır. Bacı və qardaşın eyni evdə yaşamamaq şərtilə, qısa müddət üçün eyni ortamda olmağında problem yoxdur. Bir adamın, yad iki qadınla eyni ortamda qalmağı problemdir. Bir qadın övladlıq oğluyla doqquz yaşından sonra, bir kişi də övladlıq qızıyla üç yaşından sonra evdə yalnız qala bilməz.

Yuxarıda misal göstərilən yəhudilikdəki qadınlar ilə bağlı yanaşmanın, bir çox cəhətdən eynisi və ya bənzəri "İsrailiyyat" ilə İslama keçdiyinə görə, İslamdakı yalnış qadın anlayışının yaranmasında İsrailiyyatın xüsusi bir yeri vardır.

Yəhudilikdən sonra Xristianlıq dininin ilk dövrlərində qadınlarla kişilər arasında bir ayrı-seçkilik edilməz ikən, zaman içində bu hal dəyişmiş və qadınlar toplumun ikinci sinif vətəndaşları olaraq yaşamağa məcbur edilmişdirlər. Bunun ən önəmli səbəbinin, xristianlığın yayıldığı bölgələrdəki oturaq mədəniyyətlərin bu dinin içinə sızması olduğu qənəatindəyik. Hz. İsanın yaşadığı dövr incələndiyi zaman, qadınların da kişi inananlar kimi dini yaymaqda aktiv rol aldıqlarını görürük. Yeni Əhiddən Hz. İsanın 72 şagirdi olduğunu və bunlardan bəzilərinin qadın olduğunu anlayırıq.[26] Çünki Yeni Əhiddə; Hz. İsanın anası Məryəm, xalası, Klopasın yoldaşı Məryəm,[27] Yaqub və Yuşənin

---

[26] Reza Aslan, *Zealot,* 97.

[27] *Yeni Əhid,* Yuhanna, 19:25.

anası Məryəm, Məcdəlli Məryəm və Salom,[28] Hirodesin eşikağası Kuzanın arvadı Yuhanna, Suzanna,[29] Meri, Marta kimi qadın adları anılır və bunlar Hz. İsanın şagirdləri olaraq tanıdılır. Bu qadınlar, Hz İsa ilə şəhərdən şəhərə gəzər və dini təbliğ edərdilər. Bunlara əlavə olaraq adı anılmayan bir çox qadın olduğunu yenə Müqəddəs Kitabdan öyrənirik.[30] İlk dövr xristianlıqda, qadınlar papaz yardımçılığı edər, o dövrdə hələ kilsələr qurulmadığı üçün, öz evlərində ayinlər təşkil edər və missionerlik də edərdilər.[31] Günümüzün ən önəmli xristianlıq mütəxəssislərindən Bart D. Ehrman da *Lost Christianities* adlı kitabında, qadın düşməni deyimlərin bu günki xristianlığın yaranmasında ən önəmli rolu oynayan Pavlusa aid olmadığını, Pavlusun kilsəsində qadınların düşünüldüyündən daha aktiv olduqlarını, ancaq zaman içində qadınların əleyhinə olan hökmlərin Pavlus adına mətnə əlavə edildiyini iddia edir.[32] Beləcə sonrakı dövrlərdə qadınların ictimai yerlərdən uzaqlaşdırılmaları müddəti yaşanmışdır. Bugün Yeni Əhid olaraq qəbul etdiyimiz mətnin nə dərəcədə orijinallığını qoruduğu da başqa bir müzakirə mövzusudur. Biz, bu kitabda bu iddiaların doğruluq dərəcəsilə əlaqəli bir iddiada etmirik, amma ilk dövr Xristianlığa nəzərən qadınların sosial həyatdakı aktivliyinin sonradan sərhədləndiyini rahatlıqla ifadə edə bilərik.

Xristianlığın Roma İmperatorluğunda yayıldığı dövrdə, ilk başlarda dinin təbliğində aktiv rol alan və sosial həyatın içində kişilərlə bərabər yaşayan qadınlar, xristianlığın 391-ci ildə rəsmi din elan edilməsi ilə birlikdə bu haqlarını itirməyə başlamışdılar. Romanın imkanlarına qovuşan Xristianlar, qadınları evlərə qapatmağa, ictimai yerdən uzaqlaşdırmağa başlamışdılar. Beləcə kilsədə də, kişi mərkəzli bir mühit yaranmağa başlamışdır. Bu

---

28 *Yeni Əhid,* Mark, 15: 40, 41.
29 *Yeni Əhid,* 8:2-3
30 *Yeni Əhid,* Matta, 27: 55, 56
31 Bart D. Ehrman, *How Jesus Became God,* 166.
32 Bart D. Ehrman, *Lost Christianities,* 39.

məzmunda, məsələn Tertullian, Ambrose ve Avqustin kimi kilsə ataları, qadınları aşağı varlıqlar olaraq görmüş, günahkarlığın və əxlaqsızlığın səbəbi olan şeytani varlıqlar olaraq təsvir etmişdirlər. Tertullian (160-220) qadınları "şeytanın qapısı" olaraq tanıtmışdır. Eyni zamanda qadınların kilsədə danışmamalı və rahiblik ilə əlaqəli işlərlə məşğul olmamaları gərəkdiyini irəli sürmüşdür. Ambrose (337-397) da qadını, kişinin yalnış hərəkət etməsinin səbəbi olaraq görmüş və kişilərin qadınlardan üstün yaradıldığını müdafiə etmişdir. Aziz Avqustin (354-430) də qadınları kişilərin yardımçıları olaraq görmüşdür. Qadının nədən yaradılmış olduğunu anlamadığını deyən Avqustinə görə, kişiyə yardımçı olaraq bir başqa kişinin yaradılması daha yaxşı olardı. Ancaq bu halda yeni nəsillərin törəməsi mümkün olmayacağı üçün, bu məsuliyyət üçün qadının yaradılması gərəkli idi. 5-ci əsrdə toplanan Makon Konsulunda, qadının ruhunun olub-olmadığının müzakirə olunmağı da qəribə bir tarixi hadisədir.

Tarixin ilk qeyd altına alınmağa başladığı dövrlərdən etibarən, qısa müddətli qismi düzəlmələr və hər toplumda istisna hallar olmuş olsa belə, qadınların toplumdakı mövqelərinin demək olar ki, heç dəyişmədiyini, daim kişi nəzarətində olduqlarını, ən önəmli vəzifələrinin uşaq doğmaq, böyütmək və ərlərinə itaət etmək olduğunu görürük. Bu hal, Quranın vəhy edilməyə başlandığı 610-cu ildə, yəhudi və xristian toplumlarının da yaşadığı Orta şərq və Ağdəniz bölgəsində də eyni idi. O dövr Ərəb toplumundakı yuxarı təbəqənin qadınları, bəlli bir ölçüdə sayqınlığa sahib olsalar da, əksər hallarda qız uşağının doğumu heç xoş qarşılanmazdı. Qız uşaqları; artıq işə yaramayan, qidalanmaqları, böyüdülmələri və qorunmaları ailələrinə yük olan varlıqlar olaraq qəbul edilməkdə idilər. Hətta bilindiyi kimi bəzi yeni doğulan qız uşaqlarının torpağa basdırılmsı da tətbiq edilən adətlər arasında idi (Yaradılış- 8-9). Qız uşaqlarının kişilər kimi savaşa bilməmələri və iqtisadi fəaliyyətlərdə ola bilməmələri,

qızların seçim edilməməsinin ən önəmli səbəbləri arasında idi. Savaşan, qənimətdən pay alan və malı qoruyanlar kişilər olduğundan mirasdan onlar pay alır,[33] bu tip sahələrdə çox var olmayan qadınların çoxu mirasdan pay ala bilməz, daha da betəri özləri miras olaraq paylaşdırılardı.[34]

Qadınlar üçün mənfi bir portretin hakim olduğu zaman və bu yerdə vəhy edilən Quran, qadınların haqq və azadlıqlarını, şəxsi seçimdən və bəlli bir sinifə aid olmaqdan çıxararaq, dini və hüquqi ölçüdə qaranti altına almış, toplumun hansı sinifindən gəlirsə gəlsinlər bütün qadınları müstəqilləşdirmiş və kişinin adətən köləsi olduqları vəziyyətindən çıxarmışdır. Bu, çox böyük bir inqilabdır.

## 2. Quran ilə Xitab Edilən Qadın və Ərəbcə Dil Bilgisinin Özəllikləri

Quranın vəhyi ilə qadın-kişi arasında bəzi mədəniyyətlərə görə var olduğuna inanılan ontoloji fərq qaldırılaraq, qadınlar da kişilər də "İnananlar" və "Müsəlmanlar" başlıqları altında birləşdirilmişdir. Quranda, *"yə əyyuhəlləzinə əmənu"* yəni *"ey iman edənlər"* deyildiyi zaman, bunun ehtivasına, iman edən kim varsa; qadın, kişi, yaşlı, gənc, ərəb olan-olmayan, zənci, bəyaz hərkəs girir və dolayısıyla Quran inanan hərkəsi həmsöhbət olaraq görür, ayrı-seçkilik etmədən hər kəsə xitab edir. Quranın ümumi xitab tərzi bu şəkildə bütün inananlaradır. Sadəcə qadınlara və ya kişilərə məxsus xitablar, Quranın çox kiçik bir faizini təşkil edir. Bu mənada inanan kişilərdən nə gözlənilirsə, inanan qadınlardan da eynisi gözlənilir, inanan kişilərə nə vəd edilirsə inanan qadınlara da eynisi vəd edilir. Məsələn, Allahın istədiyi kimi "qul" olmaq üçün lazım olan fəzilətlər, aşağıdakı ayədə hər iki cins də

[33] Amina Wadud, *Inside the Gender Jihad*, 134.
[34] Asma Barlas, *The Believing Women in Islam*, 170.

ayrı- ayrı vurğulanaraq sıralanmaqdadır:

**Əhzab-35:** ***Allah, bu şəxslər üçün bir əfv edilmə və böyük bir mükafat hazırlamışdır: Müsəlman kişilər Müsəlman qadınlar, inanan kişilər, inanan qadınlar, itaət edən kişilər, itaət edən qadınlar, özü-sözü doğru kişilər, özü-sözü doğru qadınlar, səbreden kişilər, səbredən qadınlar, Allah qorxusuyla ürpərən kişilər, Allah qorxusuyla ürpərən qadınlar, sədəqə verən kişilər, sədəqə verən qadınlar, oruc tutan kişilər, oruc tutan qadınlar, namuslarını qoruyan kişilər, namuslarını qoruyan qadınlar, Allahı çox anan kişilər, Allahı çox anan qadınlar.***

Görüldüyü kimi Quranın müsəlmanlardan gözlədiyi vəsflər, bütün inananları ehtiva edir. Qadın ilə kişi arasında bəzilərinin düşündüyü kimi dərin bir ontoloji uçurum olsaydı, iki cins üçün fərqli bir çox hökmün mövcud olması müşahidə edilməzdimi? Halbuki, Allah ümumi Quranda; nə ağıl etməzlərmi, düşünməzlərmi, təfəkkür etməzlərmi deyə soruşarkən, nə namaz, oruc və həcc kimi edilməsi lazım gələn ibadətləri sıralayarkən, nə ədalətli, mərhəmətli və doğru sözlü olma kimi yaxşı əxlaq özəlliklərini sıralayarkən, nə də səbr etməyi, Allahı çox anmağı və iffətli olmağı əmr edərkən qadın-kişi ayrımı etmişdir. Quranda sadəcə qadınlara və ya sadəcə kişilərə yönəlmiş ifadələr, Quranın qalınlığı içərisində yüzdə birdən daha az bir həcmə qarşılıq gəlir. Boşanan  bir qadının yenidən evlənə bilmək üçün üç heyz dövrü gözləməsi lazım gəldiyi, qadınlara özəl xitaba bir örnəkdir (beləcə bir uşağın atasını qarışdırmaq kimi,  ola biləcək mənfiliklərin də qarşısı alınır).

Quran, qadın və kişini bir-birlərinin "dostları" olaraq təqdim etməkdə, birini digərinə seçim etməməkə və aşağıdakı ayədə olduğu kimi bir-birlərinə yaxşılıqda dəstək olmalarını, pisliyə qarşı bərabər qarşı durmalarını söyləməkdədir.

**Tövbə-71:** ***İnanan kişilərlə, inanan qadınlar bir-birlərinin dostlarıdır. Yaxşılıq və gözəlliyi bəlli edilənə təşviq etdirirlər,***

***pislik və çirkinliyi bəlli ediləndən çəkindirirlər. Namazı qılarlar, zəkatı verərlər. Allaha və elçisinə itaət edərlər. Allah bunlara rəhmət edəcəkdir. Allah güclü və hikmət sahibidir.***

Amma bəzilərinin ifadə etdiyi yalnış anlayışa görə İslamın qadınları nəzərə almadığı, ayələrin böyük miqdarda kişilərə xitab etdiyi və hətta kişiləri ayırdığı ifadə edilməkdədir. Bu doğru olmayan yanaşma səbəblərindən biri ərəbcə dil bilgisi qaydalarının bilinməməsi və ya özəlliklə göz ardı edilməsidir. Ərəbcədə, dünyadakı bir çox dildə olduğu kimi, işlənmə qaydaları gərəyi kişi-qadın qarışıq toplumlara və ya sadəcə kişilərdən təşkil olunan toplumlara xitab edilərkən eyni əvəzliklər işlədilir. Sadəcə qadınlardan təşkil olunan toplumlar üçün işlədilən əvəzliklər isə fərqlidir. Dolayısı ilə, Quranda ümumi xitab edilərkən işlədilən əvəzliklərdən dolayı Quranın sadəcə kişilərə xitab etdiyini söyləmək, tamamilə ərəbcə dil bilgisi haqqındakı bilgisizlikdən qaynaqlanır. Məsələn "ey iman edənlər" deyilərkən işlənilən əvəzlik, qadın kişi bütün inananları ehtiva edir; ancaq bu, sadəcə kişilərdən təşkil olunan bir toplum üçün işlədiləcək olan əvəzliklə eynidir. Xitab, sırf kişilərə olduğu zaman "iman edən kişilər" kimi bir ifadə ilə xitab kişilərə özəlləşdirilməkdə, qadınlara özəl xitablar isə dişi əvəzliklərlə edilməkdədir. Dolayısıyla bu tip ayrı-seçkiliklərin edilmədiyi ifadələrdə bütün inananlara xitab edildiyi aydındır.

Ayrıca bu tip ümumi xitabları sadəcə kişilərə aid etmək, qadınlar üzərindən bir çox İslami öhdəliyi qaldıracaqdır; çünki bir çox ayədə öhdəliklər bütün müsəlmanlar nəzərdə tutularaq bu formada endirilmişdir. Məsələn şirk qoşmamaq, namaz qılmaq, oruc tutmaq, çəkidə hiylə etməmək, ədalətli olmaq kimi bir çox İslami hökm, ümumiyə xitab edən əvəzliklərlə vurğulanmışdır. Amma bunların sadəcə kişilərə məxsus olub qadınları maraqlandırmadığını ifadə edən heç kəs yoxdur. İslamın ilk illərindən bəri, bütün bu hökmlərin həm qadına, həm kişiyə

yönəlmiş olduğu ifadə edilmiş, hər iki cins də bu hökmlərdən özlərini məsul bilmişdirlər. Qısacası, Quranda sadəcə və ya əksər hallarda kişiyə xitab edildiyi əsassız bir iddiadır.

## 3.Qadınların İslam ilə Qazandıqlarına Qısa Bir Baxış

İslamla bərabər qadınlar, ailələrinə və ya statuslarına baxmayaraq, artıq toplumun tam fərdi olaraq qəbul edilmiş və öncədən təkcə kişilərə verilən bir çox haqqı azad şəkildə istifadə etməyə, dini və hüquqi haqq qazanmışdırlar. İslamın ilk dövrlərini incələdiyimizdə, qadınların hər sahədə aktiv olduqlarını, bu gün bəzilərinin zehinlərində yer alan "passiv Müsəlman qadın" gözləntisindən çox fərqli profillər sərgilədiklərini və toplumda yetərincə görünür həyatlar yaşadıqlarını anlayırıq.

Qadınların önəmli hadisələrə aktiv qatılımları Hz. Məhəmməd tərəfindən özəlliklə təşviq edilmiş, qadınlar hicrətlərə və beyətlərə[35] daxil edilmişdirlər. Qadınlar, beyət sistemi ilə öz həyatları haqqında qərar vermə azadlığına sahib olmuşlar və o dövrdə müsəlmanlığı seçmək kimi çətin bir qərarı heç bir şəxsə bağlı olmadan vermişdirlər. Qadınlara ən təməl qərar alınacaq mövzularda seçim haqqı verilmiş, bəzilərinin zənn etdiyi kimi kişilərin sözü yetərli görülməmişdir.

**Mumtəhinə-12:** ***Ey Peyğəmbər! İnanmış qadınlar sənə gəlib Allaha heç bir şeyi ortaq qoşmamaları, oğurluq etməmələri, zina etməmələri, uşaqlarını öldürməmələri, əlləriylə ayaqları arasında bir böhtan uydurub ortaya qoymamaları, yaxşılıq və gözəlliyi bəlli edilmiş bir işdə sənə üsyan etməmələri***

---

[35] "Beyət etmək" birinin idarəçiliyini qəbul etmək mənasında işlədilir. Sosioiqtisadi bir əqd olaraq da dövlət başçısını seçmək, ona bağlılıq göstərmək mənasına gəlir.

***mövzusunda səninlə beyətləşmək istəsələr, onlarla beyətləş və onlar üçün Allahdan əfv dilə! Şübhəsiz, Allah bağışlayandır, mərhamətlidir.***

Görüldüyü kimi, ilk müsəlman qadınlar, öz seçimlərilə müsəlmanlığı seçmişdirlər. Bu mərhələdən sonra daxil olduqları yeni formalaşan toplumda, cinsiyyət ayrılığına tabe olmadan bütün insani haqq və azadlıqlarını yaşama haqqına qovuşmuşdurlar. Toplumdakı statuslarını hüquqi olaraq qazanan qadınlar, artıq ərləri və ya ataları öləndə mirasdan pay alan, özləri miras olaraq paylaşılmaqdan qurtulan, evlənmə boşanma kimi öz həyatlarını maraqlandıran mövzularda qərar verən, mehirlərini özləri alan, malları üstündə qərar haqqı olan, heç bir şəxsdən asılı olmadan yaşama azadlığı olan, qısaca öz həyatlarını özləri idarə etmə azadlığına qovuşan şəxslər olmuşdurlar. (Bu xüsuslar irəliləyən başlıqlarda ətraflı ələ alınacaqdır.)

Quranda, aktiv olaraq həyatda yer alan qadın imicinə qarşı heç bir ifadənin olmadığını xüsusilə ifadə etməliyik. Ayrıca tarixi qaynaqlar və hədis kitabları incələndiyi zaman, ənənəvi İslamın qadınlarla əlaqəli şərhlərinin tam tərsi olan bir çox izahlarla qarşı-qarşıya gəlirik. Məsələn İslam tarixinin ilk bioqrafi əsərlərindən İbn Sadın (777-845) Kitabüt-Tabakatül Kəbir adlı əsərindən öyrəndiyimizə görə, peyğəmbərimiz dövründəki qadınlar, heç də günümüzdəki müsəlman qadınlar üçün nəzərdə tutulan passiv həyatı yaşamamışlar, günlük həyatın hər sahəsində yer almışdırlar. Başqa qaynaqlardakı izahlara görə də, peyğəmbərimizin dövründəki müsəlman qadınlardan bir çoxunun, günlük həyatda kişilərlə cinsiyyətə dayanan bir ayrı-seçkilik olmadan bərabər yer aldıqlarını və İslam üçün bərabər çalışdıqlarını, toplumda lider vəzifələr öhdəsinə götürdüklərini və dinin yayılmasında aktiv yer aldıqlarını görürük. [36] İlk dövr müsəlman qadınlar güclü şəxsiyyətləri, ağıl yürütmə və qane etmə bacarıqları ilə önəmli

[36] Asma Afsaruddin, *The First Muslims,* 190.

rollar üstlənmişlər, iqtisadi həyata qatılmışlar, bəzən ev içində lazım gələrsə ev xaricində şəxsiyyətlər formalaşdırmışdırlar.[37]

Peyğəmbərimiz və dərhal sonrakı dörd xəlifə dövründə; iş qadınlarından şair qadınlara, hüquqçu qadınlardan dini sahədə liderlik edən qadınlara, hətta savaşçı qadınlarla belə rastlaşmaq qeyri-adi deyildi.[38] Qadınların, o dövrdə, ictimai yerlərin mərkəzi olan məscidlərə və toplu ibadətlərə daim olaraq qatıldıqları, kişilərlə bir arada olmalarını zəruri edən peşələr icra etdikləri, ticarətlə məşğul olub pul qazandıqları, həm qadınlara həm kişilərə müəllimlik etdikləri, cəbhə arxasında əsgərlərə yardım etdikləri, xəstələrə və yaralılara baxmaq kimi aktiv işləri üstələndikləri, hətta cəsurca savaşlara qatıldıqları belə qaynaqlarda mövcuddur. Məsələn peyğəmbərimizin ilk yoldaşı və ilk müsəlman Hz. Xədicə, ticarətlə məşğul olmuş, aktiv şəkildə həyatın içində yer almışdır. Ayrıca Zeynəb bint Cahşın dəriçiliklə məşğul olduğu bilinməkdədir. Şəfa bint Abdullah, peyğəmbərimiz tərəfindən Hz. Hafsaya oxuma yazma öyrətməklə öhdələnmişdir.[39] Hz. Aişə, Hafsa, Ümmü Sələmə, Kərimə bint Mikdal, Ümmü Gülsüm bint Ukbe, Aişə bint Saad kimi qadınlar oxuma-yazma bilirdilər.[40] (Qadınların oxuma-yazma öyrənməsinin gərəksiz olduğu kimi talehsiz uydurmalara qarşı bu örnəkləri vurğulamağı önəmli bilirik). Qadınlar arasında uğurlu şairlər də mövcuddur: Safiye, Atikah, Hind bint Harith, Kabshah bint Rafi bu sahədəki mütəxəssislikləri ilə bilinirdilər. Peyğəmbərimizin dövründə bir çox qadın istehsal, ticarət, əkinçilik və xəttatlıq kimi işlərlə maraqlanır, yenə bir çoxu parça toxuyurdu.[41] Kişiləri təraş edəcək

---

37 Beyza Bilgin, *İslam'da Kadının Rolü Türkiye'de Kadının Rolü,* 65.

38 Azizah al-Hibri, I*slam, Law and Custom: Redefining Muslim Women's Rights,* 5.

39 Əhməd b. Hənbəl, *Müsnəd,* XLV, 46; İbn Ebi Şeybe, *əl-Musənnəf,* V, 43.

40 Belazüri, *Fütuhu'l-büldan,* 454, M.Tayyib Okiç, *İslamiyette Kadın Öğretimi,* 23-24.

41 Buxari, Nikah", 106; Müslim, "Salam", 34, "Talaq", 55; Əhməd b. Hənbəl, *Müsned,* XXV, 494, XLIV, 502; Asghar Ali Engineer, *The Rights of Women in Islam,* 83.

şəkildə bərbərlik edən qadın da mövcud idi.[42] Ümmü Varaqqa da sosial həyatın içində yetərincə aktiv rol alan başqa bir qadın səhabədir. Ümmü Varaka, evində yaşayan kişilərlə müqayisədə daha yaxşı Quran bilgisinə sahib olduğu üçün, peyğəmbərimizin təsdiqi ilə evindəki namazda imamlıq etmişdir.[43] Qısacası peyğəmbərimizin dövründəki qadınların, o dövrdə edilməsi mümkün olub, içində olmadığı bir iş sahəsi yox idi. O dövrün qadınları hər sahədə çalışır, kişilərdən künc-bucaq qaçmazdılar.

Peyğəmbərimizin dövründə, bəzi Müsəlman qadınlar savaş sahələrində kişilərlə bərabər savaşmışdırlar. Məsələn Ühüd savaşında qadınların savaşa qatıldıqları bilinir. Ümmü Ümarə, Ühüdə səhər erkən saatlarında susayanlara su verərək qatılmış və irəliləyən saatlarda savaş meydanının içinə doğru irəliləmişdir. Yenə Ümmü Ümarə, Ühüd savaşından başqa Hüneyn, Hüdeybiyə və Xeybər savaşlarında da qatılmış, həm Ühüd həm də Hüneyn savaşlarında bir çox müsəlman qaçarkən peyğəmbərimizi qorumuşdur.[44] Ayrıca Hz. Əbu Bəkir ilə bərabər Yəmamə savaşında savaşarkən əlini itirdiyi nəql edilmişdir.[45] Bənzər örnəyi Hüneyn savaşında Ümmü Süleyndə də müşahidə edirik. Pozğunluq yaşanıb, bir çox adam vahimə ilə qaçarkən Ümmü Süleynin peyğəmbərimizin yanında düşmənə qarşı mübarizə apardığı bəzi qaynaqlarda nəql edilmişdir.[46] Hz. Aişənin peyğəmbərimiz ilə birlikdə bir çox savaşa getdiyi də bilinir.[47] Hz. Aişə savaş yerindəkilərə su daşımış, başqa müsəlman qadınlar yaralılara yardım etmişdirlər.[48] Hz. Aişə və Ümmü Süleym, Ühüd

---

[42] Buxari, "Həcc", 125; Müslim, "Həcc", 154-155.

[43] Asma Afsaruddin, *The First Muslims,* 191, Amina Wadud, *Inside the Gender Jihad,* 177.

[44] Vakıdi, Ebu Abdillah Muhammed b. Ömer b. Vakıd el-Eslemi, el-Megazi, thk. Marsden Jones, l-lll, Beyrut, 1989, lll, 902-903.

[45] Asma Afsaruddin *The First Muslims,* 71.

[46] Zehebi, *Siyeru a'lami'n-nübela,* II, 204.

[47] Fatima Mernissi, *The Veil and the Male Elite,* 54.

[48] Leila Ahmed, Women and Gender in Islam, 53.

savaşında, arxa cəbhədə olmuşdurlar.[49] Bir qrup qadın səhabə də Xeybəri əhatəyə alan orduya qatılaraq arxa cəbhələrdə vəzifə almışdırlar.[50] Bu fəthə iyirmiyə yaxın qadın səhabə qatılmışdır.[51] Ümmü Atiyyə də, Hz. Peyğəmbər ilə birlikdə yeddi savaşa qatılmıştır.[52]

Peyğəmbərimizin qadınlar ilə fikir alış-verişində olduğu və bəzən onların dediyi yöndə hərəkət etdiyi də yenə qaynaqlarda mövcuddur. Məsələn 628-ci ildəki Hudeybiyyə müqaviləsində Məkkəlilərə çox güzəşt edildiyini düşünən müsəlmanlara, peyğəmbərimiz təraş olmalarını və qurban kəsmələrini söyləmiş, ancaq bir çoxunun bunu etməyinə nail olmamışdır. Bu hal qarşısında kədərlənən peyğəmbərimiz, o əsnada yanında olan Ümmü Sələməyə danışmış və o da peyğəmbərimizə kənara çəkilib, əvvəlcə özünün qurban kəsib, təraş olmaöını, ardından əshabının da mütləq bu hərəkətlərini təkrarlayacağını söyləmişdir. Hz. Peyğəmbər bu tövsiyəni dinləmiş və problem həll olmuşdur.

Peyğəmbərimizin vəfatından sonra çıxan mübahisələrdə, Hz. Aişəyə bir çox hadisə danışılmış, ondan dini şərh istənmişdir. İbni Ata "Ən qocaman səhabələrin belə qruplar halında Aişəyə dini mövzularda danışdıqlarını çox gördüm. Aişə bütün insanlar içində fiqh mövzusunda ən bilgili və ən savadlı olanı idi, onun hökmü ən doğru olan idi" demişdir.[53] Məsələn, 670-ci idə vəfat edən Safiyə, mirasının 1/3-ni qardaşı oğluna buraxdığını vəsiyyət etmiş; ancaq qardaşı oğlunun yəhudi olmağının vəsiyyəti ləğv edib, keçərli qılmayacağı mövzusunda çıxan mübahisədə Hz. Aişəyə danışılmış və nəticədə onun bildirdiyi görüşə uyğun olaraq vəsiyyətin yerinə gətirilməsi qərarı tətbiq edilmişdir.[54] Dini mövzulardakı bilgisi ilə

---

49 Buxari, "Cihad", 64, "Menakıb", 18, "Megazi", 18; Müslim, "Cihad", 136.

50 Müslim, "Cihad", 135.

51 İbn Sa'd, et-Tabakatü'l-kübra, VIII, 312

52 Müslim, "Cihad", 142; İbn Mace, "Cihad", 37.

53 Fatima Mernissi, *The Veil and the Male Elite*, 70.

54 Leila Ahmed, *Women and Gender in Islam*, 73.

bərabər, Hz. Aişənin həm də şeir, hüquq və tibbi elminə də çox yaxşı bələd olduğu nəql edilmişdir.[55] Hz. Aişə, -istər kişi istər qadın olsun- fərqli düşündüyü adamları tənqid etməkdən və onlarla fikri mübahisəyə girməkdən də çəkinməmişdir. Məsələn siyasi mövzularda Hz. Əli ilə, yalnış hədis nəql etdiyi səbəbilə Əbu Hüreyrə ilə əks mövqedə yer almışdır.[56]

Hz. Aişənin öz dövrünə görə böyük sayıla biləcək bir ordunu idarə etdiyi, dövrün xəlifəsinə ədalətsiz davrandığı ittihamı ilə savaş açdığı da unudulmamalıdır. Hz. Aişə, Hz. Əli ilə qarşılaşmadan əvvəl Bəsrəyə getdiyi zaman, çox adam ona qatılmış və oranı baza olaraq işlətmişdirlər. Hz. Aişə, Hz. Osmanı öldürənləri tutmaq üçün yetərli səy göstərməməklə günahlandırdığı xəlifə, Hz. Əli əleyhinə kampanya yeritməkdən çəkinməmişdir. Hz. Aişə, məscidlərdə Hz. Əli əleyhinə danışıqlar etmiş, hətta ordu toplayıb xəlifənin qarşısına çıxmışdır. Bu dövrdə heç kim Hz. Aişəyə, İslamın xəlifəsinə qarşı gələrkən "Niyə evinin dörd divarından çıxıb buralara gəldin" və ya "Niyə kişilərlə danışırsan" deyə soruşmamış, tam tərsinə yüzlərlə kişi onun əmri altında savaşmışdır. Bir sözü ilə dövlət idarəsinə təsir edə bilən, ordu toplayıb, baş qaldıran çox az qadın olmuşdur. Bu örnək əslində qadınların o dövrdə nə qədər aktiv və sözü dinlənilən adamlar ola bildiklərini göstərməkdədir.

Yenə ilk xəlifə Hz. Əbu Bəkir, həyatının son zamanlarında, oğulları olmağına rəğmən, qızı Aişəyə sağlığında öz idarə etdiyi yardım fondlarının və mallarının idarə edilməsini əmanət etmişdir. İkinci xəlifə Hz. Ömər də oğullarının yerinə, qızı Həfsaya Quranın nüsxəsini əmanət etmişdir. Yenə Hz. Ömər xəlifəliyi dövründə Mədinədə Şəfa bint Abdullah adlı qadını bugünkü bələdiyyə

---

55 Ebu Nuaym, *Hilyetü'I-evliya*, ll, 49-50; İbn Abdilber, *el-İsti'ab fi ma'rifeti'lashab*, IV, 1883; İbn Hacer. *Tehzibü't-Tehzib*, XII, 435. Daha geniş bilgi üçün baxın., Nevzat Aşık, *Hz. Aişe'nin Hadisçiliği,* 27. vd.

56 Asma Afsaruddin, *The First Muslims*, 161.

başçısına bərabər bir vəzifə olan, bazar müfəttişliyini əmanət etmişdir.[57] Hz. Ömər, Quranda qadınlara evlilikdə verilməsi ifadə edilən mehir miqdarını, məsciddəki xütbəsi əsnasında məhdudlaşdırmaq istəmiş, ancaq bir qadın qalxıb, Quranda olmayan bir məhdudlaşdırmanı məsləhət gördüyü üçün Hz. Öməri tənqid etmiş və xəlifə də qadına haqq verərək, qərarını geri götürmüşdür. Səhabədən Ümmü Haram, Hz. Osman dövründə əri Ubadə b. Samit ilə birlikdə Kiprin fəthi üçün dəniz səyahətinə çıxmışdır.[58] Peyğəmbərimizin böyük nəvəsi Hz. Hüseynin qızı Səkinə də aktiv müsəlman qadınlara başqa bir örnəkdir. Bütün həyatı boyunca siyasətdə aktiv olmuş, Əməvi xanədanını tənqid etməkdən heç imtina etməmişdir. Məscidlərdə valiləri şiddətlə tənqid etmiş və bu yolda protestolar hazırlanmasında rol oynamışdır.[59]

Qısacası, Quranda qadınların aktiv olaraq həyatda yer almaları ilə əlaqəli ən kiçik bir qadağa yoxdur. Ayrıca dediyimiz tarixi qaynaqlar incələndiyində, ilk dövr müsəlman qadınların sosial həyatda aktiv olduqlarına, təhsil aldıqlarına, öz dövrlərinin mövcud bir çox işində çalışdıqlarına və kişilərlə birlikdə hərəkət etdiklərinə dair bir çox hədisin olduğu görülür. Amma günümüzdə bir çox kişi tərəfindən "İslam" adına; qadınların təhsil haqlarını məhdudlaşdırılıb, idarəçilik haqqı tanımır, kişilərlə bərabər olmaları lazım gələn sahələrdən, iş yerlərindən və dolayısı ilə ictimai yerdən uzaqlaşdırılırlar.

[57] Asma Afsaruddin, *The First Muslims*, 40, Dilaver Selvi, *Delil ve Örnekleriyle Kadın ve Aile İlmihali*, 240.

[58] Müslim, "Cihad", 160

[59] Fatima Mernissi, *The Veil and the Male Elite*, 192.

## 4.Hz. Məhəmmədin Vəfatından Sonra Yaşanan Pozulma

İslam, qadınlara, o günə qədər heç bir toplumda görülməmiş haqq və azadlıqları vermiş; qadınlar, dilədiyi ilə evlənə bilər, mirasdan pay ala bilər, istədikləri kimi mülk sahibi ola bilər, çalışa bilər, mehirlərini ailələri deyil, özləri ala bilər vəziyyətə gəlmişdilər.[60] Ancaq, İslamın qısa zamanda çox geniş bir sahəyə yayılması ilə, Qurani reformlar, dinə yeni girən mədəniyyətlərin ənənələri ilə çarpışmış və bu çarpışmalar ilə yeni mədəniyyətlər meydana gəlmişdir. Yaranan yeni mədəni quruluşların qadınların vəziyyətini pisləşdirən tətbiqlər saxlaması, qadınların qazandıqları haqlarını itirmələrində önəmli bir təsir yaratmışdır.[61] Qadınlara verilən haqların çoxu, toplumun bəzi köhnə ənənələrinə dönməsilə ortadan qalxmış, İslam öncəsi cahiliyyə dövrünün ənənələrinə artım olaraq yeni fəth edilən bölgələrin qadın düşməni mədəniyyətləri də (Bizans və Sasani mədəniyyətləri kimi) artıq "İslam" adı altında təsiredici olmağa başlamışdır.[62] *"Qadın düşməni adətlər, İslam mədəniyyətinə daxil olub, qanun olaraq qəbul edildiyi zaman təbii olaraq zaman içində İslam ilə eyniləşdirilmişdir. İslam ilə eyniləşincə də artıq dəyişməz hökmlər olmuşdur."*[63] Buna əlavə olaraq demək olar ki, hamısı kişi olan hədisçilər və fiqhçilərin, cinsiyyətlərini mərkəzə alan şərhləri ilə də yavaş-yavaş köhnə nizam geri gətirilmiş və qadınlar qazandıqları haqlarından məhrum olmuşdurlar.[64] Abdullah bin Ömərdən rəvayət edilən, Buxaridəki bu hədis, məsələni gözəl təsvir edir:

---

60 Fatima Mernissi, *Beyond the Veil*, 19.
61 John Esposito, *Women's Rights in Islam*, 106.
62 Melanie P. Mejia, *Gender Jihad: Muslim Women*, 3.
63 John Esposito, *Women's Rights in Islam*, 99.
64 Zainah Anwar, *Islam and Women's Rights*, 2.

*Peyğəmbər dövründə haqqımızda ayə enər qorxusuyla qadınlarımıza əlimizi və dilimizi uzatmaqdan çəkinirdik. Peyğəmbər vəfat etdikdən sonra, dilimizi və əllərimizi onlara uzatmağa başladıq.*[65]

Dörd xəlifə dövründən dərhal sonra başlayan Əməvi dövrü ilə ciddi pozulmalar yaşanmış, qadınlar İslamın onlara verdiyi haqları itirməyə və cahiliyyə dövründəki səviyyəyə dönməyə başlamışdılar. Qadınların toplum içindəki aktiv yaşamları, fikirlərini açıq söyləmələri, yeri gəldiyində savaş sahələrində belə olmaları, peyğəmbərin ölümündən sonra dəyişməyə və Müaviyənin hakimiyyətə gəlməsiylə birlikdə yox olmağa başlamışdır.[66]

Abbasi dövründə qadınlar sosial həyatın bir çox sahəsindən çəkilmiş, evlərinin dörd divarı arasında yaşamağa məcbur edilmişdirlər. Bu dövrlə birlikdə başlayan Sasani mədəniyyətinin də təsiri ilə haramlıq-salamlıq sisteminin tətbiq edilməyə başlanması, qadınların evlərə həbs edilməsi, hətta qadınların fitnə səbəbi olduqlarına dair iddiaların toplumda yerləşməsi, yenə Sasani və Bizans imperatorluqlarındakı böyük haramların varlığı və qadınların örtük taxması kimi tətbiqlərin müsəlmanlar tərəfindən mənimsənməsi, mədəniyyətlərin bir-birlərini təsir etmələrinə örnəkdir.[67] Nəticə olaraq bir tərəf İslam və Ərəb mədəniyyətinin təsirində altında qalmış, digər tərəf isə yeni fəth edilən bölgələrdəki mədəniyyətlərdən təsirlənmiş və İslam dininə yeni girən toplumların mədəniyyət və ənənələri müsəlman toplumlara daşınmışdır.

Peyğəmbərimizin dövrü ilə müqayisədə qadınların vəziyyətinin geriləməsinə rəğmən, o dövrdə dünyadakı bir çox toplumdan müsəlman qadınların daha çox haqq sahibi olduqlarını

---

[65] Buxari, “Nikah”, 80.

[66] Fatima Mernissi, *The Veil and the Male Elite,* 191.

[67] John Esposito, *Women in Muslim Family Law,* 11

söyləmək də mümkündür. Məsələn Xəlifə Rəşid zamanında qadınların ata mindikləri, Muktədir zamanında Divan-ı Məzalimi[68] rəhbərliyinə təyin olunmuş olan bir qadının hər cümə şikayət ərizələrini qəbul etdiyi və mövzuları dərhal qərara bağlayıb imzaladığı da qaynaqlarda nəql edilmişdir.[69] Buna bənzər nümunələrə və o dövrdə dünyanın geri qalanında qadınlar üçün daha pis şərtlərin mövcudiyyətinə rəğmən, müsəlmanlar üçün bəzi yönlərdən "Qızıl Dövr" olaraq bilinən Abbasi dövrü qadınlar üçün "Qızıl Dövr" olmamış, ümumilikdə qadınlarla əlaqəli qadağaların artdığı bir dövr olmuşdur.

Daha sonrakı illərdə yaşamış olan, Səlcuqlu dövrünün təsirli İslam mütəfəkkirlərindən İmam Qəzzalinin (1058-1111) qadınlar haqqındakı fikirləri, sonrakı illərdə qadınlar əleyhinə yaranmış olan pozulmanı gözlər önünə sərir. Qadının, tamamilə kişinin əmrində olduğunu[70] və kişinin qadına hökm etməsi lazım olduğunu ifadə edən Qəzzali,[71] qadının "yıxıcı gücünü" məhdudlaşdırmağın toplum mövqeyindən çox önəmli olduğunu düşünmüş və kişilərin sosial və dini vəzifələrini yerinə gətirmələrini əngəllədiklərindən dolayı qadınlara nəzarət edilməsi gərəkdiyini müdafiə etmişdir. Ona görə toplum, ancaq kişi üstünlüyünü təşviq edəcək qurumlar vasitəsilə və qadınların təcrid edilməsilə ayaqda qala bilər.[72] Qəzzaliyə görə şeytani vəsflər daşıyan qadınlar, müsəlman toplum üçün ən məhvedici amildir. Qəzzaliyə görə qadınlar ilə kişilərin bir-birlərindən uzaq tutulması, toplum baxımından çox önəmlidir; zira evli olmayan bir adam ilə bir qadın yalnız qalsa dostları şeytan olacağı üçün, fitnə

---

[68] Ağır siyasi cinayətlərə baxılıb, qərara bağlandığı məhkəmə növü. Vəzifələr arasında idarəçilər və məmurlar haqqındakı şikayətlərin incələnməsi də var idi.

[69] Justice Ameer Ali, *History of the Saracenes,* 199-202, Asgar Ali Engineer, *The Rights of Women in Islam,* 93.

[70] İmam Qəzzali, *İhyau Ülumid Din,* Cilt: 2, 147-148.

[71] İmam Qəzzali, *Kimya-i Səadət,* 223.

[72] Fatima Mernissi, *Beyond the Veil,* 32-33.

qaçınılmazdır.[73] Qəzzali, İhyau Ulumid Din adlı məşhur əsərində müsəlman qadının vəzifələrini belə sıralayır:

*"Evin dərinliyində oturmalı, ipini əlindən buraxmamalıdır. Çox girib çıxmamalıdır. Qonşuları ilə az danışmalı. Ancaq lazım gəldiyi zaman onlara getməlidir. Əri evdə olmadığı zaman, onun namusunu və malını qorumalıdır.*

*Bütün işlərində ərini sevindirməyi düşünməlidir. Nəfsində və ərinin malında ərinə xəyanət etməməlidir. Onun evindən ancaq onun icazəsilə çıxmalıdır. Əgər onun icazəsilə çıxarsa gözəlliklərini yırtıq bir paltar içində gizləməlidir. Dükan və bazarlardan keçməyi deyil, tənha yolları seçməlidir. Özgə bir kimsəyə səsini duyurmaqdan və ya özgə bir kimsəyə özünü tanıtmaqdan çəkinməlidir. Ehtiyaclarını təmin etmək üçün ərinin dostuna özünü tanıtmamalıdır. Özünü tanıyan və ya tanıdığını zənn ettiyi bir kimsəyə özünü tanıtmayacaq bir şəkildə davranmalıdır. Halını düzəltməyə və ev işlərini düzənə salmağa çalışmalıdır. Namazına, orucuna yönəlməlidir. Qapıya gələn ərinin bir dostu icazə istədiyi zaman, əri hazır olmadığı təqdirdə qapıda onlardan kim olduqlarını belə soruşmamalıdır və onlarla qarşılıqlı danışmağa girişməməlidir. Bütün bunlara öz nəfsi və ərinin şərəfi üçün əməl etməlidir."*[74]

Qəzzali, heç şübhəsiz, dünya fəlsəfə tarixinin ən önəmli simalarındandır. *Təhafütül Fəlasifə* adlı çalışmasında ortaya qoyduğu arqumentlər (hüdus dəlili olaraq adlandırılan kosmoloji dəlil kimi), bir dahinin əsəridir. Fəqət, o da özündən yüzlərlə il öncə yaşayıb, qadınları kişinin deform halı olaraq görən Aristotel və özündən yüzlərlə il sonra yaşayıb qadınların yanına qamçı ilə getməyi tövsiyə edən Nitşe kimi filosoflara bənzər şəkildə, qadınları alçaltmaqdan geri qalmamışdır. Onun görüşlərinin İslam

---

[73] Tirmizi, "Rada", 16, "Fiten", 7; Fatima Mernissi, *Beyond the Veil*, 42.

[74] İmam Gazali, İhyau Ulumi'd Din, 171

ilə qarışdırılmasının yol açdığı zərər, qadın düşməni bu filosoflardan çox daha böyük olmuşdur.

Qəzzali ilə eyni dövrdə yaşamış Böyük Səlcuqlu Dövlətinin vəziri və *Siyasətnamə* adlı kitabın yazarı olan məşhur dövlət xadimi və siyasətçi Nizamülmülk (1018-1092) də qadınlar üçün *"...çünki onlar örtülüdür və tam zəkadan yoxsuldurlar"* demişdir.[75] Nizamülmülk kimi dövlətin üst səviyyə idarə ediciləri və Nizamülmülk tərəfindən Bağdaddakı Nizamiyə Mədrəsəsinin başına keçirilən Qəzzali kimi İslam tarixinin ən təsirli şəxslərinin qadına baxışları bu şəkildə olduğu üçün, bu qədər uydurmanın, necə qanuni zəmin qazandığını və Quran ayələrinə rəğmən müsəlmanlar arasında necə etibar qazana bildiyini anlamaq çətin olmasa gərək.[76]

15-ci əsrdə belə Anadoludakı Türk qadınlarının, sadəcə köçərilərin deyil, şəhərlərdəki qadınların da kişilərdən qaçmadıqları, qonaq qarşıladıqları, ayrılarkən onları yola salıb xeyir dua aldıqları və hədiyyələr verdikləri qaynaqlarda vardır. Ancaq ilk türkcə nəsihət kitabı olan *Kutadgu Bilig*-də[77] qız uşaqları ilə bağlı "Dostum sənə qəti sözümü söyləyim, qız uşağı heç olmasa, doğularsa yaşamasa yaxşı olar"[78] – deyə yazılmışdır. Anadolu Səlcuqlularında da vəziyyət heç fərqli olmamışdır. Ələəddin Keykubatın tac geymə mərasimində qadınlar ortaya çıxmamış, sadəcə pəncərədən seyr etmişdirlər.[79] Qadınlara uyğulanan bu sosial həyatdan uzaqlaşdırma daha çox şəhərlərdə müşahidə edilərkən, kənd əhalisinin həyat tərzlərində ümumilikdə çox fərqlilik olmamışdır.

---

75 *Nizamulmülk, Siyasetname,* 194-198.

76 Emre Dorman, *İslam Ne Değildir,* 575.

77 Kutadgu Bilig: 11. əsr Qaraxanlı Uyğur Türklərindən Yusif Has Hacipin Şərqi Qaraxan hökmdarı Tağbaç Buğra Xana istinadən yazdığı türkcə əsərdir. Oxuyana yol göstərsin deyə, bu əsərə "Səadət Verən Bilgi" adı verilmişdir.

78 Beyza Bilgin, *İslam'da Kadının Rolü Türkiye'de Kadının Rolü*, 103

79 Beyza Bilgin, *İslam'da Kadının Rolü Türkiye'de Kadının Rolü*, 103.

12-ci əsrdə yaşamış olan Hənbəli məzhəbinə mənsub İbnül Cevzi (1126-1200), yazdığı *Əhkam əl-Nisa* kitabında qadınların necə davranmaları gərəkdiyini xatırlatmışdır. Bu kitabında Əl-Cevzi, qadınların, mümkün olduqca evdən qırağa çıxmamalarını, olar ki, məcbur qalsalar, ərlərindən icazə aldıqdan sonra yırtıq və pis paltarlarını geyinmələrini, ən boş küçələrdən getmələrini və sıx məkanlardan uzaq durmalarını, səslərinin kişilərə eşidilməməsinə səy göstərmələrini söyləyir. Yenə eyni kitabın 27-ci bölümündə Əl-Cevzi, şeytanın qadına evindən çıxdığı anda yoldaşlıq etməyə başladığını yazır.[80] Quranla əlaqəsi olmayan və hətta zidd olan bu deyimlər, təəssüf ki bəzi kimsələr tərəfindən "İslam" olaraq anlaşılmış və peyğəmbərimizin dövründə həyatın içində aktiv olan qadınlar evlərə qapadılmışdırlar.

Qadınların peyğəmbərimizin dövründəki toplum içindəki aktiv yerlərinin sonradan pozulduğu bir gerçək olmaqla birlikdə, bəzi istisna qadınlar, bütün çətinliklərə rəğmən toplumda aktiv və hörmətli yerlərə gəlməyi bacarmışdırlar. Məsələn, bir çox kişi İslam aliminin, qadın alimlər tərəfindən yetişdirildiyi bir həqiqətdir. Ortaçağda bəzi Müsəlman qadınlar fiqh və hədis müəllimliyi, imamlıq, şairlik, vəzirlik və müşavirlik etmişdirlər. Məşhur tarixçilərdən Zəhəbi və Əbul-Fida, dərslərindəki bilgilərini qadın müəllimlərə borcludurlar. Hər ikisi də icazətlərini (diplomlarını) qadın bilginlərdən almışdırlar. İmam Şafi, İbn Hallikan və Əbu Həyyan da mədrəsələrdə qadınlardan dərs alan digər önəmli İslam alimləridir. Öndə gələn hədis alimi İbn Asakir də özünü yetişdirən səksəndən artıq qadın alimdən bəhs etmişdir.[81] Əl-İbari 1178 ilində Bağdadda vəfat etmiş, dövrünün bir çox alimi ilə çalışmış və bir çox şagird yetişdirmişdir. Eyni dövrdə Zeynəb bint al-Şari (ö:1219) də bir çox mövzuda icazət almış və bir çox

---

80 Asma Afsaruddin, *The First Muslims*, 160.

81 Azizah al-Hibri, *Islam, Law and Custom: Redefining Muslim Women's Rights*, 41.

insana diplom vermişdir.[82] Ortaçağ İslam dünyası, nadir də olsa qadının qadınlıq vəzifəsi görməsini yadırğamamışdır. Əbu Cəfər Təbəri, qadınların hər müzakirədə iştirak etmələrinin mümkün olduğunu qəbul etmişdir.

Qısacası İslam ölkələrində, peyğəmbərimizdən sonra qadınların bir çox haqqı qəsb edilməklə bərabər, xüsusilə eyni dövrlərdəki dünyanın başqa yerləriylə müqayisə edildiyi zaman, bəzi müsbət nümunələr də, müşahidə edilir. Fəqət, peyğəmbərimizin zamanında aktiv olaraq həyatın içində olan, dövrün edilə biləcək hər iş sahəsində yer alan, lazım gələndə savaş meydanlarında belə savaşa bilən, həkim və tüccar ola bilən, öz həyatını nəzarət etmə azadlığına sahib olan müsəlman qadın ilə müqayisə etdiyimiz zaman peyğəmbərimizdən sonrakı dövrdə qadınların bir çox haqlarını itirdikləri aydın görülür. Toplumlarda İslami referansın gücünü xatırlasaq, bu haqq qəsbi, ancaq etibar görən "din alimlərinin" (Qəzzali kimi) izahları ilə və "dini" referanslarla mümkün ola bilərdi və elə də olmuşdur. Fəqət peyğəmbərimizin vəfatı ilə İslam tamamlandığına, Quran vəhyi sona çatdığına görə, bu dövr ancaq "uydurulan din" ilə mümkün olmuşdur. Bu kitabın önəmli hədəflərindən biri, qadınlar əleyhinə uydurulan bu dini açığa çıxarmaqdır.

---

[82] John Esposito, *Women's Rights in Islam*, 105.

# III. UYDURMA HƏDİSLƏRLƏ QADINLARIN ALÇALDIMASI VƏ HAQLARININ MƏHDUDLAŞDIRILMASI

Peyğəmbərimiz həyatda ikən, Quran ayələri, dövrün müsəlmanları tərəfindən əzbərlənməsilə yanaşı vəhy katibləri tərəfindən də yazılır, başı-sonu bəlli bir qaynaq olaraq, daim istinadlarla, zehinlərdə canlı olaraq yaşadılırdı. Peyğəmbərimizin vəfatından sonra bir çox siyasi ayrılıqlar yaşanmış, bölünmələr olmuş və yüzlərcə mövzuda ixtilaf çıxmış, fəqət müsəlmanlar həmişə eyni Quran üzərində ittifaq etmişdirlər. Bəs İslamın qaynağı olan Quranın təkliyi və doğruluğu haqqında heç bir şübhə yox ikən, Quran xaricindəki əmirlər və qadağalar necə və nə şəkildə İslamı yönləndirmişdir?

Daha öncədən gördüyümüz kimi peyğəmbərimizin vəfatından sonrakı dövrdə, qadınlar əleyhindəki zehniyyət yenidən aparıcı olmuş; bir çox müsəlman, onsuzda dünyada yayqın olan, qadınları alçaldan, evə həbs edən, kişiyə itaəti ən önəmli qadın vəzifəsi olaraq qəbul edən mədəniyyəti mənimsəmişdir. Dinin qəlblərdə və zehinlərdə təsirli olduğu bir dövrdə, qadınlarla əlaqəli bu anlayış ancaq dinə referanslarla mənimsədilə bilərdi. Əksiksiz və tam olduğu bütün müsəlmanlar tərəfindən qəbul edilən edilən Qurana əlavələr mümkün olmadığı üçün bu anlayış xüsusilə "peyğəmbər dedi ki…" şəklində uydurulan hədislərlə qəbul etdirilmişdir. Bəhs edilən sosial quruluşda yaşayan və hamısı da kişi olan məşhur hədis kitablarının yazarları, qadınlar əleyhinə sanki peyğəmbərimiz söyləmiş kimi nəql edilən rəvayətləri kitablarına almışlar və qadın düşmənliyinin "diniləşməsində" önəmli bir rol oynamışdırlar. Məşhur hədis kitablarının çoxunun yazıldığı dövr olan İslamın üçüncü əsrinə gəlindiyi zaman, qadınlar əleyhinə şəkillənən mədəniyyət artıq yayqın olaraq qəbul görəcək vəziyyətə gəlmişdi. Qadınlar əleyhinə uydurulan dinin düzəldilməsində atılması gərəkli, bəlkə də ən önəmli addım, bu

hədislərin uydurma olduğunun ifşa edilməsi surətilə bunların İslam və peyğəmbərimiz ilə əlaqəsinin olmadığının göstərilməsidir.

## 1.Qurana, Ağıla və Fitrətə Zidd Hədislərin Ləğv Edilməsinin Gərəkliliyi

Peyğəmbərimizin dövründə dini qaynaq olaraq bir tək Quran yazıya keçirilmişdir. Peyğəmbərimizin, şəxsi sözlərinin yazdırılmasına qarşı çıxdığı, hədisçilər tərəfindən belə qəbul edilir. Müslim və Əbu Davudda nəql edilən bir hədisə görə peyğəmbərimiz belə demişdir:

*"Mənim ağzımdan bir şey yazmayın. Kim Quran xaricində mənim ağzımdan bir şey yazarsa, onu məhv etsin. Ancaq yazmadan məndən dilədiyinizi rəvayət edə bilərsiniz. Kim mənim adıma yalan uydurarsa, Cəhənnəmdəki yerinə hazırlasın."*[83]

Görüldüyü kimi peyğəmbərimizə istinad edilərək "hədis" uydurmaçılığı və hədislərin Quran kimi dini qaynaq olaraq anlaşılması ilə əlaqədar narahatlıq peyğəmbərimizin dövründən bəri var olmuşdur. Qadın məsələsi kimi bir çox məsələdə uydurulan hədisləri gördüyümüzdə, peyğəmbərimizin bu narahatçılığın nə qədər yerində olduğunu anlayırıq. Yenə ən güvənilən olduğu deyilən doqquz hədis kitabından, ikisi olan Müslim və Hənbəlin Müsnədində, peyğəmbərimizin *"Məndən Quran xaricində heç bir şey yazmayın, kim məndən Quran xaricində bir şey yazmışsa məhv etsin"* dediyi rəvayət edilməkdədir.[84]

Quran xaricində başqa dini qaynaqların yaranmasından və özünə yalanların istinad edilməsindən narahat olan

[83] Müslim, "Zühd", 72; Əbu Davud, "Elm", 3.
[84] Müslim, "Zühd", 72; Əhməd b. Hənbəl, Müsnəd, XVII, 149, 152, 443, XVIII, 94.

peyğəmbərimizin bu yanaşması dörd xəlifə dövründə də davam etmiş və hədis toplanması əngəllənməyə çalışılmışdır. Peyğəmbərimizin ölümündən sonrakı ilk otuz ili əhatə edən bu dövrdə, Peyğəmbərimizi şəxsən tanıyan, onunla illərini keçirmiş və hardasa hər dəqiqəsinə şahidlik edən adamlar olan ilk xəlifələr, "hədis" adı altında heç bir şey yazmamış, yazdırmamış, hətta yazılanları yox etmişdirlər. Məsələn Hz. Əbu Bəkir, Peyğəmbərimizin vəfatından sonra xalqı toplamış və onlara belə demişdir:

*Sizlər Allahın elçisindən fərqli hədislər nəql edirsiniz. Bu halda sizdən sonrakılar daha böyük anlaşmazlıqlara düşəcəkdir. Allahın elçisindən heç bir hədis nəql etməyin. Sizdən hədis nəql etməyinizi istəyənlərə deyin ki: Budur Allahın Kitabı aramızdadır, onun halalını halal qılın, haramını haram görün.*[85]

Peyğəmbərimizin vəfatının üstündən bir neçə il belə keçməmiş, peyğəmbərimizin nəyi söyləyib, nəyi söyləmədiyi ilə əlaqəli mübahisələrin çıxdığını bu ifadədən anlayırıq.

Hz. Ömərin bu mövzudakı rəftarı da eyni Hz. Əbu Bəkir kimidir, hətta deyə bilərik ki, Hz. Ömər bu mövzuda Hz. Əbu Bəkirdən belə sərt davranmışdır. Xəlifəliyi dövründə hədis yazımının çoxalması üzərinə Hz. Ömər, digər şəhərlərdəki səhabələrə məktublar yazaraq əllərində yazılı olan hədis məcmualarını yox etmələrini istəmiş[86] və yandırılmalarını əmr edərək bunu demişdir: *"Kitab Əhlinin Mişnası*[87] *kimi Müsəlmanların Mişnasıdır bunlar."*[88] Hz. Ömərin bu rəftarını, üçüncü xəlifə Hz. Osman da, çox hədis nəql edən Əbu Hüreyrə və Kaba qarşı çıxaraq davam etdirmişdir: Hz. Osman çox hədis nəql etmələrindən dolayı Əbu Hüreyrəni Devş Dağlarına göndərməklə, Kabıda Kırede Dağlarına

---

85 Zehebi, *Tezkiretü'l-huffaz,* I, 9.

86 İbn Abdilberr, *Cami'u beyani'l-'ilmi ve fazlih,* I, 275.

87 "Mişna", Yəhudilərin Tövrat xaricindəki dini kitablarının bir bölümünün adıdır.

88 İbn Sa'd, *et-Tabakatü'l-kübra,* V, 143.

sürgün etməklə təhdid etmişdir.[89] Hz. Əlinin eyni narahatlığı paylaşdığı və özündən öncəki xəlifələr kimi mövzuya yanaşdığı bu sözündən bəllidir: *"Yanında hədis səhifələri olanlar gedib onları yox etsinlər. Zira xalqı həlak edən hadisə, alimlərin nəql ettikləri hədislərə uyaraq Quranı tərk etmələridir."*[90] Görüldüyü kimi peyğəmbərimizin ən yaxınları, "hədis" yazılmasına şiddətlə qarşı çıxmış, bu hadisənin İslam dinini sürükləyə biləcəyi fəlakəti əvvəlcədən görmüşdürlər. Üstəlik onlar, peyğəmbərimizə çox yaxın bir dövrdə, peyğəmbərimizə yalan sözlərin istinad edilməsinin çox ağır olduğu, onu yaxın ikən tanıyanların uydurmaları düzəldə biləcəkləri bir dövrdə, hədislərin yazıya tökülməsinə qarşı çıxmışdırlar.

Dörd xəlifədən dərhal sonra başlayan Əməvi hakimiyyətində (661-750), hədislərin yazıldığı bəzi səhifələr mövcud olmuş, fəqət bu dövrdə də geniş hədis kolleksiyalarını ifadə edən hədis kitabları hələ yazılmamışdı. Abbasi dövründə bu gün Hənəfilik, Malikilik, Şafilik və Hənbəlilik olaraq bilinən dörd məzhəbin qurucuları olan Əbu Hənifə (ö.767), Malik İbn Abbas (ö.796), Məhəmməd əl-Şafi (ö.819) və Əhməd İbn Hənbəl (ö.855) görüşlərini ortaya qoymuşdurlar. Bu gün çox istinad edilən məşhur hədis kitablarının hardasa hamısı, məsələn ən məşhur altı hədis külliyatı olan *"kütüb-ü sittə"*[91] İslamın üçüncü əsrində, Abbasi dövründə (750-1258) yazılmışdır. Peyğəmbərimizdən yüzlərlə il sonra yazıya keçən hədislərin nə qədərinin gerçək, nə qədərinin uydurma olduğunu təyin etmək imkansızdır. Bu zaman zərfində, özəlliklə yəhudi və xristian toplumlarından nəql edilən

---

[89] Ramehürmüzi, *el-Muhaddisü'l-fasıl*, 544; Suyuti, *Tahziru'l-havas*, 156-157.

[90] İbn Ebi Şeybe, *el-Musannef*, V, 314; İbn Abdilberr, *Cami'u beyani'l-'ilmi ve fazlih*, I, 271.

[91] Buxari, Müslim, Əbu Davud, Nəsai, Tirmizi, İbn Macə adıyla bilinən altı hədis kolleksiyası kütüb-ü sittə (altı kitab) adıyla tanınmaqdadır. Sünni İslam görüşü içərisində, əksər hallarda, bu kitablar ən güvənilən hədis qaynaqları olaraq göstərilməkdədir.

əfsanə, qissə, olay, ibadət və bilgiləri ifadə edən İsrailiyyat və Məsihiyyat, qadınlarla əlaqəli nəql edilən uydurma hədislərin yaranmasında təsiredici olmuşdur. Onsuz da peyğəmbərimizin vəfatından qısa bir müddət sonra İslam dini, yəhudi və xristianların da yaşadığı geniş bir əraziyə yayılmış, bu dinlərdən İslama keçənlər, öz dinlərinin uydurmalarının bir qismini, hədis kitabları vasitəsilə İslama daşımışdırlar. Kimiləri adətini doğru çıxarmaq, kimiləri İslama zərər vermək, kimiləri özünə görə faydalı olmaq, kimiləri də siyasi səbəblər üçün hədis uydurmuşdur və bu uydurmalar "hədis" başlığı altında İslamın bir parçası olaraq qəbul edilmişdir.

Bu örnək, bu gün demək olar ki, müqəddəs olaraq qəbul edilən və adətən peyğəmbərin ağzından çıxdığı zaman səs qeydi ilə qeyd edilmiş kimi anlaşılan hədisləri uydurmağın əslində nə qədər asan olduğuna bir dəlildir: 10-cu əsrə aid şeirlərdən və mahnılardan topladığı 20-dən artıq cilddən alınan Eganinin yazarı olan Əbu Fərəc, əl İsfahani kitabında, bir şair ilə dövrün güclü bir şəxsi arasındakı danışığı nəql etmiş və adamın şairə, peyğəmbər dövrünə aid, öz soyu olan Əməviləri öyən bir şeir uydurması üçün 4.000 dirhəm təklif etdiyini yazmışdır. Şeiri yazdıqdan sonra onu peyğəmbərin şairi olan İbni Thabitdən peyğəmbərin hüzurunda eşitdiyini söyləməsini istəmişdir. Bu istək üzərinə şair bundan çəkinmiş və əgər istərsə Hz. Aişədən nəql edə biləcəyini söyləmiş ancaq əməvi buna razı olmamışdır.[92]

Bu və bunun kimi hekayələr, siyasi və iqtisadi gücü olanların tarixi və dini qaynaqları necə təsir edib dəyişdirə biləcəklərinə gözəl bir örnəkdir. Hədis ədəbiyyatı gözdən keçirildiyində, siyasi nüfuzların öz mövqelərini gücləndirici hədisləri uydurdub, dini öz mənfəətləri yönündə istifadə etmiş olmalarının dəlillərini tapmaq heç də çətin deyildir. Peyğəmbərimizdən yüzlərlə il sonra toplanmağa başlanan

---

[92] Fatima Mernissi, The Veil and the Male Elite, 47-48.

hədislərin nə qədərinin gerçək nə qədərinin uydurma olduğu, içindən çıxılması imkansız bir vəziyyətdir. Çünki bu zaman zərfində kimi ənənəsini doğru çıxarmaq, kimi İslama zərər vermək, kimi özünə görə faydalı olmaq, kimi siyasi səbəblərlə rəvayətlər uydurmuş və bu uydurmalar “hədis” başlığı ilə kitablara girmişdir.

Keçdiyimiz əsrdə psixologiya sahəsində edilən bir çox çalışma, şifahi nəql edilən vəsaitdə, bir neçə yüzildən çox daha az zaman keçdikdən sonra belə, bir çox yalnışın ortaya çıxdığını göstərir. Məsələn, Ulric Neisser və Nicole Harsh keçirdikləri sınaqda, 1986 ilində, kosmos gəmisi Challenger partladıqdan bir gün sonra, bir qrupa, bu hadisəni xəbər tutduqdan sonra kiminlə harada olduqlarını və o anda nə etdiklərini soruşdular. İki il yarım sonra, eyni qrupdan tapa bildiklərinə eyni sualları təkrar yönləndirdilər və aldıqları nəticə qarşısında çox təəccübləndilər. Çünki bu müddətin sonunda doğru cavab verənlərin dərəcəsi aşağı-yuxarı 7-dən 3-ə düşmüşdü. Başqa yöndən, eyni şəxslərə verdikləri cavabların doğruluğuna nə qədər güvəndiklərini soruşduqda, özlərinə güvənənlərin 5 üzərindən 4-ün üzərində olduğu müşahidə edilmişdir. Qısacası iki il yarım sonra verilən cavabların çoxu yalnış çıxmışdı. Fəqət yalnış cavab verənlərin böyük qismi verdikləri cavabların yalnış olmadığına inanır və hətta doğru olduqlarına çox güvənirdilər. Hafizədə şifrəli olanlar haqqında, əminlik ilə doğruluq arası əlaqənin bu qədər zəif olması çox qəribədir. Harvard Universitetindən Milman Parry və Albert Lordun çalışmaları da, şifahi ənənənin nəql edilməsində, nəql edilən məzmunun, gözləntilərə və nəql edən şəxsin subyektiv halına görə, çox qısa dövrdə ciddi dəyişikliklərə məruz qaldığını göstərir.[93] Psixologiya sahəsində bunlara bənzər edilmiş bir çox çalışma vardır. Burada soruşulması gərəkən sual, şifahi ənənə nəql

---

[93] The Milman Parry Collection of Oral Literature, https://dash.harvard.edu/bitstream/handle/1/29086936/40662982.pdf?sequence=1

edilərkən, çox qısa müddətdə ciddi xətalar edilə bilərkən; bir neçə yüzildə, bir çox adamın qulaqdan qulağa dediyi sözlərin nə qədər etibarlı olduğudur.

Ən güvənilən hədis kitablarının, iki yüz ili aşan bir müddət sonra, bir çox adamın qulaqdan qulağa nəql etməsi ilə ortaya çıxdığını xatırlayaq. Bəzi hədislərin öncədən yazılmış olması və bəzi hədis nəql edənlərin bunları qaynaq almış olması mümkün olsa da, bunlar ən yaxşı ehtimalda nəql edilən hədislərin az bir qisminə qarşılıq gəlir, üstəlik *kütüb-ü sittə* kimi məşhur hədis kitablarının yazarları, belə yazılı səhifələrə deyil, hədisləri nəql edən şəxslərə istinadlar edirlər. Qısacası məqsədli olaraq hədis uydurulması ehtimalını tamamilə bir kənara qoysaq belə, qulaqdan qulağa bir neçə yüz il boyunca nəql edilən vəsaitə güvənilə bilməyəcəyi çox açıqdır. Üstəlik kimilərinin adətini doğru çıxarmaq, kimilərinin İslama zərər vermək, kimilərinin məzhəbinə faydalı olmaq kimi səbəblərlə hədis uydurduğunu bunun yanına qoysaq, nəql edilən hədislərin Quran, ağıl və fitrət süzgəclərindən keçirilməsinin niyə önəmli olduğu daha yaxşı anlaşılır.

Vəhy ilə bildirildikləri söylənərək, Quran ayələri ilə eyni mövqeyə qədər çıxarılan hədislər, bəzən Quranda şərh edilməyən mövzularda (biz bunlara "Quranın şüurlu susqunluqları" deyirik), bəzən də Quranla zidd olmalarına rəğmən, dini hökm qaynağı olaraq istifadə edilmişdir. Bu tip mövzuların başında da qadınlarla əlaqəli hökmlər və görüşlər gəlir. Quranda qadınlarla əlaqəli köhnə adətləri və ağıllarındakı yanaşmaları görməyənlərin, qadınlarla əlaqəli arzu etdikləri görüşləri "diniləşdirmələri" ancaq hədis uydurmaqla mümkün olmuşdur. Bu və sonrakı bölümlərdə bu uydurmaların bir çox örnəyini qeyd edəcəyik. Burada önəmli bir nöqtəyə daha diqqət çəkmək istəyirik: Qadınlar əleyhinə Quranda olmayan hökmlər və yalnış fikirlər yaradan hədislərin yanında, bunların tam tərsini müdafiə edən bir çox hədis də mövcuddur. Kitabımızda bu hədisləri də örnək verəcəyik. Niyə

qadın düşməni olan hədislərin bəzilərinə görə ön planda tutulduğu və hökm vermək üçün niyə bu hədislərin işləndiyi də cavablanması lazım olan başqa bir sualdır. Burada, hədis kitablarının yazarlarının və fiqh məktəblərinin qurucularının hamısının kişi olmasının da təsirli ünsürlərdən biri olduğu aydın görülməkdədir.

Məşhur hədis kitablarını yığanlar, hədislərin mənalarından çox, hədisləri nəql edənlərin doğru sözlü olub olmadığını təhlil edərək uydurmaları çıxarmağa çalışmışdırlar. Hədisçilərin bu metodu *"cərh-tədil"* olaraq bilinir. Fəqət yenə hədislərin üçüncü əsrdə toplandığını xatırlasaq, bu dövr üçündə peyğəmbərimiz ilə hədisi yazan şəxslər arasında beş-altı şəxslik bir zəncirin yaranmış olduğunu unutmamaq lazımdır. Çoxdan ölmüş olan şəxslərin haqlarında danışılanlardan yola çıxılaraq, o şəxslərin doğru sözlü olub olmadığına qərar vermək nə qədər etibarlıdır? *"Cərh-tədil"* mübahisələrini incələdiyimiz zaman, məşhur hədis kitabının yazarı Müslimin doğru sözlü gördüyü, hədis nəql edən yüzlərlə şəxsi Buxarinin güvənilməz gördüyünü; bənzər şəkildə Buxarinin güvənilən gördüyü hədis nəql edən yüzlərlə şəxsi Müslimin güvənilməz gördüyünü unutmayaq. Sonda *"cərh-tədil"* metodu ilə uydurma hədisləri çıxarmaq mümkün deyildir və olmamışdır.

Necə ki, Mütəzilə və xarici kəlamçıların[94] hardasa hamısı, Əhli-Sünnə kəlamçıların isə çoxsu, imani mövzuların (əqidə məsələlərin) *"xəbəri vahid* [95] olan hədislərlə təməlləndirilə bilməyəcəyini, bu mövzuların ancaq Quran ilə sabit olduğunu

[94] Kəlam: İslam dininin inancla əlaqəli yönünü incələyən, lazım gəldikdə bu inanclara etirazları cavablayan çalışma sahəsidir.

[95] Kəlmə mənalarından hərəkət edilərsə, nəql edilən hədisin bir təbəqəsində tək şəxsdən başqasının nəql etmədiyi hədis mənasındadır. Fəqət texniki mənada, mütəvatir olmayan hədisləri ifadə etmək üçün işlədilir. Mütəvatir hədis isə nəql edilən hədisin hər təbəqəsində, yalnış üzərində birləşməsi mümkün olmayacaq qədər çox şəxsin mövcud olduğu hədis deməkdir. Hədis ədəbiyyatının demək olar ki, tamamı xəbəri vahid əhatəsindədir. Ləfzən mütəvatir olduğunda ittifaq edilmiş olan hədis yox deyiləcək qədər azdır.

ifadə etmişdirlər. *"Xəbəri vahid"*, mütəvatir olmayan hədisi ifadə edir. Ancaq rəvayət edilən hədislərin 99 %-indən artığı *xəbəri vahid* hədis əhatəsindədir (mütəvatir deyildir). Mütəvatir hədisin nə olduğu, gerçəkdə neçə mütəvatir hədis olduğu bu kitabın mövzusu olmadığı üçün burada bu mövzuya girməyəcəyik. Fəqət bunu söyləmək bu kitabın mövzusu baxımından önəmlidir: Qurana, ağıla və ya fitrətə zidd olduqları üçün rədd etdiyimiz (Peyğəmbərimizin söyləməsinin mümkün olmadığını dediyimiz) buradakı hədislərin içində ləfzinin mütəvatir olduğu söylənə biləcək bir tək hədis belə yoxdur. Bu hədislərin hamısı *"xəbəri vahid"* içindədir. Mütəzilə, Xarici və Əhli Sünnə kəlamçılarının çoxunun imani mövzuların hədislərlə inşa edilə bilməyəcəyi görüşünə əlavə edərək biz; fərzlərin, haramların və qadın mövzusu kimi dini fikri ifadə edən sahələrin də hədislərlə inşa edilə bilməyəcəyini, bunların Qurandan anlaşılması gərəkdiyi qənaətindəyik. Çünki imani mövzular kimi bunlar da dinlə əlaqəli sahələrdir; imani mövzular zənn ilə inşa edilə bilməyəcəyi kimi, bunlar da zənn ilə inşa edilə bilməz.Bu kitab qadın mövzusunun, zənn olan hədislərdən hərəkətlə anlaşılmasındakı fəlakəti gözlər önünə sərməkdədir. Elm, azadlıqlar və sənət sahəsində də uydurma hədislər üzündən fəlakət bir mənzərə ortaya çıxmışdır. Fəqət bu kitabın sərhəddi o mövzuları əhatə etmədiyi üçün o sahələrlə əlaqəli görüşlərimizi ifadə etməyi başqa çalışmalarımıza buraxırıq.

Rəvayət edilən hədislərdə bu kitabda göstəriləcəyi kimi Qurana, ağıla, fitrətə zidd bir çox hədis mövcuddur. Bunlar çıxarıldıqdan və qalan hədislər iç tutarlılıq baxımından dəyərləndirildikdən sonra, geriyə qalan hədislərin siyər (İslam tarixinin ilk dövrlərinin ifadəsi) sahəsində işlədilməsinin heç bir problemi olmadığı qənaətindəyik.

## 2- Qadınların Şeytanlaşdırılması

Quran xaric bir çox inancın İslama girməsi və zamanla müqəddəsləşdirilməsi, qadınların toplumdakı durumunu və qadınlar haqqındakı fikrə, mənfi yöndə təsir edən ən önəmli faktorlardan biridir. "Təhlükəli" və "günaha meyilli" bir yaradılışı olduğu qəbul edilən qadınlar, "şeytanın insan ruhuna giriş qapısı" olaraq tanıdılmış və şeytanlaşdırılmışdırlar. Bu inanc, İslam qaynaqlarına, uydurma olduğu şübhə edilməyən bəzi hədislər vasitəsi ilə girmişdir. Bu mövzuya, bu hədis örnəkdir:

*Peyğəmbərimiz, bir məclisdə insanlarla söhbət edərkən gözəl bir qadın gördü (başqa bir rəvayətdə isə yolda gedərkən bu qadını gördü), tez evə gedib yoldaşı Zeynəb ilə birlikdə oldu, sonra da məclisə geri dönüb "Qadın şeytan surətində gələr, şeytan surətində gedər. Əgər biriniz bir qadın görsə öz yoldaşına getsin. Bu onun içindəkini aparar" demişdir.*[96]

Bu yanaşmanın Quranın öyrətdikləri ilə uzaqdan yaxından heç bir əlaqəsinin olmadığını Quranı oxuyanlar dərhal görəcəkdir. Çünki, Allah Quranda heç kimsəni cinsiyyətinə bağlı olaraq şeytanla iş birliyi içində olaraq tanıtmır, əksinə, inananları cinsiyyətinə baxmadan təqvalarına görə mükafatlandıracağını deyir.

**Nəhl-97:** ***Kişi yaxud qadın, hər kim inanmış olaraq yaxşı işlər görərsə, onu tərtəmiz bir həyatla yaşadarıq. Və belələrinin qarşılıqlarını, işləyib etdiklərinin ən gözəliylə verərik.***

**Yusif-57:** ***İman edib təqvaya sarılanlar üçün axirətdəki mükafat əlbəttə daha dəyərlidir.***

---

[96] Müslim, "Nikah", 9; Əbu Davud, "Nikah", 44; Tirmizi, "Rada'", 9.

## 3- Qadınların Evlərə Həbs Edilmələri, Təhsil və İşləmək Haqlarının Əllərindən Alınması

Quranda, qadınların aktiv olaraq həyata qatılmalarını əngəlləyən, təhsil və iş haqlarını əllərindən alan heç bir ifadə mövcud deyildir. Ayrıca peyğəmbərimiz həyatda ikən, qadınların istədikləri sahədə işləmə azadlıqlarının olduğunu, təhsil almağa təşviq edildiklərini, kimsənin boyunduruğu altında yaşama məcburiyyətlərinin olmadığını tarix və hədis qaynaqlarından öyrənirik. Bunun örnəklərini daha əvvəlki başlıqlarda qeyd etdik. Peyğəmbərimizin vəfatından sonra, İslamın vacibləri olaraq qəbul edilən bir çox uydurma hökm vasitəsilə qadınlar azadlıqlarını itirmiş, ictimai sahədən qopmuş, təhsilləri önəmsənməmiş və evlərinin dörd divarı arasında yaşamağa məcbur edilmişdirlər. Belə bir zehniyyəti yaymaq üçün uydurulmuş hədislərə bu hədislər örnəkdir:

*Qadınları gözə çarpan mövqelərə oturtmayın, yazını da öyrətməyin. Tikiş öyrədin və Surə-i Nuru da yaxşı öyrədin.*[97]

*Qadınlar Peyğəmbərimizə gələrək belə dedilər: "Ey Allahın Rəsulu! Kişilər, Allah yolunda cihad etmək surətilə bütün savabı aldılar (bizə bir şey buraxmadılar). Biz, Allah yolundakı mücahidlərin əməlinə yetişə bilmək üçün hansı əməli edək?" Peyğəmbərimiz onların bu sualına belə cavab verdi: "Sizdən hər kim evində oturarsa, Allah yolunda cihad edənlərin əməlinə (savabına) yetişər."*[98]

Bunlar kimi Qurana, ayrıca bir çox başqa hədisə zidd olan uydurmalarla qadınların evlərindən çıxmaları, təhsil almaları əngəllənmiş, təhsil ala bilməyən qadınlar çalışma imkanı

---

[97] Taberani, *el-Mu'cemül-evsat*, VI, 34; Hakim, *el-Müstedrek 'ale's-Sahihayn*, II, 430; [Hakim'in (ö. 405/1014) bu əsəri, ümumlikdə Zəhəbinin (ö. 748/1348) təliqi ilə basılmışdır. Zəhəbi, bu hadis için uydurma demişdir. Ətraflı məlumat üçün baxın. Hakim, *el-Müstedrek 'ale's-Sahihayn*, II, 430, Zehebi'nin taliki.]; Beyhaki, Şu'abü'l-iman, IV, 90.

[98] Bezzar, *el-Bahru'z-zehhar*, XIII, 339.

tapmamış, iqtisadi olaraq azad ola bilməmiş və həyatlarını davam etdirmək üçün ərlərinə bağlı hala gətirilmişdirlər. Bu hədislərin əksinə Quran, bilənlərlə bilməyənləri eyni səviyyəyə qoymayıb və bilənləri bilməyənlərdən daha üstün səviyyədə tutub, Allahdan lazımi qədər qorxanların alimlər olduğunu söyləyir. Daha çox bilmək üçün isə oxumaq, təhsil almaq və araşdırmaq ən önəmli şərtlərdir.

***Zumər-9: Belə birisi, gecə saatlarında səcdə edərək, ayaqda duraraq ibadət edən, axirətdən qorxan, Rəbbinin rəhmətini uman biri kimidirmi? De ki: "Heç bilənlərlə bilməyənlər bir olarmı?" Ancaq işin özünə vaqif olanlar düşünüb ibrət alar.***

***Fatir-28: Eyni şəkildə, insanlardan, heyvanlardan, davarlardan da müxtəlif rənglərdə olanlar var. Qulları içində Allahdan ancaq alimlər gərəyi qədər qorxarlar. Allah ucadır, bağışlayandır.***

Bütün möminlərin yetişdirilməsinin, Quranın ortaya qoyduğu ideala yanaşmaq üçün önəmli olmağına qarşılıq, topluma və əxlaqa "təhlükə" olaraq göstərilən qadınları evlərə qapatmaq, hətta evlərində də ətrafı görə bilməyən otaqlarda oturtmaq, oxuma-yazma öyrənməmələrini müdafiə etmək, uydurma hədislərlə dini baxımdan gərəkli yanaşma olaraq təqdim edilmişdir. Məqsəd, qadınları tikiş, ev işi və uşaq baxımı kimi ev sahəsiylə məhdud işlərin xaricində yetişdirməyib, bunlar da onsuzda ərlərini məmnun etmək üçün gərəklidir-onların mümkün olduğu qədər kənar dünya ilə əlaqələrini kəsməkdir. Bu zehniyyəti mənimsəyənlər, qız uşaqlarının özəlliklə ev işləri və ya daha yaxşı bir yoldaş olub kişiyə itaət etmələri mövzularında təhsil almalarına icazə vermişdirlər. Qadınlar üçün yazılmış bir kitabda belə deyilir:

*Hər elm hər kəsə fayda verməz. Sonra hər elm hər kəsə gərəkməz…Evlənmə və ailə hüququ, uşağın baxımı, təhsili, ev*

*işləri, ev nizamı, ümumi sağlıq, fərz elmi öyrətmə, xəstə, kasıb, möhtac kimsələrə dəstək olmaq, xeyirlərdə yardımlaşma, yaxşılığı əmr, pisliklərə qarşı xəbərdar etmə, bir afət və ya hərb anında ilk yardıma qaçmaq kimi mövzularda qadınlar yetərincə öyrədilməli və təcrübə sahibi edilməlidirlər.*[99]

Görüldüyü kimi qadının təhsil almasına icazə verilən sahələr, adətən ev içinə həbs edilmişdir. Bu zehniyyəti daşıyanlar; yaxşı bir tacir, mühəndis, memar, arxeoloq, sosioloq kimi işləri və bu mövzuda təhsil almağı qadınlara yaraşdırmırlar. Quranda bunlara mane heç bir ifadə olmamağına və peyğəmbərimizin dövründəki qadınların o dövrün demək olar ki, hər sahədə yer aldıqlarına dair tarixi bilgilərə və bunu deyən hədislərə rəğmən. Bu zehniyyət üzündən, məsələn yaxın dövrdə Əfqanıstanda, İslam adına qadınlara təhsil yasaqlanmışdır. Amma həm Quranın ifadələrindən, həm də peyğəmbərimizin tətbiqlərindən təhsilin bütün möminlər üçün gərəkli olduğunu anlayırıq. Peyğəmbərimizin və səhabələrin, oxuma-yazmanın çox aşağı olduğu o dövrdə, qadınların oxuma-yazmağı öyrənməsini təşviq etdiyi də qaynaqlarda qeyd edilmişdir.[100] Quranda öyrənmək və bilmək, bütün möminlərin tapşırığı olaraq vurğulanıb, öyülərkən, qadınları bundan kənar tutmaq, oxuma-yazma öyrənmələrini "sevgilisinə məktub yazar" məntiqi ilə əngəlləmək, sözdə iffətli qadınlar yetişdirmək üçün onları evlərinə qapatmaq, İslam ilə nə qədər uyğunlaşır?

**Ali-İmran-195:** ***Rəbbləri onlara cavab verdi: "Mən sizdən, kişi-qadın heç bir çalışanın hazırladığını boşa çıxarmayacağam. Hamınız bir-birinizdənsiniz. Hicrət edənlər, yurdlarından çıxarılanlar, yolumda işgəncəyə məruz qalanlar, vuruşub öldürülənlər , onların pisliklərini and olsun örtəcəyəm. Və and***

---

[99] Dilaver Selvi, *Delil ve Örnekleriyle Kadın ve Aile İlmihali,* 32.

[100] Ali Osman Ateş, *Hadis Temelli Kalıp Yargılarda Kadın,* 142-145.

***olsun ki onları, Allah qatından bir qarşılıq olaraq, altlarından ırmaqlar axan cənnətlərə qoyacağam." Allah qatındandır qarşılıqların ən gözəli.***

Qadınların həyatın ən çətin şərtlərində kişilərlə bərabər çabalayıb mübarizə etdikləri, Quran tərəfindən təsdiqlənməkdədir. Quranın qadının həyatın hər yerində aktiv şəkildə rol almağını əngəlləmədiyi və qadın-kişi ayrımı etmədiyi açıqdır.

## 4- Qadınların Rəhbər Ola bilməməsi

Quranda yer almamaqla bərabər uydurma hədislərlə əngəllənən qadın haqlarından biri də rəhbərlikdir. Buxaridə deyilən bir hədisdə *"İşlərini qadına həvalə edən bir toplum iflah olmaz"*[101] deyilmişdir. Bu mövzuda ayrıca *"İşləriniz qadınlara qalsa sizin üçün yerin altı, üstündən daha xeyirlidir"*[102] hədisi də mövcuddur. Bu və bunlar kimi hədislər baxımından qadınların toplumda rəhbər ola bilməyəcəyini müdafiə edənlər mövcuddur.

*"İşlərini qadına həvalə edən toplum iflah olmaz"* hədisini peyğəmbərimizin, İran hökmdarı Kisra öləndə qızının ölkənin başına keçdiyi üçün dediyi nəql edilir. Ancaq bu hədisin ortaya çıxış zamanı əhəmiyyətlidir; zira bu hədis, söyləndiyi iddia edilən hadisədən illər sonra, nə hikmətdirsə, Cəməl Savaşı sonrasında xatırlanmışdır![103] Hədisin bu savaşdan sonra xatırlanmış olmasının savaş və savaşın nəticəsi ilə necə bir əlaqəsi ola bilər? Bu suala cavab verə bilmək üçün dövrün siyasi atmosferini incələmək faydalı olacaqdır.

Hz. Əli, 656-cı ildə 3-cü xəlifə Hz. Osmanın öldürülməsi ilə 4-cü xəlifə olaraq seçilmişdir. Ancaq yeni xəlifə, bəziləri

---

[101] Buxari, "Megazi", 84, "Fiten", 17; Tirmizi, "Fiten", 75; Nəsai, "Adabü'l-Kudat", 8.
[102] Tirmizi, "Fiten", 78.
[103] Fatima Mernissi, *The Veil and the Male Elite*, 50; Asgar Ali Engineer, *The Rights of Women in Islam*, 77.

tərəfindən, Hz. Osmanın qatillərinin tapılması üçün yetərli səyi göstərmədiyi səbəbilə tənqid edilmişdir. Bunların başında Hz. Aişə gəlir. Bilindiyi kimi, mübahisə savaş qərarının qəbul edilməsi ilə nəticələnmişdir. Hz. Aişə, bu dövrdə ordusu ilə Bəsrəyə gəlmiş və özünə tərəftar toplamaq məqsədilə toplantılar keçirmiş, məscidlərdə danışıqlar etmişdir. Qureyş qəbiləsindən bir çox səhabənin yanında Talha və Zübeyrdə Hz. Aişənin tərəfini tutmuş və onunla bərabər savaşmışdırlar. O sırada bu səhabələrdən heç biri Hz. Aişəyə belə bir hədisi xatırladaraq etiraz etməmiş və ya onu tərk etməmişdir. Hətta bu hədisi nəql etdiyi iddia edilən Əbu Bəkrə belə savaşda tərəfsiz qalmağı seçmiş və Hz. Aişəni bu yöndə tənqid etməmişdir.[104] Zatən tarix qaynaqlarında, hadisə əsnasında, səhabələrin müzakirə etdiyi mövzunun, başçının cinsiyyəti deyil, tərəflərin haqlı və ya haqsızlığı olduğu yazılır.[105] Bu mövzuda bu gün də tarixi məlumatlar incələnib, Hz. Aişənin haqsız olduğu düşünülə bilər. Amma Hz. Aişənin qadın olub savaşda öndərlik etdiyi üçün haqsız olduğu söylənə bilməz. O dövrdə, Hz. Aişənin qadın olması, buna görə rəhbər ola bilməyəcəyi kimi bir muzakirə olmamışdır. Savaş kimi önəmli bir hadisədə, həm də tərəflərdən birinin başçısının qadın olduğu halda Əbu Bəkrənin bu hədisi savaşdan öncə xatırlatması və digər səhabələri xəbərdar edib, Hz. Aişənin yanında olmalarının peyğəmbərin hökmünə müxalifət etmək olacağını xatırlatması gərəkməzdimi? Ancaq Əbu Bəkrə belə etməmiş, savaş nəticələnənə qədər bu hədisin varlığından belə söz etməmişdir.

Bilindiyi kimi Hz. Aişə, Hz. Əliyə məğlub olmuşdur. Bu savaş, İslam tarixindəki ilk iç savaş və ilk fitnə olaraq qeydə alınmışdır. Hz. Əli, zəfərdən sonra Bəsrəyə girmiş və onu açıq şəkildə dəstəkləməyənlər də onunla birliktə olduqlarını göstərməyə çalışmışdırlar. Belə bir halda nə hikmətdirsə, Əbu

---

104 Asghar Ali Engineer, *The Rights of Women in Islam,* 77.

105 Tabari, Tarikh, Vol:5, 221; Fatima Mernissi, *The Veil and the Male Elite,* 58.

Bəkrə də qadınların rəhbər olmamaları gərəkdiyini söyləyən hədisi xatırlamışdır! İslamın ilk fitnəsini atəşləməklə günahlandırdıqları Hz. Aişəyə doğrudan hücum edə bilməyənlər, bu hədisə referansla Hz. Aişəni günahkar elan etmişlər və dolaylı yoldan üstünə hücum etmişdirlər. Qısacası bu hədisin siyasi səbəblərlə uydurulduğu çox açıqdır.

Qadınların rəhbər təyin edilməməsi gərəkdiyini ifadə edən hədisin uydurulmasının yanında "Qadınlara bir işin danışılması, hər nə desələr tərsinin edilməsi" mənasına gələn hədis belə uydurulmuşdur. "Qadınlara müxalifət edin, qadınlara müxalifətdə bərəkət vardır" və "Qadınlara itaət peşmanlıqdır" rəvayətləri, bənzər şəkildə uydurulan başqa hədislərdir. Bunlara görə bir nəfər, ancaq qadınların dediklərinin ziddini edərək doğrunu tapa bilər. Bu hədislər əgər doğru qəbul edilərsə, buraxın qadınlara rəhbər statusu verilməsini, uşaqların necə əmanət ediləcəyi belə sorğulama mövzusu olar! Hədis professoru Ali Osman Ateş, bu hədisləri, sənədləri və nəql edən şəxslərin (ravilərin) güvənilməzliyi kimi kriteriyalar üzərindən tənqid etmişdir.[106] Bu hədislər, Qurana zidd olduqları kimi, peyğəmbərimizin yoldaşlarına danışdığını və onların bəzi tövsiyələri yönündə hərəkət etdiyini deyən hədislərlə də zidddir.

Quranda qadınların rəhbər olmamalarını deyən bir tək hökm, hətta ən kiçik bir fikir belə yoxdur.[107] Lakin Quran, Səbə Məlikəsindən tərif ilə bəhs edir və nə qədər bəsirətli bir rəhbər olduğunu deyir. Səbə Məlikəsinin bəsirətli münasibəti, qövmünü gərəksiz bir savaşdan qorumuş və doğrunu tapmalarını təmin etmişdir. Ayrıca Quranda, Firon kimi bir çox kişi rəhbər tənqid edilir. Əlbəttə bu, bir cinsiyyət ayrımının dayaq nöqtəsi ola bilməz. Amma bu, kişi olsun qadın olsun hər iki cinsdən həm

---

[106] Ali Osman Ateş, *Hadis Temelli Kalıp Yargılarda Kadın,* 99-101.

[107] Asgar Ali Engineer, The Rights of Women in Islam, 76, Amina Wadud, Quran and Woman, 89.

yaxşı həm pis rəhbərlər çıxa biləcəyini göstərir. Quranın ifadələri, rəhbərliyin kişiyə və ya qadına verilməsini deyil, fəqət əhlinə verilməsini deyir.

**Nisa-58:** ***Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmağınızı və insanlar arasında hökm verərkən ədalətlə hökm verməyinizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir.***

## 5. Qadınların Səyahət Azadlığı

Müsəlman bir qadının, ərindən icazə alması şərtilə, qısa məsafələrə tək başına getməsi, ənənəvi anlayış tərəfindən (bəzi çəkinmələrlə) təsdiqlənmişdir. Ancaq bəzi rəvayətlərə görə bir, bəzilərinə görə də üç günlük məsafədən çox olan səyahətlərə qadının, yanında bir məhrəmi (atası, əri, oğlu, dayısı kimi bir yaxını) olmadan getməsi, ənənəvi anlayış tərəfindən qadağan edilmişdir. Müslimdəki bir hədisdə, peyğəmbərimizin: *"Allaha və axirət gününə iman edən bir qadının bərabərində atası və ya oğlu yaxud əri və ya qardaşı yaxud nikahı haram olan biri olmadan üç gün və ya daha artıq vaxt alan bir səfərə çıxmağı halal deyildir"* dediyi iddia edilir.[108] Əbu Hüreyrədən nəql edilən bir başqa hədisdə peyğəmbərimizin: *"Allaha və axirət gününə iman edən bir qadının, yanında özünə nikahı haram olan biri olmadıqca, bir gün və bir gecəlik yola çıxmağı halal deyildir"* dediyi nəql edilmişdir.[109] Qısacası bir qadının, məhrəmi olmadan səyahət edə biləcəyi səyahət məsafəsinin, yaşadığı bölgədən 90 km uzaqlıqdakı ərazini əhatə etdiyi, yəni başqa bir deyişlə 90 kmdən uzağa yanında məhrəmi olmadan səyahətinin haram olduğu geniş

---

[108] Müslim, "Hac", 423.

[109] Müslim, "Hac", 421; Tirmizi, "Rada'", 15.

şəkildə qəbul edilmişdir. Quranda olmayan bu uydurmanı müdafiə edənlərə görə bir qadının, qadın dostları ilə birlikdə, dünyanın bir çox şəhərinin bir ucundan digərinə getməsi belə haramdır!

Quranda qadağan olunmamış olanların halal olduğu qaydasına görə (Quranın bu qaydası, Maidə surəsinin 101. ayəsi kimi ayələrdən anlaşılmaqdadır), Quranda belə bir qadağanın olmaması, qadınların yalnız və ya məhrəmi olmayanlarla səyahətinin qadağan edilə bilməyəcəyini anlamağımıza kifayətdir. Əlavə olaraq peyğəmbərimizin dövründə gerçəkləşən bir çox hadisə də bu dediyimizi dəstəkləyir. Peyğəmbərimizin zamanında Məkkədən Mədinəyə hicrət edən yalnız qadınların olduğu, siyər kitablarında yazılmaqdadır. Bəhsi keçən məsafə isə 90 km-nin çox üstündədir. Kilometrlərlə məsafəni qət edən qadınlar, peyğəmbərimiz tərəfindən heç bir zaman məhrəmsiz səyahət etdikləri üçün xəbərdar edilməmiş, hətta qatıldıqları çətin səyahət hər zaman tərif edilmişdir.

Bu uydurma qadağa ilə bütün möminlərə fərz olan həcc vəzifəsi də qadınlar üçün çətinləşdirilmişdir. Məsələn Buxaridə keçən başqa bir hədisə istinadla qadınların yalnız başlarına həccə getmələri belə əngəllənmişdir. Bəhsə olunan hədis belədir:

*Peyğəmbər: "Bir qadın, yanlarında məhrəm birisi olmadıqca bir kişi ilə yalnız qalmasın və səyahətə çıxmasın" buyurduğu zaman, bir adam ayağa qalxdı və: "Ey Allahın Rəsulu! Yoldaşım həcc üçün çıxdı, mən isə filan qəzvəyə yazıldım" deyəndə, peyğəmbərimiz "Get və yoldaşınla birlikdə həcc et!" buyurmuşdur.*[110]

Amma Ali-İmran surəsinin 97-ci ayəsi, bütün müsəlmanlara həcc etməyin fərz olduğunu deyir, əsla qadın-kişi ayrımı etməməklə bərabər, qadınlara məhrəmsiz səyahəti qadağan etmir.

**Ali-İmran-97:** ***Orada aydın nişanələr – İbrahimin məqamı vardır. Oraya daxil olanın təhlükəsizliyi təmin olunar. Evi***

---

110 Buxari, "Nikah", 110, "Cəzaüs-Sayd", 24, "Cihad", 139, 178; Müslim, "Həcc", 424.

***(Kəbəni) ziyarət etmək insanların – yoluna gücü çatan hər kəsin – Allah qarşısında borcudur. Kim bunu inkar edərsə, bilsin ki, Allahın aləmlərə ehtiyacı yoxdur.***

Qurandan heç bir dəstəyi olmayan və sadəcə hədislərə dayanaraq qadınlara tətbiq edilən bu səyahət məhdudiyyətini yenə hədis qaynaqları ilə də çürütmək mümkündür. Məsələn Buxari və Müslimdə peyğəmbərimizin belə dediyi nəql edilmişdir:

*İslam inancı elə bir barış və güvənlik ortamı yaradacaq ki, ən uzaq yerdən bir qadın tək başına Məkkəyə gələcək, Kəbəni təvaf edib dönəcək və o qadına heç bir zərər gəlməyəcək.*[111]

Qısacası Quranda belə bir qadağanın olmamağına dayanaraq, qadınlara səyahət azadlığının qadağan edilməsinin yalnış olduğunu anlayırıq. Fəqət istəyənlər, tarix və hədis qaynaqlarından bu iddiamızı dəstəkləyəcək yazılar da tapa bilərlər. Görüldüyü kimi, buraxın kef üçün gəzmək, müsəlman qadınların üzərinə fərz olan ibadətlər belə sonradan uydurulmuş hədislər ilə məhdudlandırılmışdır. Bu arada, toplumda quldurluq kimi təhdidlərin olduğu bəlli bir dövrdə, bir tədbir olaraq, qadınların tək başlarına səyahət etməməsini tövsiyə etmək tövsiyə edilmiş və ya ənənə olaraq tətbiq olunmuş ola bilər. Fəqət ənənələri və ya tarixin bəlli bir dövründəki şərtlərdən qaynaqlanan tarixi tətbiqləri, bütün ümməti hər çağda bağlayan dini hökmlərə çevirmək böyük bir səhvdir. Qadınlar, kişilər kimi, istədikləri yerə istədikləri zaman getmək azadlığına sahibdirlər.

## 6. Qadınların Məscidlərdən və Namazlardan Uzaq Tutulmaları

Dini nəql etdiyi iddi edilən bir çox qaynaqda, qadınların məscid və toplu ibadətlər ilə əlaqələri ən alt səviyyədə

[111] Buxari, "Mənakib", 15.

tutulmuşdur. Qadınların camaatla namaz qılmaları, namaz üçün məscidə getmələri, cümə namazına qatılmaları ya qadağan olunmuş, ya da tövsiyə edilməmişdir. Qadınlar üçün ən xeyirli yerin evlərinin içi olduğu, qadınların ibadətlərini evlərində etmələrinin daha xeyirli olduğu irəli sürülmüşdür. Bu hüdudlamalara bir də heyz halında ikən məscidlərə girməmələri gərəkdiyi əlavə ediləndə, qadınlar məscidlərdən tamam uzaqlaşdırılmışdır. Bu mövzuda uydurulan hədislərə örnək olaraq bunları verə bilərik:

*Qadının evinin həyatində qıldığı namaz, məsciddə qıldığı namazdan daha fəzilətlidir. Evində qıldığı namaz, həyətdə qıldığı namazdan daha fəzilətlidir. Evinin içində qıldığı namaz, evinin açıq yerində qıldığı namazdan daha fəzilətlidir.*[112]

*Qadın, insanın ar və namusudur. Evindən çölə çıxanda şeytan ona yaxınlaşır. Qadının Allaha ən yaxın olduğu yer evidir.*[113]

Qadınları məscidlərdən və toplu ibadətlərdən uzaq tutmağa çalışan zehniyyətin Qurandakı heç bir ifadədən dəstək almağı mümkün deyildir. Ayrıca ağıl və fitrətlə toqquşan, qadınları evlərinə qapama yanaşması, peyğəmbərimizin dövrünü nəql edən bir çox tarixi faktla da toqquşur. Mədinədə inşa edilən böyük məscidə, qadın-kişi bütün inananlar toplanır və bərabər ibadət edərdilər. Qadınlar bayram namazlarına, cümə namazlarına, vaxt namazlarına və topluca edilən bütün ibadətlərə kişilərlə bərabər qatılır, peyğəmbərimizin xütbələrini dinləyər və buralardakı mübahisələrə qatılıb dini mövzularda görüş ifadə edərdilər. O dövrdə, bu xüsusiyyətlərdə, qadın və kişi ayrımı yox idi.[114] Mədinədəki məscid həm dinin, həm təhsilin, həm də sosial həyatın

[112] Əbu Davud, "Salat", 54.

[113] İbn Hüzeymə, Səhih, III, 93; Təbərani, *el-Mu'cemü'l-evsat*, III, 189, VIII, 101.

[114] Leila Ahmed, *Women and Gender in Islam*, 72.

mərkəzi yerində idi və qadınlar burada, kişilərlə bərabər sosial həyatda yer tuturdular. Yuxarıda istinad etdiyimiz və uydurma olduğuna inandığımız hədislərdən çox daha artıq hədislə, kişi və qadınların məsciddəki və toplu ibadətlərdəki bərabərliyi nəql edilmişdir. Bunlara bir neçə örnək olaraq bu hədisləri verə bilərik:

*Hz. Aişə belə demişdir: "Yatsı namazını məsciddə qıldığım bir gecə evə Rəsulallahdan sonra gəldim. Mənə, 'Haradaydın' deyə sual etdi. Mən, 'Məsciddə əshabından birisinin oxuduğu Quranı dinləyirdik. Doğrusu əshabın arasında onun kimi gözəl səsli və gözəl oxuyanı heç duymamışdım' deyə cavab verdim. Bunun üzərinə təkrar Rəsulallah ilə bərabər gedib onu dinlədik. Sonra mənə dönərək; 'Bu, Əbu Huzeyfənin azadlısı Səlimdir. Ümmətim arasında belə birisini var edən Allaha həmd olsun' buyurdu."*[115]

*Peyğəmbərimiz qadınların məscidə asan girib çıxmalarını təmin etmək üçün Mədinədəki məscidin üç qapısından birini sadəcə qadınlara ayırmışdır.*[116]

*Peyğəmbərimiz, məscidə gələn uşaqlı qadınların vəziyyətinə həssasiyyət göstərir və namaz sırasında bir uşağın ağladığını eşidəndə namazı qısaldardı.*[117]

Qadınlar kişilər kimi məscidə getməyə dörd xəlifə dövründə də davam etmişdirlər. Bu mövzuya bu rəvayətlər örnəkdir:

*Hz. Ömərin yoldaşı hər gün səhər və yatsı namazlarını məsciddə camaatla qılardı. Özündən, əri Ömərin bundan xoşlanmadığını və qısqandığını bildiyi halda niyə namaz üçün məscidə gəldiyi soruşulanda belə qarşılıq verdi:*

*"Ömərin mənim məscidə gəlməyimə qadağa qoymasına Hz. Peyğəmbərin Allahın xanım qullarını Allahın məscidlərindən uzaq*

---

[115] Hakim, *el-Müstedrek 'ale's-Sahihayn*, III, 250.

[116] Əbu Davud, "Salat", 17.

[117] Buxari, "Azan", 65.

*etməyiniz' hədisi əngəl olurdu."*[118]

Hətta Hz. Ömər öldürüldüyü əsnada yoldaşının yenə məsciddə namaz qıldığı da qaynaqlarda vardır. Ayrıca Hz. Ömərin qadınların mehirlərinin yüksək olduğu və azaldılması gərəkdiyi xüsusiyyətində cümə namazında məsciddə xütbə oxuyarkən bir qadının qalxıb bu etirazı etməsi də qəribədir:

*Ey Ömər, sənin buna haqqın yoxdur. Çünki ayət-i kərimdə Allah, "Birisinə yüklərlə (mehir) vermiş olsanız belə, onun içindən bir şey almayın deyə buyurmuşdur." Bunun üzərinə Hz. Ömər, "Ömər yalnış etdi, qadın doğru söylədi" dedi.*[119]

Bu etirazı edən qadının zahiri görünüşü də hədislərdə nəql edilməkdədir. Görüldüyü kimi bu hədisdən bunları anlayırıq: 1- Qadınların Cümə namazları kimi toplu ibadətlərə qatıldıqlarını; 2- Cümə namazı kimi toplu ibadətlərdə belə qadınlara qalxıb etiraz edə biləcəkləri cəsarəti verən bir mədəniyyətin yarandığını; 3- Qadınların etirazlarının dövrün xəlifəsi kimi ən öndəgələnlər tərəfindən belə qəbul edildiyini; 4- Qadının zahiri görünüşü tərif edildiyinə görə, qadınların məsciddə pərdələrin arxasında saxlanmadıqlarını; 5- Qadınların səslərinin kişilər tərəfindən eşidilməsinin problemli olduğu kimi bir uydurmaya etibar edilmədiyini.

Qadınların təcrid edildiyi başqa bir ibadət də bütün inananlara fərz olan cümə namazıdır. Quranda cümə namazının qılınması əmr edilərkən, qadın-kişi ayrımı edilmir, bütün inananlara səslənilir. Peyğəmbərimiz dövründə və sonrasında qadınların cümə namazlarına getdiklərini ifadə edən yuxarıdakı kimi hədislərə rəğmən, günümüzdə bir çox yerdə, qadınların cümə namazına getmələri əngəllənir. Quranda cümə namazı qılınmasını ifadə edən ayələr belədir:

**Cümə- 9:** ***Ey inananlar! Cümə günü namaza çağırılanda***

---

118 Buxari, "Cümə", 11.

119 Tahavi, *Şerhu müşkili'l-asar*, XIII, 57.

***Allahı yad etməyə tələsin və ticarəti dayandırın! Bilsəniz bu sizin üçün nə qədər xeyirlidir.***

**10:** ***Namaz başa çatdıqdan sonra yer üzünə dağılıb Allahın lütfünü axtarın və Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız.***

Qadınları evə həbs etməyin, məscidlərə getmələrini və toplu ibadətlərə qatılmalarını əngəlləməyin İslam ilə əlaqəsinin olmadığı çox açıqdır. Qurandan təsdiq tapmayan bu uyğulamaların yalnış olduğunu göstərən peyğəmbərimiz və sonrasındakı dörd xəlifə dövründən bir çox rəvayət olmasına rəğmən, günümüzdə hələ də bu yalnış tətbiqlər bəzi yerlərdə davam edir.

## 7. Fitnənin Əsas Qaynağının Qadın Olduğu İddiası

Qurana görə mallar da, övladlar da, dünyada əldə edilən mövqelər (uğurlarda) bir "fitnə" vasitəsi ola bilər. Məsələn Quran, müsəlmanlara mallarının bir hissəsini kasıblara və ehtiyac sahiblərinə vermələri gərəkdiyini söyləyir. Ancaq malından yetərli bir qismi bağışlamayan şəxs üçün o mallar bir "fitnə" vasitəsinə çevrilir, doğru yoldan çıxmasına səbəb olur. Eyni şəkildə, bir insanın uşaqları da onun dindən uzaqlaşmasına səbəb ola bilər. Beləcə insanın uşaqları da bir "fitnə" qaynağına çevrilə bilər. Bir insanın hadisələr qarşısında necə reaksiya verəcəyi dünyadakı imtahanının bir parçasıdır.

**Ənfal-28:** ***Bilin ki mal-dövlətiniz və uşaqlarınız sizin üçün bir imtahandır. Allahın yanında isə böyük mükafat vardır.***

**Təğabun-15:** ***Bu bir həqiqətdir ki, mal-dövlətiniz və uşaqlarınız bir imtahandər. Allahın yanında isə böyük bir mükafat vardır.***

Eyni şəkildə əlbəttə qadınlar üçün kişilər, kişilər üçün də qadınlar "fitnə" eyni bir imtahan vasitəsi ola bilərlər. Fəqət ədəbiyyatda qadınlar üçün işlədilən "fitnə" ifadəsi, bir imtahan vasitəsi olmaqdan çox, bir baş bəlası kimi mənalandırılmış və

qadın, dünya həyatında çəkinilməsi gərəkən ən böyük bəla olaraq təqdim edilmişdir. Bu mövzuda uydurulan bir hədis belədir:

*Məndən sonra kişilərə qadınlardan daha zərərli bir fitnə səbəbi buraxmadım.*[120]

Hər insan üçün ən böyük fitnə, imtahanı keçməyinə mane olan hər nədirsə odur. Bu dünyadakı imtahanı bəziləri mal, bəziləri təkəbbür, bəziləri oğul-uşaq, bəziləri tənbəllik üzündən keçə bilmir. Əlbəttə qarşı cinslə əlaqədəki xətalar da imtahanda uğursuz olmaqda önəmli bir ünsür ola bilər; bu baxımdan kişilər üçün qadın, qadınlar üçün kişi "fitnədir". Fəqət ənənədə bəzilərinin etdiyi kimi qadını fitnənin baş qaynağı elan etmək və burada kişilərin zəiflikləri və yalnış seçimləri yerinə qadının aldadıcı özəlliyinə günahı yükləmək önəmli bir xətadır. Bu xətanın önəmli səbəblərindən biri, qadın olmağı quruluş olaraq, yəni dəyişdirilə bilməyəcək və düzəldilə bilməyəcək şəkildə pis olaraq göstərən yanaşma olmuşdur. Qadını düzəldilə bilməyəcək şəkildə pis görənlər, onu ən böyük fitnə olaraq təyin etmişdirlər. Təəssüf ki, Quranın yıxdığı bu zehniyyətdən qurtulamayanlar, daha sonra peyğəmbərimizə iftiralar atmaqla bu zehniyyəti yenidən dirçəltməyə çalışmışdırlar.

## 8.Qız Uşaqlarının İdrarı

Qadınların alçaldılması ilə əlaqəli ifadələr qız uşaqlarına qədər davam edir. Ağıla və duyğulara tamamilə zidd şəkildə uydurulmuş bir hədisə görə qız uşaqlarının idrarları belə oğlan uşaqlarınınkından daha pisdir! Müzakirə mövzusu hədis belədir:

*Qız uşağının idrarını təmizləmək üçün yumaq lazımdır, oğlan uşağının idrarını təmizləmək üçün isə su səpmək*

[120] Buxari, "Nikah" 18; Müslim, "Zikir", 97; Tirmizi, "Ədəb", 31.

*yetərlidir.*[121]

Bu hədisin uydurma olduğunu demək yerinə, bu hədisi şərh edib, qurtarmağa çalışanların izahları vəziyyəti daha da pisləşdirmişdir. Məsələn İmam Şafi, bu hədisi, Hz. Adəmin torpaqdan yaradıldığı və idrarının təmiz olduğu, ancaq Həvvanın Adəmin bədənindən yaradıldığı, dolayısı ilə də qan və ətdən var edildiyi üçün idrarının daha pis olduğu şəklində şərh etmişdir. (Həvvanın Adəmdən yaradıldığına dair İsrailiyyat kökənli nəqlin yalnışlığını öncəki başlıqlarda ələ aldıq.)

Bu rəvayət ağıla zidd olmaqla bərabər, elmə də zidddir. Oğlan və qız uşaqlarının idrarlarını təhlil etdiyimiz zaman, qız uşaqlarının idrarının daha pis olduğuna dair heç bir fakt ortaya çıxmır. Qurana, ağıla, insan fitrətinə və elmə zidd olan hədislərin peyğəmbərimizin dediyi sözlər olaraq qəbul edilməsi, İslama edilə biləcək ən böyük xəyanətlərdən biridir.

## 9.Qadınların Kişilərin Vücudundakı Çirki Yalaması

Hədis kitablarının yazarlarının kişi olmağının və hadisələr öz cinsiyyətlərini mərkəzə alaraq yanaşmalarının təsiri, nəql edilən bir çox uydurma hədisdə qarşımıza çıxır. Bu rəvayətlərlə qadınların, ərlərinin haqlarını nə edirlərsə etsinlər, ödəyə bilməyəcəkləri ifadə edilir və qadınlar kişilərə kölə olmağa yönləndirilirlər. Aşağıdakı hədislər bu mövzuda örnəkdir:

*Əgər ərinin ayağından başında saçlarının ayrıldığı yerinə qədər irin və iltihabla kirlənmiş olsa, sonra qadın ona yönəlsə və ərini dili ilə yalasa onun haqqını ödəyə bilməz.*[122]

---

[121] 121 Abdurrezzak, *el-Musannef*, I, 381; İbn Ebi Şeybe, *el-Musannef*, I, 114; Əhməd b. Hənbəl, Müsnəd, II, 151, 359; İbn Macə, “Təharət”, 77; Əbu Davud, “Təharət” 136; Tirmizi, “Səfər”, 40; Nəsai, “Təharət”, 194.

[122] Əhməd b. Hənbəl, Müsnəd, XX, 64-65.

*Cüzam xəstəliyinin onun ətini deşdiyini, iki burun deşiyini yırtdığını, bu iki burun deşiyindən qan və irin axdığını görsən, sonra onun haqqını ödəmək üçün ağzınla o iki burun dəliyindən axanları yalayıb yesən, əbədiyyən onun haqqını ödəyə bilməzsən.*[123]

Görüldüyü kimi qadınların ərlərinin haqlarını, ərlərinin vücudundakı cərahatı yalayaraq təmizləsələr belə, ödəyə bilməyəcəkləri iddia edilir və bu düşüncə, hədislər vasitəsilə ilə dəstəklənməyə çalışılr. Rəvayət edilən başqa bir hədisdə də ərini razı etmədən *ölən qadının cənnətə girə bilməyəcəyi söylənilir*.

*Özündən yoldaşı razı olduğu halda ölən hər (Müsəlman) qadın cənnətə gedər.*[124]

Quranın təqdim etdiyi dində təməl qayə Allahı razı etmək ikən, uydurulan dində qadının ərini razı etməsi də cənnətə gedən yolda önəmli bir hədəf olaraq təqdim olunur.

Bu məntiqi müdafiə edənlərə görə qadın, təqvası və ya imanı zəif olsa da, ərini məmnun edərsə cənnəti qarantiləyəcəkdir. Allahın istədiyi kimi bir qul olmuş olsa belə, ərini məmnun etmədən vəfat edərsə yeri cəhənnəmdir.

Uydurma hədislərdəki bu deyimi; nə Quran, nə ağıl, nə də fıtrət ilə müdafiə etməyin imkanı vardır. Nəql edilən rəvayətlərlə qadınların dünyadakı ən önəmli vəzifələrindən biri ərlərini razı etmək təyin edilmişdir. Halbuki Quranın inşa etdiyi zehin quruluşuna görə istər qadın olsun, istər kişi olsun, hər insanın ən önəmli vəzifəsi Allahın razılığını qazanmaqdır. "Ərini razı salmaq", "ərinin haqqını ödəmək" kimi anlayışlar Quranda yoxdur. Quranda, inananlara; haqq yeməmələri, kimsəni aldatmamaları, ana-ataya yaxşı davranmaları və ədalətli olmaları kimi xəbərdarlıqlar edilir. Amma heç bir yerdə bir ərin yoldaşı

---

123 Təbərani, *el-Mu'cemü'l-kebir*, VIII, 259.

124 Tirmizi, "Rada'", 10; İbn Macə, "Nikah", 4.

üzərindəki haqqından bəhs edilmir. Quranda, bir qulun başqa bir qulu razı edərək cənnətə girəcəyi kimi bir ifadəyə rast gəlinmir.

**Bəqərə-207:** ***İnsanlardan eləsi də vardır ki Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı şəfqətlidir.***

Bu mövzuda son olaraq, hər kəsin ər-arvad münasibətinin və gözləntilərinin fərqli ola biləcəyini, ancaq qadınların ərlərinə kölələşməsini dini bir gərəklilik olaraq təqdim etmənin və din adına uydurma gərəkliliklər ortaya çıxarmanın böyük bir günah olduğunu xatırlatmaq istəyirik.

**Nəhl-116:** ***Dilinizin uyduruğu yalana əsasən: "Bu halaldır, o haramdır!" – deməyin, çünki Allaha qarşı yalan uydurmuş olarsınız. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.***

## 10.Qadınların Ərlərinə Səcdə Etməsi

Peyğəmbərimizdən ən çox hədis nəql edən şəxs Əbu Hüreyrədir. Ona bu mövzuda çatan heç kim yoxdur. Əbu Hüreyrə üçün İzzudin İbnul Əsir (ö 1233) *Üsdül-Qabə* adlı əsərində *"Adı ətrafında ən çox mübahisə olan şəxs Əbu Hüreyrədir. Onun adı qədər və ya ona yaxın bir şəkildə adı mübahisə edilən bir başqa şəxs yoxdur"* demişdir.[125] Təbəridən gələn məlumatlara görə Hz. Ömər tərəfindən Bəhreynə vəli olaraq seçilən Əbu Hüreyrə, yenə Hz. Ömər tərəfindən vəzifəsini sui-istifadə etməsi səbəbi ilə vəzifədən alınmış, geri döndüyü zaman yanında gətirdiyi pulunun bir qisminə haqsız qazanc gətirməsi səbəbi ilə əl qoyulmuşdur.[126] Yenə İbn Sadın məşhur *Tabakat* adlı əsərində, Əbu Hürəyrənin özündən rəvayətlə Hz. Ömərin ona *"Allahın və Kitabının düşməni! Sən Allahın malınımı oğurladın?"* dediyi

[125] Mahmud Ebu Reyye, *Kimliği ve Kişiliğiyle Ebu Hureyre*, 38.
[126] Mahmud Ebu Reyye, *Kimliği ve Kişiliğiyle Ebu Hureyre*, 86-88.

yazılmaqdadır.[127] Hz. Ömər xaricində peyğəmbərimizin bir çox yaxınının Əbu Hüreyrəni nəql etdiyi hədislərdən dolayı tənqid etdiyi də qaynaqlarda nəql edilmişdir.

Əbu Hüreyrənin mövzumuz baxımından önəmi budur: Qadınlar haqqında mənfi, Qurana və ağıla zidd fikir yaradan hədislərin çox önəmli bir qismi Əbu Hüreyrəyə ətf edilmişdir. Bu hədisləri Əbu Hürəyrənin uydurmuş olması mümkün olduğu kimi, Əbu Hüreyrə ilə hədis kitablarının yazılması arasındakı zəncirdəki digər şəxslərin də uydurmuş olması mümkündür. Fəqət nəticə olaraq qadınlar əleyhinə fikir yaradan uydurma hədislərin böyük bir qisminin onun adı ilə bərabər anıldığı, diqqətə layiq önəmli bir xüsusiyyətdir. Bu başlıqdakı "səcdə hədisi" və bu kitabda qadınlar əleyhinə uydurulduğunu təyin etdiyimiz bir çox hədis, Əbu Hüreyrəyə istinad edilərək nəql edilmiş və məşhur hədis kitablarına girmişdir. Bir öncəki başlıqda incələdiyimiz "irin" hədisini nəql edən Əbu Hüreyrə, aşağıdakı hədisi də nəql etmişdir:

*İnsanın insana səcdə etməsini əmr edəcək olsaydım, qadının ərinə səcdə etməsini əmr edərdim.*[128]

Səcdəni müsəlmanlar ibadətlərində sadəcə Allah üçün edirlər. Bu ayədən də anlaşıldığı kimi Quran, Allahdan başqasına səcdə edənləri qınamış və sadəcə Allaha səcdə edilməsini əmr etmişdir:

**Fusillət-37:** ***Gecə və gündüz, Günəş və Ay, Onun varlığının dəlillərindəndir. Əgər siz Ona ibadət edirsinizsə, onda günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin.***

Səcdə etməyin daşıdığı məna, Quranda bu qədər aydın açıqlanmışkən, İslam dini qula qulluq etməyi və Allahdan başqasına səcdə etməyi qadağan etmişkən, peyğəmbərimizin bu şəkildə bir cümlə işlətməyi düşünülə bilərmi? Quranın ifadələri ilə uyğunsuz olan bu uydurma, bəllidir ki, qadınları kişinin adətən

[127] İbn Sa'd, *et-Tabakatü'l-kübra,* IV, 335.
[128] Tirmizi, "Rada", 10 Əbu Davud, "Nigah", 41; İbn Maceə, "Nigah", 4.

köləsi halına gətirmək istəyənlər tərəfindən uydurulmuşdur. Belə ifadələri peyğəmbərimizin dilə gətirdiyini söyləmək həm ona, həm də İslama təhqirdir.

## 11. Qadınların Uğursuz Olmaları

Əbu Hürəyrədən və Abdullah bin Ömərdən nəql edilən və qadınları "uğursuzluq" ilə əlaqələndirən bir hədis isə belədir:

*Uğursuzluq üç şeydədir: Qadında, evdə və atda.*[129]

.

Bu hədis, Buxari kimi dəyər verilən qaynaqlarda "səhih" olaraq nəql edilmişdir. Bəs, bu hədis, yuxarıda bəhs etdiyimiz Qurana, ağıla və fitrətə uyğunluq baxımından ələ alınanda nə qədər etibarlı sayıla bilər? İlk öncə, Quranda heç bir şeyə uğursuzluq yüklənmədiyini söyləmək məcburiyyətindəyik. Ayrıca ağıla zidd bu iddianı dəstəkləyəcək heç bir müşahidə edilən faktda mövcud deyildir.

Bəzi şeyləri uğursuz sayma, İslami qaynaqlara, cahiliyyə dövrü uyğulamalarından girmişdir. Məsələn köhnə ərəb adətlərində bir şəxs səyahətə gedəcəyi zaman və ya bir şey etməyə niyyətləndiyi zaman bir quş uçurardı. Quş sağa gedərsə o işin xeyirli olduğuna, sola gedərsə də xeyirsiz olduğuna qərar verilərdi. Bilindiyi kimi bu cür uyğulamalar, Peyğəmbərimiz və Quran tərəfindən tənqid edilmişdir.

Ayrıca, hədis ədəbiyyatını daxili tutarlılıq baxımından incələsək, bu hədisə zidd bir çox başqa hədisin olduğununu da görərik. Məsələn peyğəmbərimizin *"Uğursuzluğa inanmak şirkdir"* dediyi başqa bir rəvayətdə nəql edilmişdir.[130] Buxaridə

---

[129] Buxari, "Cihad", 47, "Nikah", 18; Müslim, "Salam", 115; Tirmizi, "Ədəb", 58; İbn Macə, "Nikah", 55.

[130] Əhməd b. Hənbəl, Müsnəd, VI, 213.

*"İslamda uğursuz sayma yoxdur"*[131] deyə uğursuzluğu rədd edən hədis də mövcuddur. Bunlara əlavə olaraq, Əbu Hüreyrədən nəql edilən bir çox hədisə *"Yaxşı bir dinləyici deyil və özündən sual soruşulduğu zaman yalnış cavablar verir"*[132] şəklində etiraz edən Hz. Aişənin, bu nəqlinə də müxalif olduğu bilinir. Hz. Aişəyə Əbu Hüreyrənin, peyğəmbərimizin *"Uğursuzluk üç şeydədir: Qadında, evdə və atda"* dediyi nəql edildiyi zaman, Hz. Aişənin qəzəblə ayağa qalxıb:

*"Əbu Hüreyrə dərsini yaxşı öyrənməyib. Bizim evə peyğəmbər tam bir cümlənin ortasında ikən gəldi və sadəcə son qismini eşitdi. Peyğəmbər, Allah, Yəhudiləri yalanlayır; onlar üç şey uğursuzluq gətirir: ev, qadın və at demişdilər"*[133] dediyi nəql edilmişdir.

Quranın heç bir ifadəsində təsdiqini tapmayan, ağıla zidd olan, uğursuzluğu rədd edən bir çox hədisə zidd, ayrıca yanlış nəql edilən, necə olduğu Hz. Aişə tərəfindən açıqlanıb düzəldilən qadını uğursuzluq ilə əlaqələndirən hədis, bütün bunlara rəğmən yenə də "səhih" emblemi ilə kitablarda durur, qadınları alçaldanlar tərəfindən istifadə edilir. Bu da, hədis ədəbiyyatının sui-zənn olduğunu və bu ədəbiyyatdan yola çıxaraq, Quranda olmayan anlayışların yaradılmaması gərəkdiyini bir dəfə daha göstərir. Ayrıca bu ədəbiyyatın Quran, ağıl, fitrət və iç tutarlılıq süzgəclərindən keçirilməsinin önəmini bir dəfə daha gözlər önünə sərir.

---

131 Buxari, "Tibb", 42, 53.

132 Zerkeşi, *el-İcabe,* 115-116; Fatima Mernissi, *The Veil and the Male Elite.*

133 Zerkeşi, *el-İcabe,* 114; Fatima Mernissi, *The Veil and the Male Elite*, 76.

## 12. Cəhənnəm Əhlinin Çoxunun Qadınlardan Təşkil Olunması və Qadınların Ağlının və Dininin Əksik Yaradılışı

Əbu Hürəyrədən nəql edilən, bizə görə uydurma olduğu açıq olan başqa bir hədis isə belədir:

*Rəsulallah bir bayram namazında qadınların tərəfinə keçərək belə dedi: "Ey qadınlar toplumu! Sədəqə verin. Çünki sizlər Cəhənnəm xalqının çoxunu təşkil etməkdəsiniz." Bunun üzərinə qadınlardan biri "Niyə belə olur ya Rəsulallah" dedi. Hz. Peyğəmbər də "Çox lənət etməyiniz və ərlərinizin etdiyi yaxşılıqlara nankorluq etməyinizdən dolayı" dedi.*[134]

*Hz. Peyğəmbər belə davam etdi: "Ağlı başında və görüşü sağlam bir kişiyə gəlib gələ biləcək, ağlı və dini əksik sizdən başqa varlıq görmədim." Orda olanlardan bir qadın: "Qadının ağlının və dinin nöqsanlığı nədir" deyə soruşdu. Hz. Peyğəmbər də: "Sizdən iki qadının şahidliyi bir kişininkinə bərabərdir. Dininizin nöqsanlılığına gəlincə o da heyizli olmaqdır. Sizdən biriniz heyizli ikən 3-4 gün oturar, namaz qıla bilməz" dedi.*[135]

Yuxarıdakı hədis, ən çox etibar edilən hədis qaynaqlarında nəql edilmişdir. Mövzumuz olan hədisə görə qadınların həm ağıllarının, həm də dinlərinin əksik olduğu söylənilir, ərlərinə qarşı nankor olduqlarından və tez-tez lənət etdikləri üçün cəhənnəm əhlinin çoxunun qadınlardan təşkil olunduğu iddia edilir. Bu hədisi, hər hədisi olduğu kimi, əvvəlcə Quran çərçivəsində dəyərləndirməliyik. Quranın heç bir yerində, bir cinsin digərinə qarşı nankorluq etdiyindən və ya lənət

[134] Buxari, "Heyz", 6; Müslim, "İman", 132.

[135] Tirmizi, "İman", 6; Müslim, "İman", 132.

oxuduğundan dolayı cəhənnəmlik olacağından bəhs edilmir. Cəhənnəmlə əlaqəli ayələr, hər hansı bir cinsə yönəlik deyil, dünyada edilən zülmlərə yönəlikdir; yəni insanlar etdikləri və ya etmədikləri hərəkətlər səbəbi ilə cəzalandırılacaqdırlar.

**Bəqərə-81:** ***Bəli, günah qazanan və qazandığı günahlarla əhatə olunan şəxslər cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar.***

**Zümər-60:** ***Sən Qiyamət günü Allaha qarşı yalan uyduranların üzlərini qapqara görəcəksən. Məgər Cəhənnəmdə təkəbbürlülər üçün yer yoxdur?***

Yuxarıdakı ayələrdən və Quranın digər ayələrindən də anlaşılacağı kimi cəhənnəmlik olmaq, şəxsin etdiyi əməllər ilə əlaqəlidir. Bunun əksini iddia etmək, cənnət və cəhənnəm üçün yeni kriteriyalar gətirmək; cənnət və cəhənnəmi bəlli bir cinsə kirayələmək, Qurandan heç bir şəkildə dəstək almır. Yuxarıdakı hədisdə söyləndiyi kimi qadınların ərlərinə nankorluq etmələrindən dolayı cəhənnəmin çoxunu təşkil etdikləri iddiası yersiz bir ifadədir. Cənnət və cəhənnəm üçün Quranda olmayan, hətta Quranla uyğunlaşmayan şərtləri peyğəmbərimizin ortaya qoymuş olması mümkün deyildir; bu ifadə, peyğəmbərimizə bir iftiradır. Qadınların dünyaya gəlmə səbəblərini, ərlərinə minnətdarlıq duymaq və onlara nankorluq etməmək kimi ifadələr ilə açıqlamaq yerinə; Allaha minnətdarlıq duymaq və nankorluq etməmək üzərindən açıqlamaq lazımır.

**Bəqərə-152:** ***Siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükr edin, Məni danmayın!***

**İbrahim-7:** ***O zaman Rəbbiniz bildirmişdir: "Əgər şükr etsəniz, sizə olan nemətimi artıraram, yox əgər nankorluq etsəniz, bilin ki, Mənim əzabım şiddətlidir".***

Müzakirə mövzusu hədislə ortaya atılan iddia, çox təhlükəli bir zehniyyəti yaradacaq xarakterdədir. Çünki bu hədisdən yola çıxılaraq qadınların bu dünyadakı əsl dini vəzifələrindən birinin

ərlərini məmnun etmək olduğu söylənilir; adətən qadınlara cənnət vizası ərləri tərəfindən veriləcəkmiş kimi bir anlayış yaradılır. Qadınlarını dini istifadə edərək özlərinə kölə etməyə çalışanların bu hədisi uydurduğunu təxmin etmək çətin deyil!

Gələk hədisin qadınların ağlının və imanının qıt olduğunu iddia edən ikinci qisminə. Peyğəmbərimizin qadınların ağlının və dininin əksik olduğunu söylədiyini iddia etmək, peyğəmbərimizə iftiradır. Quranda cinsiyyət ayrımı edilmədən bütün möminlərə təfəkkür etmələrini, ağıllarını işlətmələrini söyləyən bir çox ayə vardır.

**Bəqərə-242:** ***Allah Öz ayələrini sizə belə bəyan edir ki, bəlkə düşünüb anlayasınız.***

**Yunus-100:** ***Allah ağlını işlətməyənləri əzaba (kəsafətə) düçar edər.***

Müsəlmanlara ağıllarını işlətmələrini söyləyən ayələrin heç biri sadəcə kişilər üçün enməmiş; xitab, həm kişi həm qadın daxil, bütün inananlara olmuşdur. Quranın heç bir ayəsinə istinad edilərək qadınların ağlının qıt olduğu iddia edilə bilməz. Ayrıca dini məsuliyyət, ağıl sahibi olmağa bağlıdır. Əgər qadınların ağlı qıt olsaydı, dini vəzifələrinin nə ölçüdə olduğu və ya olub-olmadığına da diqqət çəkilərdi! Lakin bu iddiaları edənlər daxil, heç kimsə qadınların dini məsuliyyətlərinin əksik olduğunu iddia etməmişdir. Müzakirə mövzusu hədisdəki, qadınların şahidliyi ilə və heyz dövründəki ibadətləri ilə əlaqəli iddialarda da önəmli yalnışlar vardır. Bu mövzular irəlidəki səhifələrdə ayrı başlıqlar altında ələ alınacaqdır. Hədisləri dəyərləndirərkən istifadə etdiyimiz; Qurana, ağıla və fıtrətə uyğunluq kriteriyaları baxımından tamamilə problemli olan bu hədisin peyğəmbərimiz tərəfindən deyilməsi imkansızdır.

## 13. Qadının, Ulağın və Qara İtin Namazı Pozması

Əbu Hürəyrənin nəql etdiyi ifadə edilən bir başqa hədisdə qadın, ulaq və qara itlə bərabər namazı poza biləcək ünsür olaraq göstərilmişdir:

*Sizdən biriniz namaza durduğu vaxt, önündə dəvə yəhərinin arxa qaşı qədər bir şey olarsa, o özünü təmizləyər.*
*Önündə yəhərinin arxa qaşı qədər bir şey olmazsa bunun namazını ulaq, qadın və qara it pozar.*[136]

Quranda namaz qılanın önündən hər hansı bir şeyin keçməsi ilə namazının pozulacağını bildirən bir hökm yoxdur. Quran, inananlara, namazı tam doğru qılmalarını, dəqiqliklə qorumalarını və namaz qılarkən xuşu (dərin sayğı) içində olmalarını söyləyir. Namazla əlaqəli, Quran ayələrinin heç birində namaz qılanın önündən bir şey keçərsə namazın pozulacağı deyilmir.

Bu hədisdə deyilən namaz pozanlar siyahısına da diqqət çəkmək lazımdır. Qadınlar, (uydurma olduğunu düşündüyümüz) bəzi hədislərə görə şeytan olduğu deyilən qara itlərlə[137] birlikdə yad edilir və adətən aralarında bir əlaqə qurulub alçaldılır. Bu hədis qarşısında Hz. Aişənin *"Bizi ulaq və itlərləmi müqayisə edirsiniz? Allah xatirinə, peyğəmbərin mən qiblə ilə onun arasında yatarkən namaz qıldığını çox gördüm. Belə halda onu narahat etməmək üçün tərpənməzdim"*[138] dediyi qaynaqlarda vardır. Daha öncə də dediyimiz kimi yuxarıdakı hədisi rəvayət etdiyi deyilən və nəql etdiyi rəvayətlərin çoxu mübahisəli olan Əbu Hüreyrəyə Hz. Aişə bir neçə dəfə qarşı çıxmışdır. Hz. Aişə, Əbu Hüreyrəyə şiddətlə qarşı çıxan və onun nəql etdiyi bir çox

[136] Buxari, "Salat", 103, 106; Müslim, "Salat", 265; Əbu Davud, "Salat", 110; Tirmizi, "Salat", 253; Nəsai, "Qiblə", 7.
[137] Əbu Davud, "Salat", 112.
[138] Müslim, "Salat", 270; Fatima Mernissi, *The Veil and the Male Elite,* 70.

hədisi yalanlayanların ən başında yer alır.[139] Hətta bir gün Hz. Aişənin səbrinin daşıb *"Əbu Hüreyrə, heç eşitmədiyin bir sözü (hədisi) danışırsan"* demişdir.

O isə *"Müsəlmanların anası, sən aynan və sürmənlə məşğul ikən mən hədis toplayırdım"* şəklində cavab vermişdir.[140] Buna əlavə olaraq, Hz. Meymunənində *"Rəsulallah mən qarşıda ikən və heyzli ikən namaz qılardı. Bəzən də səcdəyə getdiyi zaman paltarı mənə dəyərdi"*[141] dediyi nəql edilmişdir.

Önündən qara it, qadın və ulaq keçənin namazının pozulacağını ifadə edən hədis, heç bir Qurani dəstəyə sahib olmamasına, Hz. Aişə tərəfindən tənqid edilmiş olduğu bilinməsinə və tam tərsini ifadə edən başqa hədislər olmasına rəğmən məşhur hədis qaynaqlarında "səhih" təbiri ilə yerini qorumaqdadır. Bu da, məşhur hədis qaynaqlarında "səhih" olaraq təqdim olunan bir çox hədisin peyğəmbərimizə iftiralar ehtiva etdiyi gerçəyinə diqqət etməyimiz gərəkdiyini bir dəfə daha göstərir.

Qadınların uğursuz, ağılları və dinləri əksik, namazı pozan, cəhənnəmin çoxunu təşkil edən və ərlərinin haqlarını ödəmək üçün vücudlarını qapayan irini yalayaraq təmizləməyə çalışsalar belə, haqlarını ödəyə bilməyəcək varlıqlar olaraq qəbul edilmələrinin qaynağını təşkil edən hədislərin Əbu Hüreyrəyə istinadla nəql edildiyini bir dəfə daha xatırlayaq. Qadın düşməni bu qədər çox hədisin, yaşadığı dövrdə "yalançılıqla" günahlandırılan, peyğəmbərimizin yoldaşı tərəfindən tənqid edilən, Hz. Ömər tərəfindən cəzalandırılan bir şəxsdən rəvayət edilmiş olması təsadüfdürmü? Yoxsa Əbu Hüreyrənin qadınlarla psixoloji bir problemimi vardı?

---

[139] İbn Kuteybə, *Te'vilü muhtelifi'l-hadis,* 89.

[140] Zəhəbi, *Siyeru a'lami'n-nübela,* II, 604-605; Fatima Mernissi, *The Veil and the Male Elite,* 73.

[141] Buxari, "Salat", 105; Müslim, "Salat", 273; Əbu Davud, "Salat", 91; *Hidayet Şefkatli Tuksal, Kadın Karşıtı Söylemin İslam Geleneğindeki İzdüşümleri*, 234.

Əbu Hüreyrənin psixologiyasını bu gündən baxıb, tam olaraq açığa çıxarmaq mümkün olamasa da, Quran ağıl və fitrətə zidd bu hədislərin uydurma olduğunu söyləmək mümkündür.

# IV. QADIN-KİŞİ MÜNASİBƏTLƏRİ VƏ İQTİSADİ HÜQUQLAR

Peyğəmbərimizdən sonra yaşanan müddətdə, müsəlman qadınların haqları yavaş-yavaş əllərindən alındı və dörd divar arasında, ərlərini məmnun etmək üçün yaşamaları gərəkdiyinə dair anlayış geniş yayıldı. Evlənmədən öncə atasının, evləndikdən sonra isə ərinin adətən köləsi olan bir qadın təsviri qəbul görməyə başladı. Bu anlayışla əlaqəli qaydaların "İslam şəriətinin hökmləri" olduğu, heç bir şəkildə dəyişə bilməyəcəyi və bu qaydalara riayət etməyin dini bir vəzifə olduğu ifadə edildi. Ancaq bunun doğru bir yanaşma olmadığını, bu gün qəbul edilən "şəriət hökmlərinin" önəmli bir qisminin təfsir, fiqh və hədis sahəsindəki demək olar ki, hamısı kişi olan ilahiyyatçıların mübahisəli şərhləri olduğunu və bunların təməlinin Quranda olmadığını bu kitab boyunca göstərməyə çalışdıq.

Qadınlar haqqında "şəriət" başlığı altında müdafiə edilən və içinə bir çox yanlış anlayışın qarışdığı görüş və tətbiqlərin önəmli bir bölümü qadın-kişi əlaqələri ilə bağlıdır. Ayrıca qadınların iqtisadi haqlarının nələr olacağı bu əlaqə baxımından ən kritik məsələlərdən biri olmuşdur. Bu mövzudakı yanlış anlayışların kökündəki önəmli səbəblərdən biri, dini mövzulardakı şərhlərin kişilərin tabeçiliyində olmağıdır; bu bölümün ilk başlığında bu xüsusiyyət ələ alınacaqdır. Daha sonra qadın-kişi əlaqələri baxımından önəmli mövzular olan qadınları döymək icazəsinin kişilərə verilib verilmədiyi, qadınların şahidliyinin kişilərinkindən fərqli olub olmadığı kimi mövzular incələnəcəkdir. Qadınların iqtisadi haqları ilə əlaqəli olaraq isə miras və mehir kimi mövzular ələ alınacaqdır. Bu bölümün içində, ələ aldığımız mövzular baxımından önəmli olan və Quranda keçən *"dərəcə", "qəvvam", "qanitat", "nuşuz", "darabe"* kimi anlayışlar da ələ alınaraq bu

anlayışların mənaları aşkarlanmağa çalışılacaqdır.

## 1. Kişi İlahiyyatçıların Rolu

Quranda, Ramazan ayında oruc tutulması kimi bəzi mövzularda, hökmlər bütün detalları ilə əmr edilmişdir. Digər tərəfdən ədalətin təmin edilməsi və ya israf edilməməsi kimi bəzi mövzularda isə, Quran təməl prinsipləri qoymuş və yüz minlərlə fərqli şərtdə bunların necə tətbiq olunması gərəkdiyinin detallarını müsəlmanlara buraxmışdır. Şüurlu bir müsəlman, Allahın hər an özünü gördüyünün düşüncəsi ilə, bu şərtləri həyatında dəqiqliklə qoruyur. Quranda bəhs edilməyən bir çok mövzu da vardır; dövləti idarə edən siyasi sistemin necə qurulacağı, bu mövzuya bir örnəkdir. Bunlar, Quranın şüurlu susqunluqlarıdır. Quranın bu mövzuda susqun qalmağı sayəsində; istər 7-ci, istər 21-ci əsrdə, istər bir qəbilə dövlətində, istər bir imperatorluqda, şərtlərin tələb etdiyi fərqli siyasi rejimləri Quranla zidd düşmədən qurmaq mümkündür. Əlbəttə Quranda keçən "əmanəti əhlinə vermə" və "ədalət" kimi qanunlar, dəyişən şərtlərdə dəyişməyən Qurani qanunlardır. Amma siyasi rejimin necə qurulacağı insanların anlayışına buraxılmışdır. Quranın buna bənzər şüurlu susqunluqları, tarixin dəyişən şərtlərinə tabe olmağı asanlaşdırmaqdadır. Fəqət bəzi ilahiyyatçılar, Quranın susqun qaldığı mövzularda edilən izahları "dini dünyəvi həqiqətlər" olaraq təqdim etməyə çalışmışdırlar. Hətta bəzi mövzularda Qurana zidd izahları belə dinin bir ünsürü olaraq göstərməyə cəhd etmişdirlər. Bunun səbəbi, bəzən ilahiyyatçıların yaşadıqları dövrdəki siyasi iqtidarın və ya mədəniyyətin istəyinə uyğun şəkildə din yaratma arzuları ikən, bəzən isə din haqqında açıqlamalar edən ilahiyyatçıların, öz cinslərinin (kişilərin) lehinə olacaq şəkildə bir din yaratma arzuları olmuşdur.

Qadınlar haqqındakı uydurmaların önəmli bir bölümü qadın-

kişi münasibətləri ilə əlaqədardır. Kəlam məktəblərinin qurucuları da, məşhur hədis kitablarının yazarları da, geniş tərəfdar kütləsi olan məzhəblərin qurucuları da, aktiv bütün təfsir kitablarının yazarları da hamısı kişidir. Bunların önəmli bir bölümünün, Quranın şüurlu susqunluqlarını həmişə kişilərin lehinə dəyərləndirməyə çalışdıqları görülür. Məsələn Quranda, qadın-kişi əlaqələrində, kimin-kimin istəklərini nə şəkildə edəcəyi mövzusunda şüurlu bir susqunluğun olduğunu söyləyə bilərik. Bu xüsusiyyətdə, bu bölümün mövzusu olan qadın-kişi münasibətiylə əlaqəli bir məsəli düşünək: Bir qadın, qonşusu Aişə Xanıma çay içməyə getmək istəsə fəqət əri bunu istəməsə nə olacağına Qurana baxaraq qərar verə bilməzsiniz. Bu mövzu, o cütlüyün arasında həll edəcəyi bir məsələdir. Lakin Quranın bu kimi mövzularda nə ediləcəyi ilə əlaqəli şüurlu susqunluqları, həmişə kişilərin lehinə qərara bağlanmağa çalışılmışdır. Məsələn örnək olaraq aldığımız mövzuda, qadının ərindən icazəsiz hər hansı bir yerə getməsinin "haram" olduğu ifadə edilmişdir. Hətta bəzi mövzularda, Quranla zidd olan şərhlər, uydurma hədis və ya fiqh vasitəsilə kişilərin leyhinə diniləşdirilməyə çalışılmışdır. Məsələn bir sonrakı başlıqda görəcəyiniz kimi, Quranda ana və atanın haqqına riayət etmək keçməsinə rəğmən, bir qadının ana və ya atasıyla görüşməsi hətta xəstəliklərində onlara yardımı belə ərinin icazəsinə bağlanmışdır.

Çalışmamızın öncəki bölümlərində ifadə etdiyimiz kimi İslam tarixinin ilk dövrlərində qadın ilahiyyatçıların varlığından bəhs edilsə də, zaman keçdikcə qadınlar sosial həyatdan uzaqlaşmağa zorlanmışdırlar. Dolayısı ilə təhsil ala bilən və ilahiyyat və digər bir çox sahədə alim mərtəbəsinə çata bilən qadınlara rastlamaq çox mümkün olmamamışdır. Bu vəziyyət nəticəsində təfsir, fiqh, hədis və kəlam kimi bütün İslami elmlər tamamilə kişilərin nəzarətində qalmış və yaradılan hökmlərdə kişi mərkəzli ifadə hakim olmuşdur. Demək olar ki, bütün kişi olan

ilahiyyatçıların qadınlarla əlaqəli verdiyi hökmlər, çox zaman ilahiyyatçıların yaşadıqları bölgələrin qadına baxış bucağına və mədəniyyətinə görə şəkillənmişdir. Məsələn Mədinədəki bir qadın, öz başına nikah müqaviləsi etməz ikən, Kufədə qadınlara bu haqq verilirdi. [142] Sasaniliyin sinif fərqinə önəm verməsi təsiriylə yaranan, Kufə hüququna görə ərinin yoldaşı ilə eyni sosial quruluşdan olması vacib ikən, belə bir zərurət Mədinə hüququnda yox idi.[143]

Qadının kişi ilahiyyatçılar tərəfindən kişi qarşısında daha aşağı mövqeyə yerləşdirilməsi, özünü xüsusilə evlilik mövzusunda göstərmişdir. Evlilik fiqhçilər tərəfindən ümumiyyətlə “satış müqaviləsi” analogiyası ilə təqdim edilmiş və bu müqavilədə qadın, satılan mal, bu mala sahib olan isə kişi olaraq təsvir edilmişdir. Məsələn 13-cü əsrdə yaşamış olan Mühəkkik əl-Hilli, evliliyi belə təsvir etmişdir:

*“Evlilik, mövzusu vagina hakimiyyəti olan bir sazişdir.”*[144] 14-cü əsrin bir Maliki alimi isə *“Qadın evləndiyində özündən bir qismini satar. Bazarda mal satın alınar, evlilikdə ər cinsi əlaqəni satın alar”* demişdir.[145] Qəzzali də, evlilikdə qadınların vəziyyəti, cinsi xidmətləri ərinə həvalə edilən qadın kölələrə bənzətmişdir. *Ədəb əl-Nikah* adlı əsərində, “Ərinin Haqları” adlı bölümdə, qadının ərinə itaət etməsi və evdən çıxmaması gərəkdiyini bildirmişdir:[146]

*“Evliliyin, qadının ərinə kölə olduğu bir növ köləlik olduğunu söyləmək yetərlidir. Ərinə, ərinin günah olmayan hər istəyinə tam itaət etməklə məsuldur... Peyğəmbər, ərini məmnun*

---

[142] Leila Ahmed, *Women and Gender in Islam,* 89.

[143] Leila Ahmed, *Women and Gender in Islam,* 89-90.

[144] Muhaqqıp Hilli, *Sharayı' al-Islam,* 428; nəql edən Ziba Mir-Hosseini, *Towards Gender Equality: Muslim Family Laws and Shariah,* 29.

[145] F. H. Ruxton, Maliki Law, 106; nəql edən Ziba Mir-Hosseini, *Towards Gender Equality: Muslim Family Laws and Shariah,* 29.

[146] İmam Qəzzali, *The Proper Conduct of Marriage in Islam,* 89; nəql edən Ziba Mir-Hosseini, *Towards Gender Equality: Muslim Family Laws and Shariah,* 29.

*etmiş olaraq ölən qadının cənnətə girəcəyini buyurmuşdur."*[147]

Bu kimi ifadələr ilə evlilikdə, qadının ərinə adətən köləsiymiş kimi itaəti dini bir vəzifə olaraq təqdim olunmuşdur. Halbuki Quranda tərif edilən evlilikdə, yoldaşların arasında qarşılıqlı sevgi və rəhmətin varlığından bəhs edilir, buna qarşılıq bir cins, digərinin adətən kölәsi olaraq təqdim edilmir:

**Rum-21:** ***Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır.***

**Bəqərə-187:** ***Qadınlar sizin üçün bir libas, siz də onlar üçün bir libassınız.***

Fiqh hökmləri, niyə qadını alçaldan, haqlarından uzaqlaşdıran və kişilərə kölə edəcək şəkildə yazılmışdır? Bu suala ikiənddə cavab verilə bilər: Birincisi, ictihadların edildiyi dövrlərdəki ideoloji, sosioloji və siyasi quruluşun ataxaqanlığının təsiri şərhçilərin şərhlərinə yansımışdır. İkincisi, kişi şərhçilər, öz şəxsi mənfəətlərinə də uyğun şəkildə öz cinslərini qurmuşdurlar. O dövrdə mövcud sosioloji normalar, evlilik adətləri və cinsiyyət ideologiyaları müqəddəsləşdirilmişdi və fiqhin içinə sızaraq qanuniləşdi.[148] Professor Abdülaziz Sachedina, bu vəziyyəti belə tərif edir: *"(İslam alimləri) Allahın qanunlarını kəşf etməkdən çox yaratdılar. Yaratdıqları şey, öz istəklərinin, instinktlərinin, mənfəətlərinin tərifi idi..."* Qadın-kişi əlaqələrində qadınların əleyhinə qurulmuş olan vəziyyəti, İslamın içinə sızan fərqli mədəni ünsürləri və din adına danışan və qərar verənlərin kişi olmasını diqqətə almadan anlaya bilmərik. Kişi "din alimlərinin" yaratdığı bu sistemdə, qadına verilən rol; evinin dörd divarı içində

[147] İmam Qəzzali, *The Proper Conduct of Marriage in Islam,* 89; nəql edən Ziba Mir-Hosseini *Toüars Gender Equality:Muslim Family Laws and Shariah, 30.*

[148] Ziba Mir-Hosseini, *Towards Gender Equality: Muslim Family Laws and Shariah,* 33.

yaşamaq, ərini məmnun etmək və uşaqlarına baxmaq üçün çabalamaq ilə məhdudlaşdırılmış, təhsil almalarına belə "daha yaxşı yoldaş" olmaları məqsədilə icazə verilmişdir.[149]

Günümüzdə "İslam" olaraq qəbul edilən hökmlər, Amina Wadudunda dediyi kimi, kişilər tərəfindən yazılmışdır və nəticədə kişilər öz ehtiyaclarını, mənfəətlərini və şərhlərini diniləşdirmişdirlər.[150] Kişilərin inhisarında qalan İslam və Quran şərhçiliyi ilə İslam dünyasında qadının səsi eşidilməz olmuşdur. Kişi təfsirçi, hədisçi və fiqhçilərin etdiyi şərhlərlə "İslamın", qadına kişinin köləsi və xidmətçisi olmasını əmr etdiyi, ərə yoldaşını döymək haqqını verdiyi iddia edilməkdə və qadın-kişi münasibəti baxımından önəmli olan anlayışlar, kişilərin lehinə olacaq şəkildə şərh edilməkdədir. Bu şərhlərə qarşı qadın-kişi münasibəti baxımından önəmli başlıqları və bu mövzu ilə əlaqəli Quranda keçən həll edici anlayışları aşağıda ələ alacağıq.

## 2. Qadınların Ərlərindən İcazə Almadan Küçəyə Çıxa Bilməməsi

Həyatları din adına uydurulanlarla çətinləşdirilən qadınların, ərlərindən icazə almadan küçəyə çıxmaları da qadağan edilmişdir. İslama sırınmış bu yalnış yanaşma, uydurma hədislərlə dəstəklənmiş və Quranda olmayan hökmlər qadınların dini vəzifələriymiş kimi göstərilmişdir. Quranda, qadının evdən çıxarkən ərindən icazə alması gərəkdiyi şəklində bir ifadə yoxdur. Ailədə kimin, nəyi, necə edəcəyi ailə içində veriləcək qərarlarla təyin edilir. Quranın təyin etmədiyi bir hərəkəti fərzləşdirmək böyük günahdır.

**Ənam-114:** ***Allah bu Kitabı sizə təfərrüatı ilə nazil etdiyi***

[149] Zainah Anwar, *Islam and Women's Rights*, 3.
[150] Amina Wadud, *Quran and Woman*, 9.

***halda, mən Ondan başqasınımı hakim qəbul etməliyəm?***

Buna əlavə olaraq, Ali-İmran surəsi 195-ci ayədə Allah, köç edən kişi və qadınlardan, vuruşub işgəncəyə uğrayan kişi və qadınlardan bəhs edir. Bu əməlləri edən qadınların fərd olaraq hərəkət etdikləri və ərlərindən hər hansı bir icazə ehtiyac duymadıqları ortadadır.

**Ali-İmran-195:** ***Rəbbi onlara belə cavab verdi: "Mən, sizlərdən yaxşı işlər görən – istər kişi, istərsə də qadın olsun, - heç bir kəsin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz. Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əbəttə, təqsirlərindən keçəcək və onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəyəm. Bu, Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat məhz Allah yanındadır".***

Bunlara qarşılıq İmam Qəzzalinin məşhur və çox təsirli əsəri İhyau Ülumid Ində nəql etdiyi aşağıdakı hədisə görə qadınlar ərlərindən icazə almadan xəstə atalarını belə ziyarət etməməli, hətta icazə ala bilməzlərsə atalarının cənazəsinə belə getməməlidirlər:

*Adamın biri çölə çıxarkən xanımına evinin üst mərtəbəsindən aşağı enməməsini tənbeh etdi. Alt mərtəbədə olan atası xəstələndi. Qadın atasına xidmət üçün alt mərtəbəyə enmək istədi. Bunun üçün vəziyyəti Rəsuli Əkrəmə xəbər göndərərək ərz etdi. Rəsuli Əkrəm: "Ərinə itaət et" buyurdu. Atası öldü. Qadın atasının cənazəsinə qatılmaq üçün təkrar Rəsuli Əkrəmdən icazə istədi. Rəsuli Əkrəm yenə "Ərinə itaət et" buyurdu. Nəhayət qadına belə xəbər göndərdi. "Əfəndinə (ərinə) olan itəatinin mükafatı olaraq Allah atanı əfv etmişdir" buyurmuşdur.*[151]

Allah, Quranda, insanların öz düşüncələrinə görə halal-haram uydurmalarını açıq şəkildə qınayır. Qadınların ərlərindən

[151] İmam Qəzzali, İhyau Ülumid Din, Cilt: 2, 147-148.

icazə almadan evlərindən çıxmalarının dini baxımdan uyğun olmadığını söyləmək də buna görə qınanacaq bir davranışdır. Əri arvadından və ya arvadı ərindən bəzi hallarda icazə almasını gözləyə bilərlər. Fəqət kimsə öz gözləntilərini dini bir əmr olaraq təqdim edə bilməz. Üstəlik yuxarıda ələ aldığımız hədisə görə qadınların evlərinin alt mərtəbəsindəki xəstə atalarını belə ərlərindən icazə almadan ziyarət edə bilməyəcəkləri ifadə edilir. Quranda ana-ataya yaxşı davranmaq bir çox ayədə ifadə edilmişdir. Bu hədisin bu ayələrlə zidd olmağı, aydın şəkildə uydurma olduğunu göstərməyə yetərlidir. Quranın bir əmri necə ərinin icazəsinə bağlana bilər? Bir insan əgər xəstə yatağındakı ana-atasıyla belə maraqlana bilmirsə onlara yaxşı davrandığı söylənə bilərmi?

**İsra-23:** ***Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!***

**Ənam-151:** ***De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum". Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allahın, öldürülməsini haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə anlayısınız.***

Ayrıca mövzu olan hədisin uydurma olduğunu göstərən digər bir xüsusiyyət də budur; Peyğəmbərimizin, adı keçən hədisin iddia etdiyinin tərsinə, kimin cənnətə kimin cəhənnəmə gedəcəyi məlumatına sahib olmadığını yenə Qurandan öyrənirik. Bu qeyb bilgisidir və axirətdə bəlli olacaqdır.

**Əraf-188:** ***De: "Mən Allahın istədiyindən başqa özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadir deyiləm. Əgər qeybi bilsəydim, əlbəttə, özüm üçün xeyir artırardım və mənə pislik***

***toxunmazdı. Mən sadəcə, iman gətirən bir qövm üçün qorxudan və müjdələyənəm".***

Qısacası bir çox baxımdan Quran ilə ziddiyət təşkil edən və Quranın qərarlaşdırmadığı bir haramı təbliğ edən bu hədisin uydurma olduğu çox açıqdır. Təəssüf ki, qadınlara hökm etmək üçün dinin kişi ilahiyyatçılar tərəfindən vasitə edildiyi və peyğəmbərimizə bir çox uydurma hədis istinad edildiyi açıq şəkildə görülür

## 3. Kişilərin *"Dərəcə"* Sahibi Olması

Qadınların kişilərə xidmətini və itaətini dini vəzifə olaraq təqdim edənlər, çox vaxt uydurma hədislərə və ya xalq üzərində nüfuzu olan bəzi məşhur adlara (Qəzzali kimi) istinadlarla bu görüşlərini qəbul etdirməyə çalışmışdırlar. Bəzən bu məqsədi dəstəkləmək üçün Qurandan dəlil gətirməyə çalışmaqdan da çəkinməmişdirlər. Məsələn Bəqərə surəsi 228-ci ayədə keçən *"Kişilərin onların üzərində bir dərəcəsi (öncəliyi) üstünlüyü vardır..."* ifadəsi, ayənin kontekstindən qoparılıb, ümumi olaraq kişilərin qadınlara üstün olduğu şəklində mənalandırılmağa və qadınların kişilərə mütləq bağlılığı Quran ilə təməlləndirilməyə çalışılmışdır. Ayənin bütünü belədir:

**Bəqərə-228:** ***Boşanmış qadınlar üç heyz müddəti gözləməlidirlər. Əgər Allaha və Axirət gününə iman gətirərlərsə, Allahın onların bətnində yaratdığını gizlətmək onlara halal olmaz. Əgər bu müddət ərzində onların ərləri barışmaq istəsələr, onları qaytarmağa daha çox haqlıdırlar. Kişilərin qadınlar üzərində şəriətə müvafiq haqları vardır. Kişilərin onların üzərində bir dərəcəsi (öncəliyi) üstünlüyü vardır. Allah Qüdrətlidir, Müdrikdir.***

Yuxarıdakı ayədən öncə və sonra gələn ayələri oxuduğumuzda burdakı mövzunun boşanma ilə əlaqəli olduğunu

anlayırıq. Əvvəla burada sözügedən kişilərin, ümumi olaraq kişilər olmadığını; ayənin bəhs etdiyi kişilərin, boşanma yaşadıqdan sonrakı gözləmə müddətini (iddəti) gözləyən qadınların köhnə ərləri olduğunu unutmamalıyıq. Bu ayədəki *"buletu-hunne"* kəliməsi, boşanmış və iddət gözləyən qadınların ərlərini ifadə edən bir kəlmədir; bu ayə, boşanma və sonrasındakı müddətlə əlaqəlidir. Dolayısıyla bu ayədən hərəkətlə ümumi olaraq kişilərin qadınlara qarşı mövqeyilə əlaqəli bir mühakimə yeritmək mümkün deyildir.

Quran, boşanma müddətində qadınların üç heyz müddəti gözləmələri gərəkdiyini söyləyir.[152] Bu müddət içində əgər hamilə olduqları anlaşılarsa hamilələrin iddəti hamiləliyin sona yetməsiylə bitər (Talaq surəsi 4). Bu gözləmə dövründə, boşanmış olan qadının başqa bir kişi ilə evlənməsi qadağandır. Ancaq iddətin bitməsiylə yeni bir evlilik edilə bilər. Bu tətbiq; uşaqların atasının yalnışlıqla qarışdırılmasını, irəliləyən dövrdə uşağın atasının kim olduğu ilə əlaqəli dedi-qodu çıxmasını, qadının ayrıldığı ərinin uşağını qəsən yeni ərinin imiş kimi göstərməsini və ya ərinin özündən olan uşağının başqasından olduğunu söyləyib, məsuliyyətdən boyun qaçırması kimi ola biləcək problemlərin qarşısını kəsəcək çox yararlı bir tətbiqdir. Ayrıca bir hirslə boşanmış cütlüklər, bu iddət dövründəki ayrılıqda evliliklərini bir daha düşünmə və ya qadının hamiləliyi ilə yeni bir hal yaranmasıyla yenidən evlənməyə qərar vermə şansına sahib olarlar. İddət gözləməyin, belə hikmətləri də ola biləcəyi görülməkdədir.

İddət gözləyən qadın, bu müddət zərfində, başqasıyla evlənə bilməz amma boşandığı ərinə dönə bilər. Bu icazə də qadının boşandığı ərinə, digər kişilərə nəzərən, qadınla evlənmə mövzusunda bir "öncəlik" *(dərəcə)* verir. Ayrıca bu *"dərəcə"*

[152] Əgər ər-arvad evliliklərində cinsi əlaqə yaşamamışdırlarsa o zaman qadınların üç heyz gözləməsi lazım gəlməz (Əhzab surəsi 49).

ifadəsi, iddət bitdiyində köhnə əri seçimdə bir "öncəlik" olduğu şəklində də qəbul edilə bilər. Hər vəziyyətdə, qadın, iddəti bitəndə, dilədiyi kişi ilə evlənmə azadlığına sahibdir. Qısacası ayədə keçən *"Kişilərin onların üzərində bir dərəcəsi (öncəliyi) üstünlüyü vardır..."* ifadəsi, boşanmış ər-arvadlarla əlaqəlidir, boşanmaya qərar verilmiş bir evliliyi qurtarmaqla əlaqəlidir; yoxsa ümumi mənada kişilərin qadınlar üzərində bir dərəcə üstün olduqları ilə və ya bir cinsin digər cinsə üstünlüyü ilə əlaqəsi yoxdur.

## 4. Kişilərin "Himayəçi" (Qəvvam) Olması

Nisa surəsinin 34-cü ayəsindəki bir neçə ifadə, qadın-kişi münasibətləri ilə əlaqəli iddia edilənləri başa düşməkdə həll edici rola sahibdir. Bu və bundan sonrakı iki başlıqda, bu ayədə keçən mübahisəyə səbəb olmuş, həmin ifadələri incələyəcəyik. Bu başlıqda ilk öncə "himayəçi" *(qəvvam)* kəlməsini ələ alacağıq. Bəziləri bu ifadədən, kişilərin qadınlardan üstün olduğunun anlaşıldığını söyləmişdirlər. Bu kəlmənin "idarəçi, rəhbər, hakim, ailə rəisi" kimi alt-üst münasibəti göstərəcək şəkildə tərcümə edildiyinə də şahidlik edirik. Ayrıca, ayənin davamında işlədilən və "üstün" mənasına gələn *"fəzzələ"* kəlməsini də, kişilərin qadınlara üstünlüyünün bir nişanəsi olaraq şərh edənlər olmuşdur. Ayənin bu bölümünün tərcüməsi belədir:

***Nisa-34: Kişilər qadınlar üzərində himayəçidirlər (qəvvamunə). Ona görə ki, Allah insanların bəzilərini bəzilərindən üstün qılmışdır (fəzzələ) və kişilər mallarından bolca xərcləmişdirlər…***

Mövzuya ilk öncə *"qəvvam"* kəlməsini incələyərək başlayaq. *"Qəvvam"* kəlməsi *"qaim"* kökündən gələn bir kəlmədir və "ayaqda tutan" deməkdir. *"Qiyam"* kəlməsi də eyni

kökdən gəlir və “ayağa qalxmaq” mənasına bildirir. Allahın sifətlərindən biri olan *“qəyyum”* da eyni kökdən gəlməkdə və yaratdıqlarının varlıqlarını sürdürmə mənası verməkdədir.

**Nisa-135:** ***Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun. Əleyhinə şahidlik edəcəyiniz şəxslərin varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Arzularınıza uyaraq haqdan uzaqlaşmayın! Əgər siz yalan danışsanız və ya həqiqəti deməkdən boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır***

**Həcc-26:** ***Bir zaman Biz İbrahimə evin (Kəbənin) yerini nişan verib: “Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku və səcdə edənlər üçün təmizlə!” – demişdik.***

Bu kəlmənin, iqtisadi münasibətlər üçün də işləndiyini, yenə Quranda görürük. Məsələn, Nisa surəsi 5-ci ayədə belə deyilir:

**Nisa-5:** ***Dolanışığınız üçün Allahın sizə vasitə etdiyi mallarınızı ağılsızlara verməyin. Onlara o maldan yedirdib geyindirin və onlara yaxşı nəsihətlər verin.***

Ayədə, iqtisadi olaraq ayaqda durma (qiyamən) vasitə olaraq təqdim edilən malların ağılsızlara verilməməsi gərəkdiyi söylənir; beləcə bu şəxslər, özlərini dolandırıb mallarını yox etmə ehtimalı olan şəxslərə qarşı qorunmaqdadırlar. Bənzər şəkildə Nisa surəsinin 34-cü ayəsində də eyni kökdən *“qəvvam”* kəlməsinin “maddi olaraq ayaqda tutmak, himayə etmək” mənasına gəldiyi görülür. Necə ki, ayənin davamında kişilərin mallarından bol xərclədikləri mövzu edilir ki, bu da ayənin başındakı *“qəvvamunə”* kəlməsinin maddi olaraq “himayə etmək” olaraq şərh edilməsi gərəkdiyi iddiasını dəstəkləyir. 20-ci əsrin məşhur təfsirçilərindən Məhəmməd Əsəd, ayədə keçən *“qəvvamunə”* kəlməsini tamamilə maddi cəhətdən ələ almışdır.

Əsədə görə burada cinslər arasında iyerarxik bir üstünlükdən bəhs edilmir. Təfsir tarixinin ən məşhur simalarından Təbəridə bu ayənin, kişinin maddi vəzifələrindən bəhs etdiyini söyləmiş[153] və bu anlayışı sosial-iqtisadi cəhətdən açıqlamışdır.[154] Qısacası ayənin başında keçən *"qəvvamunə"* kəlməsindən kişilərin "hakim, üstün, ailə rəisi" olduğu kimi mənaları çıxarmaq, zorlama bir yanaşmadır.

Diqqət edilməli başqa bir xüsus da budur: Bu ifadələr, "belə edin və ya etməyin" şəklində bir əmr və ya qadağa ehtiva etmir. Fəqət olan ümumi vəziyyəti tərif edir. Keçmişdə olduğu kimi günümüzdə də, əksər hallarda ailədəki iqtisadi məsuliyyətin kişi tərəfindən öhtələndiyi sosial bir həqiqətdir. Əlbəttə bu vəziyyətin istisnaları var; keçmişdə bu istisnalar görüldüyü kimi, günümüzdə keçmişə görə daha da sıx görülür. Madam ki *"qəvvam"* olma, iqtisadi ehtiyacları qarşılamaqla yaranan bir vəziyyətdir;
o halda bir ailənin iqtisadi ehtiyaclarını kişi deyil, qadın qarşılayırsa *"qəvvam"* həmin qadın olacaqdır. Digər yandan qadın və kişi, ikisi birlikdə bu iqtisadi ehtiyacları qarşılayırlarsa *"qəvvam"* ikisi də olacaqdır. Ayənin *"qəvvam"* olmağı bir qrup səbəblərə bağlamasından dolayı, bu səbəbləri təmin edənin dəyişməsiylə *"qəvvam"* olanın dəyişdiyini anlamağımız lazımdır. Görüldüyü kimi ümumi vəziyyəti tərif edən Quran ifadələriylə, əmr və ya qadağa açıqlayan ifadələr arasındakı fərqi, diqqətli bir şəkildə ayırd etməliyik.

Ayənin davamındakı *"...Bundan ki, Allah, bəzilərini bəzilərindən üstün qılmışdır (fəzzələ) və kişilər mallarından bol xərcləmişdirlər..."* ifadəsinin doğru açıqlanması da ayənin mənasını anlamaq baxımından önəmlidir. Diqqət edilərsə, Nisa surəsi 34-cü ayədə, kişilərin qadınlara üstün qılındığı

[153] Asma Barlas, *The Believing Women in Islam*, 187.

[154] Sa'diyya Shaikh, *Exegetical Violence*; *Nushuz in Quranic Gender Ideology*, Vol: 17, 7.

söylənməməkdədir. Belə bir hal deyilmək istənsəydi, kişilərin qadınlardan üstün olduğu, ərəbcədə kişi və qadın üçün fərqli əvəzliklər işlədilməsindən istifadə edilərək, rahatlıqla söylənə bilərdi. Belə ki; ayədə keçən *"əla bəzin"* (bir-birindən) ifadəsi, özündən üstün olunanları ifadə edir. Burada əgər qadınlar üçün fərqli əvəzlik işlədilə bilməsindən istifadə edilərək *"əla bəzihinnə"* (bəzi qadınlardan) deyilsəydi, üstün olanların kişi, üstün olunanların qadın olduğu anlaşılacaqdı.[155] Lakin belə deyilməyib, dəyişən durum və şərtlərə görə, bəzi insanların digərlərindən, bəzi xüsusiyyətlər də üstün olduğu halların ortaya çıxdığı vurğulanmışdır.

Nisa surəsi 34-cü ayədəki *"bəzilərini bəzilərindən üstün qılmışdır"* ifadəsi, bənzər şəkildə Rad surəsi 4-cü ayədə işlədilmişdir; burdakı işlənmə şəkli də bu ifadəni anlamağımıza işıq tutur.
Ayə belədir:

**Rad-4:** ***Yer üzündə bir-birinə yaxın müxtəlif münbitli torpaq sahələri, üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Onlar eyni su ilə suvarılır. Lakin Biz yeyilməsinə görə onların birini digərindən üstün edirik. Doğrudan da, bunda anlayanlar üçün (Allahın qüdrətinə və vəhdaniyyətinə dəlalət edən) dəlillər vardır.***

Eyni su ilə sulanan meyvələrdə də bir çox fərqlilik vardır. Bəzisi digərindən bir vitamin və ya mineral baxımından üstün ola bilər, digəri böyüklükdə üstün ola bilər, o biri də ləzzətdə üstün ola bilər. Nəticədə biri öz fərqliliyi ilə digərlərindən bəzi xüsusiyyətlərdə üstün ikən, bəzi xüsusiyyətlərdə də digərləri ondan üstündür. Eyni hal insanlar üçün də keçərlidir. Bəzi xüsusiyyətlərdə biri, bəzi xüsusiyyətlərdə başqa biri, müxtəlif üstünlüklərə sahib ola bilər. Qısacası Nisa surəsi 34-cü ayədən, bir

---

[155] 155 Mehmet Okuyan, *Yayımlanmamış Tefsir Notları*.

cinsin digərinə doğuşdan üstün olduğunu anlamaq mümkün deyildir.

## 5. "Qanitat" Allahamı Ərəmi İtaətkar Qadın?

Bəziləri, Nisa surəsi 34-cü ayədəki *"qanitatun"* kəlməsini, qadınların ərlərinə itaət etmələri gərəkdiyi şəklində mənalandırmağa çalışmışdırlar. Öncə, Nisa surəsi 34-cü ayənin bu ifadəni ehtiva edən tərcüməsinə baxaq:

**Nisa-34:** ***Kişilər qadınlar üzərində himayəçidirlər. Ona görə ki, Allah, insanların bəzilərini bəzilərindən üstün qılmışdır və kişilər mallarından bol xərcləmişdirlər. Yaxşı qadınlar könüldən itaətkardırlar (qanitatun). Allahın özlərini qoruduğu kimi, görünməyən yerdə də qorunurlar…***

*"Qanətə"* kökündən gələn *"qanitatun"* kəlməsi, təməl olaraq "boyun əymək, itaət" mənasına gəlir; özəlliklə qəlbən güclü bir bağlılığı, itaəti ifadə edir. Buradakı önəmli sual budur: Burada özünə itaət edilməsindən bəhs edilən ərdir, yoxsa Allah? Əvvəla buna diqqət edək; bu ayədə *"yaxşı" (səlihətu)* qadınların *"qanitatun"* olduğundan bəhs edilir. Quranın bütünlüyünə baxdığımız zaman, bir insanı "yaxşı" insan edəcək xüsusiyyət, ərinə deyil, Allaha itaətidir; ərinin yanlış şeylər tələb etməyi mümkündür və bunlara itaətlə "yaxşı" *(səlihətu)* qadın olunacağı düşünülə bilməz. Quran, insanlara Allaha itaət etmələrini əmr edir və yaxşılığı bunun üzərindən tanıdır; bir cinsin digərinə xidmət etmək üçün yaradılmış olduğu fikrini qətiliklə dəstəkləmir. Əlavə olaraq ayədə diqqət çəkilən qadınların evli olduğunu göstərən heç bir işarə də yoxdur; bəhs edilən evli və ya subay qadınlar deyil, ümumi olaraq qadınlardır. Ayrıca ayənin davamında bildirilən "görünməyən yerdə qorunmaq" feili, hər şeyi görən Allahın əmrlərindən dolayı yerinə gətirilən müsəlmanca bir davranışdır və bu da *"qənitatun"* ifadəsini "Allaha könüldən itaət" olaraq

anlamağımızı tələb edir.

Quranın bütününü incələdiyimiz zaman eyni kəlmənin işləndiyi digər ayələrdə bu anlayışla həmişə “Allaha itaət etməyin” nəzərdə tutulduğunu və qulun Allahla olan əlaqəsinin izahını görürük. Quranda bu kəlmə “Allaha itaət” olaraq həm kişilər üçün, həm də qadınlar üçün işlədilir. Örnək ayələr bunlardır:

**Bəqərə-238:** ***Namazları və orta namazı qoruyun. Könüldən itaətlə (qanitinə) Allah üçün namaza durun.***

**Ali-İmran-17:** ***Onlar səbr edənlər, doğru olanlar, könüldən itaətkar olanlar (qanitinə), nemət və imkanlardan başqalarını yararlandıranlar; səhər vaxtlarında bağışlanma diləyənlərdir.***

**Nəhl-120:** ***Gerçəkdən də İbrahim bir ümmət idi; Allaha könüldən itaətkar (qanitən) və birləyici idi. O, şərik qoşanlardan deyildi.***

**Təhrim-12:** ***Allah, namusunu sağlam qoruyan İmran qızı Məryəmi də örnək verdi. Ona ruhumuzdan üflədik. O, Rəbbinin kəlmələrini və kitablarını təsdiq etdi və könüldən itaət edənlərdən oldu (qanitinə).***

**Əhzab-35:** ***Allah bu şəxslər üçün bir əfv edilmə və böyük bir mükafat hazırlamışdır: Müsəlman kişilər və müsəlman qadınlar; mömin kişilər və mömin qadınlar; könüldən itaət edən kişilər (qanitinə) və könüldən itaət edən qadınlar (qanitəti); doğru kişilər və doğru qadınlar; səbr edən kişilər və səbr edən qadınlar; Allah qorxusuyla ürpərən kişilər və Allah qorxusuyla ürpərən qadınlar; sədəqə verən kişilər və sədəqə verən qadınlar; oruc tutan kişilər və oruc tutan qadınlar; iffətlərini qoruyan kişilər və iffətlərini qoruyan qadınlar; Allahı çox anan kişilər və Allahı çox anan qadınlar.***

Görüldüyü kimi Quranın bütünlüyündə *“qanitinə/qanitəti”* kəlməsi Allaha könüldən itaət edən kişi və qadınları ifadə edir. Bu səbəbdən dolayı, Nisa surəsi 34-cü ayədə də işlədilən bu kəlməyə

yenə bu mənanı vermək ən doğrusudur. Bu ifadəyə əgər "ərə itaət" kimi bir məna verilərsə, ayrıca belə qəribə nəticələr də çıxır: Quranda, məsələn Əhzab surəsi 35-ci ayədə, "könüldən itaətkar qadınlardan" *(qanitəti)* bəhs edildiyi kimi "könüldən itaətkar kişilərdən" *(qanitinə)* də bəhs edilir. Əgər buradakı itaəti bir cinsin digərinə itaəti olaraq anlayacaq olsaq, o zaman ayədə keçən "könüldən itaətkar kişilər" izahı ilə, ərlərin yoldaşlarına itaətindən bəhs edildiyini anlamağımız gərəkməzmi? Əlbəttə bu yalnış mənanı heç bir təfsirçi verməmişdir. Fəqət eyni təfsirçilərin bir qismi Nisa surəsi 34-cü ayədə "qadının yoldaşına itaətinin" qəsd edildiyini söyləmişdirlər. Burada bir dəfə daha təfsirçilərin, fiqhçilərin və hədisçilərin cinsiyyətlərinin (hamısının kişi olmasınını), etdikləri şərhlərdə təsiredic amil olduğuna diqqət etmək lazımdır.

## 6. Qadınları Döyməkmi Məkanları Ayırmaqmı?

Nisa surəsi 34-cü ayənin ilk yarısında mübahisəyə səbəb olan anlayışları bundan öncəki iki başlıqda incələdik. Eyni ayənin ikinci yarısında, qadınların ərləri tərəfindən döyülməsinə icazə verildiyi irəli sürülmüş və bu da bir çox mübahisəyə səbəb olmuşdur. Bu başlıqda, bu mövzunu ələ alacaq, mübahisə baxımından önəmli olan və ayədə keçən *"nuşuz"* və *"darabe"* qavramlarını incələyəcəyik. Öncəliklə ayənin bütününün tərcüməsini incəliyək:

**Nisa-34:** ***Kişilər qadınlar üzərində himayəçidirlər. Ona görə ki, Allah, insanların bəzilərini bəzilərindən üstün qılmışdır və kişilər mallarından bolca xərcləmişdirlər.Yaxşı qadınlar könüldən itaətkardırlar. Allahın özlərini qoruduğu kimi, görünməyən yerdə də qorunurlar. Keçimsizliklərindən (nuşuzə-hunnə) qorxduğunuz qadınlara öyüd verin, yataqlarında yalnız buraxın və onlarla məkanlarınızı ayırın (və-dribu-hunnə).***

***Bunun üzərinə sizə uyarlarsa artıq onlar əleyhinə bir yol axtarmayın. Allah ucadır, böyükdür.***

Bu mövzuda, ilk öncə "keçimsizlik" mənasını verdiyimiz *"nuşuz"* qavramını ələ alaq. Bu kəlmə "yüksəklik, çıxıntı" mənalarına sahibdir. Mücadilə surəsi 11-ci ayədəki işlənməsində bu kəlmənin "qalxmaq, yüksəlmək" mənasını görürük (oturan insan qalxarkən"yüksəlmiş" olur).

**Mücadilə-11:** ***Ey iman edənlər! Sizə "Məclislərdə yer açın" deyildiyi zaman açın ki, Allah da sizə genişlik versin. Və sizə "qalxın" (ənşuzu) deyiləndə də qalxın (ənşuzu). Allah, içinizdən iman edənləri və özlərinə elm verilənləri dərəcələrlə yüksəltsin. Allah etdiklərinizdən xəbardardır.***

Ayənin davamında *"darabe"* ifadəsini "döymək" olaraq tərcümə edənlər, hər halda verdikləri "döymək" mənasını keçimsizlik edənlərə tətbiq üçün ağır bir cəza gördüklərindən, *"nuşuz"* kəlməsinin mənasını ağırlaşdırmağa qərar verərək, kəlməyə "iffətsizlik, sədaqətsizlik" mənası verməyi daha uyğun görmüşdürlər. Fəqət *nuşuz"* kəlməsinə "iffətsizlik" mənası vermək, həm təhrifdir, həm də Quranla uyğun deyildir. Çünki Quranda, iffətsiz kişilərlə iffətli qadınların və iffətsiz qadınlarla da iffətli kişilərin evlənməyi uyğun görülməmişdir. Nur surəsi 3-cü ayədə belə buyrulur:

**Nur-3: Zinakar kişi ancaq zinakar, yaxud müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar, yaxud müşrik bir kişiyə ərə gedə bilər. Bu (belə bir evlənmə), mö´minlərə haram edilmişdir.**

Bu halda, *"nuşuz"* əgər iffətsiz olmaq olsaydı; "nuşuz" etdiyindən şübhə edilən qadınları "döymək" deyil, boşamaq lazım gələrdi. Ayrıca *"nuşuz"* qavramına, Nisa surəsi 128-ci ayədə bu dəfə kişilərə istinad edilərək diqqət çəkilir. Burada da *"nuşuz"* edəndən boşanma gündəmə gətirilmir, barışığa getməkdən bəhs edilir. Fəqət *"nuşuz"* əgər "iffətsizlik" isə *"nuşuz"* halı ortadan

qalxmadan, necə bunun üzərinə barışığa yönəlmək təsdiqlənə bilər? Əgər *"nuşuz"* iffətsizlik mənasında işlədilmiş olsaydı, burada boşanmağa diqqət çıkilməsi gözlənilərdi. Ayə belədir:

**Nisa-128:** ***Əgər bir qadın ərinin keçimsizliyindən (nuşuzən) və ya üz çevirməsindən qorxarsa, aralarında bir barışıqda ikisi üçün də bir günah yoxdur. Barışıq daha xeyirlidir. Nəfslər qısqanclığa və xəsisliyə meyillidir. Əgər yaxşılıq edib və (günah etməkdən) çəkinsəniz, həqiqətən də Allah, etdiklərinizdən xəbərdardır.***

Qısacası kəlmənin istər lüğəvi mənası, istərsə də Quranda bu kəlmənin işlənməsi bu kəlməyə verilmək istənən "iffətsizlik" mənasını inkar edir və "keçimsizlik" mənasını verməyimizi tələb edir.

Nisa surəsi 34-cü ayədə, bir çox evlilikdə qarşılaşılması mümkün olan anlaşılmazlıq hallarında edilə biləcəklər sıralanmaqdadır. Burada diqqət edilməsi gərəkən bir digər xüsusiyyət də budur: Bəzı tərcümələrin belə edilmiş olmasına qarşılıq olaraq ayədə, "öncə öyüd verin, olmadı yataqlarınızı ayırın, olmadı məkanları ayırın" şəklində tədrici mərhələlər tövsiyə edilir. Ayədə bir problemi həll etmək üçün tövsiyyələr verilir və bir sonrakı ayədə də (Nisa surəsi 35) evli cütlüyün ayrılmasından narahatçılıq edilərsə, kişi və qadın tərəfindən bir hakim seçilərək aralarının düzəldilməsi üçün cəhd edilməsinə diqqət çəkilir. Ayədə işarə edilən həll tövsiyələrinin, bir neçəsinin bərabər tətbiq edilməsi də, şəxsin öz vəziyyətinə uyğun olanını seçib o həlldən mədət umması da, ayədəki sıranı tədricən tətbiq etməsi də mümkündür. Ayədə tədrici bir sıralama olmaması, bütün bu seçimləri mümkün qılır, bu elastikliyi təqdim edir.

Bu ayə ilə əlaqəli ən çox mübahisə edilən hal isə *"darabe"* felinə bu ayədə nə məna veriləcəyi olmuşdur. Bizim "məkanlarınızı ayırın" deyə tərcümə etdiyimiz *"darabe"* felinə, bir çox tərcümədə "döyün" mənası verilmişdir. Əvvəla bunları

təyin etməliyik: Burada işlədilən *“darabe”* kəlməsi, ərəbcədə ən çox fərqli mənaya sahib olan kəlmələrdən biridir. Bunu anlamaq üçün hər hansı bir ərəbcə lüğətə baxmaq yetərli olacaqdır. Bu kəlmə “döymək” mənasını daşıdığı kimi “məkandan ayrılmaq, yola çıxmaq” kimi mənalara da, başqa bəzi mənalarada sahibdir. Bu kəlmə, Qurandakı 50-dən çox yerdə islədilərək, fərqli mənalarda istifadə edilmişdir.

Demək olar ki, hər dildə belə bir çox mənaya gələn kəlmələr mövcuddur. Türkcədəki “yüz” kəlməsi bir örnəkdir. “Üz” kəlməsi başımızın ön bölümü mənasında da (üz), heyvanın dərisini çıxarma mənasında da (üzmək), dənizdə hərəkət mənasında da (üzmək) işlədilir. Bu tip çox mənalı kəlmələr bir mətndə işlədildiyi zaman, kəlmənin hansı mənasında işlədildiyinə qərar verilə bilməzsə, öncə bu kəlmənin işləndiyi cümlənin iç bütünlüyünə, sonra cümlənin öncəsinə və sonrasına (siyak və sibak olaraq adlandırılır) baxılır. Əgər bunlarla da qərar verilə bilməzsə, mətnin bütününə baxılır və mətnin bütünlüyü içində hansı mənanın ən uyğunu olduğu qərarlaşdırılmağa çalışılır. Nisa surəsi 34-cü ayədə də etməli olduğmuz bu metodu tətbiq etməliyik.

Quranda *“darabe”* kökündən törəyən kəlmələrlə yaranan ifadələrin fərqli işlənmələrini göstərən bir neçə örnəyə baxaq. Saffat surəsi 93-cü ayədə bu kəlmə “vurmaq” mənasında işlədilmişdir:

**Saffat-93:** ***Sonra yanaşıb sağ əliylə bir zərbə (darbən) endirdi.***

Quranda bu kəlmə örnək vermək mənasında çox sıx işlədilmişdir:

**Bəqərə-26:** ***Gerçəkdən də Allah, bir milçəyi hətta onun da üstündəki bir varlığı örnək verməkdən (yadribe) çəkinməz...***

Yuxarıdakı ayədə olduğu kimi “örnək vermək” mənasında *“darabe”* kökündən törəyən kəlmələrin işlənmələri əksər hallarda

“məsəl, misal, əmsal” kəlmələriylə birlikdə ifadə edilir. Fəqət bu kəlmələrlə birlikdə işlədilmədən eyni mənanı verən örnək də vardır:

**Zuxruf-58:** ***Və dedilər: “Bizim ilahlarımız, yoxsa O daha xeyirlidir?” Bunu sənə ancaq mübahisə etmək üçün örnək olaraq verdilər (darabuhu). Onlar gerçəktən də düşmən bir toplumdur.***

Bunlarla birlikdə aşağıdakı ayədə olduğu kimi “uzaq tutmaq” mənasında da işlədilmişdir. Bu mənanın mübahisəyə səbəb olan ayədə verdiyimiz “məkanları ayırmaq” mənasına qarşılıq gəldiyini söyləyə bilərik:

**Zuxruf-5:** ***Azğınlıq edən bir toplumsunuz deyə, o xatırladıcını (Quranı) sizdən uzaqmı tutaq (nadribu)?***

Quranda, aşağıdakı nümunədə olduğu kimi, *“darabe”* kəlməsi sıxlıqla “məkandan ayrılmaq, səfərə çıxmaq, uzaqlaşmaq” mənasında da işlədilmişdir:

**Nisa-101:** ***Yer üzündə səfərə çıxdığınız (darabtum) zaman, inkarçıların sizə bəla çıxarmalarından qorxsanız, namazı qısaltmağınızda sizin üçün bir günah yoxdur. Gerçəkdən də, kafirlər sizin üçün açıq bir düşməndir.***

Qısacası *“darabe”* kəlməsinin istər lüğəvi mənalarına, istər Qurandakı istifadə edilən mənasına baxdığımız zaman həm vurmaq, həm də məkanları ayırmaq mənalarının mövcud olduğunu görürük. Fəqət *“darabe”* felinin “vurmaq” mənası olmasına baxmayaraq, Quranda insanın insana vurması mənasında “vurmaq” kəlmələrinin heç birinin *“darabe”* feliylə uyğunlaşmadığını deməliyik. Məsələn, Qəsəs surəsi 15-ci ayədə Hz. Musanın düşmən qövmdən olan birinə vurması üçün “vəkəzə”; Zariyat surəsi 29-da Hz. İbrahimin yoldaşının öz əli ilə öz üzünə vurması üçün “sakkət” kəlmələri işlədilmişdir.

Quranın bütünlüyü içində bu məsələni dəyərləndirdiyimiz zaman “məkanları ayırmaq” mənasını seçəcəyimizə səbəb olacaq

səbəblər görməyimizə baxmayaraq “vurmaq” mənasını seçim etmək üçün heç bir səbəb görmürük. Çünki Quranın heç bir yerində, bir insanın digər bir insana öz qərarı ilə şiddət tətbiq etməsi ifadə edilmir. Nur surəsi 6-9-cu ayələrdəki, ərin yoldaşı ilə əlaqəli zina iddiası bu mövzunu anlamaqda çox önəmlidir. Xatırlanacağı üzərə bir qadınla əlaqəli zina iddiasında olan şəxs dörd şahid göstərmək məcburiyyətindədir. Fəqət bu iddiadakı şəxs qadının əridirsə, dörd şahid göstərmədən Allah adına dörd dəfə and içərək bu mövzuda şahidlik edə bilər, beşincisində isə əgər yalançılardan isə Allahın qəzəbinin öz üzərinə olmağını diləyər. Buna qarşılıq qadın eyni şəkildə müqabilə edərsə, yəni dörd dəfə ərinin yalançılardan olduğunu və əgər özü yalan söyləyirsə Allahın qəzəbinin öz üzərinə olmağını söyləyərsə, qadına bir cəza tətbiq edilmə bilməz. Fikir verin, bir ər yoldaşını zina halında görmüşsə belə, qadına öz əli ilə bir cəza tətbiq etməyinin Qurani bir referansı yoxdur. Buradan da hərəkət ilə, Nisa surəsi 34-cü ayədə keçimsizlik halında, hədləri bəlli olmayan bir şəkildə ərin arvadını döyə biləcəyinin ifadə edildiyini düşünməkdənsə, keçimsizlik durumunda boşanmadan öncə bir tədbir olaraq ayrı məkanlarda yaşamalarının söyləndiyini düşünmək daha məqbul görüür.[156]

Burada öncədən diqqət çəkdiyimiz kimi *“nuşuz”* kəlməsinin “keçimsizlik” olaraq tərcümə edilməsi gərəkdiyini bir daha vurğulamalıyıq. Çünki, zina halında belə döyməyə icazə verilməmişkən, keçimsizlik halında bu icazənin verildiyini düşünməkdənsə “məkanları ayırmağın” söyləndiyini düşünməyimizin niyə daha tutarlı olduğu, bu məna ilə daha yaxşı anlaşılır. Ayrıca *“darabe”* kəlməsinə “döymək” mənasını verənlərin, ayədə heç olmayan “xəfifcə” kimi kəlmələri əlavə edərək ayəni “xəfifcə döymək” şəklində tərcümə etmələri və ayəni açıqlayanların “sadəcə salfetlə vurula bilər, üzə vurula bilməz…”

[156] Kuran Araştırmaları Grubu, *Uydurulan Din ve Kuran’daki Din,* 247-248.

kimi hardan çıxdığı naməlum açıqlamalar etmələri ilə əlaqəli problem də, ayənin tərcüməsilə əlaqəli işarə edilən düzəltmə edildiyi zaman ortadan qalxır.

Əlavə olaraq Quranda, Əhzab surəsi 21-ci ayədə, peyğəmbərimizin "gözəl örnək" *(usvətun hasənətun)* olduğundan bəhs edilir və heç şübhəsiz bu nümunəviliyii anlamaq üçün ən güvənilən qaynaq Qurandır. Yenə Əhzab surəsi 28-ci ayədə peyğəmbərimizin yoldaşları ilə problem yaşadığını görürük. Burada peyğəmbərimizə, yoldaşları dünya həyatının zövqləri izindədirlərsə və razılaşa bilmirlərsə, gözəlliklə boşanma tövsiyə edilir. Fəqət "döymək" kimi bir əməl tövsiyə edilməz. Təhrim surəsində peyğəmbərimizin evliliyində yaşadığı bənzər bir problem deyildiyi zaman "döymək" müzakirə mövzusu edilmir. Talaq surəsi 2-ci ayədə isə müsəlmanların boşanmağı da, evliliyin davamını da düzgün bir şəkildə *(maruf)* gerçəkləşdirmələrindən bəhs edilir. Nəticədə, döymək-şiddət kimi bir tətbiq əvəzinə, razılığa gəlməyəndə məkanları ayırma, Quranın bu izahları ilə daha uyğun görünürr."[157]

Peyğəmbərimizin həyatını nəql edən, heç bir siyər nəqlində, peyğəmbərimizin evlilikləri ilə əlaqəli bir çox hal izah edilməz olmağına baxmayaraq, yoldaşlarını döydüyü ilə əlaqəli bir nəqlin olmadığını da əlavə etməliyik. Peyğəmbərimizin Hz. Aişə ilə yaşadığı, siyər kitablarında nəql edilən ən önəmli anlaşılmazlıqda ikisi bir müddət yaşadıqları "məkanları ayırmışlar", daha sonra aralarındakı anlaşılmazlıq ortadan qalxdığı zaman, əvvəlki kimi bərabər yaşamağa davam etmişdirlər. Peyğəmbərimizin bu hadisədə məkanları ayırmağı seçməsi də Nisa surəsinin 34-cü ayəsini "məkanları ayırma" şəklində anlamağımızı dəstəkləyir.

Yaxşı bəs, Quranın bütünlüyü içində "məkanları ayırmaq" mənasını seçməyimizə səbəb olan dəlilləri verməyimizə qarşılıq, görəsən Quranın bütünlüyündən buna əks bir dəlil göstərmək

[157] Kuran Araştırmaları Grubu, *Uydurulan Din ve Kuran'daki Din*, 247.

olarmı? Bunun cavabının açıqca "Xeyr, gətirilə bilməz" şəklində olduğunu, bu mövzudakı bir çox mübahisəmizə dayanaraq söyləyə bilərik. Qarşı mənanı verənlərin etdiyi istinad, öncəki müfəssirlərin digər mənanı seçdiyinə dayanmaqdan uzağa getmir.

## 7. Qadına Ərindən Cənnət Vizası

İslamın ən önəmli mesajlarının başında Allaha boyun əymək, Allahın əmrlərini yerinə gətirmək gəlir. Allahın razılığını qazanmaq, bir müsəlmanın həyatdakı ən önəmli qayəsidir. Ənənəvi ədəbiyyatda da buna zidd bir ünsür mövcud deyildir. Ancaq, bir qadının ərinin razılığını qazanmadan cənnətə girə bilməyəcəyi kimi, Quranın ifadələri ilə ziddiyyətli uydurmalar da bəzi kitablara girmişdir. Uydurma olduğuna inandığımız bu hədisləri bu mövzuya örnək olaraq verə bilərik:

*Hansı qadın, əri özündən razı olaraq vəfat edərsə Cənnətə girər.*[158]

*İbn Abbasdan rəvayət edilənə görə peyğəmbərimiz "Sənə şəxsin saxladığı ən xeyirli şeyi bildirimmi?: O, yaxşı (saliha) qadındır; yoldaşı ona baxdığında onu sevindirir, əmr etdiyində itaət edər və əri gedib, ondan uzaqlaşdığında iffətini qoruyar" demişdir.*[159]

Quran, nə qadının yaxşılığını yoldaşına itaəti üzərindən tanıdır, nə də qadının cənnətlik olmağını yoldaşının ondan məmnuniyyətinə bağlayır. Hamımıza məlumdur ki, keçimsiz və həyat yoldaşlarına zülm edən olduqca çox ər var. Bunların bir çoxu, həyat yoldaşları nə edərsə etsin, onlardan razı olmayacaq, onların varlığı ilə sevinməyəcəkdir. Gözləntiləri yüksək və ya

---

158 Tirmizi, "Rada'", 10; İbn Macə "Nikah", 4.

159 Əbu Davud, "Zəkat", 32.

zalım ərlərə yoldaş olduqları üçün bəzi qadınların cənnətə girmə şansının azaldığını düşünmək, nə Quranla, nə ağılla, nə də fitrətlə uzlaşır. Cənnətin vizasını adətən ərə verən bu yanaşmaların qəbul etməsində və yayılmasında (daha öncə diqqət çəkdiyimiz kimi) hədis kitablarını toplayanların, təfsir kitablarını yazanların, fiqh sahəsindəki çıxan nəticələri reallaşdıranların həmişə kişi olmağının rolu böyükdür. Quranı əlimizə alaraq bu fikir pozuqluqlarını düzəltmək məcburiyyətindəyik. Quranın dəyişmədən bizə çatmış olmağı və doğruya çatdırıcı rəhbərimiz olaraq əlimizdə olmağı ən böyük şansımızdır.

**Hücurat-13:** ***Ey insanlar! Biz sizi, bir kişi ilə bir qadından yaratdıq. Və uyğun bir şəkildə bir-birinizlə tanışıb qaynaşasınız deyə sizi millətlərə və qəbilələrə ayırdıq. Həqiqətən də Allah qatında ən seçiləniniz, çəkinilməsi gərəkən şeylərdən ən çox çəkinəninizdir. Allah biləndir, xəbərdardır.***

## 8. Qadınları Ac Buraxıb Pis Geyindirmək

Qadınların toplumla qaynaşmalarını, ictimai həyatda aktiv rollar öhtələnmələrini əngəlləmək və onları evlərinə həbs etmək üçün bir çox hədis uydurulmuşdur. Qadın-kişi münasibətlərində qadına qarşı edilən ən böyük haqsızlıqlardan biri, qadının küçəyə çıxarkən yoldaşından icazə almasının dini bir fərz olaraq təqdim edilməsi və üstəlik kişiyə yoldaşını mümkün olduğu qədər çölə buraxmaması üçün tövsiyələr verməyi olmuşdur. Hətta qadınların küçəyə çıxma arzularını yox etmək üçün ac və paltarsız buraxılmaları belə tövsiyə edilmişdir.

*Qadınları zərər verməyəcək miqdarda ac, ifrata getməyəcək qədər də paltarsız buraxın. Çünki qadınlar yaxşı doyub, gözəl geyinərlərsə onlar üçün çölə çıxıb gəzməkdən daha sevimli bir şey yoxdur. Fəqət onlar bir az ac, bir az da çılpaq qalarsa onlar üçün*

*evdə oturmaqdan daha xeyirli bir şey yoxdur.*[160]

Bu hədisin uydurma olduğunu İbnul Cevzi, Suyuti və İbn Arrak kimi hədis sahəsində mütəxəssisləşmiş şəxslərin də ifadə etmiş olmağına baxmayaraq, bu tərz uydurmaları qadınları evə qapamaq üçün istifadə edənlər olmuşdur. Belə bir düşüncənin peyğəmbərimiz tərəfindən ifadə edildiyi düşünülə bilməz. Çünki Quranda, qadın-kişi ayrımı edilmədən bütün insanlara gəzmələri və dünyanı görmələri söylənmişdir.

**Ali-İmran-137:** ***Sizdən öncə də İlahi qanunlar qüvvədə idi. O halda yer üzündə gəzib dolaşın, yalanlayanların sonu necə olmuşdur görün.***

**Ənam-11:** ***De ki: "Gəzib dolaşın yer üzündə baxın necə olmuşdur həqiqəti yalanlayanların sonu."***

Ayrıca Quranda, qadın-kişi ayrımı edilmədən gözəl paltarlar geyinilməsinə, Allahın nemətlərindən yeyərək faydalanılmasına diqqət çəkilmişdir:

**Əraf-31:** ***Ey insanlar! Bütün məscidlərdə gözəl paltarlarınızı geyinin. Yeyin, için fəqət israf etməyin. Allah israf edənləri sevməz.***

**Nəhl-14:** ***Və Odur ki, içindən təzə ət yeməyiniz və taxacağınız bir bəzək çıxarmağınız üçün dənizi əmrinizə vermişdir…***

Allah, qadın-kişi ayrımı etmədən, bu dünyanın nemətlərindən yeyərək və geyinərək faydalanılmasına bir çox ayədə diqqət çəkir. Qullarının bunlardan faydalanarkən şükr etmələkrini və israf etməməklərini istəyir. Quranda belə ifadələr var ikən, peyğəmbərimizin, bu nemətlərin daha çox kişilər üçün olduğu, qadınların isə daha məhdud şəkildə bunlardan faydalana biləcəyi kimi sözlər söylədiyi düşünülə bilməz. Üstəlik bəzi hədislərdə müsəlmanların yoldaşlarını və uşaqlarını yaxşı bir

[160] İbnü'l Cevzi, *el-Mevzu'at*, ll, 282-283, Suyuti, *el-Leali'l-masnu'a*, ll, 154, İbn Arrak, *Tenzihu'ş-şeri'a*, II, 212-213.

şəkildə yedirib geyindirməsi də ifadə edilmişdir.[161] Bir çox hədis müttəxəssisinin də uydurma olduğunu ifadə etdiyi bu hədisin, bütün haqları sərhədlənmiş qadınlar yaratmaq istəyən bəzi kişilər tərəfindən uydurulmuş olduğu açıqdır.

## 9. Bir Kişinin Şahidliyi İki Qadının Şahidliyinəmi Bərabərdir?

Ənənəvi anlayışda, qadınların şahidliyi mövzusunda, Quranda yer almayan görüşlər müdafiə edilir. Bu anlayışda, boşanma və evlənmə kimi məsələlərdə iki qadının şahidliyinin bir kişinin şahidliyinə bərabər olduğu, oğurluq və öldürmə kimi cəza tətbiq edilməsi lazım gəldikdə isə, qadınların şahidliyinin keçərsiz olduğu qəbul edilmişdir.

Quranın heç bir yerində, hər hansı bir xüsusiyyətdə, qadınların şahidliyinin keçərsiz olduğunu ortaya qoyan və ya ona işarə edən ən kiçik bir ifadə belə mövcud deyildir. Oğurluq edənin, və ya birini öldürənin bu fellərinin necə isbatlanacağını Quran açıqlamır. Bu günahları edənlərin günahlarının necə təyin ediləcəyi insanlara buraxılmışdır. Bilindiyi kimi dəvət ilə edilən şahidlik ilə, hadisəyə şahid olaraq edilən şahidlik arasında fərq vardır. Məsələn bir kimsənin vəsiyyət edəcəyi zaman iki şahid tutmağı (Maidə surəsi 106) dəvətlə edilən bir şahidlikdir. Bu cür şahidliklərdə könüllülük əsasdır. Bu xüsusda şahidləri siz seçəcəyiniz üçün, şahidləri kişi və ya qadın olaraq seçmək böyük bir fərq yaratmaz. Fəqət oğurluğa və ya öldürməyə şahidlik, dəvət ilə deyildir; bu günahları işləyənlər çox vaxt bu əməllərini gizlətməyə çalışırlar, buna görə də bir şəkildə bu hərəkətləri görən şahidlər dəyərlidir. Nüfuzun yarısını təşkil edən qadınlardan bu mövzuda yararlanmamaq ciddi bir problem yaradacaqdır. Oğurluq

[161] Ali Osman Ateş, *Hadis Temelli Kalıp Yargılarda Kadın,* 98.

edən və ya adam öldürən şəxsə, sadəcə bir qadın və ya bir çox qadın gördüsə, bu şahidliklərin dəyərləndirilə bilməyəcəyini söyləmək, ağıla və Qurana zidd bir tətbiqdir. Ayrıca Quranda, müsəlmanların sahib olmağı lazım olan xüsusiyyətlərdın biri "yalançı şahidlik etməmək, doğru şahidlik etmək" (Furqan surəsi 72; Məaric surəsi 33) olaraq təyin edilmişdir. Bu özəlliyin isə təkcə kişilərin sahib olmaları gərəkən bir özəllikdir deyilməmiş, bu özəllik, bütün inananların özəllikləri arasında qeyd edilmişdir.[162]

Ənənəvi məzhəblər, zina mövzusunda da qadınların şahidliyinin keçərsiz olduğunu ifadə etmişdirlər. Bu iddia da Qurani bir təmələ sahib deyildir. Üstəlik Quranda, bir kişinin, yoldaşının zina etdiyini iddia etdiyi bir hadisə ələ alınır (Nur surəsi 6-9). Bu vəziyyətdə ər, dörd dəfə özünün doğru söylədiyinə andla şahidlik edəcək, beşincidə isə əgər yalan söyləyirsə Allahın lənətinin öz üzərinə olmağını ifadə edəcəkdir. Fəqət yoldaşı da eynisini təkrarlayarsa; yəni dörd dəfə ərinin yalançı olduğuna şahidlik edib və beşincidə isə əgər yalan söyləyərsə Allahın lənətinin öz üzərinə olmağını ifadə edərsə, qadın hüquqən bu günahı işləməmiş kimi (bu dünyada) münasibət görər. Göründüyü kimi, zina ilə əlaqəli xüsusiyyətlərdə qadınların şahidliyinin keçərsiz olmağı Quranda ifadə edilmədiyi kimi, əri yoldaşının zina etdiyini dediyi zaman, qadın da əri kimi şahidlik edir. Ayrıca bu halda, ərlə arvadının şahidlikləri bir-birinə bərabərdir; bir ərin şahidliyi yoldaşının şahidliyindən üstün tutulmamışdır. Hətta bərabər şahidlik etdikləri zaman, nəticədə, qadının şahidliyinə görə qadın günahsızmış kimi hüquqi münasibət görür.

Quranın heç bir yerində "Bir kişinin şahidliyi iki qadına bərabərdir" deyə bir şərt də qoyulmamışdır. Ancaq belə bir şərt

[162] Qadınların şahidliyini bəzi sahələrdə qəbul etməyə yanaşmayanların, hədis nəqli mövzusunda qadın-kişi ayrımı etmədən şahidlikləri qəbul etdiklərini görürük. Məsələn Hz. Aişə, özündən ən çox hədis rəvayət edilənlərdəndir.

qoyulmuş olsaydı bir kişinin şahidliyinin iki qadının şahidliyinə bərabər olduğu söylənə bilərdi. Dörd şahid lazım gələn zinanın sübutunda; dörd qadın və ya iki kişi, səkkiz qadın və ya dörd kişi kimi ifadələr işlədilmədən "dörd şahid" deyə bildirilir (Nur surəsi 4). Boşanma halı olduğu zaman və iddət müddəti bitdiyində iki şahid tutulması deyilən zaman da; iki qadın və ya bir kişi, dörd qadın və ya iki kişi kimi ifadələr işlədilmədən "iki şahid" deyə ifadə edilir (Talaq surəsi 2). Quranda, bu xüsuslarda kişi-qadın ayrımı edilmədiyinə görə qadınların şahidliyindən də kişilərinki ilə bərabər şəkildə yararlanılır.

Bu mövzuda, yalnış şərhlər, vədəli borclanmalarla əlaqəli Bəqərə surəsi 282-ci ayəyə istinad edilərək dilə gətirilmişdir. Bu şahidlik tipi də dəvətlə edilən bir şahidlikdir. Əvvəla ayəni nəql edək:

**Bəqərə-282:** ***Ey iman gətirənlər! Bəlli bir müddət üçün bir-birinizə borc verdiyinizdə onu yazın. Aranızda bir katib ədalətlə yazsın. Katib, Allahın özünə öyrətdiyi şəkildə yazmaqdan qaçınmadan yazsın. Borc altına girən şəxs də onu qeydə alsın və Rəbbindən qorxsun borcundan heç bir şəy əksiltməsin. Borc altına girən, ağlı ərməz yaxud zəif, çarəsiz biridisə, yaxud yazdırmağa gücü yetmirsə, vəlisi ədalətlə yazdırsın. Kişilərinizdən iki nəfəri də şahid tutun. Əgər iki kişi yoxdursa razılığılınızla qəbul edəcəyiniz şahidlərdən bir kişi və iki qadın gərəklidir. Bu, qadınlardan biri çaşanda digəri ona doğrunu xatırlatsın. Şahidlər çağırıldıqlarında qaçmasınlar. Az olsun, çox olsun borcu, müddəti ilə bərabər yazmaqdan usanmayın. Belə etməyiniz Allah qatında ədalətə daha yaxın, şahidlik üçün daha sağlam, şübhəyə düşməməyiniz üçün daha əlverişlidir. Ancaq aranızda dərhal alıb-verdiyiniz nağd bir ticarət müzakirə mövzusu isə onu yazmamağınızda sizin üçün bir günah yoxdur. Al-ver etdiyinizdə də şahid tutun. Yazıçıya da, şahidə də zərər verilməsin. Belə bir şey etsəniz bu, özünüzə***

***günah olar. Allahdan qorxun. Allah sizə öyrədir. Allah hər şeyi biləndir.***

Borcların yazılmasını ifadə edən ayədə, ilk öncə diqqət edilməli nöqtə, ayədə "katib ilə şahidlərin bu məsuliyyətdən boyun qaçırtmamaları" və "katibə və şahidlərə zərər verilməməsi" gərəkdiyi xüsuslarına diqqət çəkilməsidir. Bir tək ayədəki, bir neçə dəfə edilən vurğulardan, maddi mənfəətlərin müzakirə mövzusu olduğu bu tip hallarda, şahidlərə zərər verilmə ehtimalının olduğu və bu məsuliyyətin altına girmək istəmədikləri üçün insanların şahidlik etməkdən qaçdıqları anlaşılır. Muzakirə olunan ayədə, qaçınılan bu məsuliyyət kişilərə yüklənmişdir; buna görə burada qadınlar lehinə pozitiv ayrımçılığın olduğunu rahatlıqla söyləyə bilərik. Ayədə "iki kişi şahid" olmasından bəhs edilir; "iki kişi və ya dörd qadın" olması ifadə edilmir. Əgər belə olsaydı, borclanma hadisəsinə xas bir şəkildə bir kişinin şahidliyinin iki qadınınkına bərabər tutulduğu söylənə bilərdi. Fəqət burada görünən; şahidlərə təzyiq (şiddət) tətbiq olunduğu halın yəqin olduğu, buna görə insanların bu məsuliyyətdən qaçıdığı belə bir vəziyyətdə, bu məsuliyyətin kişilərə yüklənməsi surətilə istənməyən bir haldan qadınların qorunduğudur.

Ancaq iki kişi şahid olmazsa, "bir kişi və iki qadın şahid"in olmağı lazımdır. *"Beləcə həm şahid problemi həllini tapır, həm mənfi bir halın ortaya çıxma ehtimalında bir kişi ilə bir qadının qarşı-qarşıya qalmasının qarşısı alınıb, qadın zor tətbiqlərdən qorunur. Borcun miqdarı mövzusunda bir anlaşılmazlıq çıxdığını və şahidlərin fərqli şahidlik etdiyini düşünək. İki şahidin fərqli şahidliyi durumunda bir qadın, bir kişi ilə qarşı-qarşıya qalacaq və iki tərəfdən birinin yalançı olduğunun dəqiq olduğu bir ortamda, güclü stress və zor tətbiq altında qalacaqdır. Onsuzda insanların şahidlikdən qaçma səbəbi, belə anlaşılmazlıqları və zor tətbiqləri müşahidə etmələri və bundan qaçmalarıdır. Fəqət bir kişi və iki qadın şahidlə, şahid sayı üçə çıxdığı zaman məsuliyyət*

*dağılacağı üçün şahidlikdəki stress önəmli bir səviyyədə azalacaq və zor tətbiq etmək istəyən pis niyyətli kimsənin bu dəfə iki nəfərdən birini deyil, üç nəfərdən ikisini aldatması lazım olduğu üçün işi çətinləşəcəkdir. Qadınların zor tətbiqlərdən qorunmasını təmin edən bu tətbiqin hikmətlərini idrak edə bilməyənlər, qadınları zor tətbiqlərdən qoruyub, qaçınıldığı bəlli edilən bir məsuliyyəti kişiyə yükləyən bu ayəni anlamayaraq, "bir kişinin şahidliyi iki qadının şahidliyinə bərabərdir" deyərək, Quranı təhrif etmişdirlər."*[163] Əlavə olaraq bir kişi ilə bir qadın eyni yöndə şahidlik etdiyi zaman ikinci qadına ehtiyac qalmır. İkinci qadına müraciət edilməsi gərəkən hal, kişi ilə qadın arasında yaranan bir anlaşmazlıq halıdır.

Bəzi tərcüməçilər, "qadınlardan biri yanıldığı zaman digəri ona doğrunu xatırlatsın" şəklində tərcümə etdiyimiz ayədəki bölümü "qadınlardan biri unutduğu zaman digəri ona xatırlatsın" şəklində tərcümə etmişdirlər. Bəhs etdiyimiz şəkildə tərcüməni buna görə seçdik: Birincisi, ayədə "unutma" deyə çevrilən *"dallə"* kəlməsinin Quranda çox rastlanan ifadəsi "yanılmadır". İkincisi, bu ayədə şahidlərə edilən zor tətbiqlərə qarşı bir neçə dəfə xəbərdarlıq edilmişdir, bu halda birinci qadının şahidliyinin yalnış olma ehtimalını, bu qadının (ayədə heç diqqət çəkilməyən) unutmağındansa, ayə boyunca diqqət çəkilən və qaçınılan ünsür olan zor tətbiqinə bağlamaq daha doğru olacaqdır.

Nəticə olaraq, bir kişinin şahidliyinin iki qadının şahidliyinə bərabər olduğunu və ya qadınların bəzi hallarda şahidlik edə bilməyəcəklərini söyləmək Quranla zidddir. Bəqərə surəsi 282-ci ayə isə vədəli borclanmalarla əlaqəlidir; burada, məruz qalınan zor tətbiqlərdən dolayı qaçınılan bir məsuliyyət kişilərə yüklənmişdir. İki kişinin olmadığı hallarda isə bir kişi və iki qadının olmağının hikmətini, yuxarıda açıqladığımız şəkildə anlamağın ən doğru açıqlama olduğu qənaətindəyik. Müzakirə mövzusu olan şahidlik,

---

[163] Kuran Araştırmaları Grubu, *Uydurulan Din ve Kuran'daki Din*, 235.

insanların mənfəətinə uyğun və ya etmək istədikləri bir əməl deyildir ki, burada qadınların əleyhinə bir hal yaransın. Əksinə, qaçınılan bir şahidlikdən qadınlar qorunduqları üçün burada pozitiv bir ayrımçılığın edildiyini rahatlıqla söyləyə bilərik.

## 10. Qadınların Mülk Edinmə Haqqı

Tarix boyunca, bir çox mədəniyyətdə, mülk edinməsinə icazə verilməyən, hətta çox zaman gərək atası, gərək ərinin mülkü kimi görülən qadına, Quranın vəhyi ilə mülk edinmə və öz mülkündə qənaət sahibi olma haqqı verilmişdir. Qurana görə mülk sahibi olma və öz malını öz iradəsiylə idarə etmək mövzusunda qadın-kişi arasında bir fərq qoyulmamışdır. İlk dövr İslam tarixi (siyər) qaynaqlarından da peyğəmbərimizin dövründə qadınların yoldaşlarından asılı olmadan al-ver işləri etdikləri anlaşılır.

Quranda qadınlara bu haqqın 7-ci əsrdə verilməsinin dəyərini anlamaq üçün dünya tarixində, bir çox mədəniyyətdə, qadına bu haqqın nə zaman verildiyini təsbit etmək yararlı olacaqdır. Məsələn son bir neçə əsrdə, qadın haqlarında və dünyadakı digər baş verən hadisələrdə ən aktiv iki ölkə olan ABŞ-ı və İngiltərəni ələ alaq. Bu ölkələr ancaq 19-cu əsrdə, ərinin yoldaşının malını idarə etmədən, qadının öz iradəsiylə malını idarə edə biləcəyini qəbul etmişdirlər. İçində olduğumuz dövrdə, bir çox ölkədə, qadınların kişilərlə eyni hüquqi haqlara sahib olduğunu müşahidə edənlər, bunun tarixi olaraq nə qədər yeni bir fenomen olduğunu, tarixin çox geniş bir dövründə bir çox mədəniyyətdə vəziyyətin fərqli olduğunu bilmirlər. Tarixdə bunun istisna və azlıq təşkil edən bir hal olduğunu anlayanlar, Quranda qadınlara bu haqqın 7-ci əsrdə verilməsinin önəmini daha yaxşı təqdir edəcəkdirlər. Ayrıca günümüzdə, qadınların bir çox ölkədə hüquqi bərabərlik sahib olmalarına rəğmən, praktikada öz mallarını idarə etmə xüsusunda kişilərlə eyni vəziyyətdə olmadığını da bir kənara

qeyd etməyimiz lazımdır.

Quranda, inananların, sahib olduqları mallardan Allahın razılığı üçün sərf etmələri tez-tez ifadə edilir. Bu ibadət “zəkat, sədəqə, infaq” kimi kəlmələrlə, Quran boyunca, bir çox yerdə ifadə edilmişdir. Bunların heç birində, Allah razılığı üçün bu mallardan vermə fəaliyyəti sadəcə kişilərə yüklənməz; namaz və oruc necə həm kişilərə, həm qadınlara yönəlmiş bir ibadət isə, eyni şəkildə Allahın razılığı üçün mallardan sərf etmə də həm kişilərə, həm qadınlara yönəlmiş bir ibadətdir. Fəqət bu ibadət, ancaq qadın öz malına sahibdirsə və azad iradəsi ilə malı üzərində qərar verə bilirsə mənalıdır. Tətbiqdə yoldaşının öz malını idarə haqqını qəsb edən ərlərin varlığı hamımıza məlumdur. Fəqət belə bir haqq qəsbinin Qurana zidd olduğu da gün kimi aydındır.

Yoldaşının küçəyə çıxmasının və kiminlə görüşəcəyi kimi hallara nəzarət edilməsini ərə verilmiş dini bir haqq olduğunu iddia edənlər, qadının mülkiyyət haqqı olduğunu söyləsələr də, tətbiqdə bu haqqı qadına verməmiş olurlar. Çünki hər cür azadlığı yoldaşı tərəfindən nəzarət edilən bir qadının, bu sərhədləmələr içərisində malını rahat şəkildə istifadə biləcəyi düşünülə bilməz. Qadının öz malı üzərində istədiyi kimi hakim bilməməsi, qadının adətən bir köləyə çevrilməsində və özünə edilən zülmlərə qarşılıq göstərə bilməməsində çox önəmli bir haldır. Aşağıdakı başlıqlarda incələnəcək mehir və miras kimi mövzular da qadının mülk edinmə və onu rahat şəkildə itifadə haqqının olduğunu göstərir. İslama görə qadın; çalışa bilər, öz pulunu qazana bilər, mülk edinə bilər və mülkünü rahat şəkildə idarə edə bilər.

## 11. Evlilikdə Alınan Mehir

Tarixin çox geniş bir dövründə, bir çox toplumda, iqtisadi azadlığı olmayan, atasının evində atasının, ərinin evində də ərinin malı olaraq görülən qadın, həyatı boyu əzilməkdə idi. Ərinin pis

rəftarı və ya əri ilə anlaşa bilməməsi kimi səbəblərlə ayrılmağı arzulayan bir çox qadın, malsız və pulsuz ortada qalmaqdansa bədbəxt evliliyini davam etdirmək məcburiyyətində qalırdı. İqtisadi həyatda, malların və pulların çox böyük bir qismi kişilərin nəzarətində idi (hələ də vəziyyət dünyanın böyük bir qismində belədir), pula nəzarət, qadına nəzarəti də özü ilə bərabərində gətirirdi.

Bu portret içərisində, Qurana görə ərin yoldaşına evlənərkən verməsi gərəkən mehir, qadının maddi güc qazanması və əzilməməsi baxımından önəmlidir. Evlilik qarşılıqlı edilən bir anlaşmadır; mehrin nə olacağının təyin edilməsi də bu anlaşmanın bir parçasıdır. Mehir, qadının və kişinin üzərində anlaşmaları lazım gələn bir mal və ya miqdardır. Mehir üzərində anlaşa bilməmək, məsələn bir tərəfin istədiyi miqdarı digərinin vermək istəməməsi, digər tərəfin də istədiyində dəyişiklik etməməsi kimi durumlarda evlilik işi reallaşmaya bilər. Quranda mehrin nə olacağı, maddi dəyərinin nə olacağı bildirilmədiyi üçün mehir, bir üzük kimi hədiyyəlik bir əşya da, bir mənzil kimi dəyəri yüksək bir mülk də ola bilər. Bu, Quranın içində var olan, tarixin fərqli şərtlərinə və şəxsin şəxsi vəziyyətinə görə uyğunluğu təmin edən, dəyişə bilən bir özəllikdir. Bəzən qadınlar, boşanma ehtimalının gerçəkləşməsi halında, içində olduqları maddi şəraitlər və ya mədəniyyət baxımından dolayısı ilə çox ağır bir qarşılıq ödəyirlər. Belə bir vəziyyətdəki qadın, yüksək bir mehir tələb edərək, bir boşanma halında və ya ərinin ölməsi kimi bir ehtimalda, öz maddi durumunu qaranti altına almaq istəyə bilər. Digər tərəfdən əri kimi maddi azadlığa sahib bir qadın, maddi qaranti narahatlığı yoxdursa, mehr olaraq üzük kimi bir hədiyyə də istəyə bilər.

Quranın ortaya qoyduğu bir qadın haqqı olaraq mehir, evlilik anlaşmasının bir parçası olaraq diqqət çəkilən və göz yumulmayacaq bir haldır. Mehrin, Quranın qadına verdiyi bir haqq olaraq diqqət mərkəzində olması önəmlidir. Çox zaman evli

cütlüklər, evlilik xoşbəxtliyi ilə, gələcəkdə baş verə biləcək problemləri heç düşünmədən evlilik anlaşması edirlər; çox zaman evlənərkən mal və ya pul haqqında danışmaq "ayıb" sayılır. Adətən, maddi gücü əlində tutan ər, bundan karlı çıxır, anlaşılmazlıq kimi hallarda heç maddi gücü olmayan qadını istədiyi kimi əzə bilir. Fəqət Quran, daha evlilik mərhələsində "mehir" mövzusunu gündəmə gətirərək, qadının belə bir şeyə diqqət çəkdiyi üçün "pulgir" görülməsi kimi bir günahlandırmanı ortadan qaldırır. Ayrıca qadın, bir boşanmada öz pulunu alıb, sonra ayrılacağı üçün bu hal ərinin boşanmasını da çətinləşdirir.

**Nisa-4:** ***Qadınlara öz mehirlərini könül xoşluğuyla verin, öz istəkləriylə onun bir qismini bağışlasalar, onu da könül rahatlığı ilə yeyə bilərsiniz.***

Qurana görə mehri alan və onun üzərində qərar hüququ olan tərəf qadındır. Bu qadının mala sahib olma və onu idarə etmə haqqı olduğunu göstərən əlavə bir xüsusiyyətdir. Bəzi mədəniyyətlərdə, qadınların ailələrinin aldığı "başlıq pulu" ilə mehrin bir əlaqəsi yoxdur; başlıq pulunu evlənən qadının ailəsi alır, mehri isə evlənən qadın.

## 12. Qadın və Miras

İslam gəlmədən öncə ərəblər arasındakı ənənədə, əksər hallarda qadınların miras haqqı olmazdı. Miras, kişilər arasında paylaşılardı. Qadınlar əleyhinə adətlərin yerləşdiyi ərəb toplumundakı ənənələrə görə, əri ölən qadın, kişi varislər tərəfindən əldə ediləcək bir mal kimi qəbul edildiyi üçün; ya ərinin qəbiləsinə ya da öz qəbiləsinə aid olurdu.[164] Dul qadına varis olan kişi, tələsik paltarını dul qadının üzərinə atsa o qadınla evlənmə

[164] Fatima Mernissi, *The Veil and the Male Elite,* 121.

haqqını ələ keçirərdi. Amma qadın, varis gəlmədən öz qəbiləsinə qaçmağı bacararsa varis artıq nə qadında nə də malında haqq sahibi ola bilərdi. Qadın da malı da artıq öz qəbiləsinin olardı.[165] Bir adam vəfat etdiyi zaman, ögey oğlu ögey anasına varis olardı. Qadının buna etiraz edə biləcək bir gücü yox idi. Kişi istəsə onunla evlənər və ögey anasıyla yaşayardı (Nisa surəsi 22. ayədə bu çirkin tətbiq qadağan edilmişdir). Ölən adamın oğlu çox kiçikdirsə ögey ananın başqa biriylə evlənməsi əngəllənir və uşağın böyüyüb ögey anası haqqında qərar verməsi gözlənirdi.[166] Bu evlilik tətbiqində önəm daşıyan maddi qayğılar idi. Çünki ögey ana ilə evlənməsə, qadının payına düşən mirası qadının qəbiləsindəki kişilərə vermək lazım idi.

Qadınlara edilən bu zülmlər sadəcə evli qadınlarla məhdud deyildi. Atası ölən qızlar da çox çətin vəziyyətdə qala bilərdilər. Sadəcə özlərinə düşən mallardan məhrum olmaqla qalmayıb, eyni zamanda cinsi istismara və pis rəftara məruz qalırdılar. Quranda yetim qızların haqlarının qorunmağının əmr edilməsi ilə bu pis vəziyyəti ortadan qaldırma xüsusunda önəmli yol qət edilmişdir. Atası ölən qız uşaqlarından gözəl olanları, çox zaman qəyyumları ilə evlənmək məcburiyyətində qalırdılar; beləcə qəyyum, həm malın başqalarına getməsini əngəlləmiş, həm də başlıq parası verməkdən qurtulmuş olurdu. Bəzən qızlar yetəri qədər gözəl qəbul edilməzlərsə, qəyyum onların evlənmələrini əngəlləyir və ölənə qədər yenə mallarının nəzarətini əlində tuturdu.[167]

Bu və bənzəri tətbiqlərin olduğu toplumda qadınlar ciddi şəkildə zülm görürdü. Bu zülmlərin arxasındakı əsas səbəblərdən biri, qadının malı üzərində nəzarət haqqının olmaması idi. Miras isə, mal sahibi olub üzərində nəzarət etmək mövzusu ilə əlaqəli ən əsas xüsuslardan biridir. Quran, qadınlara malları üzərində nəzarət

---

165 Təbəri, *Tefsiru't-Taberi,* VI, 524-526.
166 Təbəri, *Tefsiru't-Taberi,* VI, 525
167 Fatima Mernissi, *The Veil and the Male Elite,* 124.

hüququ verərək, yetimlərlə əlaqəli istismara qarşı xəbərdarlıqlar etmiş, mirasdan qadınlara pay verərək, qadınların mallarının qəsb edilməsinin qarşısını almış, qadınların durumlarında ciddi düzəlişlər etmişdir.

Bütün bunlara qarşılıq olaraq, Nisa surəsi 11-ci ayədə mirasın necə paylaşılacağı tövsiyə edilərkən "kişi üçün iki qadının payı qədər" deyildiyi üçün, o dövrdə Quranın qadınlara bir çox haqq verməsinə qarşılıq olaraq, bu gün o haqların az olduğu söylənə bilərmi? Biz, belə bir şey söylənə bilməyəcəyi qənaətindəyik. Qurandakı bu hökmü dəyərləndirmək üçün, Quranda kişi ilə qadın arasındakı malla əlaqəli münasibətləri bir bütün şəklində ələ almaq məcburiyyətindəyik. Əvvəla vəfat edən şəxsin ana və atası sağdırsa, iki tərəfin bərabər miras aldığını, burada kişi və qadın arasında bərabərlik olduğunu bilməliyik (Bir çox müasir hüquq dövlətində, ölənin uşaqları varkən anasına və atasına bir pay verilməməsi bu dövlətlərin ciddi bir əksikliyidir). Ayrıca evlilikdə kişi qadına mehir verdiyi üçün, qadının lehinə bir hal mövcud ikən, kişi üçün bir büdcəsindən xərcləmə halı ortaya çıxır. Bundan əlavə dünyanın bir çox yerində yayqın olan ənənədə, uşaqların xərclərini ata üstlənir. Qurana görə əgər ər-arvad boşanarlarsa, kişi əmzirmə dövrü boyunca ananın və uşaqların xərclərini də üstlənmək məcburiyyətindədir (Bəqərə surəsi 233). Görüldüyü kimi Quranda, ümumilikdə yaşın artdığı ana-atalıq dövründə vəfat edən uşaqlardan qalan mirasda ana və ataya bərabər miras tövsiyə edildiyi halda; kişinin mehir və uşaqların baxımı kimi ünsürlərlə malını bölməsi lazım gələn dövrdə kişiyə qadının iki qatı miras haqqı verilir. Ayrıca dul qadınların aldıqları mehirləri və sahib olduqları mallar keçinmələri üçün yetərli deyilsə, uyğun tərzdə ehtiyaclarının görülməsi Allahın dininə ciddi yanaşan bütün müsəlmanların vəzifəsi olaraq təyin edilmişdir (Bəqərə surəsi 241). Buradakı tabloya bir tam olaraq baxdığımız zaman qadının kişiyə görə dezavantajlı bir vəziyyətdə

olduğu deyilə bilməz. Hətta Quranda, qadınların iqtisadi durumlarının qorunmasıyla əlaqəli pozitiv bir ayrımçılığın olduğu belə söylənə bilər.

Bunlarla bərabər Quranda var olan dəyişkənlikləri də xatırlamalıyıq. Mehir ilə əlaqəli əvvəlki başlıqda diqqət çəkdiyimiz kimi, maddi vəziyyəti yerində olan və yüksək miqdarda mehir tələb etməyən qadına bir üzük, bir qolbağı kimi kiçik bir mehir verməklə də Quranın mehir hökmü yerinə gətirilə bilər. Miras mövzusunda isə, Quranda, vəsiyət edilənin bölüşdürülməsinə öncəlik verildiyini və bunun şəxsin dəyişik şərtlərə uyması üçün möhtəşəm bir elastiklik olduğunu unutmamalıyıq (Maidə surəsi 106, Bəqərə surəsi 180, Nisa surəsi 10, 11). Quran vəsiyyətə öncəlik verdiyi üçün, bir şəxs əgər istərsə oğlan və qız uşaqlarına bərabər miras buraxa bilər. Beləcə şəxsin, tarixin və subyektiv şərtlərin gətirdiyi fərqli durumlara görə adaptasiya olacaq şəkildə hərəkət etməsini təmin edəcək elastikliyin Quranda mövcud olduğu görülür.

Tam bu nöqtədə, Quranda çatdırılan din ilə, ənənədə deyilən dinin önəmli bir fərqinə diqqət çəkməliyik. Quranda, mirasın necə dağıdılacağını tövsiyə edən ayələrin içində çox açıq bir şəkildə vəsiyyətə öncəlik verilmiş olmasına rəğmən, ənənəvi anlayışda “Varisə vəsiyyət yoxdur” şəklində uydurma bir hədislə, Quranın dörd ayəsində keçən vəsiyyət etmə haqqı ləğv edilməyə çalışılmışdır. Bu yanaşma ilə, hədislə dinə əlavə etməkdən də ötəyə keçərək, hədislə Quran ayəsi ləğv etmək kimi bir hədsizlikdə edilmişdir. Vəsiyyətin öncəliyini anlamaq bu başlıq baxımından xüsusi önəmə sahibdir.

# V. EVLİLİK VƏ CİNSƏLLİK

Qadınların əleyhinə çəkilən portretdə “evlilik və cinsəlik” başlığı da xüsusi önəmə sahibdir. Digər mövzularda olduğu kimi, bu mözuda da qadınlar uydurulan dini izahlara istinadlarla kişinin adətən köləsi halına gətirilməyə çalışılmışdır. Məsələn evlilik kimi mühim bir hadisədə, qadınlar fikirləri soruşulmadan bəzən uşaq yaşda evlənməyə məcbur edilmişdirlər. Bu dünyada qadınlar da kişilər kimi bir imtahan verməkdədirlər; imtihanın mühim bir şərti isə şəxsin iradəsi ilə qərar verməsi və ondan məsul olmağıdır. Kişi kimi, öz imtahanını verən qadının bu qədər mühim bir bərabərliyin qurulmasında iradəsini yox saymaq, İslami təməli olmayan, ama İslama istinadla qanuniləşdirilməyə çalışılmış bir zülmdür. Bu tətbiqin İslam ilə əlaqəsi olmadığının göstərilməsi önəmli bir haldır və aşağıdakı başlıqlarda evlilik və cinsəlliklə əlaqəli belə önəmli mövzular incələnəcəkdir.

Dünyanın bir çox yerində qadın sünnətinin İslamla əlaqəsi olduğu zənn edilir və bir çox qadını xəsarətli buraxan bu tətbiqdən hərəkət ilə İslama hücumlar edilir. Ayrıca zina edənlərə yönəlmiş rəcm (daşlayaraq öldürmək) cəzasının İslami bir uyğulama olduğu iddia edilir. İslamda savaş əsiri qadınların (cariyələrin) “cinsi kölə” ola biləcəyi iddiası gündəmə gələn digər mübahisəli bir xüsusdur. Bu bölümdə, belə mübahisəli mövzular ələ alınacaqdır.

## 1. Qız Uşaqları ilə Evlilik

İslam dininin qız uşaqlarının çox erkən yaşlarda evlənmələrinə icazə verdiyi, hətta bunun “Peyğəmbərimizin sünnəti” olduğu, əksəriyyət tərəfindən qəbul edilmiş olan çox yalnış bir görüşdür. Bu görüş, peyğəmbərimizin Hz. Aişə ilə 6

yaşında evlənib 9 yaşında gərdəyə girdiyini rəvayət edən hədis ilə əsaslandırılır. Ayrıca aşağıda toxunacağımız ayələrin yalnış şərh edilməsi ilə, bu yanaşma Quran ilə dəstəklənməyə çalışılır. Fəqət ayələr, diqqətli və ön yarğısız oxunduğu zaman, Quranın, uşaq yaşda evliliyi təsdiqlənmədiyi kimi, tamamilə qarşı olduğu da görülür. **Nisa-6:** ***Yetimləri, nikah yaşına gəlmələrinə (iza bəlağu ənnikahə) qədər gözləyib sınayın. Əgər ağla dolduqlarını (həddi-buluğa (ruşdən) çatdıqlarını) görsəniz, mallarını onlara qaytarın. Onlar böyüyüb mallarını məndən alacaqlar deyə o malı israfçılıqla, tələm-tələsik yeməyin. Varlı olan nəfsini saxlasın, yoxsul olan isə o maldan insafla yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman onlara şahidlər tutun. Haqq-hesab çəkməyə Allah yetər.***

Yuxarıdakı ayədə, yetimlərə mallarının geri verilmə yaşının “nikah çağı” *(iza bəlağu ənnikahə)* olduğu çox açıq şəkildə bildirilir. Göründüyü kimi Quran, “nikah çağı” deyə bir ölçü qoymaqdadır; buna görə nikah hansı yaşda olursa olsun, bəlli bir yaşın gözlənilməsi gərəklidir. Quran “nikah çağının” tam olaraq neçə yaş olduğunu ifadə etməsə də, sırf bu ifadə belə nikah üçün bəlli bir yaşın gözlənilməsi, hər hansı bir yaşda uşaqların evləndirilməməsi üçün yetərlidir. Ayrıca Nisa surəsi 6-cı ayədə diqqət çəkilən “rüşd” (həddi-buluğ) qavramının da evlilik yaşını təyində, cinsi yetkinliyin xaricində əlavə bir kriteriya olduğu qənaətindəyik. Eyni ayədə yetimlərdə rüşd, yəni əqli bir yetkinlik səviyyəsi görüləndə mallarının təslim edilməsi istənməkdədir. Çünki malları özlərinə geri veriləcək olan yetimlər, bu malları idarə edə biləcək yetkinlikdə və doğrunu yalnışdan ayıra bilmə qüdrətinə sahib olmalıdırlar. Əks təqdirdə biriləri tərəfindən aldadılıb bütün mallarını itirə bilərlər. Evlilik müəssisəsində də maddi bir ölçü vardır; gəlin namizədinin həm mehir miqdarına qərar verərkən, həm də evləndikdən sonra evi idarə edərkən gərəkli qərarları verə biləcək əqli yetkinlikdə olmağı şərtdir.

Rüşdə ərməyənə maddi dəyərlər əmanət edilə bilmirsə; rüşdə ərməyən şəxsin Quranda bəlli edilən mehir üzərinə danışması və ev idarəsini gerçəkləşdirməsi, yeni evlilik başlatması və yürütməsi mümkün deyildir. Burdan çıxan nəticə; kiçik qız uşaqlarının evləndirilməsinin İslam dini tərəfindən təsdiqləndiyi iddiasının, Nisa surəsinin 6-cı ayəsi ilə zidd olduğudur. Çünki evləndirilmək istənən qız uşağı, nə Quranda təyin edilən nikah çağına, nə də mehir qərarlaşdıra bilmə və mal-mülk idarə etmək üçün gərəkli əqli yetkinliyə ərmişdir.

Nikahı 6 yaşında etmək və ya 9 yaşında gərdəyə girmək isə nikah üçün heç bir yaş gözləməmək deməkdir. Peyğəmbərimiz Quranı həm çatdıran, həm yaşayan bir şəxs olduğuna görə Qurana zidd hərəkət etməsi düşünülə bilməz. Sırf bu dəlil belə bu hədisin uydurma olduğunu göstərməyə yetərlidir. Özü kiçik bir qız uşağı ilə evlənmiş birinin və ya belə bir evlilik etmiş və əməlini qanuniləşdirmək istəyən bir şəxsin, belə bir hədisi uydurub, peyğəmbərimizə belə bir iftiranı atmış olması yəqindir. “Nikah çağının” cinsi yetkinlik olmadan ola bilməyəcəyi, şəxsin bundan öncə evlənməyə bioloji olaraq hazır olmadığı bəllidir. 6 və 9 yaşlarının buluğ çağından çox öncə olması bu hədisin uydurma olduğunu göstərir. Ərəblərdə o dövrdə uşaqların daha erkən buluğ çağına girdikləri tez-tez söylənən, amma elmi baxımdan yalnış olan başqa bir uydurmadır. Qısacası evlənmək üçün şəxsin nikah çağına gəlməsi və rüşdə ərməsi lazımdır. Bu vəsflərə sahib olmayan qız və oğlan uşaqları evləndirilə bilməz. Ayrıca aşağıdakı ayədə verilən yalnış məna ilə də kiçik yaşda qız uşaqlarıyla evliliklər qanuniləşdirilməyə çalışılmışdır:

**Talaq-4:** ***Heyzdən kəsilmiş yaşlı qadınlarınızın iddəsi barəsində şübhəniz varsa, onların, eləcə də heyz görməyən (ləm yəhidnə) qızların gözləmə müddəti üç aydır. Hamilə qadınların gözləmə müddəti isə onlar hamiləlikdən azad olana qədərdir. Kim Allahdan qorxarsa, Allah onun işini asanlaşdırar.***

Bu ayədəki “heyz görməyən” ifadəsini bəzi tərcüməçilər “hələ heyz görməmiş” olaraq tərcümə etmişdirlər. Buradan hərəkətlə bu ayənin heyz görməyən uşaqlarla evlənilə biləcəyinə işarə etdiyini ifadə edənlər olmuşdur. Fəqət ərəbcədə, “hələ” mənasını *“ləm”* ədatı deyil *“ləm ma”* ədatı verir; elə olsaydı ayədə *“ləm ma yəhidnə”* şəklində keçməsi lazım idi. Fəqət ayədə “heyz görməyən” mənasını verən *“ləm yəhidnə”* ifadəsi keçir.[168] Bu ayədən, bəzi qadınlarda olduğunu bildiyimiz şəkildə, heç heyz görməmə durumunda olan qadınların bir boşanma durumunda üç ay gözləməsi gərəkdiyi anlaşılır; yəni bu qadınlar üç heyz görməyi deyil, üç aylıq bir dövrü tamamlamağı gözləyəcəklər. Ayrıca ayədə “qadınlar” *(nisa)* ifadəsi keçməkdə və “qadınlar” haqqında bir hökm açıqlanmaqdadır, “qız uşaqları” ifadəsi isə keçmir; buna görə də bu ayənin heyz görməmiş qız uşaqlarına yönəlmiş olduğu düşünülə bilməz.

Kiçik qız uşaqlarının evləndirilməsinə Quran ayələri ilə yanaşıldığı zaman, bu məsələnin İslamla əlaqəsinin olmadığı hətta belə bir evliliyin Qurana zidd olduğu ortaya çıxır. Ayələrdən də gördüyümüz kimi nikah çağına və əqli yetişkinliyə çatmadan qız və oğlan uşaqlarının evləndirilə biləcəyini müdafiə etmək imkansızdır. Peyğəmbərimizin 6 yaşında bir uşaqla evlənib 9 yaşında gərdəyə girdiyi iddiası peyğəmbərimizə atılmış böyük bir iftiradır. Quranı yaşatdırmağa çalışan və ən gözəl şəkildə yaşayan peyğəmbərimizin Qurana zidd belə bir fel gerçəkləşdirdiyi düşünülə bilməz.

## 2. Çox Arvadlılıq

Çox arvadlılıqla əlaqəli yalnış anlamaların əsasını İslamın əmrləri, tövsiyələri, qadağan etdikləri və qadağan etmədikləri

---

[168] Fatih Orum, *Kuran Işığında Küçüklerin Evlendiril(eme)mesi Meselesi*, 137-158.

arasındakı ayrımın doğru edilməməsi təşkil edir. Məsələn namaz qılmaq, islamın əmri kateqoriyasındadır, hər müsəlman tərəfindən yerinə yetirilməsi lazımdır. Sədəqələri gizlicə vermək, tövsiyə kateqoriyasında olmaqla bərabər əmr edilməmişdir. Amma sədəqələri gizlicə vermək, hər kəsin görəcəyi şəkildə verməkdən daha xoş bir davranış olaraq təqdim edilmişdir. Donuz əti yemək, islamda haram kateqoriyasındadır, mütləq bu haramdan uzaqlaşmaq lazımdır. Paxlava və ya kərtənkələ yemək isə yasaqlanmayanlar kateqoriyası içindədir. Bu kateqoriyadakılar nə əmr edilmiş, nə də günah elan edilməmişdir. Şəxs qadağaları bəyənə bilər və ya bəyənməyə bilər. Bunları etmək və etməmək arasında seçim edilməsi gərəkdiyinə dair bir bəyan da yoxdur. Kişilərin çox arvadlı evliliyinin bu kateqoriyalardan hansında olduğu ilə əlaqəli problemin cavabı, açıqca “qadağan edilməyənlər” kateqoriyasıdır. Çox arvadlılıq, əmr və ya günah olmadığı kimi tövsiyə də deyildir, şəxslər bu tətbiqi bəyənə bilər və ya bəyənməyə bilər (paxlava və ya kərtənkələ yeməyi istər bəyənib istər bəyənməyəcəkləri kimi). Fəqət bunu etməyin, etməməyə seçim edilməsi gərəkdiyi ilə əlaqəli Quranda bir bəyan mövcud deyildir. Fəqət çox arvadlılıqdan hərəkət ilə İslama tənqid gətirməyə çalışanların böyük bir qismi, sanki bu tətbiq bir əmr və ya bir tövsiyyə imiş kimi izahlar edirlər.

Quran çox geniş bir zaman diliminə, çox fərqli mədəniyyətlərə, fərqli iqlimlərə, fərqli sosial quruluşlara enmiş bir kitabdır. 7-ci əsrdə olduğu kimi 21-ci əsrdə də, əkinçi toplumlarda olduğu kimi, müasir sənaye toplumlarında da tətbiq ediləcəkdir, geniş ailələrdə olduğu kimi, kiçik ailələrdə də tətbiq ediləcəkdir, savaş dövrlərində olduğu kimi barış dövrlərində də tətbiq ediləcəkdir. Quranın bu qədər fərqli zamanlara və ortamlara uyğunlaşmağını təmin edən ən önəmli ünsürlərdən biri, qadağan edilməyənlər dairəsinin genişliyidir. Quranın açıq bir ifadə ilə haram etmədiyi heç bir şey yasaqlanmamışdır; bir şeyin

yasaqlanmamış olması üçün, əlavə yasaqlanmadığı ilə əlaqəli bir bəyan axtarılmasına gərək yoxdur. Məsələn Quranda “paxlava yasaqlanmamışdır” və ya “kərtənkələ əti yasaqlanmamışdır” deyə bir ifadə axtarmağa gərək yoxdur; bunların haram edilməməsi geniş yasaqlanmamışlar dairəsinin içində olduqlarını anlamaq üçün yetərlidir (Baxın: Maidə surəsi 101). Günümüzdə bir çox mütəxəssis paxlavanın sağlığa zərərli olduğunu söyləyərək paxlava yeməyə, bir çox şəxs də kərtənkələ yemək alışqanlıqlarına çox zidd olduğu üçün kərtənkələ yeməyə qarşı çıxır. Bunları yeməyin “yasaqlanmamışlar” kateqoriyasında olmağı, bunlara qarşı çıxılamayacağını, bir çox şəxsin bunları yeməkdən uzaq durmamağı gərəkdiyini göstərmir. Bunların “haram” olduğu söylənmədən bunlardan qaçınıla bilər, bunları yemək istəyənlərə yeməmək tövsiyə edilə bilər və əlbəttə öz dəyərləndirmələri nəticəsində bunları yemək istəyənlərin bunları yemək azadlıqları da əllərindən alına bilməz. Çox arvadlılıqla əlaqəli vəziyyət də bu kateqoriyadadır. İstəyən çox arvadlılıq etməyə bilər, bunu etmək istəyən yaxınlarının etməməsi üçün onları razı salmağa çalışa bilər…

Bənzər şəkildə Qurana görə bir kişinin cübbə də, kostyum da, kimono da, şalvar da, blucin də, şotland donu geyməsi də yasaqlanmamışdır. Bunların hər hansı biri ilə əlaqəli qadağan edici bir ifadə olmamağı, hamısının “yasaqlanmamışlar” kateqoriyasında olduğunu göstərir. Kişilərin bir mədəniyyətdə şotland donu geyməsi, bir mədəniyyətdə kimono geyməsi, bir mədəniyyətdə blucin geyməsi yadırğanıla bilər, tənqid edilə bilər və ya qınana bilər. Fəqət bunların “haram” olduğu heç bir şəkildə söylənə bilməz. Çünki bunların haram olduğunu ifadə edən Qurani bir bəyan yoxdur. Quranda bunların haramlaşdırılmamış olması; bir şotlandın don ilə müsəlman olmağına, bir uzaq şərqlinin kimonosu ilə müsəlman olmağına və yenə müasir mədəniyyətin təsirindəki bir gəncin blucini ilə müsəlman olmağına icazə verir.

Eyni hal kişilərin çox qadın ilə evlilikləri üçün də keçərlidir. Tarixdə ortaya çıxmış bir çox fərqli mədəniyyətdə bu tip evliliklər alışılmış vəziyyətin tərsi olaraq görülməmiş, tətbiq edilmişdir. Çox arvadlılığın yasaqlanmamış olmağı, bu mədəniyyətlərdə yaşayan insanların nizamlarını pozmadan, müsəlman olmalarına icazə verir. Ayrıca tarixdəki bir çox savaşda kişilərin ölümü üzərinə qadınların nüfuzu kişilərin qat-qat üzərinə çıxmışdır. Bu tip şərtlər altında o toplumun varlığını və gücünü sürdürə bilməsi və bir çox qadının zərər çəkməsinin önlənməsi üçün çox arvadlılığın yasaqlanmamış olmağı çox böyük avantajlar təqdim etmişdir. Qısacası bu, dini bir məcburiyyət və ya tövsiyə deyildir. Tarixin fərqli dövrlərində bir çox mədəniyyətdə mənimsənmiş bir uyğulamadır. Tarixin fərqli dövrlərindəki mədəniyyətlərin hamısının, 21-ci əsrdəki mövcud durumumuza və sənaye toplumuna görə olmaları gərəkdiyini gözləmək həm anoxronizm ehtiva edir, həm də çox safca bir yanaşma olar.

“Qadağan olunmamış (yasaqlanmamış)” dini baxımdan məqbul olan bir kateqoriyanı ifadə etmir. Bu çox önəmli nöqtəni anlamayanlar, dini yasaqlamadığı bəzi şeylər üçün, öz mədəniyyət və zaman dilimlərinə görə tənqid etməyə cəhd etmiş və beləcə fərqli mədəniyyətlərdə və fərqli zaman dilimlərində geniş kütlələr tərəfindən mənimsənən sərbəstlikləri anlaya bilmədiklərini göstərmişdirlər. Dinimizə görə saçımızı yaşıla boyasaq, bir dəvətə sport geyimlə getsək, bir toplumda səsli bir şəkildə yel çıxarıb və ya gəyirsək bir “günah” işləmiş olmarıq. Bu fellərin günah olmamasının səbəbi, Quranın heç bir ayəsinin bunları yasaqlamamasından qaynaqlanır. Dünyanın bir yerindəki bir sahil qəsəbəsində sport geyimlə toya getmək, qızıldərili qəbilələrində yaşıl kimi rənglərlə saçları boyamaq, bəzi mədəniyyətlərdə gəyirmək, bəzilərində yel çıxarmaq normal qarşılana bilər. Quranın bu felləri “günah” olaraq təyin etməməyi sayəsində bütün bu ayrı mədəniyyətlərdə müsəlman olanlar, öz mədəniyyətləri ilə

bu nöqtələrdə zidd düşmədən dinlərini yaşaya bilirlər. Quran bu fellərə sahiblənmir nə də, bu felləri tövsiyə etmir. Yəni din, "toylara sport geyimlə gedin", "saçınızı yaşıla boyayın", "yel çıxarın, gəyirin" deyir şəklindəki açıqlamalar nə qədər xətalıdırsa; "çox arvadlılıq dinin gərəyidir" şəklində dinə qarşı edilən bir tənqid də o qədər xətalıdır. Dinin əmri və tövsiyəsi ayrıdır. Din yasaqlamadığı üçün sərbəst olan fel ayrıdır.[169]

Unudulmamalıdır ki əgər bir toplumda min kişi çox evlilik yaşayırsa ən az iki min qadın çox evlilik yaşamışdır. Bundan çıxan nəticə, çox arvadlılığı kişilərdən çox daha artıq qadınların uyğuladığıdır. Bir çox qadının, istəmədikləri şəxslərlə evləndirildikləri üçün çox evlilik yaşadıqları söylənə bilər. Bunun əlbəttə bir gerçəkliyi vardır, əlimizdə tarixdə çox arvadlılıq yaşamış qadınların yüzdə neçəsinin buna zorlandıqlarını göstərəcək bir statistika vardır. (İslama görə bir qadının zorla evləndirilə bilməyəcəyini və də zorla evli tutula bilməyəcəyini xatırladaq.) Fəqət çox evlilik yaşayanlar içində zorla evləndirilməyənlərin, zorla evləndirilənlərdən daha artıq olduğunu təxmin etmək çətin deyildir. Belə evliliklərin həmişə məcburiyyət üzərinə qurulduğunu düşünmək heç də həqiqət deyildir. Belə bir evlilik içində yaşayan qadınların yarısından çoxunun zorla evləndirilmədiyini var sayaraq, tarixdə çox evliliyi seçim edən qadın sayı kişilərdən yenə artıq olur. Demək ki tarix içində bir çox qadın, daha çox bəyəndiyi kişinin (bəyənərkən hər nəyə baxırsa; pul, yaraşıqlılıq, xarizma, bilgəlik, mövqe və başqa səbəblər ola bilər) bir neçə həyat yoldaşından biri olmağı tək arvadlılığa dəyişmişdir. Bir çox qadın, çox arvadlılığı, beynindəki belə bir analiz üzərindən dəyərləndirir; bu qadının qarşısında bir əri vardır, çox arvadlılıq olarsa, bu ər başqa bir xanımla evlənəcəkdir, bu halda qadınların böyük qismi çox arvadlılığa qarşı çıxır. Fəqət çox arvadlılığın geniş yayıldığı toplumlarda,

---

[169] Kuran Araştırmaları Grubu, *Uydurulan Din ve Kuran'daki Din*, 231-232.

qadınlara talib (evliliyə istəkli) olma ehtimalı olan kişilər çoxalır, subaylar kimi evlilər də talib ola bilir. Qısaca olaraq qadının, çox arvadlılığın geniş yayıldığı ortamda evlənəcəyi kişinin kim olacağı dəyişə bilir. Bu durumda bir qadın, daha çox bəyəndiyi bir kişi ilə çox arvadlılıq yaşamaq və daha az bəyəndiyi kişinin tək yoldaşı olmaq kimi seçimlərin də arasında qala bilir. Bu iki variantın arasında qalan bir çox qadının, daha çox bəyəndiyi kişi ilə çox arvadlılığı seçdiyi məlumdur. Əlavə olaraq ərindən boşanma haqqından azad şəkildə istifadə edə biləcək bir çox qadının, başqa bir qadınla bərabər olan əri ilə boşanma və ya çox arvadlı bir evliliyin içində olma seçimləri arasında qaldığı zaman çox arvadlı bir evliliyi seçdiyi də məlumdur. Qısacası tarix içində çox arvadlılığı ortaya çıxaran şərtlər, sadəcə kişilərin şəhvət duyğuları deyildir, eyni zamanda bəzi qadınların azad seçimləri və savaş ortamı kimi, kimsənin arzu etmədiyi ortamlar da çox arvadlılıq edilməsinə səbəb olmuşdur. Bütün bunlara baxmayaraq, savaş xaric zamanlarda, insan nüfuzundakı qadın-kişi nisbətinin aşağı-yuxarı bərabər olması kimi səbəblərlə, çox arvadlı yaşayanlar demək olar ki, hər toplumda istisna olmuş və çox insan tək yoldaşlı yaşamışdır.

Quran, çox arvadlılığı yasaqlamamış, beləcə tarixdəki bir çox toplumun mədəniyyətində olan bu tətbiqin reallaşdırıla bilməsi ilə əlaqəli dəyişkənliyi təmin etmişdir. Burada önəmli olan, qadının istədiyi kişi ilə evlənmə və boşanma haqqına sahib olmağıdır. Əsl böyük problem, qadının həyatı ilə bağlı bu önəmli qərarları azad şəkildə verməyinin əngəllənməyidir. Bir qadının sevmədiyi bir kişi ilə evləndirilməsi və ya boşanma istəyinə rəğmən təzyiq ilə evli tutulmaması; hürr iradəsi ilə gerçəkləşdirdiyi və davam etdirdiyi çox arvadlılıqdan daha böyük bir problemdir. Şəxs hürr, təzyiqə məruz qalmadan yalnış qərarlar da verə bilər. Bunlara qarşı çıxa bilərik. Amma haram olduqlarını söyləyə bilmərik. Məsələn iyirmi yaşında bir dostumuz və ya

oğlumuz olsa və doxsan yaşında bir qadınla evlənmək istəsə, bu evliliyə qarşı çıxa bilərik. Fəqət bu evlilik dini baxımdan “yasaqlanmamış” kateqoriyasında olduğu kimi, demək olar ki, hər dövlətin hüquq sistemində tərəflər (hür iradələriylə olmaq şərtiylə) belə bir evliliyi gerçəkləşdirə bilərlər. Qısacası yirmi yaşındakı bir gəncin doxsan yaşında bir qadınla evlənməsinin “yasaqlanmamış” kateqoriyasında olmağından və dünyanın demək olar hər sistemində bu tip bir evliliyin qanunən yasaq olmamağından dolayı, islam və dünyanın hüquq sistemləri tənqid edilə bilməyəcəyi kimi, çox arvadlılığın bənzər şəkildə “yasaqlanmamışlar” kateqoriyasında olmağından dolayı da islama bir tənqidi gətirilə bilməz.

Burada önəmli bir xüsusu daha bildirməkdə fayda görürük. Quran, çox arvadlılıq edilməsini “haram” qılmamışdır. Amma bu tip evlilikləri yoldaşlar arasında ədalətin təmin edilməsi şərtinə bağlayaraq, bu uyğulamanı yoxuşa sürmüşdür, yəni çətinləşdirmişdir deyə bilərik:

**Nisa-3:** ***Yetimlər mövzusunda ədalətli davranmamaqdan qorxsanız, o zaman sizin üçün halal olan qadınlardan ikisi, üçü, dördü ilə nikahlanın. Əgər ədalətlə dolanmayacağınızdan qorxsanız, bir tək qadınla və ya hakimiyyətiniz altında olanla nikahlanın. Bu, haqsızlıq etməməyiniz üçün ən uyğun yoldur.***

Bu ayəni anlamaq üçün öncəliklə “yetim” kəlməsini anlamağa çalışaq. “Yetim” anası-atası ölmüş kimsəyə deyildiyi kimi, ərəbcədə əri ölmüş qadınlara da “yetim” deyilir. Bu ayənin öncəsinə və sonrasına baxdığımız zaman, yetimlərə sahib çıxan biri olmadığı üçün onların mallarını ziyan edənlərə qarşı xəbərdarlıqlar edildiyini görürük. Bu ayədə də yetim olanların mallarını ziyan etmək qəsdi ilə onlarla evlənmək istəyənlətə xəbərdarlıqlar edilir. Ana və ya atasından və ya ölmüş ərindən miras qaldığı üçün mal sahibi olan bir qadının, bu mallarını, “necə olsa bir sahib çıxanı yoxdur” düşüncəsi ilə ədalətsiz bir şəkildə

xərcləmək üçün evlilik etməyi düşünənlər ola bilər. Bu ayə, adətən "Mən bu yetimlə sırf mallarını (istədiyim kimi xərcləyərək) heç etmək üçün evlənim, başqa yoldaşlar alaraq onlarla yaşayaram, mallarını heç etdiyim bu yetimi də heç maraqlanmadan bir kənarda buraxaram" şəklində düşünənlərə qarşı xəbərdarlıq da edilir. Beləcə ayə, bu şəkildə bəd niyyətli düşüncə sahiblərinə "Çox arvadlılıq etməyin yasaqlanmamışdır. Amma bir qadının malını qəsb etməyin üçün evlilik etməyin və sonra yoldaşlarının arasında ədaləti təmin etmədən onu bir kənara atmağın yasaqlanmışdır; ədaləti təmin etməyəcəksən tək yoldaşla kifayətlənməlisən" deyir və kimsəsi olmayan yetimlərə qarşı haqsızlıq edilmə ehtimalına qarşılıq, ola biləcək həmsöhbətləri xəbərdar edir. Ayə, bu mesajları nəql edərkən çox arvadlılıqda ədalətin təmin edilməsi gərəkdiyinə də diqqət çəkir.

Bir çox mədəniyyətdə normal qarşılanmış olan çox arvadlılıq, islamda yasaqlanmır. Amma qanunsuz bir şəkildə çox arvadlılıq etməyinin önünə keçilir, belə evliliklərdə ədalətli olmaq şərti tələb edilir. (Qadınların məmnun olmadıqları durumlarda boşanma haqlarının olduğunu, boşanmanın sırf kişilərə verilmiş bir haqq olmadığını qarşıda incələycəyik). *"Quran, yazımızın başında dediyimiz kimi ayrı mədəniyyətlərin, ayrı zaman dilimlərinin, həm savaş həm də sülh ortamının, həm kənd təsərüffatının, həm də sənaye toplumunun, həm böyük dövlətlərin, həm də kiçik ada xalqlarının dinidir. Quranın* dediyi islam, *bir tək mədəniyyətin, bir tək sənaye toplumunun, bir tək barış ortamının dini deyildir. Necə Əməvi və Abbasi uydurmaçıları Quran xarici əlavələrlə dinimizi öz qəbilə və əsrlərinə görə dondurub saqqalı, cübbəni, sarığı dinə sırıdılarsa, bəziləri də günümüzün görüşlərini dinə sırıma arzusundadırlar. Fəqət Əməvi və Abbasilər, öz dövrlərində saqqal buraxıb, cübbə və sarıq geyib, çox arvadlı bir şəkildə yaşaya bilərdilər. Günümüzdə də saqqal təraşı olunub, şalvar, pencək, qalstuk geyinilib, tək yoldaşla evlənilə bilər. Hər*

*iki ayrı uyğulama da islama zidd deyildir və yenə hər iki ayrı uyğulama da İslam deyildir. Bu şəxsi seçimlərin heç biri islamın zamandan müstəqil dəyər və qaydalar sistemi ilə əlaqəli deyildir. Fəqət Allahı tək bilmək, kasıblara yardım etmək, oruc tutmaq; Quranın əmrləri olduğu üçün həm Əməvilərə, həm Abbasilərə, həm günümüzü, həm də bizdən sonrakılara məsuliyyət yükləyir."*[170]

## 3. Qadınların Evlənmə və Boşanma Haqqı

Müsəlmanların çoxluq təşkil etdiyi bir çox bölgədə, qadınlar hürr iradələri ilə etdikləri seçimlər ilə evlənirlər. Ayrıca evlilikləri nə qədər yolunda getməsə də, boşanma mövzusunda hürr iradələri ilə qərar vermələri də mümkündür. Qadınların hür iradələrinin bu şəkildə qəsb edilməsini, "İslama" referanslarla dəstəkləməyə çalışanlar olmuşdur. Fəqət Quranda, qadınların evlənmə və ya boşanma haqlarını, atalarına və ya ərlərinə təhvil vermələri gərəkdiyi mənasını daşıyan heç bir ifadə yoxdur. Kişi, evliliyin başlamasında və ya sonlandırılmasında necə azad bir tərəfdirsə, qadın da eyni şəkildə azad bir tərəfdir.

Qurana görə yoldaşlar, bir-birlərinə sevgi, şəfqət duyacaq, bərabər ikən hüzur tapacaq (Rum surəsi 21) şəkildə yaradılmışdırlar və bir-birlərini tamamlayıcı (Bəqərə surəsi 187) olaraq tərif edilmişdirlər. Bu şəkildə bir əlaqənin isə, qadının iradəsi yox sayılaraq gerçəkləşdirilməsi, Quranın sadəcə kişilərə məxsus etdiyi, hürr iradə ilə seçmə haqqının sadəcə kişilərə məxsus olduğu düşünülə bilməz. Bəqərə surəsi 221-ci ayədə, kişilərin də qadınların da "xoşlarına gəlsə də" müşriklərlə

---

[170] Kuran Araştırmaları Grubu, *Uydurulan Din ve Kuran'daki Din*, 232-233.

evlənməməkləri keçir. Bu ayədən anlayırıq ki, evlənmədə “xoşu gəlmə” bir kriteriyadır. Şəxs istər kişi, istər qadın olsun bu kriteriya ilə qərar verə bilər. Eyni zamanda həm kişi, həm qadın müsəlmanlar, müşriklərlə evlənməmək kimi islamın qoyduğu hədləri qorumaqdan da məsuldurlar.

Bəlli bir əqli yetkinliyə gəlib, uşaqlıqdan çıxmış bir qadın, bəlli əqli yetkinliyə gəlib, uşaqlıqdan çıxmış bir kişi kimi eyni şəkildə kimlə evlənib-evlənməyəcəyinə qərar vermə səlahiyyətinə sahibdir. Əlbəttə ki, istər qadın, istər kişi olsun, tərəflər evlənəcəkləri zaman, ailələrindən və güvəndikləri insanlardan fikir ala bilərlər, başqalarının görüşləri evlənib evlənməyəcəklərində təsirli ola bilər. Fəqət ailələrin evlilikdə təsiredici olmağı bir çox mədəniyyətdə çox sıx rastlanan haldır. Şəxslər istəsələr evlənməyi arzu etdikləri şəxslərlə, ailələri istəmədi deyə evlənməməyi seçə bilərlər. Fəqət bu da hürr iradə ilə edilən bir seçim olmaq məcburiyyətindədir. Bu, qadınlar üçün olduğu kimi, kişilərin evlənmələri üçün də keçərlidir. Qadınların, evlilik üçün ailələrindən icazə almasının dini bir gərəklilik olduğunu söyləmək dinə qarşı bir iftiradır. Burada problem, mədəniyyətə bağlı olan bir durumun dini bir gərəklilik olaraq təqdim edilməsidir. İslam tarixindən bir çox örnək, qadınların, öz razılıqları ilə kişilər ilə evlənməyi qəbul və ya rədd etdiklərini göstərir. Məsələn Hz. Əbu Bəkirin qızı Ümmü Gülsüm, Hz. Ömər xəlifə ikən, ən güclü dövründə onun evlilik təklifini rədd etmişdir. [171] Qısacası Qurandakı heç bir ifadə, qadınların evlilikdəki seçim haqlarını əllərindən almadığına görə, islamda qadınların evlilikdə qərar vermə haqqına sahib olmadıqlarını kimsə söyləyə bilməz.

Evlilik normal olduğu kimi, cütlüklər dil tapa bilmədikləri, yola getmədikləri zaman boşanmaqları da normaldır. Cütlüklərin yaxşı yola gedərək evliliklərini davam etdirmələri ideal bir hal olduğu kimi, boşanmaq da yasaqlanmamışdır. Bu gün bir çox

---

[171] Təbəri, *Tarix*, IV, 199-200.

yerdə "İslam" adına tətbiq olunan boşanma hüququnda ər arvadına boşandığını ifadə edərək boşaya bildiyi halda, boşanmaq istəyən qadın *"hul"* idarəsinə müraciət etməli və boşanmaq üçün ərinin təsdiqini almaq məcburiyyətindədir.[172] Bu sistemdə qadın, ərinin təsdiqini ala bilmək üçün cürbəcür çətinliklərlə qarşılaşır, çox vaxt da böyük miqdarda pul ödəyərək, azadlığını almaq məcburiyyətində buraxılır. Bir yandan da ərinin təklif edilən miqdarı bəyənməmə və daha çox miqdar istəmə haqqı da vardır. Bu durumda *"hul"* sistemi işə yaramır, hadisə məhkəməyə həvalə edilir. *"Hul"* ilə boşana bilməyən qadın, kişi kimi sadəcə öz iradəsi ilə boşana bilmədiyi üçün, haqlılığını ancaq məhkəməyə isbat edə bildiyi hallarda boşanma haqqına sahib olur.

Quranın heç bir yerində sadəcə ərinin yoldaşını boşaya biləcəyi, qadınların boşanma haqqı olmadığı deyilməmiş olmasına rəğmən, qadınların boşanma haqqı olmadığı iddia edilmişdir. Qadınların boşanma haqqı olmadığının söylənə bilməsi üçün qadınların belə bir haqqı olmadığının açıqca ifadə edildiyi bir ayəyə ehtiyac vardır; belə bir ayə isə yoxdur. Quranda açıq bir ifadə ilə yasaqlanmayan hər şeyin halal olduğunu, bir şeyin sərbəst olduğu ilə əlaqəli Qurani bir ifadəyə ehtiyac olmadığını, əgər bir şey yasaqlanmamışdırsa bunun o şeyin halal olduğunu anlamağımız üçün yetərli olduğunu (Qurani bu ən təməl şərti) bir daha xatırlayaq. Məsələn badımcan yeməyin, tenis oynamağın, gitara çalmağın yasaqlanmamış olduğunu anlamaq üçün bunların halal olduğunu ifadə edən bir ayəyə ehtiyac yoxdur. Bunları yasaqlayan hər hansı bir ayənin olmamağı, bunların halal olduğunu anlamağımız üçün yetərlidir. Eyni şəkildə qadınların ərlərindən boşanmalarını yasaqlayan bir ayənin olmamağı,

---

[172] Hul/Muhaləə; Lüğətdə "paltarı çıxarmaq, soyunmaq; ayırmaq" kimi mənalara gələn hul, fiqhdə qadının bəlli bir bədəl verməsi qarşılığında ərinin ayrılmağa razı olması üzərinə evlilikdən qurtulmasını ifadə edir. Qarşılıqlı anlaşma ilə gerçəkləşməsi səbəbiylə bu işə muhaləə adı verilir. Baxın. Fahrettin Atar, *"Muhalea", TDV İslam Ansiklopedisi,* XXX, 399.

qadınların kişilər kimi bu haqqı istifadə etməklərinin halal olduğunu anlamağımız üçün yetərlidir.

Quranda "boşanmış qadınlardan" bəhs edilir. Bu ifadə, ərəbcə qaydalar baxımından, kişinin də qadının da gerçəkləşdirdiyi boşanmanı ifadə etmək üçün işlədilə bilər.

**Bəqərə-228:** ***Boşanmış qadınlar öz başlarına üç heyz dövrü gözləyərlər.***

Bəziləri, Quranda, qadının boşanma haqqının olmadığı ilə əlaqəli açıq bir ifadə tapa bilmədikdə, aşağıdakı ayədəki "nikah müqaviləsi əlində olan kişi" ifadəsini, sadəcə kişinin boşanma haqqı olduğuna dəlil olaraq göstərməyə çalışmışdırlar. Ayə belədir:

**Bəqərə-237:** ***Bir mehir təyin etməmişsəniz və qadınlarla bərabər olmadan boşanmışsanızsa, təyin etdiyiniz mehrin yarısını verin. Ancaq qadınların bağışlaması və ya nikah müqaviləsi əlində olan kişinin bağışlaması halı istisnadır. Kişilərin bağışlaması təqvaya daha yaxındır. Aranızda lütfkarlığı unutmayın. Allah, etdiklərinizi görür.***

Bu ayə, bəzilərinin iddia etdiyi şəkildə anlaşılsaydı belə, "qadın boşana bilməz" şəklində açıq bir hökmü ifadə etmədiyi üçün, yenə bu ifadədən qadının boşana bilməyəcəyini anlamaq mümkün olmazdı. Ayə ancaq mövcud vəziyyəti tərif edən bir ayə olaraq anlaşılardı. Bu ayə diqqətli oxunarsa; boşanma haqqının kimdə olduğu ilə əlaqəli bir hal bu ayədə vurğulanmadığı görülər. Ayədə diqqət çəkilən mövzu mehrin ödənməsidir (mehir ilə əlaqəli başlığa baxa bilərsiniz). Evlilikdə, iki tərəfin üzərində razılaşdığı bir dəyəri, mehir olaraq ər həyat yoldaşına verir. Ayədə, əgər yoldaşlar arasında cinsi təmas olmadan bir boşanma olmuşsa, qərar verilən mehrin yarısının verilməsi ifadə edilir. Ayrıca qadının bu miqdardan imtina etməsinin və ya kişinin mehrin bütününü verməsinin mümkün olduğu söylənilir; kişilərin belə etmələrinin daha uyğun olduğu da əlavə edilir. Burada

müzakirə edilən və kişinin əlində olan vermiş olduğu mehirdir; buna görə "nikah müqaviləsi əlində olan kişi" ifadəsi ilə, kişinin boşanma haqqını əlində tutduğunu deyil, verilən mehri əlində tutduğunu anlamaq daha uyğundur.

Bütün bunlara əlavə olaraq, peyğəmbərimizin həyatı incələndiyi zaman, evləndiyi, ancaq qadınların boşanmağı istəməsi üzərinə cinsi əlaqə qurmadan ayrıldığı yoldaşları olduğu bəzi qaynaqlarda ifadə edilmişdir. Bu qaynaqlara görə Əsma bint əl-Numan, Mülaikə bint Kəab və Fatimə bint əl-Dəhhak bu şəkildə peyğəmbərimizdən ayrılmışdırlar.[173] "İslamda qadın" mövzusunda mütəxəssis olan Fatimə Mernissi, bu üç hadisəni, peyğəmbərimiz dövründə qadınların da ərlərini boşama haqqı olduğuna dəlil olaraq göstərmişdir; bu durumda, boşanılan şəxsin peyğəmbər olması belə vəziyyəti dəyişdirməmişdir.

Quranda, boşanma əsnasında və sonrasında qadınlara edilən haqsızlıqları və zülmləri əngəlləyəcək ifadələr də mövcuddur.

**Talaq-6:** ***Onlara gözləmə müddəti bitənədək imkanınız daxilində öz yaşadığınız yerdə qalmağa yer verin. Sıxışdırmaq məqsədilə onlara zərər verməyin. Əgər onlar hamilədirlərsə, hamiləlikdən azad olana qədər onlara malınızdan xərcləyin. Sizin üçün uşaq əmizdirirlərsə, onların haqqını verin. Öz aranızda xoşluqla razılığa gəlin. Bir-birinizə çətinliyə salsanız, uşağı əmizdirməyi başqa bir qadına həvalə edin.***

Görüldüyü kimi Quranda, qadınların, iqtisadi baxımdan və uşaqları səbəbi ilə, boşandıqları ərləri tərəfindən çətin vəziyyətə salınmalarını əngəlləyən, onları qoruyan ifadələr mövcuddur. Bu ayədə isə boşanıb iddət müddətini bitirmiş qadınların çətin vəziyyətə salınmamaları əmr edilir.

**Talaq-2:** ***Gözləmə vaxtı bitdikdə onları şəriətə müvafiq olaraq saxlayın və yaxud onlardan müvafiq qaydada ayrılın.***

---

[173] İbn Sa'd, *et-Tabakatü'l-kübra,* VIII, 117; 127, 176; Zehebi, *Siyeru a'lami'nnübela,* II, 493.

***Aranızdan iki ədalətli şahid çağırın və Allah üçün şahidlik edin. Allaha və Axirət gününə iman gətirənlərə verilən nəsihət budur. Allahdan qorxana, Allah çıxış yolu göstərər.***

Quran ayələri ilə, əzilən qadınların haqları qorunmuş, evlilikdə və boşanmada yaşadıqları çətinliklər aradan qaldırılmışdır. Ancaq peyğəmbərimizin vəfatından sonra qadınlara verilən haqlar zaman içində əllərindən alınmış, evlənmə və boşanma haqları qəsb edilmiş və bunlar üçün də İslam dini vasitə edilmişdir. Fəqət Qurana baxdığımızda, evlilik və boşanma haqqı müzakirə mövzusu olduğu zaman, kişilərə verilən haqların qadınlara da verildiyi, bu mövzuda cinsiyyətə istinadlı heç bir ayrımçılıq olmadığı görülür.

## 4. Qadın Sünnəti

Qadın sünnəti, xüsusilə Afrika və Orta şərq bölgəsində görülən bir uyğulamadır və Misir, Efiopiya, Kenya, Somali kimi ölkələrdə olduqca yayğındır. Dünyada 100 ilə 200 milyon arasında qadının sünnətli olduğu təxmin edilir. Sünnət işi, əksər hallarda bıçaq və ya ülgüc kimi alətlər ilə, uşaqlıq ilə yeniyetməlik arası dövrdə edilir. Bu iş prosesində ortaya çıxan fəsadlar üzündən ölən və ya zərər görən bir çox qadın olduğu məlumdur. Bu işin ən gigiyenik şərtlərdə və heç bir fəsad olmadan edildiyi zaman belə, qadın sağlığı üçün böyük zərərlər yaratdığı Dünya Səhiyyə Təşkilatı (World Health Organisation) və digər bir çox sağlıq mütəxəssisi tərəfindən dəfələrlə açıqlanmışdır və hələ də bu mövzuda xəbərdarlıqlar edilir.

Qadın sünnəti, qadın cinsi orqanının nə qədərinin götürüldüyünə bağlı olaraq bir neçə ayrı şəkildə edilir. Qadın orqanından nə qədər çox hissə alınarsa, qadının sağlığına o qədər zərəri artan bu işin hər cürü qadınlar üçün çətinliklər törədir və sağlıqlarını təhdid edir. Çünki bu sünnətə məruz qalan qadınlar,

tualet ehtiyyacını qarşılayarkən, heyzli ikən, uşaq doğurarkən, cinsi əlaqə yaşayarkən ağrı çəkirlər. Ayrıca qadın sünnətinin bədənə verdiyi zərərlər ilə bərabər, ciddi psixoloji problemlərə yol açdığı da təyin edilmişdir.

Afrikadakı müsəlmanlar ilə bərabər xristianlar və başqa din mənsubu qadınların da sünnət edilməsi, bu adətin müsəlmanlıqla deyil, mühitin mədəniyyət və adətləri ilə əlaqəli olduğunun ən önəmli göstəricisidir. Məsələn mumyalar incələndiyi zaman bu tətbiqin antik Misirdə də edildiyi ortaya çıxmışdır. Ayrıca günümüzdən bir örnək vermək lazım gələrsə, Nigeriyada xristian qadınların % 55'i sünnət edildiyi halda, müsəlman qadınların ancaq % 2'nin sünnət edilmiş olduğu ortaya çıxır.[174]

Bəs, qadınlara ciddi zərər verən, yaşayan 100 milyondan artıq qadını şikəst buraxan minlərlə illik bu tətbiqdən başlığı "İslam və Qadın" olan bir kitabda niyə bəhs edirik? Təəssüf ki, qadınlara ciddi zərəri olan bu Afrika adətini, İslamla əlaqələndirmək istəyənlər, bu mövzuda da hədis uydurararaq bu tətbiqi "İslamiləşdirməyə" çalışmışdırlar. Məşhur altı hədis kitabından biri olan Əbu Davudda, bu mövzu ilə əlaqəli keçən hədisə görə, peyğəmbərimiz Mədinədəki qadın sünnətçisi Ümmü Atiyyəyə belə demişdir:

*Çox dərin kəsmə, çünki dərin kəsməyin, həm qadın üçün həm də əri üçün daha xoşdur.*[175]

*"İslamda Qadının Yoldaşına Qarşı Vəzifələri"* adlı kitabın yazarı Abdulhəlim Həmidə görə qadının sünnət olmağı onun zinətlərindəndir. Çünki bu iş üzünün gözəlləşməsinə səbəb olur və

---

174 https://www.unicef.org/cbsc/files/UNICEF_FGM_report_July_2013_Hi_res.pdf

175 Əbu Davud, "Ədəb", 179. Əbu Davudun birbaşa özü bu hədisi nəql etdikdən sonra müzakirə mövzusu hədisin zəif olduğunu söyləməkdədir. Hədis tarixi və üsulu ilə az-çox məşğul olan hər kəsin məlumudur ki Əbu Davud, Sünən adlı əsərini tanıtmaq üçün yazdığı Risalə ila əhli Məkkə fi vəsfi Sünənihdə, səhih hədisləri tapmadığı zaman mövzuyla əlaqəli zəif hədisləri seçdiyini bildirir.

hisslərini tərbiyə edir![176] Görüldüyü kimi, uydurma hədislərin qadınların həyatına gətirdiyi mənfiliklər üçün bu uyğulama konkret bir örnəkdir .

Qadın sünnətinin demək olar heç görülmədiyi bir çox İslam ölkəsi vardır. Fəqət bu ölkələrdəki bir çox ilahiyyatçı, Əbu Davudda və başqa qaynaqlarda keçən bu tətbiqə istinad edən hədislərin uydurma olduğunu söyləyə bilmir, hətta müdafiə edirlər. Digər yandan, bir çox İslam düşməni, həm hazırladıqları sənədli filmlərdə, həm də sosial medya kimi ortamlarda, bu tətbiq ilə əlaqəli hədisləri və İslam adına bu uyğulamanı müdafiə edənləri gündəmə gətirmək süræti ilə İslama hücum edirlər. Quranı mərkəzə alıb, uydurmaları tapıb ayırmayan İslam anlayışlarının yol açdığı fəlakət bu mövzuda da özünü göstərir.

## 5. Qadınlar Heyz Dövrlərində Nəyi Edə Bilməz?

Qadınların heyz dövrlərində məscidlərə girə bilməyəcəyi, oruc tuta bilməyəcəyi, namaz qıla bilməyəcəyi, hətta Qurana belə toxuna bilməyəcəyi "İslam" adına ifadə edilir. Fəqət Quranda bu ibadətlərin heyz dövrlərində edilməsi ilə əlaqəli bir sərhədləmə yoxdur; heyz dövrləri ilə əlaqəli tək qadağa bu dövrdə cinsi əlaqədə olmaq yasağıdır. Əlaqədar ayə belədir:

**Bəqərə-222:** ***Səndən heyz barəsində soruşurlar. De: "Bu, əziyyətverici bir haldır. Heyz vaxtı qadınlarla yaxınlıq etməkdən uzaq olun və pak olmayınca onlarla yaxınlıq etməyin. Onlar təmizləndikdən sonra isə Allahın sizə buyurduğu yerdən onlara yaxınlaşın". Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da.***

Quranda heyz dövrləriylə əlaqəli tək qadağa; həm qadına həm kişiyə yönəlmiş ortaq bir yasaq olan, bu dövrlərdə cinsi

[176] Abdülhalim Hamid, *İslam'da Kadının Eşine Karşı Vazifeleri*, 12.

əlaqədə olma yasağıdır. Əgər Allah, qadınların bu dövrlərdə Quran oxumamasını, məscidlərə getməməsini, namaz qılmamasını, oruc tutmamasını istəsəydi bir cümləylə belə olsa bunları bildirməzdimi? Madam Allah belə bir qadağa qoymayıb, əlbəttə bu mərhələ ilə əlaqəli belə bir qadağa olduğu iddia edilə bilməz və qadınlar bu mərhələdə məscidlərə də gedə bilərlər, ibadətlərinə davam da edə bilərlər, Quran da oxuya bilərlər.

Diyanət İşləri Başqanlığı da etmiş olan müfəssir Süleyman Atəş, bu mövzuda belə deyir: *"Quranın məhdudlaşdırmadığı bir şeyi kimsə məhdudlaşdıra (qadağan edə) bilməz. Qurana zidd şeylər hədis ola bilməz. O rəvayətlər, Peyğəmbərə iftiradır. Heyzli qadın haqqında Yəhudilikdən və müxtəlif xalqlardan ərəblərə keçmiş ənənələr hədis halına gətirilərək İslam ədəbiyyatına salınmışdır. Bunların əsli olsaydı, mütləq Quranda qadının heyz halında bu ibadətləri edə bilməyəcəyinə dair bir açıqlama olardı... Çünki Quran, ibadət etməmək kimi önəmli bir halı üstuörtülü buraxmaz, bunu açıq şəkildə ifadə edərdi. Quran, heyz halındakı qadınla cinsi əlaqə edilməməsini söyləyib, heyz halındakı qadının namaz qıla bilməyəcəyini, oruc tuta bilməyəcəyini, digər ibadətləri edə bilməyəcəyini niyə söyləmir? Yoxsa Allah qatında, cinsi əlaqə namazdan, orucdan, Quran oxumaqdan dahamı önəmlidir? Qurana zidd bu cür düşüncə və tətbiqləri buraxıb, Qurana dönməli və Quran nə deyirsə onu uyğulamalıyıq."*[177]

Aşağı-yuxarı qadınların həyatının beşdə-biri qədərini əhatə edən bu dövrdə, Allah ilə əlaqə quracaqları ibadətləri yasaqlamaq, qadınları bu dövrdə adətən kirlənmiş kimi dəyərləndirmək, düzəldilməsi şərt və Qurani təməli olmayan önəmli bir problemdir. Qaldı ki, bu xüsusi haldakı qadınları ibadətlərini yasaqlayanların əsas qaynağı hədislər olsa da, qadınların heyzli ikən hər cür ibadəti etdikləri, məscidlərdən uzaq qalmadıqlarını

---

[177] Süleyman Ateş, *Kur'an Ansiklopedisi,* Cilt: 8, 17.

ifadə edən hədislər də mövcuddur.

Peyğəmbərimiz, heyzli Hz. Aişəyə, "Məsciddən mənə səccadə gətir" deməsi üzərinə, Hz. Aişə heyzli olduğunu söyləmiş, peyğəmbərimiz: "Heyz, sənin istəyinlə olan bir şey deyildir. Sən məscidə get, mənə səccadəni gətir" demişdir. [178] Bu hədis, qadınları bu dövr içərisində məscidlərdən uzaq tutmağa çalışanlara cavab verir. Bu mövzuda Tirmizi, Əbu Davud, Nəsai, İbn Macə və Müslim tərəfindən belə bir hədis də nəql edilmişdir: "Yəhudilər qadınlar heyz gördüklərində onlarla birlikdə yemək yeməz və onlarla birlikdə eyni evdə oturmazdılar. Səhabə bu mövzunu Hz. Peyğəmbərdən soruşanda, ***"Səndən heyz halını soruşurlar. De ki: "O, narahatlıq verən bir haldır. Heyz olduqları zaman qadınlardan uzaq durun…*** (Bəqərə surəsi 222) ayəsi nazil oldu. Bunun üzərinə Rəsulallah belə dedi: *"Nikah (cinsi əlaqə) xaricində hər şeyi edə bilərsiniz."* [179] Bu hədis də, İslamda, Yəhudilərin qadınlara heyz halındakı yanaşmalarından fərqli bir görüş mənimsəndiyini göstərməyə kifayətdir.

Qadınlara uyğulanan bu yasaqların İsrailiyyatdan İslama keçdiyini görmək heç də çətin deyildir. Yəhudilər heyz dövrlərində qadınların kirli olduqlarını, müqəddəs kitablarına toxuna bilməyəcəklərini, ibadət edə bilməyəcəklərini, bu dövrdə geyindikləri bütün paltarların da kirli sayılacağını dilə gətirirlər. Allahın vəhy etdiyi şəkli ilə Yəhudilikdə bu hökmlərin nə şəkildə olduğu haqqında bir şərh edə bilmərik. Amma Quranda belə yasaqların təməli olmadığını rahatlıqla söyləyə bilərik. İranlılar da əvvəllər heyz halındakı qadını evdən çıxarıb, kənd xaricində kiçik bir çadıra qapayırdılar. Heyzli qadına yemək götürən şəxs daxil, heyzlinin təmas etdiyi əşyaya dəyərək kirlənməmsi üçün əllərini,

---

[178] Müslim, "Heyz", 11, 12; İbn Macə, "Təharət", 120; Əbu Davud, "Təharət", 103; Tirmizi, "Təharət", 101; Nəsai, "Təharət", 177.

[179] Müslim "Heyz", 16; İbn Macə, "Təharət", 125; Əbu Davud, "Təharət",102, "Nikah", 47; Tirmizi, "Təfsir", 3; Nəsai, "Təharət", 185.

burnunu və qulaqlarını bez parçaları ilə sarıyardı.[180]

Namaz qılmaq bir müsəlmanın həyatında çox önəmli bir yer tutur; qul, günün bəlli vaxtlarında Allaha yönələrək Allahla əlaqəsini canlı tutmağa çalışır. Namaz qılmaq, önəmli bir qulluq vəzifəsidir, nə qəzası vardır nə də kompensasiyası. Buna görə də, müsəlmanlar, minik üzərində səfər halında ikən soyğunçu qruplardan çəkinərlərsə, hətta savaş kimi sərt şərtlərdə belə namazı buraxmazlar; ya minik üzərində qılarlar ya da qısaldıb qılarlar.

**Bəqərə-239:** ***Əgər nədənsə qorxsanız, namazınızı ayaq üstə və ya minik üzərində qılın. Təhlükə sovuşduqda isə Allahı, sizə bilmədiklərinizi necə öyrədibsə, o cür yad edin!***

**Nisa-101:** ***Yer üzərində səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxsanız, namazı qısaltmağınıza görə sizə günah gəlməz. Şübhəsiz ki, kafirlər sizin açıq-aşikar düşmənlərinizdir.***

Təhlükəli vəziyyətlərdə belə namaz qılmağa ara verilmədiyi halda, necə olur ki, qadınlar həyatlarının beşdə-biri qədərinə bərabər olan bir zaman dilimində bu ibadətdən uzaq tutulurlar? Həm də Quranda bununla əlaqədar bir hökm yox ikən! Bu yanaşmanın Qurani və əqli bir təməli yoxdur. Ancaq Quranda, xəstə olanların oruclarını, xəstə olduqları gündə tutmayaraq başqa günlərdə qəza edə biləcəkləri keçir (Bəqərə surəsi 185). Bəzi qadınlar, heyz dövrlərini olduqca ağır keçirirlər; əlbəttə bu qadınlar Quranda təqdim edilən asanlıqdan yararlanıb, oruclarını başqa bir zamanda qəza edə bilərlər. Fəqət bu dövrdə, qadınların məscidlərə girməsini, Quran oxumasını, oruc tutmasını və namaz qılmasını əngəlləmək, düzəldilməsi gərəkli önəmli bir xətadır. İsrailiyyatın dinimizdəki və özəlliklə qadın məsələsindəki mənfi təsirinin düşünüləndən çox daha böyük olduğu görülür.

---

[180] Süleyman Ateş, *Kur'an Ansiklopedisi*, Cilt: 8, 19.

## 6. Tarlaya İstədiyi Kimi Yaxınlaşmaq

Qurandaki qadın kişi münasibətini izah edən gözəl bir bənzətmə ilə bağlı yanlış anlaşılmaların olduğunu görürük. Bu səbəbdən bu mövzu ilə bağlı ayəni də incələməyimiz yararlı olacaqdır:

**Bəqərə - 223:** ***Qadınlarınız əkin sahələrinizdir (tarlalarınızdır). Əkin sahələrinizə istədiyiniz kimi yaxınlaşın***

Bu ayədə "əkin sahəsi" kimi tərcümə etdiyimiz, bir çox tərcümədə "tarla" kimi tərcümə edilən ərəbcə "hars" kəliməsidir. Türkcə tərcümələrdə istifadə olunan "tarla" kəlməsinin bəzilərinin qulağına kobud gəlməsi, yanlış anlaşılmaların səbəblərindən biridir. Məsələn bu kəlməyə çox yaxın bir kələmə olan və hardasa eyni mənanı verən "bağça" kəliməsi ilə ayə "qadınlar sizin bağçalarınızdır" kimi tərcümə edilsə idi, böyük ehtimal ki, bir çox şəxs problem görməyəcəkdi. Türkcədə "tarla" kəliməsi, bəzilərinin qulağına xoş bir səslənmə olaraq gəlmədiyi üçün, eyni mənanı verən "əkin sahəsi" və ya "məhsul alma sahəsi" kimi bir ifadə ilə ayənin tərcümə edilməsini tövsiyə edirik. Necə ki, eyni "hars" kəliməsini fel halı bu ayədə "toxum əkmək" mənasında istifadə edilmişdir.

**Vaqiə - 63:** ***Əkdiyiniz (toxumu) gördünüzmü?***

Tarixin bir çox dövründə torpaq müqəddəs qəbul edilmiş və bunun nəticəsində "torpaq ana" kimi təriflər ilə dəyərləndirilmişdir. Xüsusilə əkinçiliklə məşğul olanlar, torpağın/tarlaların həyat qaynağı olduğuna davamlı şahidlik edirlər və torpağa hörmət hissi duyurlar; torpağı bu xüsusiyyətləri ilə yaradan Yaradıcılarına şükür edirlər. Həqiqətən də hər birimizin var olması, ayədə edilən bənzətməyə uyğun şəkildə, torpağda (tarlada, bağçada) bir bitginin böyüməsinə bənzəyir. Toxum torpağa əkildiyi zaman həyat qaynağımız olan bitgiləri nəticə verir; həyat yoldaşına spermlərini buraxmağı ilə əlaqənin meyvəsi olan uşaq ortaya çıxır. Hamımız toxum-torpaq-bitgi prosesinə oxşar şəkildə sperm-qadın-uşaq proseslerinin bir nəticəsiyik. Bu bənzətmə, bu əlaqə üzərində təfəkkür etdirən çox gözəl bir bənzətmədir.

Bu ayə cütlükləri əlaqələrindən uşaq kimi bir məhsulun ortaya çıxması kimi bir mərhələ üzərinə təfəkkür etdirməklə bərabər, çox önəmli başka funksiyalar da icra edir. Bir çox şəxs, cinsi münasibət zamanı nələrin edilib, nələrin edilə bilməyəcəyi ilə maraqlanır. Günümüzdə din ilə bağlı sualları cavablayan portallara baxsaq, bu

sualların cavabının xalqın önəmli bir qismi üçün önəmini qavrayarıq. Maraqlanılan suallardan biri də fərqli cinsi əlaqə vəziyyətlərində cinsi əlaqəyə girilib girilə bilməyəcəyidir. Bu ayə, cütlüklərin arasında fərqli vəziyyətlərdə cinsi əlaqə yaşana biləcəyini bəyan edərək, zehinlərdəki bu mövzu ilə bağlı suallara cavab verir. Necə ki, bu ayədən bir əvvəlki ayədən (Bəqərə surəsi 222), cütlüklərin cinsi münasibətləriylə əlaqəli tək qadağanın heyz dönəmində cinsi əlaqədə olmaq olduğu anlaşılır ( bundan əvvəlki başlıqda bu mövzunu incələdik). Mövcud təvsirlərin yazarlarının bir çoxu, bizim ifadə etdiyimiz şəkildə, bu ayənin cinsi əlaqə vəziyyətlərindən istəniləninin seçilə biləcəyini ifadə edtiyini demişdir. Buna baxmayaraq dində olmayan məhdudlaştırmaları dində varmış kimi göstərməyi mərifət sayan məhdudlaşdırıcı zehinlər, bu mövzuda da bəzi xurafatları xalq arasında yaymışdırlar.

## 7. Ərinin Cinsi İstəyinə Cavab Vermə Öhdəliyi

Qadınların ərlərinə itaətini dini bir məcburiyyət olaraq təqdim edənlər, bu itaətin cinsi münasibət mövzusunda da olması gərəkdiyini xüsusi vurğulayıb, bu mövzuda da uydurma hədislərlə qadınları "tərbiyə etməyə" çalışmışdırlar. Bu mövzuda uydurulan hədislərə aşağıdakılar örnəkdir:

*Allaha and içirəm ki, bir kişi cinsi əlaqə üçün xanımını yatağa çağırdığı zaman, qadın buna yanaşmazsa, əri ondan razı olana qədər uca Allah ona qəzəb edər.*[181]

*Kişi, xanımını yatağa çağırdığı zaman qadın gəlməkdən qaçınarsa, sabaha qədər mələklər qadına lənət oxuyarlar.*[182]

Bəzi fiqh kitablarında isə "evlilik" belə təqdim edilir:

*Cinsi yöndən qadından yararlanmaq üzrə kişi ilə qadın arasında həyata keçirilən bir əqddir.*[183]

Hədis və fiqh kitablarındakı bu təriflərə qarşılıq Quran,

---

181 Müslim, "Nikah", 121.

182 Buxari, "Bədül-xalq", 7; Müslim, "Nikah", 122; Əbu Davud, "Nikah",41.

183 Mehmet Okuyan, *Kadına Yönelik Şiddete Kur'an'ın Bakışı*, 110.

yoldaşlar arasındakı əlaqəni bir-birini tamamlayıcılıq üzərindən təsvir edir. Bəhs edilən mövzunun uydurma hədislərə və fiqh kitablarının təsvirlərinə qarşı, Quranın bu iki ayəsindəki zərifliyə baxaq:

**Rum-21:** ***Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır.***

**Bəqərə-187:** ***Orucluq gecəsi zövcələrinizlə yaxınlıq etmək sizə halal edildi. Onlar sizin üçün bir libas, siz də onlar üçün bir libassınız…***

Görüldüyü kimi qadın ilə kişi arasında cinsi münasibəti də əhatə edən tamamlayıcılıq, Quranda çox gözəl bir dillə ifadə edilir. Buna qarşılıq kişinin cinsi ehtiyacına cavab verməmək, uydurma hədislərdə olduğu kimi, "Allahın lənətinə" və ya "mələklərin lənətinə" düçar olmağının bir səbəbi olaraq ifadə edilir. Quran bir çox mövzunun qərarını insanlara buraxmışdır. Məsələn bir evin necə döşənəcəyi, evlərin və ya məscidlərin arxitekturasının necə olacağı Quranda ifadə edilmir. Bunlar və daha minlərlə mövzunun detalları insanların görüşlərinə buraxılmışdır. Allahın qoyduğu ədalətli olmaq, haqsızlıq etməmək kimi təməl prinsiplər çərçivəsində insanlar, içində olduqları tarixi dövrə və mədəniyyətlərinə görə Quranın "şüurlu səssizlik" göstərdiyi mövzularda qərarlarını verirlər. Eyni şəkildə evli bir cütlük, cinsi əlaqələri ilə əlaqəli qərarları, qarşılıqlı istəkləri diqqətə alaraq verəcəkdirlər. Burdakı bir anlaşılmazlıqda, "Allahın lənəti" və ya "mələklərin lənəti" kimi Quranın ifadə etmədiyi bir ifadəyə üz tutmaq, Allah adına yalan söyləmək deməkdir. İstədikləri hər mövzunu Qurana dedirtməyə çalışanlar, Quranın bir çox mövzudakı "şüurlu səssizliklərinin" hikmətini qavraya bilməmiş və bu "şüurlu səssizlik" sahələrini öz istəkləri ilə

doldurmağa çalışmışdırlar.

Bu kimi hədislər, hədis kitablarının yazarlarının həmişə kişi olmasındakı problemi və kişilərin arzuları üçün dinin vasitələşdirilməsindən çəkinilmədiyini gözlər önünə sərir. Niyə Quranda belə qəribəliklər keçməməsinə rəğmən, hədis və fiqh kitablarının bu cür bir çox qəribəliyi ehtiva etdiyini ciddi şəkildə düşünmək məcburiyyətindəyik? Problemin cavabı kitab boyunca göstərməyə çalışdığımız kimi bəsitdir. Hədis qaynaqlarında peyğəmbərimizə istinad edilən bir çox uydurma vardır. Həyat və qadınla bağlı öz görüşlərini geniş kütlələrə qəbul etdirmək istəyənlər, peyğəmbərimizə bu yalanları istinad edərək reallaşdırmağa çalışmışdırlar.

## 8. Zina Edənləri Daşlayaraq Öldürmə: Rəcm

Zina edən evlilərin daşlanaraq öldürülməsini ifadə edən rəcm uyğulaması, ən çox mübahisəyə səbəb olan başlıqlardan biridir. Rəcmin, qadınlara da kişilərə də tətbiq edilməsi gərəkdiyi müdafiə edildiyi üçün, bu kitabın digər başlıqları kimi sadəcə qadınlarla əlaqəli bir məsələ olduğu söylənə bilməz. Ancaq bu mövzu ucbatından İslama bir çox tənqid gəldiyi və uydurma hədislərlə Quran hökmlərinin ləğv edilmə səyinə yaxşı bir örnək olduğu üçün, kitabımızda bu mövzuya da yer verməyə qərar verdik.

Rəcm, Quranda olmayan bir uyğulama olmaqla ilə yanaşı, eyni zamanda Quranda qərar verilmiş cəza ilə toqquşduğu üçün, Quran ilə savaşan bir hökmdür. İslamda zina əməli, yəni nikahsız cinsi əlaqə açıq şəkildə yasaqlanmışdır. Ancaq bu günahın cəzası, rəcm, yəni daşlanaraq öldürülmək deyildir. Quranda, zina edənlərə evli və ya subay ayrımı edilmədən "yüz çubuk" cəzası qərar verilmişdir. Mövzu il əlaqəli ayə isə budur:

**Nur-2:** ***Zinakar qadının və zinakar kişinin hər birinə yüz***

***cəldə (bədənə vurulan çubuq) vurun. Əgər Allaha və axirət gününə inanırsınızsa, Allahın dininə görə onlara ürəyiniz yumşalmasın. Qoy möminlərdən bir dəstə onların əzabına şahid olsun.***

Görüldüyü kimi Quranda zina cəzası üçün sadəcə cildə vuruşu ifadə edən *"çubuq"* kəlməsi işlədilmişdir və bu kəlmə ilə cəzalandırmanın, şəxsin cildinin altına nüfuz edib orqanlarına zərər verəcək şiddətdə bir hərəkət olmaması gərəkdiyi anlaşılmaqdadır. Burada *"cəldə"* kəlməsinin seçilib *"əsa, minsəə"* (çubuq, dəyənək) kimi kəlmələrin işlədilməməsi və bir qrup insanın da bu cəza tətbiq edilərkən şahidlik etməyinin istənməsi, hədəfin günahkarın bədəninə zərər verməkdən ziyadə, toplum önündə ifşa edilməsi olduğunun göstəricisidir. Digər yandan daşlayaraq öldürməklə müqayisədə çox daha xəfif bir cəza olan *"cəldə"* vurma cəzası üçün belə ayədə *"Allahın dini mövzusunda onlara ürəyiniz yumşalmasın"* deyildiyi halda, Quranda heç olmayan və çox ağır bir cəza olan daşlayaraq öldürmə cəzasının tətbiqinin gərəkdiyini necə söyləyə bilərik?

Fiqh kitablarının iddialarına görə, rəcm uyğulaması noxud böyüklüyündəki daşlarla edilməlidir (daşlananın işgəncə ilə uzun müddətdə ölməsi deməkdir); qadınların çuxura basdırılaraq, kişilərin ayaqda duraraq daşlanmağı lazımıdır. Bəs zina hadisəsinə belə ağır bir cəza qəbul edildisə bu cəza niyə Quranda yoxdur? Üstəlik belə bir cəzanın varlığı Qurandan sitat gətirdiyimiz ayə ilə zidddir. Quranın içində heç bir ziddiyyət olmadığı, Quranda ifadə edilib, bu ziddiyətsizlik durumu Quranın Allahdan olduğunun bir dəlili olaraq təqdim edilir (Nisa surəsi 82). Rəcmi müdafiə edənlər isə Quranla zidd bir hökmü İslamın içinə daşıyaraq ziddiyyət çıxarır. Quranın ziddiyyətsiz məzmunu ilə zidd bir hökmü "din" deyə müdafiə edirlər.

Zinaya cəza tətbiq edilməsi Quranda dörd şahid şərtinə bağlanmışdır (Nur surəsi 4). Bu da, bu hərəkətin açıq-aşikar bir

çox şəxsin şahid ola biləcəyi şəkildə edilməsi deməkdir. Dörd nəfərin şəhadət etmədiyi heç bir əmələ zina cəzası verilə bilməz. Bəs, dörd şahidin zina hadisəsinə şahidlik edə bilməsi asan bir hadisədirmi? Heç də asan deyildir. Qurana görə başqalarının evlərinə icazə alınmadan girilə bilməz (Nur surəsi 27, 28). Zina edilən evə də girmə icazəsi verilmədən girilə bilməyəcəyinə görə, dörd şahidin, xüsusi yerdə edilən bir zina əməlinə şahidlik etməsi hardasa imkansızdır. O zaman Qurandakı hökmün praktiki qarşılığı, zina əməlinin xalqa açıq yerdə, açıq şəkildə edildiyi durumlara cəza verilməsidir, xüsusi yerdə edilən zinaya dünyəvi bir cəza verilə bilməz. Çünki buna dörd şahid şahidlik edə bilməz. Fəqət bu cəza ilə fahişəxana şəklində açıq zina bəyannaməsinin olduğu yerlər yox edilə bilər. Bu da, əslində bu hökmün, önəmli praktiki qarşılıqları olduğunu göstərir.

Rəcm cəzasına, İslamın daha ilk əsrində, Xaricilər kimi qarşı çıxan qrupların olduğu qaynaqlarda yazılıdır. Ancaq bu uyğulama, bu tip muxalifətlərə rəğmən uydurma hədislər vasitəsi ilə İslama girmişdir. Zina edənlərə yəhudilərin rəcm cəzası uyğuladığı bilinməkdədir. İslama uydurmaların girməsindəki ən önəmli qaynaq olan İsrailiyyat içində yer alması; bu hökmün haradan, necə İslama girdiyini anlamağımızı asanlaşdırır. Güman ki, Quranda zinaya verilən cəzanı az görənlər, İsrailiyyat içində mövcud olan bu hökmü “İslamın” içinə daşımışdırlar.

Üstəlik bunu edənlər, bu ağır cəzanı qəbul etdirmək istəyərkən Quranın əksik olduğu mənasına gələcək hədislər uydurmaqdan da çəkinməmişdirlər. Məsələn bu mövzuda uydurulan bir hədisə görə, zina edənə rəcm cəzası uyğulaması əslində Quranda mövcuddur. Hz. Məhəmmədin vəfatından sonra Hz. Aişənin evinə girən ac bir keçi bu ayənin yazılı olduğu səhifəni yemiş və dolayısıyla da ayə keçi tərəfindən nəsx

edilmişdir, yəni hökmü qaldırılmışdır.[184] Bu uydurma, bəzilərinin “ən güvənilən” dedikləri *kütübü sittə* olaraq adlandırılan hədis kitablarında da yazılıdır. Peyğəmbərimizin vəfatından sonra həm tamamlanmış, həm də əzbərə bilinən Quranın bir ayəsi, ac bir keçinin yeməsi ilə necə ortadan qalxar? Gəlin keçinin gəlib bu ayənin olduğu bir səhifəni yediyini düşünək, mövcud bir çox hafiz Quranı əzbərə bilmirdimi? Bu ayənin yeyilməmiş başqa nüsxəsi yox idimi? Keçi ilə əlaqəli bu hekayə, Quranın qorunacağını ifadə edən Hicr surəsinin 9-cu ayəsi kimi Quran ayələri ilə zidd deyildirmi? Ayrıca Quranda zinanın hökmü var ikən necə yəni Quranın içində bu hökmlə toqquşan başqa bir hökm ola bilər? Keçinin oxunmasını ortadan qaldırdığı söylənən bir hökm necə Quranda oxunan bir hökmü keçərsiz qılar? Rəcmə etiraz edənlərə qarşı rəcmi qəbul etdirmək üçün belə bir hekayənin uydurulduğu və hədis kitablarına soxulduğunu rahatlıqla söyləyə bilərik.

Rəcmi qəbul etdirmək üçün trajikomedik başqa uydurmalar da uydurulmuşdur. Buxarinin nəql etdiyi bir hadisəyə görə meymunlar da zina edən bir meymunu tutub, rəcm etmişdir və İbn Məymun bu meymunu rəcm etmək hadisəsinə qatılmışdır.[185]
Rəcmin nə qədər yerində bir cəza olduğu, meymunların belə bunu tətbiq etdiyi, fəqət bəzi insanların bunun gərəkliliyini anlaya bilmədiyi mesajını verən bu hekayəni, sırf Buxari nəql etdi deyə, mütləq doğru imiş kimi müdafiə edən bir çox şəxs vardır. Meymunlara nikah fərzdirmi? Meymunun zinası olarmı? “Zina edən” meymunun başqa meymunlar tərəfindən rəcmini dəstəkləyərək daş atmaq fəzilərdirmi? Bu suallar kimi, nəql edilən bu olayın axmaqlığını ortaya çıxaracaq bir çox sual mövcuddur.

---

[184] Əhməd b. Hənbəl, Müsnəd, XLIII, 342; İbn Macə, “Nikah”, 36.

[185] Buxari, “Menakıbü’l-ensar”, 27. İbn Məymun, hər nə qədər Cahiliyyə dövrünü görmüş olsa da Hz. Peyğəmbəri Müsəlman olaraq görə bilməmiş, buna görə də özü səhabədən sayılmamış, “Muhadram” kateqoriyasına daxil edilmişdir. “Muhadram” həm Cahiliyyə dövründə həm İslam dövründə yaşamış, Hz. Peyğəmbər həyatda ikən və ya vəfatından sonra müsəlman olmuş, ancaq onu müsəlman olaraq görə bilməmiş kimsəni ifadə edir.

Bu tip yazılar, Quran xaric qaynaqlarda bir çox uydurma olduğunun bilinməsi gərəkdiyini və Quran xaric qaynaqları müqəddəsləşdirməyin açdığı fəlakəti göstərmək üçün önəmlidir.

Rəcmi qəbul etdirmək istəyənlər, Hz. Ömərə iftira olduğuna dəqiq qənaətimiz olan, bu uydurmanı da işlədirlər. Buna görə Hz. Ömərin; *"Əgər xalqın, Ömər Qurana əlavə edir, deməyindən qorxmasaydım, bu rəcm ayəsini Qurana yazardım"* dediyi nəql edilir.[186] Məşhur hədis kitablarında nəql edilən bu iftiraya görə Hz. Ömər, Allahdan çox xalqın reaksiyasından qorxan bir xəlifə idi. Çünki, əgər Hz. Ömər, xalqdan gələcək reaksiya yerinə Allahdan qorxmuş olsaydı, rəcm ilə əlaqəli hökm, hədis kitabları yerinə bu gün Quranda yer alacaqdı. Peyğəmbərimizə bir çox yalan söz istinad edənlərin Hz. Ömərə də yalanlar istinad etmiş olması təəccüblənəcək bir hal deyildir. Görüldüyü kimi Qurana və ağıla zidd bir sürü uydurma, hədis kitablarında yer almış, sırf rəcm ənənəsinin yerləşməsi üçün müdafiə edilmiş və Quranın açıq hökmü olan Nur surəsinin 2-ci ayəsinin hökmü, çox ağır bir tətbiq ilə dəyişdirilməyə çalışılmışdır.Bir hədisə görə xalqdan qorxan Hz. Ömər Qurana rəcm ayəsini qoymaqdan imtina etmiş, digər hədisə görə bir keçinin yeməsi ucbatından Qurana bu ayə yazılmamışdır! Əlavə olaraq meymunların rəcmindən bəhs edilir! Heç bir şəkildə qəbul edilə bilməyəcək bu iddialara dayanaraq Quranın hökmünü yox sayıb rəcmi qəbul etmək mümkün deyildir.

Zina hadisəsinə, daha əvvəl diqqət çəkdiyimiz kimi dörd şəxsin şahidlik etməsi lazımdır. Burada, şahidlərin cinsiyyətindən bəhs edilmədiyinə, qadın və kişi ayrımı edilmədiyinə diqqət çəkmək istəyirik (qadınların şahidliyi mövzusunu öncəki səhifələrdə ələ aldıq). Quran, iffətli bir qadına zina günahlandırılması edənlərin bunu isbat edə bilmədikləri halda cəzalandırılmalarını əmr edir və qadınları zina iddiası ilə çətin vəziyyətdə buraxılmaqdan qoruyur. Bir çox toplumda qadınlar

---

[186] Buxari, "Hüdud", 31; Müslim, "Hüdud", 15; Əbu Davud, "Hüdud", 23.

üçün zina iddiasının nə qədər böyük problemlər doğurduğu hamımıza məlumdur. Bu mövzuda Quran, qadınlara yönəlmiş pozitiv bir ayrı-seçkilik etmişdir (bənzər bir cəzaya kişilərə zina iddiasında yoxdur). Əlaqədar ayə belədir:

**Nur-4:** ***İffətli qadınları zinada günahlandırıb, sonra dörd şahid gətirməyən kəslərə səksən cəldə (cildə vurulan çubuq) vurun və onların şahidliyini heç vaxt qəbul etməyin. Onlar əsl fasiqdirlər.***

Zina etmək ilə günahlandırmaq ya qadının əri tərəfindən, ya da başqaları tərəfindən edilir. Qadının əri tərəfindən zina iddia edildiyi zaman dörd şahid tamamlanması şərti axtarılmır, fəqət ər və arvadın hər birindən, dörd dəfə hadisəyə şahidliklərini təkrarlayaraq and içmələri istənir. Əlaqədar ayələr belədir:

**Nur-6:** ***Yoldaşlarını zinada günahlandırıb özlərindən başqa şahidləri olmayanların hər birinin şahidliyi, özünün doğru danışanlardan olmağına dair dörd dəfə Allahın adı ilə şəhadət verməlidir***

**7:** ***beşinci dəfə isə: “Əgər yalan danışanlardandırsa, Allah ona lənət eləsin!” – deməsidir.***

Yuxarıdakı ayələrdən sonra gələn ayələrə görə qadın, bənzər şəkildə, ərinin yalan söylədiyini dörd dəfə təkrarlayar və sonra da əri doğru söyləyirsə Allahın qəzəbinin öz üzərində olmasını diləyərsə, qadına heç bir cəza uyğulana bilməz (Nur surəsi 8, 9). Bu durumda hər ikisinin andına rəğmən qadının bəyanı əsas götürülür. Yəni bir kişinin yoldaşını zina ilə günahlandırması və cəzalandırılmasını istəməsi Quran üçün yetərli deyildir. Bu durumda Quran, qadın və kişiyə qarşılıqlı olaraq şahidləşmələrini söyləyir və zina etmədiyini ifadə etməsi halında qadının son şahidliyi kişininkinə seçim edilir və qadına dünyəvi hər hansı bir cəza verilə bilməz. Quran, bu yanaşması ilə qadını qoruyub, iftiraya uğrayan qadının zərər görməsinin önləyir, zina edən qadının cəzalandırılmasının önünə keçir. Tarix boyunca qadına

qarşı uyğulanan ən böyük şiddətlərdən biri olan zina iddiasına qarşı qadınların bu şəkildə qorunmasının altı (diqqət çəkmək baxımından) qaralanmalıdır.

İslamın bəzi haramlarını işləyənlər sadəcə öz axirət həyatlarına zərər verirlər. Məsələn: Allaha ortaq qoşan, içki içən, donuz əti yeyən, namaz qılmayan şəxs sadəcə öz axirət həyatına zərər verir; dünyada başqa bir şəxsə zərər vermir. Quranda bu tip haramlar üçün dünyəvi bir cəzaya qərar verilməmiş, bunların hesabı axirətə buraxılmışdır. Fəqət dünyada başqa insanlara zərər verən, eyni zamanda Quranda da haram edilmiş günahlar olan adam öldürmə, oğurluq kimi əməllərə dünyada da cəza verilməsi qəbul edilmişdir. Əlbəttə axirətdə bunlar üçün ayrıca hesab veriləcəkdir. Bu mövzuda tək istisnanın zina günahı olduğu iddia edilə bilər. Çünki iki tərəfin razılığıyla edilən bu hərəkətdən dünyada kimsənin zərər görmədiyi halda, dünyəvi bir cəza təyin edildiyi deyilə bilər. Ancaq bu mövzu üzərində diqqətlə düşünüləndə, zinanın hər insanın atasını tanımaq və hər atanın uşağını tanımaq kimi çox önəmli haqlarına təhdid yaratdığı görülür. Dünyada atasının kimliyini yanlış bilənlərin faizinin 10% olduğu təxmin edilmir və bunun önəmli səbəblərindən biri zinadır. Bu göstəricinin şişirildilmiş olduğunu, bu göstəricinin 1% olduğunu qəbul etsək belə, səkkiz milyardlıq dünya nüfuzu içində bunun çox yüksək bir sayıya qarşılıq gəldiyi görünür. Bir ata, uşağı üçün çox böyük bir əmək sərf edir; bu qədər böyük əmək sərf etdiyi şəxsin öz uşağı olduğunu və ya olmadığını bilmək, hər atanın ən təbii haqqıdır. Bir uşaq üçün də atası çox önəmlidir; doğru şəxsi atası olaraq bilmək uşağın da önəmli haqlarından biridir. Dolayısıyla zina, həm atanın həm uşağın bu xüsusi böyük önəmdəki haqlarına qarşılıq potensial bir təhdid təşkil edir. Ayrıca bir atanın, uşağın özündən olduğundan şübhə etməsi, nəticədə atanın uşaq üçün vəzifələrini yerinə gətirməməsi ananı da çox pis vəziyyətə salacaqdır. Ananın kim olduğu hamiləlik və doğum ilə

anlaşılır, fəqət atanın anlaşılması zinanın olub-olmaması ilə əlaqəlidir. Günümüzdə atanın kim olduğu, elmin təqdim etdiyi imkanlarla anlaşıla bilər. Fəqət çox az adam yoldaşına güvənməyərək, belə bir test etdirir. Ayrıca tarixin keçmiş dönəmlərində belə bir imkanın olmadığı da xatırlanmalıdır. Qısacası ilk başda elə görünməsə də, zina da, oğurluq və adam öldürmə əməlləri kimi başqalarının haqqına zərər vermə potensialı daşıyan bir əməldir və buna görə dünyəvi bir cəzası da vardır.

Burada zinanın başqasına zərər vermə potensialı daşıdığı, ancaq oğurluq və adam öldürmə əməlləri kimi birinə zərər vermə mənasına gəlmədiyi söylənə bilər. Fəqət bəzi İslami hökmləri, toplam zamandakı toplam təsiri üzərindən dəyərləndirməyimiz lazım gəlir. Bunun sırf bu mövzuda deyil, bir çox mövzuda üfüq açıcı çox önəmli bir prinsip olduğunu və Qurani hökmlər dəyərləndirilərkən göz önündə tutulmağı gərəkdiyini düşünürük. Əslində dini olmayan bir çox hüquqi hökmü və ya sosial tənzimləməni dəyərləndirərkən belə bir yanaşmadan istifadə edirik. Hamımızın günlük həyatda sıx şəkildə şahidlik etdiyi bir qanun üzərindən örnək verə bilərik: Qırmızı işıqda maşınların keçmə qadağası hər tətbiq edilən zaman, bu qadağanı tətbiq edənlər bir xeyir əldə etməz və ya şəxslər bir zərərdən qorunmuş olmaz. Tam əksinə, qırmızı işıqda durduğumuz üçün zaman itiririk, daha çox benzin sərfiyatı ilə çevrəni kirlədirik və daha çox sərfiyatdan dolayı maddi ziyana uğrayırıq. Buna qarşılıq, qırmızı işıqda keçmə qadağasına tabe olunmadığı zaman, ola biləcək qəzaların gətirə biləcəyi zərərin böyüklüyünü bildiyimiz üçün və belə durumlarda ödənə biləcək əvəzin böyüklüyündən dolayı, çox zaman qırmızı işıqda durmaq heç bir xeyir təmin etməsə də, hətta zərərli olsa da, bu qadağaya tabe olmağın gərəkli olduğunu hamımız bilirik. Qısacası, ancaq toplam zamandakı toplam təsiri üzərinə düşündüyümüzdə, qırmızı işıqda keçmə yasağının olması gərəkli bir yasaq olduğunu və çox zaman heç bir fayda

gətirməyəcək olmasına rəğmən qırmızı işıqda durmağımızın gərəkli olduğunu anlayırıq. Quran hökmlərini də dəyərləndirərkən, sadəcə xüsusi olaraq hökm hər tətbiq edildiyi zaman yaranan təsirə deyil, hökmün tətbiq edilməsi ilə toplam zamanda yaranmış toplam təsirə baxmalıyıq. Bu, digər bir çox hökm üçün belə olduğu kimi zina üçün də belədir. Zina etməmə hökmünün tətbiq edilməsi, hər uşağın atasını, hər atanın uşağını tanıma haqqını qoruyan, bu mövzudakı yalnış tanıma ehtimalını azaldan bir hökmdür. Əlbəttə bu hökmün başqa hikmətləri də vardır. Burada çox diqqət çəkilməyən, amma çox önəmli olduğunu düşündüyümüz bu hikmətə diqqət çəkmək istədik.

## 9. Köləlik və Cariyələrlə Cinsi Əlaqə

Quranın vəhy edildiyi dövrdə, həm Məkkə və Mədinədə, həm ətrafındakı bölgələrdə, həm də dünyanın bir çox yerində köləlik (qadın kölələrə cariyə deyilir) çox tətbiq edilən bir sistem idi. Bəzisi borcunu ödəyə bilmədiyi üçün, bəzisi savaşda əsir düşdüyü üçün, bəzisi də başqa səbəblərlə kölələşdirilirdi. Köləliyin geniş yayıldığı bir dövrdə belə, Quranda, hürr insanları kölələşdirməyə icazə verən bir tək ayə belə yoxdur. Daha əvvəldən kölələşdirilmiş olanların azadlığına qovuşdurulmaları hədəfi isə, Quranda açıq şəkildə görülür. Məsələn: Quran, insanların etdikləri bir çox xətaya qarşılıq kəfarət ödəmələrini söyləmişdir; bu kəfarət yöntəmlərinin ən başda gələnlərindən biri isə bir köləni azadlığa qovuşdurmaqdır.

***Nisa-92: Xəta istisna olmaqla heç bir mömінə başqa bir mömini öldürmək yaraşmaz. Hər kəs səhvən bir mömini öldürərsə, bir mömin kölə azad etməli və ölənin ailəsinə qanbahası verməlidir. Onların sədəqə verməsi (qatili əfv etməsi) isə istisnadır. Əgər o ölən kimsə, mömin olduğu halda, sizə***

***düşmən olan bir camaatdandırsa, onda qatil mömin bir kölə azad etməlidir. Əgər o, sizinlə aralarında müqavilə olan bir camaatdandırsa, onda qatil onun ailəsinə qanbahası verməli və mömin bir kölə azad etməlidir. Bunları etməyə imkan tapa bilməyən kəs Allah tərəfindən tövbəsinin qəbul olması üçün iki ay ardıcıl oruc tutmalıdır. Allah Biləndir, Müdrikdir.***

**Mücadilə-3:** ***Qadınlarını anaya bənzədərək özlərinə haram edib, sonra sözlərini geri götürənlər onlarla yaxınlıq etməzdən əvvəl bir kölə azad etməlidir. Bu sizə verilən öyüd-nəsihətdir. Allah nə etdiklərinizdən xəbərdardır.***

**4:** ***Buna imkan tapa bilməyən kəs, qadını ilə yaxınlıq etməzdən əvvəl iki ay ardıcıl oruc tutmalıdır. Buna gücü çatmayan kimsə altmış yoxsulu yedirtməlidir.***

**Maidə-89:** ***Allah sizi qəsdiniz olmadan içdiyiniz andlara görə (onları pozmağa görə) cəzalandırmaz, lakin O, sizi qəsdlə içdiyiniz andlara görə cəzalandıracaqdır. Bunun kəffarəsi ailənizə yedirtdiyinizin orta hesabı dəyərində ya on kasıbı yedirtmək və ya onları geyindirmək və yaxud da bir köləni azad etməkdir. Kəffarə vermək üçün bir şey tapmayan kimsə üç gün oruc tutsun. Bu, and içib sonra pozduğunuz andlarınızın kəffarəsidir. Andlarınızı qoruyun! Allah Öz ayələrini sizə bu cür bəyan edir ki, bəlkə şükr edəsiniz.***

Görüldüyü kimi yanlışlıqla adam öldürmək, Quranın (Mücadilə surəsi 2) qınadığı bir ənənə olan, yoldaşını anası kimi elan edib ondan ayrılmaq (zıhar) və andı pozmağa yönəlmiş kəfarət olaraq kölə azad etmək təyin edilmişdir. Bunların ikisində (yalnışlıqla öldürmə və zıhar) öncə kölə azad etməyə çalışılacaq (bunu gerçəkləşdirə bilməyən digər seçimləri edəcəkdir). Digərində isə (and pozma) kölə azad etmək seçimlərdən biridir. Bunlardan birində (yalnışlıqla öldürmə) mömin kölə azad etmək

şərti vardır. Digərlərində isə belə bir qeyd yoxdur.[187] Sırf Quranın bu hökmlərinin uyğulanması belə, toplumda kölə olaraq kimsənin qalmamasını təmin etməyə yetərlidir. Fəqət Quranda bununla da kifayətlənilməmiş, ən önəmli ibadətlərdən biri olan zəkatın veriləcəyi yerlər arasında, insanları azad etmək (köləlikdən qurtarma) sayılmışdır:

**Tövbə-60:** ***Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri İslam dininə isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah Biləndir, Müdrikdir.***

**Bəqərə-177:** ***Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrabaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbr edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır.***

Ayrıca Quran, kölələrin azadlığa qovuşdurulmasını və aclıq səviyyəsindəki kasıblığın qaldırılmasını aşılması lazım olan bir hədəf olaraq insanların önünə qoymuşdur.

**Bələd-12:** ***Sən nə bilirsən ki, sərt yoxuş nədir?***
**13:** ***O bir kölə azad etməkdir.***
**14:** ***Və ya qıtlıq zamanında doyurmaqdır***
**15:** ***Yaxınlığı olan bir yetimi***
**16:** ***Və ya sürünən bir yoxsulu***

Bəziləri Quranın niyə köləlikdən bəhs etdiyini soruşurlar. Quran, kasıblıqdan niyə bəhs edirsə, köləlikdən də ona görə bəhs

[187] Rahmi Yaran, "Kefaret", *İslam Ansiklopedisi,* Cilt: 25, 182.

edir. İrəli səviyyədə kasıblığın Bələd surəsində köləliklə bərabər anıldığını, zəkat veriləcəklər arasında kasıblığın və kölə azadlığının bərabər sayıldığını da xatırlatmalıyıq. Nə köləlik, nə kasıblıq "Gəlin qaldıraq" kimi bir bəyannamə ilə kifayətlənərək ortadan qalxmaz. Feli uyğulama və şəxslərin öz maddi imkanlarından imtinaları gərəklidir. Quran, bu mövzu ilə əlaqəli lazımi tətbiqləri təyin edilmiş və uyğulandığı təqdirdə köləliyi yox edəcək hərəkətləri ibadət olaraq təqdim etmişdir. Kölələlikdən heç bəhs edilməsəydi, o zaman kölələri azad etməyi məcbur qılan və təşviq edən uyğulamalar olmayacaqdı. Bu da heç şübhəsiz kölələrin əleyhinə olacaqdı. Ayrıca deyək ki, Məkkədə və Mədinədə müsəlmanlar arasında köləliyi sadəcə bir bəyannamə ilə qaldırdınız; Yəhudi, Xristian, Məcusi, bütpərəstlərin yaratdığı toplumlarda köləlik davam edəcəkdi. Müsəlmanlar kölələri aralarına almadığı zaman zəkatı kölə azad etmədən başqa sahələrə verəcəkdilər, kəfarətlərdə də digər tətbiqləri seçəcəkdilər. Bundan da zərəri yenə kölələr görəcəkdilər. özlərini azad etməyin bir ibadət olaraq təqdim edildiyi müsəlman toplumun içində olmaq kölələrin mənfəətinə idi. (Müsəlmanların, tarixi müddət içində, təəssüf ki, Quranın bu mövzudakı hökmlərini gərəyi şəkildə uyğulamadıqlarını açıq deməliyik.) O dövrdə, sıx beynəlxalq əlaqələrin olduğu bir dünya sisteminin olmadığı göz önündə tutularsa, köləliyin ortadan qalxmasının dünyəviləşdirilə bilməyəcəyi rahat şəkildə anlaşılacaqdır. Bu imkan ortaya çıxdığı zaman bunu etmək və ya bunu edəcək qurumlara (Birləşmiş Millətlər kimi) dəstək vermək, Bələd surəsində ortaya qoyulmuş olan hədəfin gərəyidir.

Bir də bunu anlamağımız lazımdır. Azadlığını itirmiş şəxs, sadəcə özünə "kölə" deyilən şəxs deyildir. Günümüzdə bir çox kimsə, iqtisadi yoxluqlar və cinsi istismarlar səbəbiylə özlərinə "kölə" deyilməsə də, kölə həyatı yaşamaqdadırlar. İradələrini azad şəkildə istifadə edə bilmir, çətin şəraitlərdə işlədilir, zorla seks

köləsi edilirlər. Dünyada bu mövzuda ciddi çalışmalar edən Beynəlxalq İş Təşkilatı (International Labour Organisation) və Azad Yürüyüş Vəqfi (Walk Free Foundation) kimi quruluşlara görə hazırda kimi çətinliklə evlilik yaşayan, kimi seks işçisi, kimi çətinliklə çalışdırılan qırx milyona yaxın "müasir kölə" mövcuddur.[188] Bunların yüzdə yetmişi qədəri qadındır. Bəzilərinə görə dünya tarixində adət olaraq ən çox kölənin olduğu dövr, hazırda yaşadığımız dövrdür. Bizə görə, onları bu vəziyyətdən qurtarmaq ilə əlaqəli xərclər çəkmək  də Quranın işarə etdiyi "azadlığını itirmişlərə" zəkat verməkdir. Onları bu vəziyyətdən qurtarmaq, Quranın bəhs etdiyi kölə qurtarma kəfarətinin əhatəsindədir və bu vəziyyəti düzəltməklə əlaqəli hər səy isə, Bələd surəsinin qoyduğu hədəf üçün didinmək deməkdir.Ayrıca günümüzdə, zahirən zorlama olmasa da, aclıq həddindəki kasıblıqdan dolayı çox pis şərtlərdə çalışdırılan yüz milyonlarla şəxs vardır ki, bunların nə qədər azad olduğu da mübahisəlidir.
Kitabımızın təyin edilmiş həcmini aşacaq bu mübahisəyə burada girmirik. Köləliyin ABŞ-da qaldırıldığı dövrdə, kölə sinifinin bir qismi Sənaye İnqilabı sonrası yaranan işçi sinifinə keçmişdir və işçi sinifinin içində əvvəlkindən pis şərtlərdə çalışmağa zorlanmışdırlar. Qaynaqlarda bu dövrdə azad edildikdən sonra, aclıqdan ölməmək üçün köhnə çalışdıqları yerlərə dönən kölələrdən bəhs edilir. İşçi sinifinin yaranmadığı bir dövrdə, heç bir mal varlığı olmadan azad ediləcək kölələrin, həyatlarını necə sürdürəcəkləriylə əlaqəli problem də unudulmamalıdır. Buna görə kölələri azad etmək qədər bu şəxslərin minimum ehtiyaclarının qarşılanmasını planlamaq da önəmlidir. Quran, kölələr üçün çəkiləcək xərclərin ibadət olduğunu ifadə edərək, praktikada tətbiqi  müsbət nəticələr verəcək bir model təqdim etmişdir.

Burada önəmli olan və gözdən qaçan nöqtə budur: Quran heç bir şəkildə azad bir şəxsi kölələşdirməyə icazə verməmişdir.

[188] https://edition.cnn.com/2017/09/19/world/global-slavery-estimates-ilo/index.html

Fəqət təəssüf ki, İslam dünyasında fəth edilən yerlərdəki insanlar müsəlmanlar tərəfindən kölələşdirilmişdirlər. Fəqət aşağıdakı ayədə görüləcəyi kimi savaş bitdikdən sonra, əsrlərin fidyə qarşılığında və ya fidyəsiz azad edilmələri keçir. Amma kölələşdirmə şəklində bir alternativ təqdim edilmir:

**Məhəmməd-4:** ***Döyüşdə kafirlərlə qarşı-qarşıya gəldiyiniz zaman boyunlarını vurun. Nəhayət, onları qırıb zəiflətdikdə əsirlərə bağladığınız kəndirləri bərk çəkin. Sonra da onları ya rəhm edib fidyəsiz, ya da fidyə alıb azad edin. Müharibəyə son qoyulanadək kafirlərlə belə rəftar edin. Bax belə! Əgər Allah istəsəydi, onlardan döyüşsüz də intiqam alardı. Lakin O sizi biri-birinizlə sınağa çəkmək üçün belə etdi. Allah Öz yolunda öldürülənlərin əməllərini heç vaxt boşa çıxartmaz.***

Quran qarşı tərəf savaşı başlatmadan savaşmağa icazə vermir. Amma qarşı tərəf savaşı başlatdığı zaman, müsəlmanların qarşı tərəfi öldürməkdən çəkinməməsi lazımdır.[189] Savaş bitdiyi zaman isə, Quran əsirlər üçün iki alternativ təqdim edir: 1- Savaş əsirlərini qarşılıqsız azad etmək, 2- Fidyə qarşılığı azad etmək. Görüldüyü kimi kölələşdirmə deyə bir alternativ mövcud deyildir. Başqa hər hansı bir ayədə də kölələşdirməyə icazə verilmir. Qurandan savaşla kölələşdirmə çıxmadığı kimi, peyğəmbərimizin Bədr savaşındakı, Hüneyndəki, Məkkənin fəthindəki uyğulamaları ilə da bu sabitdir. Peyğəmbərimiz buralarda, Məhəmməd surəsinin sitat gətirdiyimiz ayəsinə uyğun şəkildə, əsirləri ya fidyə ilə, ya da qarşılıqsız buraxmışdır. Buralardakı qalibiyyətlərdə, kölələşdirmə ilə böyük bir maddi qazanc əldə etmək mümkün olduğu halda, belə bir yola baş vurulmamışdır.[190] Məhəmməd surəsinin ifadələrinə zidd bütün rəvayətlər, Qurana zidd bir tətbiqi peyğəmbərimizin mənimsəməsi mümkün olmadığı üçün rədd edilməlidir.

---

[189] Caner Taslaman, *Terörün ve Cihadın Retoriği*, 27-54.

[190] İsrafil Balcı, *Yayımlanmamış Siyer Notları*.

Quranın zəkatın və kəfarətlərin qarşılığı olaraq, azadlığa qovuşdurmağa yönəlmiş əmr və tövsiyələri uyğulansaydı İslam toplumunun içində köləlik ortadan qalxardı. Kölələr aclıq təhlükəsiylə qarşılaşmadan azad topluma inteqrasiya olardılar. Fəqət müsəlmanlar, Quranda olmayan kölələşdirməni qanuni gördükləri üçündür ki, köləlik İslam aləmində davam etmişdir. Xaricilər kimi bəzi qruplar, cariyələrin seks köləsi edilməsi uyğulamasına yer verməmiş olsalar da, bir çox qrup təəssüf ki, bu tətbiqə icazə vermişdir.[191] Bundan da ən böyük zərəri qadın kölələr, yəni cariyələr görmüşdür. Bir çox qadın zorla istəmədikləri adamlarla evləndirilmiş, hətta seks köləsi edilmişdir.

Qurana görə nə hürr, nə də azadlığını itirmiş olanlarla nikahsız bərabər olmaq mümkün deyildir. Nikah isə qarşılıqlı razılıq ilə olan bir hərəkətdir. Əksər hallarda isə cariyələr ilə və savaş əsirləriylə, nikahsız və onların istəkləri olmadan bərabər oluna biləcəyi ifadə edilmiş və belə əlaqələr yaşanmışdır. Ancaq bu uyğulama Quranın nəql etdiyi dinə zidddir. Məsələn bu ayəyə baxaq:

**Nur-32:** ***Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh kölə və kənizlərinizi evləndirin. Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları varlı edər. Allah lütfü ilə genişdir, Biləndir!***

Bir çox kimsə, maddi imkanları əl verməməsi kimi səbəblərlə evlənə bilmir. Ayədə, evlənə bilməyənlərə evlilikdə yardımçı olmaqla əlaqəli təşviq vardır. Azad olmayanları, istəsək öncədən azadlığını itirmiş kölə və cariyələr olaraq, istəsək də savaşlarda əsir düşənlər olaraq düşünək, ayəyə görə bu şəxslər ilə də evlənmək lazımdır. Yəni bunlarla nikahsız və onların razılığı olmadan bərabər olmaq mümkün deyildir. Sadəcə onların bağlı olduqları şəxslərdən icazə alma şərti vardır. Bu mövzudakı bir ayə belədir:

---

[191] Leila Ahmed, *Women and Gender in Islam,* 87.

**Nisa-25:** ***Sizlərdən hər kəs maddi imkanı olmadığına görə azad mömin qadınlarla evlənə bilmirsə, onda hakimiyyəti altındakı mömin kənizlərdən alsın. Allah sizin imanınıza daha yaxşı bələddir. Siz bir-birinizdənsiniz. Bu kənizlər namusunu qoruyan, zinakarlıq etməyən və aşnası olmayan qadınlardırsa, onlarla sahiblərinin icazəsi ilə evlənin və mehirlərini şəriətə müvafiq qaydada verin. Əgər ərə getdikdən sonra zina etsələr, onlara, azad qadınlara verilən cəzanın yarısı tətbiq edilər…***

Burada da "hakimiyyət altındakılar" *(ma mələkət əymanu-kum)* ifadəsini, istər əvvəlcədən azadlığını itirmiş kölə və cariyələr olaraq düşünək, istər savaşlarda əsir düşənlər olaraq düşünək, onlar ilə nikahın gərəkli olduğunu bu ayədən də anlayırıq. Mənası təhrif edilib, cariyələrlə evlənmədən bərabər oluna biləcəyi iddialarına əsas alına Nisa surəsinin 3-cü ayəsi isə belədir:

***Nisa-3: Yetim qızlara qarşı ədalətli olmayacağınızdan qorxursunuzsa, onda xoşunuza gələn halal qadınlardan ikisi, üçü və dördü ilə evlənin. Əgər o qadınlarla ədalətlə dolanmayacağınızdan qorxursunuzsa, onda onlardan biri ilə və yaxud sahib olduğunuz cariyələrlə nikahlanın. Bu haqsızlıq, etməməyə daha yaxındır.***

Yuxarıdakı ayədə, çox evlilik edərkən yoldaşlarına ədalətlə davrana bilməyəcək olanların tək yoldaşla yetinmələri və ya hakimiyyətləri altındakılar ilə evlənmələri deyilir (bu mövzunu "çox arvadlılıq" başlığı altında incələdik). Bir çox tərcümədə bu ayədə "kifayətlənin" kəlməsi əlavə edilərək, ***"Bir tək qadınla evlənin və ya hakimiyyətiniz altında olanla kifayətlənin"*** şəklində tərcümə edilmişdir. Fiqh professoru Əbdüləziz Bayındır, bu mövzuda belə deyir:

*Ərəbcə bilməyənlər üçün bunu belə açıqlaya bilərik: "Bir tək qadınla və ya hakimiyyətiniz altında olanla" ayəsinin gizli mənası, ayənin ilk cümləsindən anlaşılan "nikahlayın" əmridir. Bir-birinə "və ya" bağlayıcısı ilə bağlı iki kəlmənin iki fərqli*

*mənası ola bilməz. Amma bu alimlər, cümlənin quruluşunu pozaraq ikinci kəlmənin başına "kifayətlənin" sözünü əlavə etmişdirlər. Bunun, ayəni təhrifdən başqa bir mənası yoxdur. Ayəyə bu mənanı vermək mümkün deyildir. Çünki "ma mələkət əymanu-kum" sözü, "vahidətən" sözü üzərinə istinad edilmişdir. Yönəlmiş və əleyhinə amilləri fərqli ola bilməz. "Vahidətən" sözünün amili "nikahlayın" əmri isə, "ma mələkət əymanukum / hakimiyyətiniz altında olanlar" sözünün amili də "nikahlayın" əmri olur. Dolayısıyla bu ayə, birdən artıq yoldaşla evləndiyi təqdirdə ədaləti yerinə gətirə bilməməkdən qorxanlara, ya bir hür qadını ya da bir cariyəni nikahlamağı əmr edir."*[192]

Qısacası Quran, kölələşdirməyi heç bir şəkildə dəstəkləmir. Savaş əsirlərinin kölələşdirilə biləcəyini düşünənlərə qarşı, Məhəmməd surəsində savaşın bitimində bu əsirlərin qarşılıqsız və ya fidyə ilə buraxılmaları söylənmişdir. Ayrıca Qurana görə cariyə/əsir qadınlarla sadəcə evlənmək surəti ilə bərabərlik yaşana bilər. Ənənədə uyğulanmış olsa da, bu qadınların razılığını almadan bunlarla bərabər olmaq mümkün deyildir. Qadın savaş əsirlərinin cariyələşdirilməsinə və seks köləsi halına gətirilmələrinə Quran təsdiq vermir. Quran, azadlığını itirənlərin azadlığa qovuşdurulmasını, müxtəlif günahların kəfarətini bu sahə ilə əlaqələndirərək, zəkat veriləcək yerlərdən birisi olaraq bu sahəni təyin edərək və azadlığı olmayanları azadlığına qovuşdurmağı bir hədəf olaraq qoymuş, təmin etməyə çalışmışdır.

[192] Abdulaziz Bayındır, *"Savaş Esirleri ve Cariyelik"*, Kitap ve Hikmet, Sayı: 11, 1-11.

# 10. Hurilər Cənnətdə Kişilərin Cinsi Partnyorlarıdırmı?

Quranda, Cənnətdə cinsi münasibətlərin necə olacağı, ya da olub-olmayacağı və ya hurilərin cinsi bir mükafat olduğuna dair açıq bir ifadə vardırmı? Bu sualların cavabı açıqca "Xeyr"dir. Quranda axirətdə cinsi münasibətin olduğuna və ya olmadığına və ya hurilərin kişilərin cinsi partnyoru olduğuna dair açıq bir ifadə yoxdur. Axirətdə cinsiliyin olması "mümkün" kateqoriyasındadır. Axirətdə insan nəfsinin istədiklərinin qarşılanacağını söyləyən ayələrə (Fussilət surəsi 31 və Zuxruf surəsi 71) istinadən, axirətdə cinsilik olacağı gözləntisi, məqbul bir gözləntidir. Fəqət orada, insanın, yeni bir şəkildə yaradılacağını ifadə edən ayələrə (Vaqiə surəsi 61) görə, açıq şəkildə bildirilməyən bu xüsusu "mümkün" görməyimizə rəğmən, bu yeni yaradılışda belə bir şeyi arzu edib-etməyəcəyimizi bilə bilməyəcəyimizi göz önündə tutmaqda fayda var. Cənnətdəki insanların xoşuna gələcək bir çox nemətin gerçək vəsflərini heç kimin bilmədiyini söyləyən Səcdə surəsinin 17-ci ayəsi, bu mövzuda olması gərəkli zehni rəftara işıq tutmalıdır.

Quranda, Cənnətdəki nemətlərin gerçək vəsflərini kimsənin tam olaraq bilməyəcəyi ifadə edildiyinə görə, Quranın bu nemətləri söyləməsinin tək yolu "bənzətmələrlə çatdırma"(təşbeh) etməkdir (Ali-İmran surəsinin 7-ci ayəsi Quranda "bənzətməli söyləmə"nin –mütəşabih- önəmini göstərir). Qurandan, axirətdə, dünyadan daha çox nemətin, böyük bir səltənətin (İnsan surəsi 20) olduğunu öyrənirik. Qısacası Quranda, bütün detalların deyil, əksinə sadəcə bəzi bölümlərin izah edilməsi qaçınılmazdır. Nəticədə Quranda, axirətdə olanların "bənzətməli söyləmə" və "bəzi bölümləri nəql etmək" surəti ilə nəql edildiyini həmişə ağlımızda tutmalıyıq. Bu isə Quranda deyilənlərin, Cənnətdəki nemətlərin tam olaraq nəql edilməsi olmadığı (çünki bənzətmə tam nəql etmə deyildir) fəqət orada olanları anlamağımız üçün

işarə dəyərində olduğu, ayrıca Quranda xəbəri verilməyən bir çox nemət olduğu, söylənilənlərin var olanların kiçik bir qismi olduğu mənalarına gəlir.

Gələk Cənnətdə cinsilik olduğunu ifadə etdiyi düşünülən ayələrin və huri məsələsinin incələnməsinə. Əvvəlcə hurilərin kişilərə xüsusi bir mükafat olub-olmadığı məsələsini ələ alaq. Ərəbcədə, başqa bir çox dildə olduğu kimi, kişi-qadın qarışıq toplumlara və sırf kişilərdən təşkil olunan toplumlara işlədilən fellər ortaqdır. Nəticədə cənnətliklər üçün bu tip fellər işlədildiyi kimi, cəhənnəmliklər üçün də eyni fellər işlədilir. Axirətdəki digər mükafat və ya cəzaların sırf kişilərə məxsus olduğunu düşünə bilməyəcəyimiz kimi, "hurilərin" sırf kişilər üçün bir mükafat olduğunu düşündürəcək bir Qurani ifadə də yoxdur.

Burada diqqət çəkilməsi gərəkli xüsus, "huri" kəlməsinin, ərəbcədə dişi və ya erkəklik bildirən bir kəlmə olmadığıdır. Bu kəlmə "gözünün bəyazı, bəmbəyaz, tərtəmiz" kimi mənalara gəlir. Quranda hurilərin insanlarla "cütlük ediləcəyi" (evlilik mənasında) (zəvvəcnəhum) ifadə edilir (Duxan surəsi 54, Tur surəsi 20) fəqət bu cütləşdirmədə cinsilik olduğu şəklində bir bəyan yoxdur. Necə ki, Quranda nəfslərin cütləşdirilməsi üçün (Təkvir surəsi 7), axirətdə insanların qruplar şəklində birləşdirilməsi üçün (Vaqiə surəsi 7) də eyni kəlmə (zevc) işlədilir. Fəqət buradakı "yoldaş, qrup olma" mənasındakı "zevc" kəlməsindən kimsə cinsi əlaqə ehtiva edən bir tənqidi anlamır. Bəs xüsusiyyəti bilinməyən bir varlığın insanlarla görüşdürülməsindən nə haqla əmin şəkildə cinsilik mənasını, həm də sadəcə kişilər üçün çıxarırıq. Üstəlik kəlmənin özü dişi bir kəlmə belə olmadığı halda? Cənnət nemətləri, bu dünyada edilən yaxşılıqların və Allahın həm kişilərə, həm də qadınlara rəhmətinin bir nəticəsi olduğu halda, bu şəkildə bir təfsirin, kişi mərkəzli bir təfsir anlayışından qaynaqlandığını düşünməkdə haqsızmıyıq? Quranda bəhs edilən hurilərin, Cənnətə girəcək insanların dostları, xidmətçiləri və ya rəhbərləri kimi bir

vəzifələri ola biləcəyini də düşünmək mümkün ikən, niyə onların “cinsi partnyor” olduğu mövzusunda israr edilir? Ən doğrusu, Quranda deyildiyi qədəri ilə deyib, hurilərin funksiyasının izah edilmədiyini təyin edərək, “funksiyaları nədir” sualına “bilmirik” cavabını verməkdir. Quranın axirəti bölümlərlə izah etməsi, axirətlə əlaqəli bir çox bilginin verilməmiş olması deməkdir.

Allah istəsəydi, Quranda cinsilik üçün işlənilən *“laməsə”* kimi kəlmələrlə, hurilərlə cinsiliyin olacağını açıq bir şəkildə bəyan edə bilərdi. Belə açıq bir bəyan yox ikən, Cənnəti daha çox kişilər üçün hazırlanmış bir yer kimi göstərən və axirətdə insanlara (sadəcə qadınlara və ya sadəcə kişilərə deyil) etdiklərinin qarşılığının veriləcəyini söyləyən Quran ayələrinin ruhuna zidd bu anlayışı rədd etməli, Quranda ifadə edilməyən detallar haqqında “Bilmirik” deməyi bacarmalıyıq. Hurilərin cinsi tətmin ilə əlaqəli bir funksiyaları varsa belə, mövcud Quran ayələrindən yola çıxaraq bunun söylənməsi mümkün görünmür.

Quranda bakirəliyə istinad olduğu, beləcə Cənnətdə cinsiliyə istinad edildiyi söylənmişdir. Bu mövzuda üç ayəyə diqqət çəkilmişdir: Rəhman surəsi 56, 74 və Vaqiə surəsi 36-cı ayələr. İndi bu ayələri sırası ilə incələyək: Rəhman surəsinin 56-cı və 74-cü ayələrində, daha öncə insanların və cinlərin onlara toxunmadıqları, təmas etmədikləri keçir *(Ləm yatmishunnə insun qabləhum və la cinn)*. Fəqət Quranda, başqa heç bir yerdə, bu ayədə *“yatmishunnə”* ifadəsi ilə bildirilən “təmas, toxunma” cinsi əlaqə üçün işlədilməmişdir. Quranda *“laməsə”* (Maidə surəsi 6), *“əta”* (Bəqərə surəsi 222), *“məssə”* (Bəqərə surəsi 236, 237), *“başəra”* (Bəqərə surəsi 187) tipli fellər cinsi əlaqə üçün işlədilmişdir. O zaman Rəhman surəsi 56 və 74-dən “kimsənin öncədən sahib olmaması, kimsənin toxunmamış belə olması” kimi bir mənanı anlamaq daha doğru deyildirmi? Burada açıqca cinsiliyi ifadə edən bir məna yoxdur. Üstəlik əgər bu ayələrə bəzilərinin etdiyi kimi “insanların və cinlərin hurilərin bakirəliyini

öncədən pozmadığı” kimi bir məna verilərsə, insanlarla cinlərin eyni tip bir varlıqla cinsi əlaqəyə girməsi ehtimalını düşünmək kimi bir çətinlik də ortaya çıxır.Vaqiə surəsinin 36-cı ayəsinə isə “o huriləri bakirələr qıldıq” mənası verilmişdir. Fəqət ayədə “huri” deyə bir ifadə yoxdur. Öncəki ayələrdə bir çox cənnət nemətlərindən bəhs edildikdən sonra 34-cü ayədə “yüksəldilmiş oturma yerlərindən” bəhs edilir, 35-ci ayədə “onların yeni bir şəkildə yaradıldığıdan” bəhs edilir, 36-cı ayədə keçən *“və cəalna hunnə əbkaran”* ifadəsini o zaman “daha öncə onları heç kimsə işlətməmişdir” şəklində çevirmək daha uyğundur. (Ayədəki *“əbkar”* kəlməsini, huriləri təsvir edən bir kəlmə olaraq dəyərləndirib, hurilərin bakirə olduğunu söyləyənlər olmuşdur.) “Onları” ifadəsini, ayədə və ayənin yaxınlarında bir yerdə heç olmayan “huri” ifadəsinə yamamaq yerinə, ayənin ən yaxınında, 34-cü ayədə bəhs edilən “oturma yerlərinə” *(furuşin)* uyğunlaşdırmaq dilçilik baxımından ən uyğunudur. *“Hunnə”* dişi əvəzliyi, əksər hallarda ağıl sahibi dişi varlıqlara işarə etsə də, Qurandakı bəzi yerlərdə bu əvəzlik ağıl sahibi olmayan varlıqlara da işarə etmək üçün işlədilmişdir. Bu mövzuda Mehmet Okuyan belə deyir:

*Burada sözügedən inşa, cənnətliklərə təqdim ediləcək olan döşəklərlə əlaqəlidir. Ayədəki “hunnə” əvəzliyi öncəsindəki “furuş” kəlməsinə gedir. Zənn edildiyi kimi bu əvəzlik hər zaman həqiqi müənnəs deyilən qadınlarla əlaqəli işlədilmir, fərqli varlıqların cəm şəkli üçün də müzakirə mövzusu edilir ki, bunun Quranda onlarla örnəyi vardır.*[193] *Örnək olaraq söyləmək lazım gələrsə, Tövbə surəsi 36 və Fussilət surəsi 37-də də, olduğu kimi lafzən müənnəs/dişi sayılan cəmi/çox kəlmələrə aid əvəzliklər*

[193] Bəqərə surəsi 29, 124, 197, 260; Ali-İmran surəsi 7; Maidə surəsi 120; Tövbə surəsi 36; Yusif surəsi 43, 46, 48; Nəhl surəsi 79; İsra surəsi 44; Ənbiya surəsi 56; Müminun surəsi 71; Nur surəsi 58; Səffat surəsi 49; Zümər surəsi 38; Fussilət surəsi 12, 37; Şura surəsi 5, 34; Zuxruf surəsi 9; Əhkaf surəsi 33; Rəhman surəsi 56, 58, 70, 74; Vaqiə surəsi 35, 36; Talaq surəsi 12; Mülk surəsi 19; Nuh surəsi 16.

*müənnəs gətirilir; burada da bunun bir örnəyi vardır. Rəhman 70-dəki işlənmə də eyni qaydanı göstərir. Söylənmək istənilən, bu döşəklərin təptəzə olduğu və cənnətliklər üçün xüsusi olaraq yaradıldığıdır. Ayədəki "əbkar" kəlməsi isə cəm bir kəlmədir və döşəklərin yeni və xüsusi olduğunu göstərir. Məqsəd döşəklərin yeni olduğunu, daha əvvəl başqalarına ikram edilmədiklərini, cənnətliklərə xüsusi təyin edimış olduqlarını göstərməkdir. Vaqiə 37-də keçən "urub" kəlməsi "xalis, xüsusi" mənasına gəlir və ətrab kəlməsiylə birlikdə işlədilir.*
*"Ətrab" kəlməsinə "uyğun" mənası veriləndə "urub" kəlməsi də buna uyğun olaraq "xalis, xüsusi" mənasına gəlir. Kəlmənin bu mənası eyni kökdən gələn "aribə/arba" sözlərindəki "xalis" mənasından əldə edilir. əl-Ərabul-"aribə və ya əl-arabul- arba" tamlamaları "xalis Ərəblər" mənasına gəlir. Buradan hərəkətlə şərhini etməkdə olduğumuz Vaqiə surəsi 36-37-dəki mesajı "uyğun, bərabər, xalis, xüsusi və üzərinə başqalarının oturmadığı döşəklər" şəklində anlaya bilərik. Qısa söyləmək lazım gələrsə, Vaqiə surəsi 27-40-da yer alan "əməl dəftərini sağ tərəfdən alanlara veriləcək mükafatlar" arasında müxtəlif meyvələr, ağaclar, kölgələr və yüksək döşəklər sadalanmaqdadır. Bu döşəklərin yeni inşa edildikləri, üzərlərinə daha öncə heç kimsənin oturmadığı mənasında əbkar olduqları, özəl, xalis, bərabər və uyğun bir özəllik ərz etdikləri, sahiblərini yadırğamadıqları ifadə edilir. Əbu Übeydə kimi bəzi alimlərimiz, bu ayələrdəki "hunnə" əvəzliklərini, sabikun ilə əlaqəli 22-ci ayədə keçən "hur" kəlməsinə götürərək, mənanı hurilərlə əlaqələndirmişdirlər. Mətni zorlayaraq yaxındakı kəlmə var ikən, əvəzliyi uzağa götürmək həm qaydalara zidddir; həm də sabikuna veriləcəyi bəyan edilən mükafatlarla, əməl dəftərini sağdan alacaq olanlarınkıları qarışdırmağa səbəb olur. Əsasında bu cür yanaşmalar Uca Allahın üçə ayırdığı məhşər şərtlərini bir-birinə qarışdırmaqdan*

*başqa bir şeyə yaramaz.*[194]

Hurilər, Quranda, "inciyə" (Vaqiə surəsi 23) bənzədilmir. Bu bənzətməni belə cinsi bir ehyam olaraq dəyərləndirənlər olmuşdur. Fəqət Quranda, axirətdəki uşaqlardan (vildan) bəhs edilərkən, bunlar da inciyə bənzədilir (İnsan surəsi 19). Quranda *"vildan"* ifadəsinin "uşaqlar" mənasında işlənildiyi Nisa surəsi 75, 98, 127-ci və Müzəmmil surəsi 17-ci ayələrdən də anlaşılır. Hər halda uşaqlar üçün "inci" bənzətməsi var deyə uşaqlarla cinsi əlaqəyə girildiyini düşünə biləcək kimsə yoxdur! Eyni şəkildə Qurandakı "gənc" mənasına gələn *"qılman"* üçün də Tur surəsi 24-cü ayədə "inci" bənzətməsi edilir. Fəqət bundan da cinsilik mənası çıxarılmamışdır. Bəs, o zaman hurilər üçün belə izahlar olmağından hərəkətlə hansı haqla bu ifadənin əmin bir şəkildə cinsiliyi qəsd etdiyini söyləyə bilərik? (Rəhman surəsi 58. ayədəki "yaqut" və "mərcan" bənzətmələri də bu çərçivədə düşünülməlidir.)

Nəbə surəsi 33-cü ayədəki ərəbcə *"kəvaibə ətrabən"* ifadəsinə bir çox tərcümədə "sinələri yeni tumurcuqlanmış yaşıd qızlar" mənası verilmişdir. Hətta bəziləri "dilbərlər" deyə belə tərcüməyə əlavə etmişdir. Burada *"ətrabən"* ifadəsi "uyğun, bərabər, yaşıd" mənasına gəlir. *"Kəvaibə"* kəlməsi isə "yeni tumurcuqlanmış sinə" olaraq çevrilmişdir. Fəqət ayədə nə "dilbər" vardır, nə "sinə" vardır, nə də "tumurcuqlanma" vardır. Öncəliklə bunu deyək. Ərəbcədə *"kəvaibə"* kəlməsinin də *"ətrab"* kəlməsinin də dişisi erkəyi eynidir; yəni bu kəlmələr dişilik ifadə etmir. *"Kəvaibə"* kəlməsinin mənalarından olan "yuvarlaq" mənasının bu kəlməyə verilməsi uyğundur; buna görə bir öncəki ayədə (32-ci ayə) keçən üzüm bağlarına işarə edilib, yuvarlaq *(kəvaib)* və bir-birinə bərabər *(ətrabən)* olan üzümlər təsvir edilir.[195] Bir sonrakı ayədə (34-cü ayə) dolu kasalardan *(və kasən*

---

[194] Mehmet Okuyan, *Yayımlanmamış Tefsir Notları.*

[195] Mehmet Okuyan, *Yayımlanmamış Tefsir Notları.*

*dihakan)* bəhs edilməsi də bu verdiyimiz mənanı gücləndirir. Beləcə "kəvaibə ətrabən" kəlməsi öncəki və sonrakı ayələr ilə uyğun şəkildə anlaşılır. Əvvəlcə üzümlərdən, sonra dolu kasalardan bəhs edilərkən, arada "sinələri yeni tumurcuqlanmış (dilbər) qızlardan" bəhs edilmir. Bunun yerinə öncəki və sonrakı ayə ilə əlaqəli şəkildə üzümlər təsvir edilir.

Nəticədə Quranda, axirətdə cinsi həyatın olduğu və ya olmadığına dair açıq bir ifadə olmadığı kimi "hurilərin" kişilərin cinsi partnyorları olduğuna dair də açıq bir ifadə yoxdur. Mövzuyla əlaqəli ayələrdə keçən və əksər hallarda cinsiliklə əlaqəli şərh edilən *"huri, kəvaib, ətrab"* kəlmələrinin dişisi də, erkəyi də eynidir. Buna görə bunları dişiliklə əlaqəli qəbul edib, sırf kişilərə bir mükafat olaraq görmək üçün bir səbəb yoxdur. Quranda olmayan huri fikrinin yaranmasında uydurma hədislərin önəmli təsiri olmuşdur. Qadınlar əleyhinə bir zehniyyətin və həyatın yaranmasında, uydurma hədislərin təsirli olduğuna əvvəlki səhifələrdə toxunduq. Bu dünya kimi axirət təsvirlərini də kişi mərkəzli etmək istəyənlər, istədikləri vəsaiti Quranda tapa bilməyəndə, bu fikri uydurma hədislərlə yaratmağa çalışmışdırlar. Axirətdə insanların canının istədiyi bir çox nemət olacağı Quranda deyildiyinə görə (Fussilət surəsi 31, Zuxruf surəsi 71, İnsan surəsi 20) axirətdə cinsilik gözləntisi qənaətimizcə normal bir gözləntidir. Fəqət bilə bilmədiyimiz mövzularda "bilmirik" deməyi bacarmalı və Cənnətdəki nemətlərin gerçək vəsflərini kimsənin bilmədiyini söyləyən, Səcdə surəsi 17-ci ayəni, bu tip mövzular gündəmə gəldiyində xatırlamalıyıq. Ayrıca Tövbə surəsi 72-ci ayədə toxunulduğu kimi Allahın razılığının bütün Cənnət nemətlərinin üstündə olduğunu da həmişə ağlımızda tutmalıyıq.

## *NƏTİCƏ*

Qadınlar, tarixin demək olar ki, hər dövründə, kişilərə nəzərən dez-avantajlı cins olmuşdurlar. Bir çox mədəniyyətdə qadınlar; evlənənə qədər atalarının, evləndikdən sonra ərlərinin, ərləri öldükdən sonra da oğlan uşaqlarının əmri altında yaşamaq məcburiyyətində qalmışdırlar. Bu mövzuda bir çox problemin həll edildiyi zənn edilən günümüz də daxil, qadınlar kişilərlə eyni imkanlara sahib deyildirlər; məsələn dünyada mövcud istehsalın önəmli bir hissəsini qadınlar edərkən sahib olduqları mal varlıqları kişilərin çox gerisindədir. İslam dinindən ayrı olaraq, dünyada qadınlar əleyhinə bir portret mövcuddur. Digər yandan, müsəlman toplumlarda qadınların, dünyanın geri qalanından daha yaxşı

vəziyyətdə olduğu deyilə bilməz. Hətta bir çox müsəlman toplum, qadınların kişilərə nəzərən çox daha az haqqa sahib olduğu toplumlar olaraq ön plana çıxır. Bu çalışmada, qadınlarla əlaqəli mövzulara İslam dini baxımından yanaşdıq və İslamın qadınlarla əlaqəli hökmlərini, qadına baxış bucağını, qadına toplumda necə bir rol verdiyini, qadın-kişi münasibətlərini necə qurduğunu təsbit etməyə çalışdıq. Sosyoloji analiz etməyi deyil, İslam dini baxımından qadının yerini anlamağı mərkəzə aldıq.

Müsəlman toplumlarda dinin xüsusi bir statusu vardır. Bu toplumlarda, öz görüşünü qəbul etdirmək istəyənlərin, dini öz çıxarları üçün vasitələşdirdiklərinə şahid oluruq. Öz qadın fikirlərini qəbul etdirmək və qadınları həyatın xaricinə itmək istəyənlər də dini sui-istismar etmişdirlər. Bu kitab boyunca, bu mövzudakı vasitələşdirmədə özəlliklə uydurulan hədislərin təsirli olduğunu, ayrıca önəmli fiqh, hədis, təfsir əsərlərini yazanların demək olar ki, hamısının kişi olmağının da bu müddətdə təsiredici amil olduğunu göstərməyə çalışdıq.

Bu problemlərə qarşı başda Qurana tam olaraq güvənərək, sonra Allahın Quranda dəfələrlə işlətməyimizə diqqət çəkdiyi ağlımızı işlədərək və ağlımızı heç kimsəyə təslim etməyərək, fitrətə uyğunluğu da göz önündə tutaraq problemləri həll edə biləcəyimizi göstərməyə çalışdıq. Qurana zidd bir sözü peyğəmbərimizin deməyi mümkün deyildir. Məsələn: Quranda, ana-ata haqqını qorumaq keçərkən, bir qadının xəstə ana-atasını ərindən icazə almadan ziyarət edə bilməyəcəyini söyləyən hədisin uydurma olduğu bəllidir. Və ya Quranda peyğəmbərimizin, qeybi bilmədiyi ifadə edildiyi halda, Cəhənnəmin çoxunun qadınlardan təşkil olunduğunu söylədiyinə dair hədisin doğru olmağı da mümkün deyildir. Və ya Quranda qadınlarla kişilərin bərabər olduqlarının örnəkləri olduğu halda, qadınların kişilərin olduğu mühitə girə bilməyəcəyi, belə mühitlərdə işləyə bilməyəcəyi və təhsil ala bilməyəcəyi iddiası da doğru ola bilməz. Ayrıca

qadınları, ağlı və dini qıt olaraq tərif edən, namazı itlərlə bərabər pozacaq bir cins olaraq göstərən, uğursuz qəbul edən hədislər də nə Qurana, nə ağıla, nə də fitrətə uyğundur. Qurana və ağıla uymayan hədislərin rəddində Hz. Aişə kimi örnəklər olmuşdur. O, Qurana və ağıla zidd olan qadınların uğursuzluğu və namazı pozmaları kimi hədisləri, bunların yalnışlığını ortaya qoyaraq rədd etmişdir. Bu kitabda da bu nümunə izlənilərək, qadınlar əleyhinə uydurulmuş və qadınlar əleyhinə bir ənənənin inşaasında işlədilmiş hədislərin İslamla əlaqəsi olmadığı göstərilərək "İslam və Qadın" mövzusu ortaya qoyulmağa çalışıldı.

Əhli hədisin çox etibar etdiyi məşhur doqquz hədis kitabının yazarları, şiələrin hədis kitablarının yazarları, fiqhi məzhəblərin qurucuları, bütün məşhur təfsir kitablarının yazarları hamısı kişidir. Təəssüf ki, bunların bir çoxu öz cinslərinin xeyrinə olan, qadınların kişiyə itaətini dinin ən önəmli vacibatlarından biri olaraq təqdim edən, qadını adətən kişinin köləsi halına gətirən və potensial bir təhlükə olaraq anlaşılmasına səbəb olan bir adətin reallaşmasında və bu adətin din xarici bir çox ünsürünün "İslam" olaraq anlaşılmasında təsirli olmuşdurlar. Bu gün Quranı əlimizə alaraq, ağıla və fitrətə uyğunluğu da nəzərdə tutaraq din olanı, ənənədən ayırmaq məcburiyyətindəyik. Uydurma olan izahları bu kriteriyalarlaələdikdən sonra, tarix boyunca edilmiş Quran şərhlərini də bu kriteriyalar çərçivəsində dəyərləndirməliyik. Quran İlahi olmasına rəğmən tarixi müddətdə edilmiş Quran şərhlərinin heç biri İlahi deyildir. Şərh edən şəxslərin; ənənədən gələn önyarğıları, yaşadıqları sosial muhitin şəkilləndirdiyi zehinləri, mövcud siyasi quruluşla əlaqələri, sosial tələb və gözləntilərə qarşı duruşları və şəxsi çıxarları şərhlərinə təsir edə bilir. Tarixi müddətdə, dünyanın demək olar ki, hər yerində yayğın qadın əleyhinə olan ənənələrdən din şərhçilərinin xeyli təsirləndikləri görülür. Buna görə uydurma izahları ayırdıqdan sonra Quranda keçən qadınlarla əlaqəli ayələr haqqında edilən

şərhlərin də masaya qoyulması gərəki idi və kitab boyunca bunu da gerçəkləşdirdik. Əlbəttə digər şərhlər kimi bizim şərhlərimiz də masaya qoyulmalı və incələnməlidir.

Quran ayələrinin həm məqsədinin, həm məzmunun önəmsənməsi əsas prinsipimizdir. Quranı anlamağa çalışarkən Qurandakı mövcud elastikliklərin dəyərləndirilməsi də lazımlıdır. Ayrıca Quranın susqun qaldığı mövzularda, ki biz bunlara "şüurlu susqunluqlar" deyirik, şəxslərin azad şəkildə bu sahələri doldurma hürriyyətləri olduğu bilinməlidir. Quranın tarixin geniş bir zaman dilimindəki çox fərqli mədəniyyətlərə adaptasiyasını təmin edən ən önəmli xüsuslardan biri budur. Təəssüf ki, Quranın "şüurlu susqunluqlarını" şüursuzca öz ənənələri ilə doldurmağa çalışmış bəzi "din adamları", İslamı bir çox xurafata boğmuşdurlar. Bu kitabda ələ aldığımız qadın mövzusu, bu xətanın müşahidə edilə biləcəyi ən önəmli sahələrdən biridir.

Ənənəni doğru ilə bərabər tutmaq qədər, müasir dövrdə hakim olan anlayışları da doğru ilə eyni görmək xətadır. Nə ənənə, nə də müasirlik adına dinə bir şey əlavə etmək və ya dindən bir şey atmaq qəbul edilə bilər. Quranı, ənənə və müasirliyin üstündə status olaraq qəbul etmək, əslində, Allahın statusunu, insanların yaratdığı ənənənin və müasirlik statusunun üstündə qəbul etmək deməkdir. Zehnimizi, ənənə və müasirliyin yaratdığı önyarğılardan qurtararaq, İslam ilə əlaqəli məsələlərdə Qurana yüksək bir güvənlə yönəlmək məcburiyyətindəyik.

Bu kitabda ortaya qoyulanların qadınlarla əlaqəli yaranan yalnış fikirlərin düzəldilməsinə bir qatqısı olarsa çox şad olacağıq. Kitab boyunca, Quranın, 7-ci əsrin qadınına xitab etdiyi kimi 21-ci əsrin qadınına da xitab etdiyini, amma bunu anlamaq üçün din adına yaradılmış qadın əleyhinə yaradılmış vəsaitin dinlə əlaqəsinin olmadığının anlaşılmasının önəmli olduğunu göstərməyə çalışdıq. Dindən uydurmalarla soyudulanların qazanılması əlbəttə bu kitabın hədəflərindəndir. Fəqət bunun üçün

dini insanların arzularına görə şəkilləndirmək əsla qəbul edilə bilməz; belə bir xətadan həssaslıqla qaçındıq. Bizim üçün ilk olaraq hədəf gerçəkliyin(Allahın dininin necə olduğunun) ortaya çıxmasıdır. Burada söylənənlərin ancaq Allahın bildirdiklərinə, yəni Qurana uyduğu təqdirdə doğru ola biləcəyini ağlınızdan çıxarmadan bu kitabı dəyərləndirməyinizi xaiş edirik. Hər şeyin ən doğrusunu Allah bilər.

## ***MƏNBƏ***

Abdurrezzak, Ebu Bekr Abdurrezzak b. Hemmam b. Nafi' el-Himyeri es-San'ani (ö. 211/826-27)***, el-Musannef*** (thk. Habiburrahman el-A'zami), el-Mektebetü'l-İslami, I-XI, Beyrut, 1403.

Afsaruddin, Asma, ***The First Muslims,*** Oneword, Oxford, 2007.

Ahmed b. Hanbel, Ebu Abdillah Ahmed b. Muhammed b. Hanbel b. Hilal b. Esed b. eş-Şeybani (ö. 241/855), ***Müsnedü'l-İmam Ahmed b. Hanbel*** (thk. Şuayb el-Arnaut, Adil Mürşid ve diğerleri), Müessesetü'r-Risale, 1. baskı, I-L, Beyrut, 1421/2001.

Ahmed, Leila, ***Women and Gender in Islam,*** Yale University Press, Connecticut, 1992.

Al-Hibri, Azizah***, Islam, Law and Custom: Redefining Muslim Women's Rights,*** American University International Law Review, Vol: 12, Issue: 1, 1997.

Ali, Ameer, ***History of the Saracenes,*** McMillan and Co., Londra, 1916.

Ali, Kecia, ***Sexual Ethics and Islam, Feminist Reflections on Quran, Hadith and Jurisprudence,*** Oneworld, Londra, 2016.

***Marriage and Slavery in Early Islam,*** Harvard University Press, Cambridge, 2010.

Anwar, Zainah, **Islam and Women's Rights,** Occasional Papers, Presented at University of California, Berkeley, Fall, 2007.

Apak, Adem, ***Kuran'ın Geliş Ortamında Arap Toplumu,*** Kuramer, İstanbul, 2017.

Aslan, Reza, ***Zealot,*** Random House Trade Paperbacks, New York, 2014.

Atar, Fahrettin, "Muhalea", ***TDV İslam Ansiklopedisi,*** Cilt: 30, İSAM, İstanbul, 2005.

Ateş, Ali Osman, ***Hadis Temelli Kalıp Yargılarda Kadın,*** Beyan, İstanbul, 2000.

***İslam'a Göre Cahiliye ve Ehl-i Kitab Örf ve Adetleri,*** Beyan Yayınları, İstanbul, 2014.

Ateş, Süleyman, ***İslam'da Kadın Hakları,*** Yeni Ufuklar Neşriyat, İstanbul, 1996.

***Kur'an Ansiklopedisi,*** Kuran Bilimleri Araştırma Vakfı, İstanbul, 1997.

el-'Ayni, Bedruddin Ebu Muhammed Mahmud b. Ahmed (ö. 855/1451), ***'Umdetü'l-kari şerhu Sahihi'l-Buhari*** (Zabt ve tashih: Abdullah Mahmud Muhammed Ömer), Daru'l-Kütübi'l-İlmiyye, 1. baskı, I-XXV, Beyrut, 1421/2001.

Badran, Margot, ***Feminism in Islam, Secular and Religious Convergences,*** Oneworld, Oxford, 2011.

Balcı, İsrafil, ***Yayımlanmamış Siyer Notları.***

Barlas, Asma, ***Believing Women in Islam,*** University of Texas Press, Texas, 2015.

Bayındır, Abdulaziz***, Savaş Esirleri ve Cariyelik, Kitap ve Hikmet,*** Sayı: 11, Süleymaniye Vakfı Yayınları, 2015.

el-Belazüri, Ahmed b. Yahya b. Cabir b. Davud (ö. 297/892-893)***, Fütuhu'lbüldan,*** Mektebetü'l-Hilal, Beyrut, 1998.

Berktay, Fatmagül, ***Tek Tanrılı Dinler Karşısında Kadın,*** Metis Yayınları, İstanbul, 2014.

el-Beyhaki, Ebu Bekr Ahmed b. el-Hüseyin (ö. 458/1066), ***el-Cami' lişu'abi'l-iman*** (thk. Abdülali b. Abdülhamid Hamid ve Muhtar Ahmed en-Nedvi), Mektebetü'r-Rüşd, 1. baskı, I-XIV, Riyad, 1423/2003.

el-Bezzar, Ebu Bekr Ahmed b. Amr b. Abdilhalık el-'Ateki (ö. 292/905), ***el-Bahru'z-zehhar: Müsnedü'l-Bezzar*** (thk. Mahfuz er-Rahman Zeynullah, Adil b. Sa'd ve Sabri Abdülhalık eş-Şafii), Mektebetü'l-Ulum ve'l-Hikem, 1. baskı, Medine, 1409/1988.

Bilgin, Beyza***, İslam'da Kanının Rolü Türkiye'de Kadın,*** Sinemis, Ankara, 2014.

Blech, Rabi Benjamin, ***Nedenleri ve Niçinleriyle Yahudilik,*** çev: Estreya Seval Veli, Gözlem Yayın, İstanbul, 2003.

Bouachrine, Ibtissam, ***Women and Islam, Myths, Apologies and the Limits of Feminist Critique,*** Lexington Books, Lanham, 2014.

el-Buhari, Ebu Abdillah Muhammed b. İsmail b. İbrahim İbnü'l-Muğire el-Cu'fi (ö. 256/870***), el-Cami'u's sahih: el-Cami'u'l-müsnedü'ssahihu'l-muhtasar min umuri Rasulillahi sallallahu aleyhi ve sellem ve sünenihi ve eyyamih*** (thk. Muhammed Züheyr b. Nasır en-Nasır), Daru Tavki'n-Necat, 1. baskı, I-IX, Beyrut, 1422.

Demircan, Adnan***, Cahiliye'den İslam'a Kadın ve Aile,*** Beyan Yayınları, İstanbul, 2015.

Dorman, Emre***, İslam Ne Değildir,*** İstanbul Yayınevi,

İstanbul, 2018.

Ebu Davud, Süleyman b. el-Eş'as. es-Sicistani el-Ezdi (ö. 275/889), ***Sünenü Ebi Davud*** (thk. Muhammed Muhyiddin Abdülhamid), el-Mektebetü'l-Asriyye, I-IV, Beyrut.

Ebu Nuaym, Ahmed b. Abdillah b. İshak b. Musa b. Mihran el-İsfahani (ö. 430/1038), ***Hilyetü'l-evliya ve tabakatü'l-asfiya,*** Daru'l-Kütübi'lİlmiyye, I-X, Beyrut, 1409.

Ebu Reyye, Mahmud, ***Kimliği ve Kişiliğiyle Ebu Hureyre,*** Kuram ve Tevhid Yayınları, İstanbul, 2017.

Ehrman, Bart D, ***How Jesus Became God,*** Harper One, New York, 2014.

***Lost Christianities,*** Oxford University Press, New York, 2005.

Engineer, Asgar Ali, ***The Rights of Women in Islam,*** St Martin Press, New York, 1996.

Esposito, John, ***Women's Rights in Islam,*** Islamic Studies, Vol: 14, No: 2, 1975.

***Women in Muslim Family Law,*** Syracuse University Press, Syracuse, 1982.

el-Firuzabadi, Mecdüddin Ebu't-Tahir Muhammed b. Ya'kub (ö. 817/1415), ***Tenviru'l-mikbas min tefsiri İbn 'Abbas*** Daru'l-Kütübi'l-İlmiyye, 1. baskı, Beyrut, 1412/1992.

Gannuşi, Raşid, ***Kuran ve Yaşam Arasında Kadın,*** çev: Muhammed Coşkun, Mana Yayınları, 2011.

Gazali, İmam***, İhyau Ulumi'd-Din,*** çev: Ali Arslan, Merve Basım Yayın Dağıtım, İstanbul, 2016.

***Kimya-i Saadet, Mutluluk ve Sadet Hazinesi,*** çev: Ali Arslan, Merve Basım Yayın Dağıtım, İstanbul, 2017.

Hakim, Ebu Abdillah Muhammed b. Abdillah el-Hakim en-Neysaburi (ö. 405/1014), ***el-Müstedrek 'ale's-Sahihayn*** (thk. Mustafa Abdülkadir 'Ata), Daru'l-Kütübi'l-İlmiyye, 1. baskı, I-IV, Beyrut, 1411/1990.

Hallaq, Wael, ***Sharia, Theory, Practice, Transformations,*** Cambridge University Press, Cambridge, 2012.

Hamid, Abdülhalim, ***İslam'da Kadının Eşine Karşı Vazifeleri,*** çev: Ziya Eryılmaz, Mektup Yayınları, İstanbul.

Hilli, Muhaqqıp, ***Sharayı' al-Islam;*** aktaran Ziba Mir-Hosseini***, Towards Gender Equality: Muslim Family Laws and Shariah,*** I.B. Tauris, New York, 2013.

Husni, Ronak ve Daniel L. Newman, ***Muslim Women in Law and Society,*** Routledge, New York, 2007.

İbn Abdilber, Ebu Ömer Yusuf b. Abdillah b. Muhammed b. Abdilberr en-Nemeri el-Kurtubi (ö. 463/1071), ***el-İsti'ab fi ma'rifeti'l-ashab*** (thk. Ali Muhammed el-Bicavi), Daru'l-Cil, 1. baskı, I-IV, Beyrut, 1412/1992.

***Cami'u beyani'l-ilmi ve fazlih*** (thk. Ebu'l-Eşbal ez-Züheyri), Daru İbni'l-Cevzi, 1. baskı, I-II, Demmam, 1414/1914.

İbn Arrak, Ebu'l-Hasan Ali b. Muhammed b. Arrak el-Kinani (ö. 963/1556), ***Tenzihü'ş-şeri'ati'l-merfu'a 'ani'l-ahbari'ş-şeni'ati'l-mevzu'a*** (thk. Abdulvehhab Abdüllatif, Abdullah Muhammed es-Sıddik el-Ğumari), Daru'l Kütübi'l-İlmiyye, 1. baskı, I-II, Beyrut, 1399.

İbn Ebi Şeybe, Ebu Bekr b. Ebi Şeybe Abdullah b. Muhammed b. İbrahim b. Osman b. Havasti el-Absi (ö. 235/849), ***el-Musanneffi'lahadisi ve'l-asar*** (thk. Kemal Yusuf el-Hut), Mektebetü'r-Rüşd, 1. baskı, I-VII, Riyad, 1409.

İbn Hacer, Ebu'l-Fazl Ahmed b. Ali b. Muhammed b. Ahmed b. Hacer el-Askalani (ö. 852/1449), ***Tehzibü't-Tehzib,*** Dairetü'l-Me'arif, 1. baskı, I-XII, Hindistan, 1325.

İbn Huzeyme, Ebu Bekr Muhammed b. İshak b. Huzeyme b. es-Sülemi en-Neysaburi (ö. 311/924), ***Sahihu İbn Huzeyme*** (thk. Muhammed Mustafa el-A'zami), el-Mektebü'l-İslami, I-IV, Beyrut.

İbn Kesir, Ebu'l-Fida İsmail b. Ömer b. Kesir el-Kuraşi ed-Dımeşki (ö. 774/1373), ***Tefsirü'l-Kur'ani'l-'azim*** (thk. Sami b.

Muhammed Selame), Daru Taybe, 2. baskı, I-VIII, Riyad, 1420/1999.

***Muhtasaru Tefsiri İbn Kesir*** (ihtisar ve thk. Muhammed Ali es-Sabuni), Daru'l-Kur'ani'l-Kerim, 7. baskı, I-III, Beyrut, 1402/1981.

İbn Kuteybe, Ebu Muhammed Abdullah b. Müslim b. Kuteybe ed-Dineveri (ö. 276/889), ***Te'vilü muhtelifi'l-hadis,*** el-Mektebü'l-İslami, 2. baskı, 1999/1419.

İbn Mace, Ebu Abdillah Muhammed b. Yezid Mace el-Kazvini (ö. 273/887), ***Sünenü İbn Mace*** (thk. Muhammed Fuad Abdülbaki), Daru İhyai'l-Kütübi'l-Arabiyye, I-II.

İbn Sa'd, Ebu Abdillah Muhammed b. Meni' el-Haşimi el-Basri el-Bağdadi (ö. 230/845), ***et-Tabakatü'l-kübra*** (thk. Muhammed Abdülkadir 'Ata), Daru'l-Kütübi'l-İlmiyye, 1. baskı, I-VIII, Beyrut, 1410/1990.

İbnü'l-Cevzi, Cemalüddin Abdurrahman b. Ali b. Muhammed el-Cevzi (ö. 597/1201), ***Kitabü'l-Mevzu'at*** (thk. Abdurrahman Muhammed Osman), el-Mektebetü's-Selefiyye, I-III [III. cildin baskısı 1388/1968'de yapılmıştır.], 1. baskı, Medine, 1386/1966.

İbnü'l-Esir, İzzüddin Ebu'l-Hasen b. Ali b. Ebi'l-Kerem Muhammed b. Muhammed b. Abdülkerim b. Abdülvahid eş-Şeybani el-Cezeri (ö. 630/1233), ***Üsdü'l-ğabe fi ma'rifeti's-sahabe*** (thk. Ali Muhammed Muavviz, Adil Ahmed Abdülmevcud), Daru'l-Kütübi'l-İlmiyye, 1. baskı, I-VIII, 1415/1994.

Jawad, Haifaa, ***The Rights of Women in Islam, An Authentic Approach,*** Palgrave, Londra, 1998.

***Kitabı Mukaddes,*** Kitabı Mukaddes Şirketi, İstanbul, 1985.

Kuran Araştırmaları Grubu, ***Uydurulan Din ve Kuran'daki Din,*** İstanbul Yayınevi, 2016.

Lanitto, P. Luigi ve diğerleri, ***Hıristiyan İnancı***, çev: Leyla

Alberti, Sent Antuan Kilisesi, İstanbul, 1994.

Lapidus, Ira M., ***A History of Islamic Societies,*** Cambridge University Press, New York, 2014.

Malik b. Enes, Ebu Abdillah Malik b. Enes b. Malik b. Amir el-Asbahi el-Medeni (ö. 179/795), ***Muvattau'l-İmam Malik*** (thk. Muhammed Mustafa el-A'zami), Müessesetü Zayd b. Sultan Al-i Nehyan li'l-A'mali'l-Hayriyye ve'l-İnsaniyye, 1. baskı, I-VIII, Ebu Zabi, 1425/2004.

Mejia, Melanie P., ***Gender Jihad: Muslim Women, Islamic Jurisprudence and Women's Rights***, Kritike, Vol: 1, No: 1, 2002.

Mernissi, Fatima, ***Beyond the Veil,*** Indiana University Press, Bloomington, 1987.

***The Veil and the Male Elite,*** Basic Books, New York, 1991.

Mir- Hosseini, Ziba, ***Towards Gender Equality: Muslim Family Laws and Shariah,*** I.B. Tauris, New York, 2013.

***Men in Charge, Re-thinking Authority in Muslim Legal Tradition,*** Oneworld, Londra, 2015.

Musa, Aisha, ***Hadith as Scripture, Discussions on the Authority of Prophetic Traditions in Islam,*** Palgrave, New York, 2008.

Müslim, Ebu'l-Hüseyin Müslim b. el-Haccac el-Kuşeyri en-Neysaburi (ö. 261/875), ***Sahihu Müslim*** (thk. Muhammed Fuad Abdülbaki), Daru İhyai't-Türasi'l-Arabiyye, I-V, Beyrut, 1412/1991.

Okiç, M. Tayyib, ***İslamiyette Kadın Öğretimi,*** Diyanet İşleri Başkanlığı Yayınları, Gaye Matbacılık, 1981.

Okuyan, Mehmet***, Kadına Yönelik Şiddete Kur'an'ın Bakışı,*** OMÜİFD, Sayı: 23, 2007.

***Yayımlanmamış Tefsir Notları.*** Orum, Fatih, ***Kuran Işığında Küçüklerin Evlendiril(eme)mesi Meselesi,*** İstanbul Üniversitesi İlahiyat Fakültesi Dergisi, Sayı: 19, 2010.

Rahemtulla, Shadaab, ***Quran and the Oppressed, Liberation Theology and Gender Justice in Islam,*** Oxford University Press, 2017. er-Ramehürmüzi, Ebu Muhammed el-Hasan b. Abdurrahman b. Hallad (ö. 360/971), ***el-Muhaddisü'l-fasıl beyne'r-Ravi ve'l-va'i*** (thk. Muhammed Accac el-Hatib), Daru'l-Fikr, 3. baskı, Beyrut, 1404/1984.

Ruxton, F. H., ***Maliki Law;*** aktaran Ziba Mir-Hosseini, ***Towards Gender Equality: Muslim Family Laws and Shariah,*** I.B. Tauris, New York, 2013.

Sadık, Rıdvan, ***Kuran İslam'ına Göre Kadın,*** Gece, Ankara, 2016.

Sarmış İbrahim***, Rivayet Kültürü ve Olumsuz Kadın Algısı,*** Düşün Yayınevi, İstanbul, 2013.

Selvi, Dilaver***, Delil ve Örnekleriyle Kadın ve Aile İlmihali,*** Semerkand, Ankara, 2016.

es-Suyuti, Abdurrahman b. Ebi Bekr Celaleddin (ö. 911/1505), ***el-Leali'lmasnu'a fi'l-ahadisi'l-mevzu'a*** (thk. Ebu Abdirrahman Salah b. Muhammed b. Uveyza), Daru'l-Kütübi'l-İlmiyye, 1. baskı, I-II, Beyrut, 1417/1996.

***Tahziru'l-havas min ekazibi'l-kussas*** (thk. Muhammed b. Lütfi es-Sabbağ), el-Mektebetü'l-İslami, 2. baskı, Beyrut, 1404/1984.

et-Taberani, Ebu'l-Kasım Süleyman b. Ahmed (ö. 360/971), ***el-Mu'cemü'levsat*** (thk. Tarık b. İvezullah, Abdülmuhsin b. İbrahim el-Hüseyni), Daru'l-Harameyn, I-X, Kahire.

***el-Mu'cemü'l-kebir*** (thk. Hamdi b. Abdülmecid es-Silefi), Mektebetü İbn Teymiyye, 2. baskı, I-XXV, Kahire.

et-Taberi, Ebu Ca'fer Muhammed b. Cerir (ö. 310/923), Tefsiru't-Taberi: ***Cami'u'l-beyan 'an te'vili ayi'l-Kur'an*** (thk. Abdullah b. Abdilmuhsin et-Türki), Daru Hecr, 1. baskı, I-XXV, Kahire, 1422/2001.

***Tarihü't-Taberi: Tarihü'r-rusul ve'l-müluk,*** Daru't-Türas,

2. baskı, I-XI, Beyrut, 1387.

et-Tahavi, Ebu Ca'fer Ahmed b. Muhammed b. Selame (ö. 321/933), ***Şerhu müşkili'l-asar*** (thk. Şuayb el-Arnaut), Müessesetü'r-Risale, 1. baskı, I-XVI, Beyrut, 1415/1994.

Taslaman, Caner, ***Bir Müslüman Evrimci Olabilir mi?,*** Destek Yayınları, İstanbul, 2017.

***Terörün ve Cihadın Retoriği,*** İstanbul Yayınevi, İstanbul, 2017.

et-Tirmizi, Ebu Isa Muhammed b. Isa b. Sevre b. Musa b. ed-Dahhak (ö. 279/892***), el-Cami'u's-sahih: Sünenü't-Tirmizi*** (thk. Ahmed Muhammed Şakir, Muhammed Fuad Abdülbaki, İbrahim Atve), Şeriketu
Mektebe ve Matbaatu Mustafa el-Babi el-Halebi, 2. baskı, I-V, Mısır, 1975/1395.

Tuksal, Hidayet Şefkatli, ***Kadın Karşıtı Söylemin İslam Geleneğindeki İzdüşümleri,*** Kitabiyat, Ankara, 2006.

Vakıdi, Ebu Abdillah Muhammed b. Ömer b., ***Vakıd el-Eslemi,*** el-Megazi, thk. Marsden Jones, l-lll, Beyrut, 1989.

Wadud, Amina, ***Quran and Woman,*** Oxford University Press, New York, 1999.

***Inside the Gender Jihad,*** Oneworld, Oxford, 2008.

Yar, Erkan, ***Ruh-Beden İlişkisi Açısından İnsanın Bütünlüğü Sorunu,*** Ankara Okulu Yayınları, Ankara, 2000.

Yaran, Rahmi, "Kefaret" Maddesi***, TDV İslam Ansiklopedisi,*** Cilt: 25, İSAM, İstanbul, 2002.

ez-Zehebi, Şemsüddin Muhammed b. Ahmed b. Osman (ö. 748/1348), ***Siyeru a'lami'n-nübela*** (thk. Şuayb el-Arnaut), Müessesetü'r-Risale, 3. baskı, I-XXV, Beyrut, 1405/1985.

***Tezkiretü'l-huffaz,*** Daru'l-Kütübi'l-İlmiyye, I-III, 1. baskı, Beyrut, 1419/1998.

ez-Zerkeşi, Bedrüddin (ö. 794/1392), ***el-İcabe li-iradi me'stedrekethu 'Aişe 'ale's-sahabe*** (thk. Said el-Afgani), el-

Mektebü’l-İslami, 2. baskı, Beyrut, 1390/1970.